# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YETMİŞ İKİNCİ KİTAB

## DEKABR 2015 - FEVRAL 2016

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2018**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirakı, Forumun rəsmi saytında «İlham Əliyev: Azərbaycan iqtisadiyyatının gələcəyi» mövzusunda dərc olunmuş geniş məqaləsi və «Yeni enerji tarazlığı» mövzusunda sessiyada iştirakına dair materiallar toplanmışdır.

Kitabda dövlət başçısının İsveçrəyə, Böyük Britaniyaya, Birləşmiş Ərəb Əmirliklərinə, Almaniya və İran İslam Respublikasına səfərləri zamanı, həmçinin ölkəmizə rəsmi səfərə gələn Əfqanıstan İslam Respublikasının Prezidenti ilə görüşlərinə, digər xarici dövlət və hökumət rəhbərləri, siyasi və mədəniyyət xadimləri, nümayəndə heyətləri ilə söhbətlərinə dair materiallar, nitq və çıxışları, nüfuzlu mətbuat orqanlarına və televiziya kanallarına verdiyi bəyanat və müsahibələri, müraciət və məktubları dərc edilmişdir.

Cilddə, həmçinin ölkə başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və əyləncə mərkəzlərinin, parkların, sənaye müəssisələrinin açılışında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxışları da geniş yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

$$Я\ \frac{0801000000}{М-651(07)-2018}$$

**ББК - 32**

© Azərnəşr, 2018

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2015-ci il*

*Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir.*

*Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.*

*İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.*

*Ulu öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı! Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki O, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.*

*«Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur». Bu sözləri deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdriklik və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də «Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan» – deyə onu Moskvaya dəvət etdilər. Amma burada O həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi. Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən doğma Vətəni Azərbaycana gəldi. Özü də tək gəldi. Amma milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Düzgün, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında xalqının xilaskarına çevrildi.*

*Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin «qızıl» dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi.*

*Dekabrın 12-də Azərbaycan prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak etdilər.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Voronej vilayətindəki internatda baş vermiş yanğın nəticəsində insanların həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2015-ci il*

## BERNDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*19 dekabr 2015-ci il*

*ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə dekabrın 19-da İsveçrə Konfederasiyasının Bern şəhərində keçirilən Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə iştirak etmək üçün Bern şəhərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan prezidenti Serj Sarkisyan arasında görüş keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlcə İsveçrə Federal Hökumətinin üzvü, Xarici İşlər Departamentinin rəhbəri Didye Burkhalterlə görüşdü.*

*Görüşdən sonra birgə foto çəkdirildi.*

*Daha sonra Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü oldu.*

*Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak etdilər.*

*Azərbaycan prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri dekabrın 19-da başa çatdı.*

# ƏZİZ ƏLİYEV ADINA AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA

Sizi – Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşlarını institutunuzun 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və xalqımızın sağlamlığının qorunmasına yönəlmiş nəcib fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu yarandığı vaxtdan bəri ötən müddət ərzində nailiyyətlərlə dolu zəngin və şərəfli bir yol keçmişdir. İnstitutun təşəkkülündə böyük xidmətləri olmuş görkəmli alimlərin fədakar əməyi və işıqlı xatirəsi bu yubiley günlərində ehtiramla yad edilir. Onların yaratdıqları ənənələr və formalaşdırdıqları tibbi mühit respublikada səhiyyənin inkişafına misilsiz töhfədir.

Azərbaycanda müntəzəm surətdə gerçəkləşdirilən sosial- yönümlü siyasət səhiyyə sisteminin müasirləşməsinə, onun maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsinə xidmət edir. Həkimlərin təkmilləşdirilməsi, ixtisaslarının artırılması və davamlı tibb təhsilinin təşkili sahəsində mötəbər mərkəz kimi tanınan institutunuz elmin və praktikanın ahəngdar vəhdətinə nail olmuşdur. İnstitut əməkdaşları həyata keçirdikləri tədqiqatlarla, beynəlxalq forumlarda səhiyyənin aktual problemlərinə dair çıxışları ilə Azərbaycan tibb elminin dünyaya inteqrasiyasına təkan verirlər.

Əmin olduğumu bildirirəm ki, səhiyyə sahəsində ölkəmiz qarşısında dayanan vəzifələrin layiqincə yerinə yetirilməsində siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2015-ci il*

**YAPONİYA İMPERATORU
ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə ən xoş arzularımı yetirərək, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Yaponiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 dekabr 2015-ci il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin dekabrın 22-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda prezident Məhəmməd Əşrəf Qaninin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qanini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Əfqanıstan Prezidentinə raport verdi.*

*Əfqanıstan İslam Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və Prezident Məhəmməd Əşrəf Qani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Əfqanıstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Məhəmməd Əşrəf Qaniyə, Əfqanıstanın nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*22 dekabr 2015-ci il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərin siyasi sahədə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğu vurğulandı. Əlaqələrimizin möhkəmləndirilməsi baxımından bu səfərin əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı ikitərəfli və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 dekabr 2015-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İlham Əliyev:** Əziz qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Çox şadıq ki, Siz bizim ölkəmizə rəsmi səfər edirsiniz. Biz Sizin ötən- ilki səfərinizi müzakirə etdik və xatırladıq. Lakin o çox qısa səfər idi, bu isə rəsmi səfərdir. Bu bizim əməkdaşlığımızın yaxşı əlamətidir. Biz ikitərəfli əməkdaşlığımızın müxtəlif aspektlərini qısaca olaraq müzakirə etdik. Biz artıq yaxşı imkanlar və yaxşı nailiyyətlər görürük. Bizim ölkələrimiz dost ölkələrdir. Bu dostluq tarixə və ölkələrimizin bugünkü birgə maraqlarına əsaslanır. Biz beynəlxalq təşkilatlarda çox fəal siyasi dialoq aparırıq, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında sıx əməkdaşlıq edirik. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə davamlı dəstəyə görə Sizin ölkənizə çox minnətdarıq. Siz bizi BMT Baş Assambleyasındakı səsvermədə dəstəklədiniz. Siz bizi Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizəd olanda dəstəklədiniz. Biz buna görə çox minnətdarıq. Biz də bütün təşəbbüslərdə, bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyirik. Biz belə mükəmməl siyasi əlaqələrə malik olaraq iqtisadi məsələlərə diqqəti cəmləşdirməliyik.

Biz dövriyyəni artırmaq və investisiya layihələri paketi üçün çox yaxşı imkanların mövcud olduğunu müzakirə etdik. Azərbaycanın həm dövlət, həm də özəl şirkətləri Sizin ölkənizə investisiya yatırmağa və əməkdaşlığımızın bu iqtisadi komponentini gücləndirməyə hazırdırlar. Bu gün biz, həmçinin kommuni-

kasiya ilə bağlı məsələləri, dəmir yolu əlaqələrini müzakirə etdik. Mən Sizə məlumat verdim ki, biz İpək yolunun çatışmayan hissəsini – Azərbaycan ilə Gürcüstan və Türkiyə arasında dəmir yolu əlaqəsini tamamlayırıq. Ümidvaram ki, gələn il Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını edəcəyik. Biz artıq Çindən ilk konteyner qatarlarını Azərbaycanda və Azərbaycan ərazisindən keçməsi üçün qəbul etmişik və marşrutu sınaqdan keçiririk. Əlbəttə ki, biz nəqliyyat sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsini istəyirik. Həmçinin enerji resursları sahəsində yaxşı imkanlar var. Beləliklə, biz bütün sahələrdə əməkdaşlığımızı genişləndirmək istəyirik. Müzakirə etdiyimiz kimi, Azərbaycan Qətiyyətli Dəstək Missiyasının üzvüdür və biz sizin ölkənizdə sülh və inkişafa töhfə verməyə çalışırıq. Mən Sizi və hökumətinizi Əfqanıstanın dəyişikliklərlə əlaqədar əldə olunan nailiyyətləri münasibətilə təbrik etmək istəyirəm.

Cənab Prezident, bir daha xoş gəlmisiniz!

**Məhəmməd Əşrəf Qani:** Cənab Prezident, ilk növbədə, icazə verin, Sizi doğum gününüz münasibətilə təbrik edim.

İkincisi, Əfqanıstan xalqı və hökuməti adından neft platformasında insanların həlak olması ilə nəticələnən dəhşətli hadisə ilə əlaqədar dərin hüznümü ifadə edirəm.

İcazə verin, Sizin ötən il NATO-nun Qətiyyətli Dəstək Missiyasında davamlı iştirakınıza görə dərin minnətdarlığımı bildirim. Sizin Çikaqo Konfransında dediyiniz kimi, Azərbaycan bu missiyaya əsaslı töhfə verib. Həmçinin NATO missiyası zamanı Sizin hava limanı və obyektlərinizdən istifadə etməyə şərait yaratmanız mühüm əhəmiyyət kəsb edirdi. Hazırda biz bu üfüqü çox sabit və antiterror əməkdaşlığına doğru genişləndiririk. Düşünürəm ki, qısamüddətli perspektivdə deyil, orta və uzunmüddətli perspektivdə məqsədlərimizə nail olacağıq. Hesab edirəm ki, Azərbaycanın bütün beynəlxalq təşkilatlarda bizə verdiyi dəstək və şəxsən üzərinizə götürdüyünüz öhdəlik təqdirəlayiqdir. Əlbəttə, biz Azərbaycanın ərazi bütövlüyünü tamamilə dəstəkləyirik. Məcburi köçkünlərin taleyi və Azərbaycanın ərazi bütövlüyü dövlətin qurucusu olan mərhum atanız üçün olduğu kimi, Sizin üçün də hər

şeydən önəmlidir. Azərbaycana böyük nümayəndə heyəti ilə gəlişimizin səbəbi ölkənizdəki dəyişikliyi bilavasitə müşahidə etmək istəyimizlə bağlıdır. Biz Sizi təbrik etmək istərdik.

* * *

*Geniş tərkibdə görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, həmçinin iqtisadi sahədə, o cümlədən nəqliyyat, infrastruktur, investisiya qoyuluşu, kənd təsərrüfatı, energetika, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*22 dekabr 2015-ci il*

*Geniş tərkibdə görüş başa çatdıqdan* sonra *dekabrın 22-də Azərbaycan* Respublikasının *Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf* Qaninin *iştirakı ilə Azərbaycan–Əfqanıstan sənədlərinin imzalanması mərasimi keçirilmişdir.*

*«Azərbaycan Respublikasının Əmək və Əhalinin* Sosial *Müdafiəsi* Nazirliyi *ilə Əfqanıstan İslam Respublikasının Əmək,* Sosial *İşlər, Şəhid və Əlillər* Nazirliyi *arasında əmək,* sosial *müdafiə və məşğulluq sahəsində əməkdaşlıq* haqqında *Anlaşma* Memorandumu»nu *Azərbaycanın Əmək və Əhalinin* Sosial *Müdafiəsi* naziri *Səlim Müslümov və Əfqanıstanın Xarici İşlər* naziri *Salahuddin Rabbani imzaladılar.*

*«Azərbaycan* Televiziya *və* Radio *Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti ilə Əfqanıstanın* Milli Radio *və* Televiziyası *arasında əməkdaşlığa* dair *Saziş»i «Azərbaycan* Televiziya *və* Radio *Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov, Əfqanıstanın* Milli Radio *və* Televiziyası *adından* Sultan *Əhməd* Bahin *imzaladılar.*

# ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*22 dekabr 2015-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Əvvəlcə, mənim dəvətimi qəbul edərək Azərbaycana səfərə gəldiyinə görə cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Bu səhər biz «Asiyanın Qəlbi» adlanan İstanbul Prosesinin VII nazirlər konfransının açılışını etdik. Fürsətdən istifadə edərək, Əfqanıstanın böyük sosial və iqtisadi nailiyyətlərinə görə cənab Prezidenti və ölkəsinin hökumətini təbrik etmək istərdim. Bizim cənab Prezidentlə çoxsaylı görüşlərimiz olub. İlk görüşümüzü xatırlayıram və o zaman cənab Prezidentin Əfqanıstanın inkişafı ilə bağlı gələcəyə baxışı məndə dərin təəssürat yaratdı. Şadam ki, onun planları həyata keçir. Əminəm ki, onun başladığı islahatlar, transformasiya və inkişaf yaxşı nəticələr verəcək. Bir dost və tərəfdaş ölkə kimi, Azərbaycan bu inkişaf yolunda Əfqanıstanla çiyin-çiyinə dayanmaqdan fəxr edir.

Ölkələrimiz arasındakı diplomatik münasibətlərin tarixinə nəzər salsaq, hazırda əməkdaşlığımız ən yüksək səviyyədədir. Biz yaxşı tərəfdaş və dostuq. Dediyim kimi, biz cənab Prezidentlə mütəmadi qaydada görüşürük və bu, prezident Əşrəf Qaninin Azərbaycana üçüncü səfəridir. Bunun özü bizim tərəfdaşlığımızın nə dərəcədə yüksək olmasının göstəricisidir.

Bizim gözəl siyasi əlaqələrimiz var. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normalarına uyğun həll edilməsi məsələsində Əfqanıstanın ədalətli mövqeyinə görə minnətdarıq. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyir. Biz Qətiyyətli Dəstək Missiyasının iştirakçısıyıq. Biz multimodal tranzit və hava məkanımızdan istifadəni təmin edirik. Qərar qəbul etmişik ki, Əfqanıstanda xidmət aparan hərbçilərimizin sayını artıraq və bununla da Əfqanıstanda sabitlik, sülh və inkişafa töhfə verək.

Tamamilə aydındır ki, sabitlik yalnız iqtisadi və sosial inkişaf yolu ilə təmin oluna bilər. Həmin səbəbdən müzakirə etdiyimiz mövzular arasında hər zaman iqtisadi xarakterli məsələlər var. Burada biz böyük potensial görürük. Bu gün biz ikitərəfli iqtisadi əməkdaşlığa dair çox vacib məsələləri müzakirə etdik. Müzakirə olunan məsələlər onu göstərir ki, gündəliyimiz olduqca genişdir. Bu gün imzalanan sazişlər də bizə imkan verəcək ki, məqsədlərimizə uğurla nail olaq. Biz iqtisadi əməkdaşlıq və islahatlarla bağlı bütün məsələlərin müzakirəsi üçün birgə işçi qrup yaradacağıq.

Biz fəxr edirik ki, Əfqanıstan «ASAN xidmət»in təcrübəsindən yararlanan dövlətlərdən olacaq. «ASAN xidmət» Azərbaycanda dövlət xidmətləri sahəsində həqiqətən, inqilab etdi. Əhali arasında bu qurumun bəyənilmə reytinqi 98 faiz, yəni, 100 faizə yaxındır və bu qurum doğrudan da dövlət xidmətləri sahəsində böyük dəyişikliklər etdi. Çox şadıq ki, biz bu xidmətləri əfqan qardaşlarımız üçün təmin edəcəyik. Azərbaycan müstəqillik dövründə bir sistemdən digərinə – planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçdi. Ölkəmiz xaos, dağıntı, tənəzzül və 1000 faizlik inflyasiyadan inkişaf, tərəqqi və firavanlığa, işsizliyin və yoxsulluğun aşağı səviyyədə olduğu bir vəziyyətə keçid etdi.

Hesab edirəm ki, bizim bu təcrübəmiz əfqan qardaşlarımız üçün maraqlı ola bilər. Praktiki əməkdaşlıq məsələləri sırasında biz bu gün qarşılıqlı ticarətin həcminin artırılması yollarını müzakirə etdik. Burada böyük potensial mövcuddur. Biz Azərbaycanın

dövlət və özəl sektora məxsus sərmayəsinin Əfqanıstana qoyuluşunu müzakirə etdik. Sənaye inkişafı və kənd təsərrüfatı, enerji, neft və qaz, mədən sənayesi sahələrində də böyük potensial var.

Əlbəttə ki, biz nəqliyyat şəbəkəsinə dair də müzakirələr apardıq. Azərbaycan və Əfqanıstan irimiqyaslı nəqliyyat layihələrinin iştirakçılarıdır. Bu gün konfrans zamanı hər ikimiz çıxışımızda Lapis-Lazuli nəqliyyat layihəsinə toxunduq. Bu, bütün iştirakçı dövlətlər üçün çox vacib layihədir. Eyni zamanda, Azərbaycan öz qonşu və tərəfdaş ölkələri ilə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini başa çatdırıb ki, bu, Asiyadan Avropaya və geriyə yeni yol açır. Bu yol mövcud olan digər marşrutlar arasında ən qısasıdır.

Beləliklə, nəqliyyat şəbəkəsinin yaradılması yalnız yeni imkanlar yaratmır, o həmçinin inkişafa da töhfə verir. Biz öz ölkəmizdə də bunun şahidi oluruq. Hətta kənd yollarını tikəndən sonra biz dərhal istehsalda artım, bazarlara asan çıxış və inkişafın canlanmasını müşahidə edirik. Bu səbəbdən ölkələrimizin Mərkəzi Asiya və Avropa dəmir yolları şəbəkələri ilə birləşdirilməsi həqiqətən də tarixi nailiyyətdir.

Azərbaycan şirkətləri Əfqanıstanda podratçı və investor qismində işləmək arzusundadırlar və buna hazırdırlar. Bizim müvafiq təcrübəmiz var və biz Əfqanıstandakı qardaşlarımıza faydalı olmaq istəyirik. Nəzərə alsaq ki, Prezident və onun həmkarları Əfqanıstanda nəhəng layihələr həyata keçirir və müəyyən planlar da mövcuddur, burada birgə biznes fəaliyyəti üçün böyük potensial var.

Biz bu gün kreditlər, müqavilələr, birgə müəssisələrlə də bağlı müzakirələr apardıq və artıq qeyd etdiyim kimi, iqtisadiyyat, nəqliyyat və enerji sahələrindəki gündəliyimiz olduqca genişdir. Beləliklə, biz razılığa gəldik ki, müvafiq dövlət qurumları bu məsələlərlə gündəlik qaydada məşğul olacaq, mütəmadi surətdə prezidentlərə hesabat verəcəklər. Ümid edirəm ki, bizim müdaxiləmizə ehtiyac yaranmayacaq, işlər vaxtında və lazımi qaydada aparılacaq.

Qarşıdan gələn dövrdə ölkələrimiz arasında iqtisadi sahədə daha da güclü əməkdaşlığın şahidi olacağıq. İqtisadi əməkdaşlığımız

siyasi əməkdaşlıqla eyni səviyyədə olmalıdır. Bu bizim məqsədimizdir. Cənab Prezident, bir daha Sizi salamlayır və bu gün bizimlə burada olduğunuz üçün Sizə təşəkkürümü bildirirəm.

## Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qaninin bəyanatı

Cənab Prezident!

Hörmətli nazirlər, azərbaycanlı dostlar!

Əvvəlcə, bizi qəbul etdiyinizə görə minnətdaram. Hər dəfə Bakıya gəldikdən sonra ümidlə qayıdıram. Bütün həmkarlarım da elə düşünürlər. Xatırlatmaq kifayətdir ki, rəhmətlik atanız və Siz hansı çətinliklərlə üzləşmişdiniz – müharibə, qaçqın və məcburi köçkünlər, səviyyəsi 40 faizi aşan yoxsulluq, həcmi 5 milyard manat olan ümumi daxili məhsul. Nailiyyətləriniz çox yaxşı misaldır, çünki uzun müddət əvvəl, məsələn 6–8 il əvvəl mövcud olanları öyrəndikdə görürük ki, onlar keçmişdə qalıb.

Əfqanlar buraya gəldikdən sonra öz ölkələrində dəyişiklik etmək inamı ilə qayıdırlar. Bunların əyani sübutu «ASAN xidmət»dir. Maliyyə naziri səfər etdikdən sonra bu təcrübə dərhal tətbiq olunmağa başlandı. Müvafiq qurum yaradıldı və o, Rabitə Nazirliyinin tabeliyinə verildi.

Cənab Prezident, Azərbaycan böyük məsuliyyət hissi olan qlobal iştirakçıdır. Mən Çikaqoda keçirilmiş NATO konfransındakı çıxışınızı xatırlayıram. Həmin vaxt Siz ilk dəfə olaraq «Şimal dəhlizi» və böyük sərmayələr proqramını qeyd etdiniz. Cənab Prezident, Sizin gördüyünüz işlər, sadəcə desək, NATO-nun missiyasını mümkün etdi.

Bakı əməliyyatları ən sürətlə icra edən məkan nüfuzunu qazandı. NATO komandanları və generalları ilə söhbət etdikdə, onlar bu marşrutun səmərəliliyini, etibarlılığını və tam şəffaflığını qeyd etdilər. Heç kəsin heç bir problemi olmadı. İndi isə həmin dəhliz müdrik rəhbərliyiniz və göstərişlərinizlə bir tərəfdən, Lapis-Lazuli yoluna, digər tərəfdən isə multimodal daşımalar sisteminə çevrilir. Onun sayəsində biz Avropaya, Sizin ölkəyə və əksinə çıxış əldə edirik. Bu, uzaqgörənliyin və müdrikliyin, rəhbərlik keyfiyyətlərinin,

olduqca böyük diqqətin bariz nümunəsidir. Siz bu keyfiyyətlərlə tanınırsınız və biz onların sayəsində nəticə qazanırıq.

Biz Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli, əsaslı mövqeyini daim tam dəstəkləyəcəyik. Dəstək verməyə hər zaman hazırıq. Biz hərbi qulluqçularınızın sayının artırılması ilə əlaqədar bu yaxınlarda Brüsseldə bəyan etdiyiniz qərarı çox yüksək qiymətləndiririk. Hərbçiləriniz mübarizdirlər, şərəflə xidmət edirlər. Bu bizim üçün böyük şərəfdir.

Cənab Prezident, qeyd etdiyiniz iqtisadi gündəlik olduqca genişdir, çoxşaxəlidir və böyük fayda gətirir. Orada olan məsələlərin hər birinin işlənib hazırlanmasından etibarən, söyləyə bilərəm ki, yaratdığımız çərçivə bizi daha da yaxınlaşdırır. O, Azərbaycan biznes dairələrini, dövlət şirkətlərini ölkəmizə gətirir. Əlbəttə, vaxt keçdikcə Azərbaycan və Əfqanıstan xalqları daha böyük harmoniyaya nail olacaqlar, dostluq, tərəfdaşlıq və qarşılıqlı fayda dəyərlərini artıracaqlar.

Yaradılmış işçi qrupu indicə imzalanmış sazişlər baxımından öz işini davam etdirəcək. Çox səmimiyyətlə arzulayırıq ki, Azərbaycanın özəl və dövlət sektoru ölkəmizə gəlsin. Maliyyə Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılmış dəyişikliklər təcrübəsi, sənaye inkişafı və xüsusən də yaradılmış Neft Fondu – əla misallardır. Çünki Əfqanıstandakı vəziyyət Azərbaycanın müharibədən sonrakı durumla üzləşdiyi çağırışlarla eynidir. Digərləri bunu görmür.

Cənab Prezident, Sizin rəhbərliyinizin xüsusiyyəti ondan ibarətdir ki, Siz bizim bugünkü yox, gələcək günümüzü görürsünüz. Azərbaycanın durumu inkişaf, fayda gətirən gələcək durum kimi götürülə bilər.

*Əfqanıstan prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlu təcrübələrin ölkəsində də tətbiq edilməsindən məmnunluğunu ifadə etdi. Əfqanıstanın dövlət başçısı Bakıda keçirilən «Asiyanın Qəlbi – İstanbul Prosesi» çərçivəsində «Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda*

*VII nazirlər konfransının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi:*

– Bu konfransa ev sahibliyi etdiyinizə görə dərindən minnətdaram. Tədbir nəticələrə və əlaqələrin qurulmasına yönəlib. İndi biz artıq nəzəriyyə haqqında deyil, regional şəbəkələri qurmaq, aydın reallığı təmin etmək üçün işlər haqqında danışırıq. Atacağınız hər bir addım konsolidasiyaya, dərin və hərtərəfli dostluğa, ortaq dəyərlərə və birgə iş aparmağa yönələcək.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ İSMAYIL QƏHRƏMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı noyabr ayında Türkiyədə keçirilən parlament seçkilərində qazanılan qələbə və Türkiyə Böyük Millət Məclisinin Sədri kimi mötəbər vəzifəyə seçilməsi münasibətilə İsmayıl Qəhrəmanı təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəmanın ilk xarici səfərini qardaş ölkəyə etməsindən məmnunluğunu bildirdi. Bu ayın əvvəlində Baş nazir Əhməd Davudoğlunun ölkəmizə səfərini xatırladan dövlətimizin başçısı bunun gözəl ənənə olduğunu vurğulayaraq, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçiləndən sonra ilk səfərini Azərbaycana və özünün 2013-cü ildə prezident seçiləndən sonra ilk xarici səfərini qardaş ölkəyə etməsini məmnunluqla xatırlatdı və bunu Azərbaycan–Türkiyə birliyinin yaxşı nümunəsi kimi dəyərləndirdi. Prezident İlham Əliyev bir daha qeyd etdi ki, dünyada Azərbaycan ilə Türkiyə kimi bir-birinə bağlı olan ölkələr tapmaq çox çətindir. Dövlətimizin başçısı Azərbaycanın 24 illik müstəqilliyi dövründə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin böyük sınaqlardan çıxdığını vurğuladı. Prezident İlham Əliyev bu gün ölkələrimizin bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurla əməkdaşlıq etdiklərini və bir-birinə verdikləri qarşılıqlı dəstək sayəsində daha da gücləndiklərini qeyd etdi. Azərbaycan–Türkiyə işbirliyinin və dostluğunun regionda mühüm amilə çevrildiyini bildi-*

*rən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləmələrinin önəmini də qeyd etdi. Prezident İlham Əliyev Türkiyənin G20-yə ev sahibliyi edən bir dövlət kimi, Azərbaycanı bu tədbirə dəvət etməsindən məmnunluğunu bildirdi və Azərbaycan ilə Türkiyənin bir-birinə ən yaxın müttəfiq ölkələr olduğunu dedi. Əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın mühüm yer tutduğunu vurğulayan prezident İlham Əliyev bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf etdiyini bildirdi. Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi dövrü xatırladan dövlətimizin başçısı ölkəmizin bu təşkilata üzv olduğu ilk vaxtlardan başlayaraq, nümayəndə heyətləri arasında sıx əməkdaşlığın qurulduğunu məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəmanın ölkəmizə səfərinin əməkdaşlığımızın gələcəkdə daha da genişləndirilməsi işində önəmli rol oynayacağına ümidvar olduğunu bildirdi.*

*Türkiyə ilə Azərbaycanın qardaş ölkələr olduğunu vurğulayan Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman «Bir millət – iki dövlət» fikrinin artıq hər iki xalqın şüurunda möhkəm yer tutduğunu dedi. O, Türkiyə rəhbərlərinin ilk xarici səfərlərini Azərbaycana etmələrini məmnunluqla vurğuladı. Azərbaycana əvvəlki səfərlərini xatırladan İsmayıl Qəhrəman ötən dövrdə Bakıda gedən böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Türkiyə Böyük Millət Məclisinin Sədri Azərbaycanın I Avropa oyunlarını mükəmməl şəkildə təşkil etdiyini də vurğuladı. Noyabrın 1-də hər iki qardaş ölkədə parlament seçkilərinin uğurla başa çatdığını deyən İsmayıl Qəhrəman əməkdaşlığın və həyata keçirilən müştərək layihələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminliyini söylədi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## 2015-ci İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNAN MƏRASİMDƏ İŞTİRAK

*Milli Olimpiya Komitəsi*

*23 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 23-də idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimində iştirak etmişlər.*

*Mərasim iştirakçıları prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı tədbirdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar, hər ilin sonunda biz idmançılarla görüş keçiririk, idmançıları mükafatlandırırıq, onlara yeni uğurlar arzulayırıq. Bu ənənə neçə ildir ki, davam edir. Hər il ilin yekunlarına nəzər yetirəndə görürük ki, bizim idman uğurlarımız ildən-ilə artır. Medalların sayı da artır. İdmançılar beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edirlər. Bu il beynəlxalq yarışlarda idmançılarımız 823 medal qazanmışlar. Onlardan 321-i qızıl medaldır. Qazanılmış medalların statistikasına baxsaq görərik ki, onların sayı ildən-ilə artır.

Bu onu göstərir ki, Azərbaycanda idman uğurla, dinamik şəkildə inkişaf edir. Gözəl gənc nəsil yetişir. Mən onu da xüsusilə qeyd etmək istəyirəm ki, bizim gənc idmançılarımız, uşaqlar, yeniyetmələr müxtəlif beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, Yeniyetmələrin Olimpiya oyunlarında ölkəmizi ləyaqətlə təmsil edirlər. Bu onu göstərir ki, Azərbaycanda idman

siyasəti düşünülmüş şəkildə aparılır. Yeni nəsil yetişir, görkəmli idmançılar idman karyerasını başa vurduqdan sonra onların böyük əksəriyyəti idmandan ayrılmır, öz fəaliyyətlərini məşqçi, mütəxəssis kimi davam etdirirlər. Bir sözlə, bu siyasət və əldə edilmiş nailiyyətlər imkan verəcək ki, gələcəkdə də Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq etsin.

İdmançılara dövlət tərəfindən qayğı yüksək səviyyədədir. Hər il görkəmli idmançılarımızın məişət problemləri həll olunur. 10 ildən çoxdur ki, hər il 20-dən çox idmançıya, idman mütəxəssisinə dövlət tərəfindən mənzillər verilir. Bu da dövlət siyasətinin təzahürüdür. Çünki ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edən, Dövlət bayrağımızı ucaldan idmançılar dövlət tərəfindən daim qayğı, diqqətlə əhatə olunmalıdırlar. Şadam ki, aparılan bu siyasət indi belə vəziyyətə gətirib çıxarıb ki, görkəmli idmançılarımızın hamısı gözəl mənzillərlə təmin olunublar. Bu proses bundan sonra da davam edəcək. Çünki dövlət idmanı inkişaf etdirmək istəyirsə, mütləq idmançılar üçün gözəl şərait yaratmalıdır. Mən 1997-ci ildə bu amalla Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə gəlmişəm və o gündən bu günə qədər bu siyasət davam etdirilir. Nəticələr də göz qabağındadır. Bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq idman qurumları, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, onların rəhbərləri Azərbaycanda idmanda əldə olunmuş uğurları qeyd edirlər. Bu, işimizə verilən böyük qiymətdir.

Bizim üçün əsas qiymət xalq tərəfindən verilən qiymətdir. Azərbaycan xalqı öz idmançılarını sevir, onların uğurlarına sevinir. Hər bir vətənpərvər Azərbaycan vətəndaşı qürur hissi keçirir ki, biz idmanda böyük nailiyyətlərə imza ata bilmişik. İdmanın inkişafı üçün uzun illər məqsədyönlü şəkildə kompleks tədbirlər görülür. Həm təlim-məşq prosesi yüksək səviyyədə təşkil edilir, həm də federasiyalar, klublar, idman cəmiyyətləri uğurla fəaliyyət göstərir. Milli Olimpiya Komitəsi, Gənclər və

İdman Nazirliyi vahid siyasət aparır. Ona görə də Azərbaycanda idman siyasəti ilə bağlı birmənalı mövqe nümayiş etdirilir.

İdman bazaları yaradılır. Şadam ki, indi klublar da, federasiyalar da idman bazalarını yaradırlar. Eyni zamanda, bölgələrdə 41 Olimpiya Mərkəzi yaradılmışdır, 10 mərkəzin tikintisi davam edir. Həmin layihələr başa çatandan sonra artıq Azərbaycanın hər bir rayonunda idmanla məşğul olmaq üçün çox gözəl şərait olacaq. Əslində bu şərait artıq mövcuddur. O ki qaldı Bakı şəhərinə, burada ən mötəbər beynəlxalq yarışların keçirilməsi üçün bütün imkanlar var. Avropa oyunları bunu bir daha təsdiqlədi. Bakıda yaradılmış və təmir edilmiş müasir idman infrastrukturu dünya səviyyəsindədir. Deyə bilərəm ki, biz dünyanın inkişaf etmiş ölkələrindən geri qalmırıq. Bizim idman qurğularımızın həm funksionallığı yüksəkdir, həm də onlar memarlıq abidəsidir. Biz bunu bilərəkdən belə yaratmışıq ki, idman qurğuları gözəl şəhərimizə əlavə yaraşıq versin. Müasir idman bazaları, idman infrastrukturu, düzgün siyasət, idmançılara qayğı və dövlət tərəfindən qəbul edilən qərarlar bu vəziyyəti yaradıb ki, bu gün Azərbaycan dünya miqyasında ən birinci sıralardadır.

Bu il Avropanın idman həyatında tarixi bir ildir. Çünki ilk dəfə olaraq Avropa oyunları keçirilmişdir. Burada da Azərbaycan dövləti öz gücünü göstərdi. Cəmi 2 il yarım ərzində Yay Olimpiya oyunları səviyyəsində keçirilən oyunlar təşkil edilmişdir. Bəlkə də heç kim, o cümlədən xarici tərəfdaşlarımız inanmırdılar ki, biz bu oyunları bu səviyyədə keçirəcəyik. Bütün Azərbaycan xalqı doğrudan da həmrəylik göstərmişdir. Bu, ümummilli bir məsələyə çevrilmişdi. Çünki dünyada ilk dəfə olaraq Avropa oyunlarının Bakıda keçirilməsi bizim üçün çox böyük məsuliyyət idi.

Biz son illər ərzində ölkəmizi dünya miqyasında kifayət qədər geniş şəkildə təqdim edə bilmişik. Müxtəlif tədbirlər, təqdimatlar, sərgilər, konsertlər keçirilmiş, Azərbaycanın zəngin mədəniyyəti, tarixi irsi, bugünkü reallıqları kifayət qədər geniş şəkildə təqdim olunmuşdur. Ancaq bu oyunlar bizə imkan verdi ki, gələn qonaqlar ölkəmizlə tanış olsunlar. 6000 idmançı, minlərlə məşqçi, qonaq, idman mütəxəssisi təxminən 3 həftə ərzində şəhərimizin

gözəlliyini görmüş, insanlarımızın qonaqpərvərliyini hiss etmiş və Azərbaycanın sürətli inkişafının şahidi olmuşlar. Ümumi rəy belə idi ki, oyunları bundan yüksək səviyyədə keçirmək mümkün deyil. Hətta bəzi idmançılar öz yarışlarını başa vurduqdan sonra ölkəmizdən getmək istəmirdilər. Olimpiya Kəndində qalmaq istəyirdilər. Çünki yaradılmış bu gözəl ab-hava onlara da çox xoş idi. Burada həm təşkilatçılıq, həm obyektlərin müasirliyi, yüksək səviyyəsi, eyni zamanda, Azərbaycan xalqının qonaqpərvərliyi xüsusi bir mühit yaratmışdı. Bu, unudulmaz günlər idi və Azərbaycan dünyaya nəyə qadir olduğunu göstərdi. Göstərdi ki, cəmi 24 illik müstəqillik dövründə biz böyük zirvələrə çata bilmişik.

Əlbəttə, idmançılarımızın uğurlu çıxışları bizi xüsusilə sevindirir. 50 olimpiya komandası arasında Azərbaycan idmançıları 2-ci yeri tutmuşlar. Əgər nəzərə alsaq ki, 1-ci yeri Rusiya komandası tutub, bu, təbii idi, başqa cür ola da bilməzdi. 56 medal qazanılıb, onlardan 21-i qızıl medaldır. Bu, Azərbaycan idmanının böyük zəfəri idi. İdmançıları – bütün bu qələbələrdə, bu medalların qazanılmasında iştirak etmiş insanları bir daha salamlayıram, onlara öz təşəkkürümü bildirmək istəyirəm.

Avropa oyunları tarixdə qaldı. Növbəti oyunlar harada keçiriləcək? Bu barədə hələ ki, qərar qəbul edilməyib. Amma məndə olan məlumata görə, bəzi ölkələr Bakıda keçirilmiş oyunlardan sonra bir az tərəddüd edirlər. Hətta həmkarlarım mənə deyirlər, biz qorxuruq ki, bu oyunları Bakıdakı səviyyədə təşkil edə bilməyək. Ona görə biz bir az ehtiyat edirik. Biz elə bir səviyyəni yaratdıq ki, bu səviyyəyə çatmaq doğrudan da çox çətindir. Bu oyunlar, sözün əsl mənasında, Yay Olimpiya oyunları səviyyəsində təşkil edilmişdir.

Gələn il isə Azərbaycanda digər mötəbər idman yarışı keçiriləcək – «Formula-1» yarışı. Bu da dünya miqyasında 3 ən əsas idman yarışı sırasındadır. Birinci yerdə, əlbəttə ki, Yay Olimpiya oyunlarıdır. İkinci yerdə futbol üzrə dünya çempionatıdır. Üçüncü yerdə «Formula-1» yarışıdır. Bu yarışın Azərbaycanda keçirilməsi, əlbəttə ki, tarixi hadisədir. Bu ya-

rışlar bizim bölgədə ilk dəfə olaraq keçiriləcək. Bizim şərtimiz ondan ibarət idi ki, bu yarışma mütləq şəhər küçələrində keçirilməlidir. Çünki birincisi, bu yarışın təşkili üçün yeni stadionun tikintisinə biz gərək böyük vəsait xərcləyəydik. Buna lüzum yoxdur. Digər tərəfdən, xüsusi tikilmiş yerlərdə keçirilən yarışlar bir-birini təkrarlayır, bir-birinə oxşayır. Televiziyada bu yarışları seyr edərkən heç bilmirsən ki, bu yarış harada keçirilir. Bizim üstünlüyümüz ondan ibarət olacaq ki, bu, gözəl, qədim və müasir şəhərimizin küçələrində keçiriləcək. Bu günə qədər cəmi 2 yerdə – Monakoda və Sinqapurda bu yarışlar şəhər küçələrində keçirilib. Əminəm ki, biz bu gözəl yarışı da ən yüksək səviyyədə keçirəcəyik. İndi hazırlıq işləri gedir. Ümumdünya Şahmat Olimpiadası Bakıda keçiriləcək. Bu da dünya miqyaslı bir yarışdır və şahmatçılarımız da bizi sevindirirlər.

Ümumiyyətlə, Azərbaycanda idmanın hər bir növü inkişaf edir. Ənənəvi idman növləri və bizim üçün yeni olan idman növləri inkişaf etməkdədir. 2017-ci ildə isə İslam Həmrəyliyi oyunları keçiriləcək. Müvafiq göstərişlər verilib, Təşkilat Komitəsi yaradılıb. Sentyabr ayında Təşkilat Komitəsinin birinci toplantısı keçirilmişdir. Əminəm ki, bu oyunlar da ən yüksək səviyyədə keçiriləcək.

Budur bizim nailiyyətlərimiz. Həm idmançılar beynəlxalq yarışlarda bizi sevindirirlər, həm də ən müasir idman infrastrukturu yaradılıb və dünyanın ən mötəbər idman yarışları Azərbaycanda keçirilir. 10 il, 20 il bundan əvvəl bunu təsəvvür etmək mümkün deyildi. Əgər bu barədə kimsə nə isə desəydi, onu heç kim ciddi qəbul etməzdi. Ancaq bu gün bu reallıqdır. Bu reallıqları biz yaradırıq. Azərbaycan dövləti və Azərbaycan xalqı yaradır ki, idman daha da sürətlə inkişaf etsin.

İdmanın inkişafı hər bir ölkənin ümumi inkişafını göstərir. Əgər beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında medal qazanan idmançıların vətəndaşlığına nəzər salsanız görərsiniz ki, inkişaf etmiş ölkələrin idmançıları daha çox medal qazanırlar. Biz də inkişaf etmiş ölkə olmaq istəyirik, bu yolla gedirik və əminəm ki, biz buna da nail olacağıq.

Deyə bilərəm ki, 2015-ci ilin digər yekunları da müsbət olmuşdur. Baxmayaraq ki, bölgədə və dünyada iqtisadi böhran davam edir, Azərbaycan iqtisadiyyatı inkişaf etmişdir. 2015-ci ildə iqtisadi inkişafa nail olmaq, əlbəttə ki, böyük məsələdir. Çünki 2015-ci ildə həm siyasi böhran, bölgədə yaşanan hərbi böhran, maliyyə böhranı dərinləşmişdir. Azərbaycan iqtisadiyyatı 2015-ci ildə inkişaf etmişdir. Çalışırdıq ki, biz iqtisadi dayanıqlığı maksimum dərəcədə təmin edək. Ancaq bildiyiniz kimi, neftin qiyməti 1 il ərzində 3 dəfə aşağı düşüb. Bizim gəlirlərimiz kəskin şəkildə azalıb. Büdcə gəlirləri azalıb, təbii ki, büdcə xərcləri də azalıb. Ona görə biz 2015-ci ildə büdcə xərclərinə böyük qənaət etdik. Əfsuslar olsun ki, dünyada gedən proseslər gələn il də nikbinlik üçün əsas vermir. Ona görə bu böhranın davam edəcəyi istisna olunmur.

Neft gəlirlərimizin aşağı düşməsi təbii ki, milli valyutamıza da mənfi təsir edib. Manatın məzənnəsinin dəyişdirilməsinin əsas səbəbi neft qiymətinin 3 dəfə aşağı düşməsidir. Manatın məzənnəsinin dəyişdirilməsi qaçılmaz idi. İl ərzində çalışırdıq ki, bunun qarşısını maksimum dərəcədə alaq. Gözləyirdik ki, neftin qiymətləri sabitləşsin. 50 dollar səviyyəsində sabitləşəndə artıq biz bir qədər rahatlandıq ki, devalvasiyaya ehtiyac qalmayacaq. Ancaq hazırda neftin qiyməti 36 dollara düşübdür. Amerika Birləşmiş Ştatlarında dollarla bağlı qəbul edilmiş son qərar da neftin qiymətinin düşməsinə xidmət edir. Burada digər geosiyasi amillər var. Mən şəxsən hesab edirəm ki, neftin qiymətinin kəskin şəkildə düşməsinin təbii-iqtisadi əsasları yoxdur. Düzdür, dünya iqtisadiyyatı bir qədər tənəzzülə uğrayıb. Templər bir qədər aşağı düşüb. Amma bu dərəcədə yox ki, neftin qiyməti birdən-birə il ərzində 3 dəfə düşsün. Mən şəxsən hesab edirəm ki, bu, düşünülmüş siyasətdir. Bu siyasətin məqsədi də heç kim üçün sirr deyil. Sadəcə olaraq, Azərbaycan bu vəziyyətdən əziyyət çəkir.

Buna baxmayaraq, biz çalışacağıq ki, bu vəziyyətin fəsadlarını minimum səviyyəyə endirək. Neftin qiymətinin ucuzlaşması və əsas ticarət tərəfdaşlarımızın milli valyutalarının kəskin şəkildə ucuzlaşması və digər amillər bu qərarın qəbulunu qaçılmaz etdi.

İndiki vəziyyətdə hökumət qarşısında əsas vəzifə qoyulmuşdur ki, makroiqtisadi sabitlik təmin edilsin, inflyasiya normal səviyyədə olsun. Bu ilin yekunlarına görə inflyasiya 4 faizdən azdır. Gələn il də biz çalışmalıyıq ki, bunu ən aşağı səviyyədə saxlayaq. Son illərdə biz yerli istehsala böyük əhəmiyyət vermişik, həm dövlət, həm özəl sektora vəsait ayırmışıq. Ərzaq məhsullarının böyük əksəriyyəti Azərbaycanda istehsal olunur. Buna görə də Azərbaycanda istehsal olunan ərzaq məhsullarının qiymətləri sabit qalmalıdır. Tikinti materialları da həmçinin.

Son illər ərzində biz güclü tikinti sənayesi yaratmışıq və özümüzü əsas tikinti materialları ilə təmin edirik. Tikinti sektorunda da heç bir bahalaşmaya yol vermək olmaz. Azərbaycan özünü yanacaqla təmin edir. Bizdə yanacağın qiyməti dünya qiymətindən 3 dəfə aşağıdır. Əgər benzinin, dizel yanacağının qiymətinə baxsanız görərsiniz ki, Qərb ölkələrindən 3 dəfə aşağıdır. Ona görə bu sahədə də heç bir bahalaşmadan söhbət gedə bilməz. Şəhər nəqliyyatı tarifləri – metro, avtobus tarifləri bizdə çox aşağı səviyyədədir.

Maksimum dərəcədə çalışacağıq ki, bu qaçılmaz qərarın mənfi təsirlərini azaldaq, ilk növbədə, islahatların dərinləşməsi hesabına. İnzibati tədbirlər görülür və görüləcək. Süni bahalaşmaya yol verənlərə qarşı çox ciddi tədbirlər görüləcək, cəza tədbirləri tətbiq ediləcək ki, heç kim bu vəziyyətdən sui-istifadə etməsin, möhtəkirliklə məşğul olmasın. Əgər belə faktlar olarsa, çox ciddi tədbirlər görüləcək və bu vəziyyətdən sui-istifadə etmək istəyənlər peşman olacaqlar.

Əlbəttə, iqtisadi amillər, islahatlarla bağlı amillər də mühüm rol oynayacaq. Artıq mənim tərəfimdən müvafiq sərəncamlar imzalanmışdır ki, biz biznes mühitini daha da yaxşılaşdıraq, lazımsız yoxlamaları aradan götürək. Lisenziyalarla bağlı çox ciddi qərarlar qəbul edilib. Ümumiyyətlə, iqtisadi və maliyyə sektorunun şəffaflaşması prosesi gedir, getməlidir və burada bütün xoşagəlməz hallara qarşı daha da ciddi mübarizə aparılacaqdır. Rüşvətxorluq, korrupsiya, inhisarçılıq, qanunsuz fəaliyyət – bütün bunlara qarşı daha da ciddi mübarizə aparılacaqdır. Biz bundan sonra iqtisadi liberallaşma siyasətini daha da ciddi şəkildə aparmalıyıq. Xüsusilə,

inhisarçılığa qarşı mübarizə daha da ciddi olacaq. Həm idxalda, həm yerli istehsalda inhisarçılığa yol verilməməlidir. Heç kimin burada xüsusi imtiyazı yoxdur, ola da bilməz. Kim dövlət büdcəsinə daxilolmaların qarşısını alacaqsa, cəzalandırılacaq. Ona görə gömrük, vergi sistemində maksimum şəffaflıq təmin edilməlidir və ediləcək. Mən bu məsələlərlə bağlı bir neçə dəfə Nazirlər Kabinetinin toplantısında çıxış etmişəm. Çıxışlarımda bildirmişəm ki, Azərbaycanda maliyyə və iqtisadi sektor tam şəffaf olmalıdır.

Uğurlarımız da göz qabağındadır. Baxın, Dövlət Neft Fondu artıq 15 ildən çoxdur ki, fəaliyyət göstərir. Dünyanın ən şəffaf, ən səmərəli işləyən suveren fondlarından biridir. Gəlirlər bəllidir, xərclər bəllidir, beynəlxalq audit keçirilir. Azərbaycan xalqı da, bütün dünya da bunu bilir. Dünyanın mötəbər maliyyə qurumları Neft Fondunun fəaliyyətini yüksək qiymətləndirir. 2 il bundan əvvəl «ASAN xidmət» yaradıldı, 7 milyon insan «ASAN xidmət»in imkanlarından istifadə etdi. İndi Azərbaycan vətəndaşları fərqi görürlər, orada bütün işlər şəffaf təşkil edilir, heç bir korrupsiyaya, rüşvətxorluğa yol verilmir, mədəni xidmət göstərilir. Ona görə biz bu sahəni inkişaf etdiririk. İndi bölgələrdə 2 yeni mərkəz yaradılır. Onların sayı 10-dan çox olacaqdır. 10 səyyar avtobus fəaliyyət göstərir. Yəni bunu etmək mümkündür. Sadəcə olaraq, işlər düzgün təşkil edilməlidir. Önəmli qurumların başında dayanan insanlar vicdanla işləməlidirlər, öz cibini doldurmaq üçün yox, dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar və ciddi nəzarət olmalıdır – dövlət nəzarəti və ictimai nəzarət.

Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istədiyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha da fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq. Əgər buna nail olsaq, onda neftin qiyməti bizim üçün heç bir əhəmiyyət kəsb etməyəcək.

Mən bir dəfə demişəm, biz elə iqtisadi sistem və idarəetmə sistemi yaratmalıyıq ki, neftin qiymətindən asılı olmayaq. Əgər biz asılı olsaq, hər zaman, bax, bu xoşagəlməz vəziyyətlə üzləşə bilərik. Hansısa siyasi maraqlar üzündən neftin qiyməti düşür, qalxır,

Azərbaycan isə əziyyət çəkir. Nə üçün? Biz güclü iqtisadiyyat qururuq. Bu gün iqtisadi sahədə apardığımız siyasət doğrudan da dünya miqyasında təqdirlə qarşılanır. Bütün aparıcı beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Avropa Bankı, Beynəlxalq Valyuta Fondu bunu qeyd edir və iqtisadi sahədə apardığımız siyasəti dəstəkləyir.

İndi manatın məzənnəsinin dəyişdirilməsi ilə bağlı mötəbər beynəlxalq maliyyə qurumlarından belə reaksiya gəlir ki, Azərbaycan hökuməti bunu çoxdan etməli idi. Biz də bununla razıyıq. Çoxdan etməli idik, amma etmək istəmirdik. Etmək istəmirdik, çünki bilirdik ki, bunun mənfi fəsadları olacaq. Maksimum çalışırdıq ki, bunu etməyək. Bir daha demək istəyirəm ki, əgər neftin qiyməti 50 dollar səviyyəsində qalsaydı, sabitləşsəydi, biz bunu etməyəcəkdik. Ancaq biz real dünyada yaşayırıq. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır və dünyada, bölgədə yaşanan hadisələr, böhranlar bizə də təsir edir. İndi baxın, yaşadığımız bölgədə qanlı toqquşmalar, müharibələr, iqtisadi böhranlar, maliyyə böhranları, ölkələr arasındakı gərginliyin artması – bütün bunlar bizim qonşuluğumuzda baş verir. İstər-istəməz bizim siyasətimizə də, iqtisadi inkişafımıza da təsir edir. Bölgədə proseslərin hamısı mənfi istiqamətdə gedir. 2015-ci ildə bizim bölgəmizdə bir dənə də olsun müsbət istiqamətdə gedən proses olmamışdır. Belə vəziyyətdə biz ölkəmizi qabağa aparırıq, Azərbaycan xalqının təhlükəsizliyini təmin edirik, Azərbaycana mümkün olan riskləri azaldırıq, o cümlədən geosiyasi, hərbi riskləri azaldırıq ki, Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində, rifah içində yaşasın. Əsas vəzifəmiz bundan ibarətdir.

Əlbəttə, 2016-cı ildə dünyada nələr baş verəcəyini proqnozlaşdırmaq çətindir. Əsas vəzifəmiz ondan ibarətdir ki, Azərbaycanda siyasi və iqtisadi proseslər müsbət istiqamətdə getsin. Azərbaycan bölgənin sabit ölkəsi kimi, öz yolu ilə getsin, bizim qarşımızda duran iqtisadi məsələlər öz həllini tapsın. Mən buna şübhə etmirəm. Mən ümid edirəm ki, neftin qiyməti bu cür aşağı səviyyədə çox qala bilməz, qalxacaq və qalxdıqca manatın məzənnəsi də qalxmalıdır. Ancaq bir daha demək istəyirəm ki, biz bu amili kənara qoymalıyıq.

İqtisadi liberallaşma, azad, sağlam rəqabət, xoşagəlməz halların aradan götürülməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı daha da ciddi mübarizənin aparılması, iqtisadi islahatlar – bax, budur bizim yolumuz. Biz bu yolla gedirik, amma daha da sürətlə getməliyik və gedəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan öz yolu ilə gedəcək.

Bu böhranlı illərdə Azərbaycan ən dinamik inkişaf templərini göstərmişdir. Ən sabit ölkə Azərbaycandır. İqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə də Azərbaycandır. Biz öz yolumuzla gedəcəyik. Çalışacağıq ki, 2016-cı ildə ölkə qarşısında duran əsas vəzifələr icra edilsin, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşasın və yaşayacaqdır. Aparacağımız islahatlar sayəsində biz daha da yaxşı nəticələr əldə edəcəyik.

Əlbəttə, idmançılara 2016-cı ildə uğurlar arzulayıram. 2016-cı ildə Yay Olimpiya oyunları keçiriləcək. Artıq 30-a yaxın lisenziya da qazanmışıq. Əminəm ki, idmançılarımız bizi sevindirəcək, Azərbaycan bayrağını həmişə uca tutacaqlar. Sağ olun.

* * *

*Sonra 2015-ci ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.*

*Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Oqtay Abdullayevə, Nizami Babayevə, Balahəsən Eynullayevə, Tofiq Əliyevə, Faiq Həsənova, Oqtay Məmmədova «Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi» fəxri adlarının döş nişanlarını təqdim etdi.*

*Respublikamızda idmanın inkişafında xidmətlərinə görə Kamal Kebirlinskiyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənəd təqdim olundu.*

*Azərbaycanda qeyri-olimpiya idman növlərinin inkişafında xüsusi xidmətlərinə görə Nizami Məmmədov, İlkin Səfərov, Eldar Məmmədov, Qadir Babayev Milli Olimpiya Komitəsinin prezidentinin fəxri fərmanları ilə təltif edildilər.*

*Prezident İlham Əliyev 2015-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançı və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya və prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi, dövlətimizin başçısına fəaliyyətində uğurlar arzuladı.*

# GÖZDƏN ƏLİLLƏR ÜÇÜN YENİ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə dekabrın 24-də paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunan yaşayış binasının açılışı mərasimi keçirilmişdir.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Binanın tikintisinə 2011-ci ilin dekabrında başlanılıb və artıq bina istismara hazırdır. Binada gözdən əlillər üçün xüsusi layihə əsasında məişət şəraiti yaradılıb. Onların əl və ayaqla hiss etmələrinin asanlaşdırılması üçün müvafiq yerlərdə xüsusi tikinti materiallarından və işarələrdən istifadə olunub.*

*Dövlətimizin başçısı yeni binanın sakinləri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Salam, sabahınız xeyir! Sizi ürəkdən salamlayıram. Bu gün sizin həyatınızda çox əlamətdar bir gündür. Siz yeni mənzillərə köçürsünüz. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində dövlət tərəfindən sizə belə gözəl hədiyyə verilir. Gözəl binadır.

**S a k i n l ə r**: Çox sağ olun, biz də Sizi təbrik edirik. Bu çox gözəl bir gündə bizə hədiyyə oldu.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, çox gözəl bina tikilibdir, 132 mənzildən ibarət binadır. Mənzillərin hamısı təmir olunub, bütün lazımi şərait yaradılıb ki, siz burada rahat yaşayasınız. Bu, gözdən əlillər üçün tikilmiş xüsusi bir binadır. Sizdən başqa burada heç kim yaşamayacaq. Bu bir daha ölkəmizdə aparılan güclü sosial siyasətin əlamətidir. Çünki dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir. Bilirsiniz ki, son illər ərzində müharibə əlilləri, şəhid ailələri üçün minlərlə ev tikilib. 5200 şəhid ailəsi və

müharibə əlili dövlət tərəfindən evlə təmin edilib. Eyni zamanda, onlara 5 mindən artıq minik avtomobili verilmişdir.

Deyə bilərəm ki, Azərbaycanda nümayiş etdirilən bu yanaşma heç bir başqa ölkədə yoxdur. Bu bir daha bizim sosial siyasətimizi əks etdirir, eyni zamanda, onu göstərir ki, xalq üçün, dövlət üçün böyük xidmətlər göstərmiş insanlara, fiziki qüsurlu insanlara dövlət tərəfindən daim diqqət göstərilir və göstəriləcəkdir.

Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün əlillər cəmiyyətdə fəal rol oynasınlar. Yəni onlar cəmiyyətdən təcrid edilmiş vəziyyətə düşməsinlər. Onlar işlə təmin olunsunlar, onlar üçün yaxşı şərait yaradılsın, bax, belə gözəl binalar tikilsin. Cəmiyyətdə də onlara daim hörmət, diqqət göstərilsin. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Ancaq, əlbəttə ki, bütün cəmiyyət də bu təşəbbüsə qoşulmalıdır. Deyə bilərəm ki, son illər ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ciddi islahatlar aparılır. Bu islahatların bir məqsədi var ki, ehtiyacı olan insanların problemləri həll edilsin, ədalət tam şəkildə təmin olunsun. Yəqin siz də bilirsiniz, əlil olan insan əvvəlki illərdə arayış, əlillik dərəcəsini almaq üçün bəzi hallarda gərək hər il gəlib sübut edəydi ki, o əlildir. İndi aparılan islahatlar artıq bu vəziyyəti köklü şəkildə dəyişir. Bununla bərabər, əlil olmayan insanlar bəzi hallarda əlillik dərəcəsini almaq üçün müxtəlif işlərlə məşğul idilər. Bu, əlbəttə ki, dözülməz bir haldır. Vətəndaşlar özləri məsuliyyətli olmalıdırlar. Burada dövlət məmurları da çox nalayiq işlərlə məşğul idilər. Ona görə bu sahədə ciddi nəzarət olmalıdır, qayda-qanun yaradılmalıdır və ictimai nəzarət də mütləq burada öz rolunu oynamalıdır. Dövlət öz tərəfindən üzərinə düşən bütün vəzifələri icra edir və edəcək. Ehtiyac içində yaşayan, ünvanlı sosial yardıma möhtac olan insanlar, onların problemləri daim diqqət mərkəzindədir. Bugünkü mərasim onu göstərir ki, biz düzgün yoldayıq.

Bu yaxınlarda Prezidentin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə şəhid ailələri, müharibə əlilləri üçün tikintisi nəzərdə tutulan evin inşasına görə 10 milyon manat əlavə vəsait ayrılıbdır. Nazirlər Kabineti də yaxın vaxtlarda ən azı bu qədər vəsait ayıracaq ki, bu işlər dayanmasın. Düzdür, indi bizim

iqtisadi vəziyyətimiz əvvəlki illərdəki kimi deyil. Təbii ki, neftin qiymətinin 3 dəfə aşağı düşməsi bizim gəlirlərimizə təsir edibdir. Büdcə xərcləri, büdcə gəlirləri azalıbdır. Bu, təbii vəziyyətdir. Çünki dünyada gedən proseslər artıq bizə də təsir etməyə başladı və neftlə zəngin olan ölkələrin, demək olar ki, əksəriyyəti eyni vəziyyətlə üzləşibdir. Ancaq bununla bərabər, Azərbaycanda iqtisadi sabitlik, iqtisadi inkişaf təmin edilir, sosial məsələlər öz həllini tapır. 2015-ci ildə bir dənə də olsun sosial layihə icrasız qalmayıbdır. Baxmayaraq ki, neftin qiyməti çox aşağı səviyyədədir, gələn il bütün sosial proqramlar icra ediləcək. Bizim vətəndaşlar əmin ola bilərlər ki, sosial sahədə bir dənə də olsun ixtisar olmayacaqdır. Sadəcə olaraq, dövlət qurumları daha da səmərəli işləməlidir, maliyyə-iqtisadi sahədə şəffaflıq tam şəkildə təmin edilməlidir. Belə olan halda, Azərbaycan 2016-cı ildə də yaxşı nəticələr göstərəcək. Bir daha demək istəyirəm ki, gələn il və bundan sonrakı illərdə siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanacaq. Xüsusilə o vətəndaşlar ki, onların dövlət qayğısına böyük ehtiyacı var.

Mən sizi bu gözəl hadisə, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. İstəyirəm ki, siz bu gözəl evdə rahat yaşayasınız.

**S a k i n l ə r:** Allah razı olsun, çox sağ olun. Allah Sizi dövlətimizin, bizim başımızın üstündən əskik etməsin.

**T o f i q B a l a y e v** *(sakin):* Biz də Sizi ad gününüz münasibətilə burada ev alan əlillərin adından, bütün gözdən əlillərin adından təbrik edirik. Sizin yüksək diqqət və qayğınız nəticəsində bizim üçün 132 mənzilli bina tikilib və biz gözdən əlillər mənzillərlə təmin olunuruq. Yəni ailə vəziyyətimiz, ailə şəraitimiz yaxşılaşır. Bununla bağlı biz Sizə, bu işdə kömək olan, bizə dəstək olan hər kəsə öz minnətdarlığımızı bildiririk. Təqaüd, işlə təminat məsələlərinə toxundunuz. İnşallah, gələcəkdə Sizin dəstəyinizlə bunların hamısı öz həllini tapar. Sizi bir daha təbrik edirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun, gəlin mən sizə orderləri təqdim edim.

* * *

*Dövlətimizin başçısı mənzillərin orderlərini sakinlərə təqdim etdi. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular. Binadakı 132 mənzildən 22-si üç, 44-ü iki, 66-sı isə birotaqlıdır. Burada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılıb.*

*Qeyd edək ki, son illərdə Azərbaycanın iqtisadi həyatında mühüm nailiyyətlərin əldə edilməsi ilə yanaşı, əhalinin sosial müdafiəsinin daha da möhkəmləndirilməsi istiqamətində vacib tədbirlər həyata keçirilir. Ölkəmizin davamlı tərəqqisi sosial müdafiəyə daha çox ehtiyacı olan təbəqənin zəruri tələbatlarını ödəmək üçün yeni imkanlar yaradır. Bu baxımdan əlil insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan Prezidentinin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.*

*Nərimanov rayonunda gözdən əlillər üçün yeni binanın istifadəyə verilməsi də bu kateqoriyadan olan insanlara dövlət başçımızın göstərdiyi qayğının bariz nümunəsidir. Hazırda gözdən əlillərin ictimai həyatın bütün sahələrində iştirakına lazımi şəraitin yaradılması üçün davamlı işlər görülür. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihə çərçivəsində ölkənin 3 bölgəsində fəaliyyətə başlayan Regional İnformasiya mərkəzləri gözdən əlil şəxslərin və görmə qabiliyyəti zəif insanların informasiya-kommunikasiya texnologiyalarından istifadəsinə geniş imkanlar yaradıb. Gözdən əlillərin peşə reabilitasiyası və məşğulluq imkanlarının dəstəklənməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təkcə 2014–2015-ci illərdə 100-ə yaxın belə şəxs brayl sistemi üzrə peşə hazırlığına cəlb olunub. Eyni zamanda, hazırda Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində gözdən əlillər üçün Tədris-Bərpa Mərkəzinin binası inşa olunur. Burada həm peşə tədrisinin, həm də tibbi xidmətin təşkili üçün müvafiq şərait yaradılacaq.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Nərimanov rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi və 8 saylı Tibbi-Sosial Ekspert Komissiyasının yeni inzibati binasının açılışında iştirak etdilər.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin sağlamlıq imkanları məhdud insanlara gös-*

*tərdikləri qayğını və onlarla keçirilən görüşləri əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Onu da deyək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Tibbi-Sosial Ekspert komissiyalarında əhaliyə xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı mühüm işlər aparılır. Artıq nazirliyin bütün ekspert komissiyaları müasir iş şəraiti və tibbi avadanlıqla, müayinə cihazları ilə təmin olunubdur. Burada da komissiyanın normal fəaliyyət göstərməsi üçün hər cür şərait var. Bina ekspertiza cihazları, məişət avadanlığı ilə tam təmin olunub. Yeni binada yaradılan şərait əlillik müayinələrinin aparılmasına, eləcə də müayinələrin nəticələrinə dair məlumatların aidiyyəti qurumlar arasında elektron şəkildə mübadiləsinə xidmət edir. Bu isə əlillik təyinatı prosesində şəffaflığın təmin olunmasına, məmur–vətəndaş ünsiyyətinin minimuma endirilməsinə imkan yaradacaq.*

*Nərimanov rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi də müasir texniki avadanlıqlarla təchiz olunub. Mərkəzdə vətəndaşların müraciətlərinə baxılması üçün zəruri şərait var. Bu da müraciətlərə baxılmasında şəffaf iş rejiminin təmin olunmasına xidmət edir.*

*Prezident İlham Əliyevə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi – VEMTAS üzrə görülən işlərlə bağlı məlumat verildi. Yeni sistem vətəndaşlara ünvanlı dövlət sosial yardımı üzrə sürətli, rahat və şəffaf xidmətlərə geniş çıxış imkanı yaradacaq. Ünvanlı sosial yardımların təyinatı prosesində məmur–vətəndaş təmaslarının minimuma endirilməsi üçün bu sahənin tam avtomatlaşdırılması islahat tədbirlərinin əsasını təşkil edib. Bununla əlaqədar müraciətlərin elektron qaydada qəbulunu və yardımların avtomatik şəraitdə təyinatını nəzərdə tutan sistem formalaşdırılıb. Belə ki, vətəndaşların infoköşklərdən etdikləri elektron müraciətlər VEMTAS vasitəsilə qəbul ediləcək. Bu müraciətlər əsasında vətəndaşların ünvanlı dövlət sosial yardımı almaq hüququna baxılması üçün lazımi arayış və*

*məlumatlar artıq* onlardan *yox, müvafiq dövlət* qurumlarından elektron formada *əldə* olunacaq. *Sonra əhalinin* sosial *müdafiəsi mərkəzləri həmin ailələrin* maddi-*məişət şəraitinin* müayi*nəsini* aparacaq *və nəticələrin* VEMTAS-a *ötürülməsini təmin edəcək. Məhz* bundan sonra *müraciət edən ailəyə yardımın tə*yin *olunması ilə bağlı qərar qəbul ediləcək.*

*Dövlətimizin başçısına məlumat* verildi ki, Respublika *Gözdən Əlillər Cəmiyyəti də* bu binada *fəaliyyət göstərəcək. Zirzəmi* hiss*əsi Cəmiyyətin* istehsalat *sahəsi üçün nəzərdə* tutulub. *Binanın aşağı mərtəbələrində isə gözdən əlillərin asudə* vaxtlarda *mənalı* istira*həti, habelə* onlarla *bağlı* ictimai-*mədəni tədbirlərin keçirilməsi üçün* lazımi *şərait yaradılıb, ətrafda abadlıq işləri aparılıb.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr–Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi, beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına – I Avropa oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq

ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2015-ci il*

## XƏZƏR RAYONUNDA BİR NEÇƏ YARIMSTANSİYANIN AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Xəzər rayonunda 110 kilovoltluq «Buzovna-2», 35 kilovoltluq «Sarıqaya», «Fatmayı», «Məhəmmədi», eləcə də 221, 219, 86 və 87 saylı yarımstansiyaların açılışlarında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlətimizin başçısına məlumat verdi ki, 110/35/10 kilovoltluq «Buzovna-2» yarımstansiyası 110/10 kilovoltluq «Buzovna dartı» yarımstansiyasının yerində inşa olunub. Beynəlxalq tələblərə cavab verən yeni energetika qurğusunun inşaat işləri zamanı milli memarlıqla beynəlxalq təcrübənin elementləri yüksək peşəkarlıqla uzlaşdırılıb. Ərazidə əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb, yüksəkkeyfiyyətli asfalt salınıb. Ən müasir standartlar səviyyəsində icra olunan belə layihələr ölkəmizdə yenidənqurma tədbirlərinin ardıcıl olaraq keyfiyyətlə həyata keçirildiyini bir daha göstərir.*

*Yarımstansiyanın girişində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkənin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkənin hərtərəfli inkişafı üçün həyata keçirdikləri silsilə layihələri əks etdirən fotoguşələr yaradılıb. «Buzovna-2» yarımstansiyası Buzovna, Zuğulba, Albalılıq qəsəbələrini, bir sıra dövlət əhəmiyyətli qurumları, həmçinin istirahət, turizm, tibb və digər obyektləri fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edir. Yarımstansiyada hər birinin gücü 40 meqavoltamper olan transformatorlar quraşdırılıb. Bu energetika qurğusu ən müasir elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatlaşdırılmış sistem, ölkəmizdə istehsal olunan güc transformatorları və reaktorlarla təchiz edilib. Yarımstansiyada işçilər üçün hər cür şəraiti olan otaqlar tikilib. Paylayıcı qurğular son elmi-texniki yeniliklər əsasında qurulub. İdarəetmə mərkəzində də ən müasir avadanlıqlar quraşdırılıb. Qeyd edək ki, yeni yarımstansiya ən son elmi-texniki*

*yeniliklərə əsaslanan «eleqaz», «vakuum» tipli və digər avadanlıqlarla təchiz edilməklə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə də qoşulub.*

*Dövlətimizin başçısına animasiya, sxemlər, dron çəkilişlər, qrafiklər və digər əyani vasitələr əsasında paytaxtda və regionlarda görülən işlər barədə məlumat verildi. Qeyd edildi ki, ötən qısa müddətdə 7 regional idarəetmə strukturu formalaşdırılıb və ölkəmizin bölgələrində böyük həcmdə yenidənqurma tədbirləri həyata keçirilib.*

*Yeni «Buzovna-2» yarımstansiyası Xəzər rayonunun böyük bir hissəsinin elektrik enerjisi təchizatının yaxşılaşdırılması, ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 110 və 35 kilovoltluq elektrik şəbəkələrinin əlaqələndirilməsi işlərində mühüm rol oynayacaq. Bu yarımstansiyanın inşası Abşeron yarımadasındakı 110 kilovoltluq paylayıcı şəbəkələrin şimal bölgəsi ilə əlaqələndirilməsi planının ilk mərhələsini təşkil edir. Belə ki, yeni yarımstansiyanın hesabına «Şimal», «Təmiz şəhər», «Sumqayıt» elektrik stansiyalarının, həmçinin 220 kilovoltluq «Zabrat» və «Sənaye qovşağı» yarımstansiyalarının əlaqələndirilməsi ilə 110 kilovoltluq elektrik təchizatı sxeminin etibarlılığı artır. «Buzovna-2» yarımstansiyası mövcud 35 kilovoltluq şəbəkə üçün mənbə olduğundan, 35 kilovoltluq dairəvi sxemə aid yarımstansiyaları əlaqələndirəcək. Bu da öz növbəsində, mövcud 35 kilovoltluq yarımstansiyalar arasında dairəvi elektrik təchizatı sxeminin, həmçinin elektrik şəbəkələrinin dayanıqlı iş rejiminin formalaşdırılmasına şərait yaradacaq. Şimal bölgəsi ilə əlaqələndirmə planının ilkin mərhələsi çərçivəsində perspektivdə nəzərdə tutulan işlərin yekunlaşması üçün 110/35/10 kilovoltluq «Buzovna-1» və «Buzovna-2» yarımstansiyaları arasında ikidövrəli kabel xətləri çəkiləcək. Ümumilikdə, «Buzovna-2» yarımstansiyası paytaxtın və ölkənin elektrik şəbəkəsinə mühüm töhfədir.*

*Sonra prezident İlham Əliyevə açılışı olan 35 kilovoltluq yarımstansiyalar barədə məlumat verildi.*

*Dövlətimizin başçısı «Buzovna-2» yarımstansiyasını işə saldı.*

*Ötən illərin reallıqları göstərdi ki, bütün belə silsilə və* kompleks xarakter *daşıyan layihələrin reallaşdırılmasında Azərbaycan dövləti hərtərəfli dəstəyini əsirgəməyib. Prezident İlham Əliyevin təbirincə desək, «...*strateji obyekt *dövlətin əlində* olanda burada *nəzarət də,* investisiya da *və inkişaf* da olacaq*». Ötən dövrün təcrübəsi* bu *danılmaz həqiqəti birmənalı şəkildə təs*diq*lədi.* Bu *baxımdan* paytaxt*ın, eləcə də ölkəmizin bütün* regionlar*ının etibarlı, dayanıqlı və keyfiyyətli* elektrik enerjisi *ilə təchizatı məqsədilə nəzərdə* tutulan *layihələrin də tezliklə uğurla həyata keçiriləcəyini* tam *əminliklə söyləmək* olar.

## BAKIDA «BAYTARLIQ ŞƏHƏRCİYİ»NİN AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Kənd Təsərrüfatı Nazirliyinin Bakıda «Baytarlıq şəhərciyi»nin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı şəhərciyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, «Baytarlıq şəhərciyi»ndə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin, Respublika Baytarlıq Laboratoriyasının və Baytarlıq Elmi-Tədqiqat İnstitutunun yeni inzibati binaları yerləşir. Layihənin həyata keçirilməsində məqsəd respublikada sanitariya və sağlamlığın qorunmasında, təhlükəli yoluxucu xəstəliklərin qarşısının alınmasında, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalında, həmçinin əhalinin insan və heyvanlar üçün təhlükəli olan xəstəliklərdən qorunmasında böyük rolu olan baytarlıq xidməti işinin yaxşılaşdırılması, bu sahədə fəaliyyət göstərən qurumların maddi-texniki bazalarının möhkəmləndirilməsi, onların avadanlıq və baytarlıq preparatları ilə təminatına şəraitin yaradılmasından ibarətdir.*

*Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin yeni inzibati binasında əsaslı şəkildə aparılan yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış oldu.*

*Qeyd olundu ki, binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin kənd təsərrüfatı sahəsinin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb. Binada əsaslı və yüksək səviyyədə yenidənqurma işləri aparılıb. Burada Dövlət Baytarlıq Nəzarəti Xidməti, Epizootiya, Zoonoz, Bruselyoz və Vərəm Əleyhinə Respublika ekspedisiyaları yerləşir. Yeni binada 150 nəfərlik konfrans zalı, 26 nəfərlik təlim mərkəzi, kitabxana, oxu zalı, ofis otaqları və mətbəx var. Binadakı*

*bütün inzibati otaqlar zəruri avadanlıqlarla təchiz edilib, əməkdaşlar üçün hərtərəfli şərait yaradılıb.*

*Məlumat verildi ki, 1,25 hektar ərazidə yerləşən «Baytarlıq şəhərciyi» layihələndirilərkən beynəlxalq təcrübədən geniş istifadə edilib, laboratoriyaların beynəlxalq akkreditasiyadan keçməsi üçün bütün tələblər nəzərə alınıb, tullantıların ekoloji normalara uyğun saxlanması və utilizasiyası məsələləri yüksək səviyyədə həll edilib. Burada bütün zərərli tullantılar termiki və kimyəvi təmizləmədən sonra atılır.*

*Sonra dövlətimizin başçısına Baytarlıq Xidmətinin xüsusi təyinatlı avtomobilləri, nazirliyin regional və rayon idarələri, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Dövlət Aqrar Universitetinin aqrar mühəndislik fakültəsi və tələbə yataqxanaları, Dövlət Fitosanitar Nəzarəti Xidmətinin inzibati laboratoriya binasında aparılan tikinti və yenidənqurma işləri barədə də məlumat verildi.*

*Respublika Baytarlıq Laboratoriyasının inzibati binası ilə tanışlıq zamanı bildirildi ki, 1974-cü ildə inşa edilən binada əsaslı yenidənqurma işlərinə ötən il başlanılıb. Burada Respublika Baytarlıq Laboratoriyasının aparatı və laboratoriyanın şöbələri yerləşir. Şöbələrin hamısı ən son model müasir laborator avadanlıqlarla təchiz edilib.*

*Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti, Baytarlıq Elmi-Tədqiqat İnstitutu və Respublika Baytarlıq Laboratoriyasının inzibati binalarının yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, lazımi infrastruktur yaradılıb.*

*Baytarlıq Elmi-Tədqiqat İnstitutunun yeni inzibati binasının inşasına da ötən il başlanılıb. Bina ilə tanışlıq zamanı məlumat verildi ki, baytarlıq sahəsində fundamental və innovasiya xarakterli elmi-tədqiqat işlərinin aparılması ilə məşğul olan institut Nazirlər Kabinetinin bu il qəbul etdiyi qərara əsasən, Azərbaycan Dövlət Baytarlıq Preparatlarına Elmi Nəzarət İnstitutu və Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutunun bazasında yaradılıb.*

*Binanın 5-ci mərtəbəsində Kənd Təsərrüfatı Nazirliyinin Muzeyi fəaliyyət göstərəcək. Muzey 1924-cü ildə yaradılıb. Muzeydə Azərbaycanın kənd təsərrüfatı və kənd sakinlərinin iş və məişət*

*şəraitini əks etdirən 15 mindən çox maraqlı eksponat yerləşdirilib. Burada Qobustan qoruğunun maketi, İpək yolu xəritəsi, müxtəlif dövrlərdə Azərbaycanın ayrı-ayrı bölgələrində istifadə edilən kənd təsərrüfatı alətləri, XVIII–XIX əsrlərə aid insanların məişətini və təsərrüfat həyatını əks etdirən eksponatlar nümayiş olunur. Muzeydə müxtəlif bölmələr var. Bu bölmələr maraqlı eksponatlarla zəngin olmaqla yanaşı, ölkəmizdə kənd təsərrüfatının müxtəlif sahələrinin zəngin tarixindən, onların inkişaf mərhələsindən xəbər verir, xalqımızın bu sahədə də zəngin ənənələrə malik olduğunu nümayiş etdirir.*

*Müasir informasiya və kommunikasiya texnologiyaları sistemlərinin tətbiqi layihələri çərçivəsində mütərəqqi texnoloji platforma və xüsusi proqram təminatı əsasında ölkədə ilk dəfə olaraq Dövlət Kənd Təsərrüfatı Muzeyinin informasiya sistemi yaradılıb. Muzeyə gələnlər buradakı info-köşklər və ən müasir dizayn interfeysinə malik interaktiv sistem vasitəsilə ulu öndər Heydər Əliyev və Azərbaycanın Kənd Təsərrüfatı, muzeyin bölmələri və eksponatları, dinamik xəritə, ölkəmizin kənd təsərrüfatı potensialı, onun tarixi, aqrar sahənin ayrı-ayrı istiqamətləri üzrə ətraflı məlumatlar və aqrar göstəricilər üzrə hesabatlarla yaxından tanış ola bilərlər.*

*Prezident İlham Əliyevə 2015-ci ildə nazirliyin fəaliyyətinin əsas istiqamətlərindən biri olan «Elektron kənd təsərrüfatı» informasiya sisteminin və zəruri informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun yaradılması layihəsi üzrə də məlumat verildi. Layihə subsidiya informasiya sistemi, fermer təsərrüfatlarının reyestri, torpaq sahələrinin identifikasiyası, ərizələrin emalı, sənədlərin idarə edilməsi, biznes təhlili, hesabatlar və digər modullardan ibarətdir. Sistemdə müxtəlif kateqoriyalara aid fermer təsərrüfatları, kənd təsərrüfatı sahəsinə məxsus bütün resurslar, kompleks sənədlərin yaradılması və idarə edilməsi barədə məlumatlar var. Sistemin Xaçmaz rayonunda pilot tətbiqinə başlanılıb. Hazırda kənd təsərrüfatı təyinatlı torpaqların rəqəmsallaşdırılmış coğrafi məlumatlar bazası yaradılır.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## METRONUN «ELMLƏR AKADEMİYASI» STANSİYASININ İKİNCİ ÇIXIŞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də «Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin «Elmlər Akademiyası» stansiyasının ikinci çıxışının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yeni çıxışın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Baş nazirin müavini Abid Şərifov və «Bakı Metropoliteni» QSC-nin sədri Zaur Hüseynov görülən işlərlə bağlı prezident İlham Əliyevə ətraflı məlumat verdilər. Qeyd edildi ki, «Nizami–Memar Əcəmi» buraxılış kompleksinə daxil olan «Elmlər Akademiyası» stansiyası bir çıxışla 1985-ci ildə istismara verilib. «Bakı Metropoliteninin perspektiv inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 18 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş «Bakı Metropoliteninin 2011–2015-ci illərdə inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq «Elmlər Akademiyası» stansiyasının ikinci çıxışının tikintisinə qərar verilib və artıq inşaat işləri başa çatıb. «Elmlər Akademiyası» stansiyasının ikinci çıxışı layihəyə əsasən, 4 çıxışlı yeraltı vestibüldən, 70,4 metr uzunluğunda maili tuneldən, 37 metr piyada və 26 metr uzunluqlarında keçid tunellərindən və yarımstansiyadan ibarətdir. Kompleksin ümumi sahəsi 4,3 min kvadratmetrdir. Stansiyanın ikinci çıxışında 7 müasir eskalator, piyada tunelində təhlükəsizlik kameraları quraşdırılıb.*

*Dövlətimizin başçısı «Elmlər Akademiyası» stansiyasının planına və görülən işləri əks etdirən fotostendə baxdı.*

*«Elmlər Akademiyası»nın ikinci giriş-çıxışının istismara verilməsi Bakı Metropoliteni üçün əhəmiyyətli hadisələrdəndir. İkinci çıxışın tikintisində əsas məqsəd sərnişinlərin rahatlığı ilə yanaşı, on-*

*ların təhlükəsizliyinin təmin edilməsidir. Metronun dərin özüllü 7 stansiyasından biri olan «Elmlər Akademiyası»nın ikinci giriş-çıxışla təmin edilməsi Dövlət Proqramında da xüsusi bəndlə qeyd olunub. Stansiyanın 4 çıxışından ikisi AMEA-nın İnformasiya Texnologiyaları və Radiasiya institutları istiqamətində bir-birinə əks qütblərdə yerləşir, digəri isə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının yeni binası ilə Akademiya bağı istiqamətindədir.*

*Sonuncu çıxış Bakı Dövlət Universitetinə istiqamətlənib.*

*Xatırladaq ki, Bakı Metropoliteni fəaliyyət göstərdiyi 48 ildə böyük inkişaf yolu keçərək, 23 stansiya və 34,6 kilometr yeraltı polad yolları əhatə edən geniş şəbəkəyə çevrilib. Metropolitenin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. Ulu öndərin ölkəyə ilk dəfə rəhbərlik etdiyi dövrədək Bakı Metropolitenində cəmi 6 stansiya vardısa, 1969-cu ildən sonra stansiyaların sayı 14-ə çatdırıldı, 21 kilometr metro xətti inşa edilərək istismara verildi. Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illərdə metro tikintisinə ayrılan vəsaitlər hesabına «Nəsimi», «Azadlıq prospekti», «Dərnəgül» stansiyaları və «28 May» stansiyasının ikinci çıxışı istismara verilib. «İçərişəhər» və «Koroğlu» stansiyaları yenidən qurulub. Hazırda metronun yeni stansiyalarının tikintisi davam etdirilir. Metropolitenin qatar parkı da yenilənir. Bakı Metropoliteninin infrastrukturunun beynəlxalq standartlara uyğun yenidən qurulması istiqamətində görülmüş əhəmiyyətli işlərdən biri də Diaqnostika Kompleksinin yaradılmasıdır.*

*«Elmlər Akademiyası» stansiyasının yeni giriş-çıxışlarının üzərində müasir dekorativ-memarlıq elementli konstruksiya quraşdırılıb, ərazidə yerüstü abadlaşdırma işləri həyata keçirilib.*

## KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *29 dekabr 2015-ci il*

# XƏTAİ RAYONUNDA YOLLARIN YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*29 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakının Xətai rayonundakı Ramiz Quliyev, Rahib Məmmədov, Xudu Məmmədov, Aşıq Ələsgər küçələrinin və Gəncə prospektinin yenidən qurulması və əsaslı təmir işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov buradakı küçələrin və Gəncə prospektinin əsaslı təmiri və yenidənqurma planı əsasında görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Qeyd edildi ki, dövlətimizin başçısının müvafiq sərəncamlarına uyğun olaraq Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi, qəsəbədaxili və məhəllələrarası küçələrin abadlaşdırılması istiqamətində paytaxtın müxtəlif rayonlarında tədbirlər davam etdirilir. Əhalinin sosial həyat şəraitinin yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayan prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, paytaxtın digər rayonlarında olduğu kimi, Xətai rayonu ərazisindəki küçələrdə də abadlıq və quruculuq işləri aparılır, əhalinin rahatlığının təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Xətai rayonundakı 5,5 kilometr uzunluğu olan yolda da əsaslı təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə aparılıb, ümumilikdə 131 min kvadratmetrdən çox əraziyə asfalt örtüyü döşənib. Yolların kənarında abadlıq işləri görülüb, 18 min metrdən çox qranit səki daşları və yolboyu kommunikasiya lüklərinin qapaqları dəyişdirilib. 2000 kvadratmetrə yaxın səki yenidən qurulub, yeni asfalt örtüyü salınıb. Yol zolaqlarına 2743 kvadratmetr tamet tavalar döşənib. Əsaslı təmir olunmuş və yenidən qurulmuş yollar müasir standartlara uyğun işıqlandırma sistemi ilə təchiz edilib, 193 yeni işıq dirəyi quraşdırılıb. Bütün kommunikasiya xətləri yerin altı ilə çəkilib, ətraf ərazilərdə yaşıllıq zolaqları salınıb.*

**MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ**

Hörmətli cənab Prezident!

Myanma İttifaqı Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Myanma xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 dekabr 2015-ci il*

## ZİRƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN VƏ EKO-PARKIN AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2015-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva dekabrın 30-da Heydər Əliyev Fondunun yeni layihəsi olan Zirə Mədəniyyət Mərkəzinin və Eko-Parkın açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zirə Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış oldular.*

*Bildirildi ki, Heydər Əliyev Fondunun Bakının Zirə qəsəbəsində həyata keçirdiyi bu layihə möhtəşəmliyi ilə diqqəti cəlb edir və son illərdə ölkədə icra olunan ən orijinal layihələrdən biridir. Bu nadir məkanın qəsəbədə yaradılması isə onun əhəmiyyətini daha da artırır. Belə ki, yerli sakinlər, xüsusilə də gənclər üçün cəlbedici olan bu yer qəsəbənin sosial-mədəni inkişafında mühüm rol oynayacaq. Digər tərəfdən, bu layihə Heydər Əliyev Fondunun regional inkişaf konsepsiyasında önəmli yer tutur.*

*Xüsusi layihə əsasında tikilmiş Zirə Mədəniyyət Mərkəzinin ümumi sahəsi 6000 kvadratmetrdir. İkimərtəbəli binanın girişində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətlərini əks etdirən fotostend qurulub. Qalereyada yaşıllıq sahəsi salınıb, müxtəlif növ ekzotik bitkilər, gül və ağaclar əkilib, köşklər qurulub, su-kanal sistemi yaradılıb. Mərkəzin xarici dil kabinetində ingilis, rus və fransız dillərinin öyrənilməsi üçün bütün dərs vəsaitləri var. Kabinetdə elektron lövhə qurulub, hər bir şagird masası son elektron texnologiyalı kompüterlərlə təc-*

hiz olunub. Zirə Mədəniyyət Mərkəzindəki IDEA resurs mərkəzi ölkə üzrə fəaliyyət göstərən analoji mərkəzlərdən biridir və Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq Təşkilatının ideyası ilə yaradılıb. Burada qlobal iqlim, flora və fauna dəyişikliyi problemləri, kimyəvi tullantılar, ekoloji tarazlığın pozulması ilə bağlı görüşlərin, «dəyirmi masa»ların keçirilməsi planlaşdırılır. Mərkəzdə yaşıllaşdırma, landşaft dizaynı və bağçılıqla bağlı treninqlər də keçiriləcək. Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsis etdiyi IDEA kampaniyası nəsli kəsilməkdə olan heyvanların – xüsusilə də Qafqaz faunasının nəsli kəsilməkdə olan 5 növünün populyasiyasının qorunub saxlanılmasına və qoruqların mühafizəsinə həsr olunub.

Şahmat sinfində bu qədim oyunun sirlərini öyrənmək istəyənlərin məntiqi düşüncələrinin düzgün formalaşdırılması üçün ən üstün elektron texnologiya qurulub. Kabinet elektron şahmat lövhələri ilə təmin edilib. Oyunlar eyni vaxtda internet vasitəsilə monitorda nümayiş olunur.

Moda studiyası da müasir tikiş avadanlıqları ilə təmin olunub. Bura dərzilik kursu, tikiş dərsləri ilə yanaşı, geyimlərin sifarişi, həm də nümayiş xarakterli bir məkandır. Paltarların biçimi və tikişi kursu fərdi və qrup xarakteri daşıyır.

Muzey formatında yaradılan Zirə Xalça Muzeyi də Mədəniyyət Mərkəzində yerləşir. Muzeydə 150 ildən çox yaşı olan Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri qorunur. Burada xovlu və xovsuz xalçalar, kilim, palaz nümunələri nümayiş olunur. Xüsusi elektron tanıtım sistemi ilə təchiz edilən muzeydə hər bir xalça haqqında Azərbaycan və ingilis dillərində geniş məlumat verilir. Xalça Muzeyinin nəzdində Xalçaçılıq Tədris Mərkəzi də fəaliyyət göstərir. Burada xalçalarımız haqqında praktik və nəzəri dərslər keçirilir. Bu dərslərdə müxtəlif yaş qruplarına aid insanlar iştirak edir. Tədris Mərkəzi xalçaçılıqda istifadə olunan ləvazimatlarla və hanalarla təchiz olunub. Dərslərin səmərəli keçirilməsi üçün mərkəz Azərbaycan xalçaçılığından bəhs edən audio və video materiallar, kitablar, kataloq və jurnallarla təmin olunub. Mərkəzdə tədris zamanı istifadə olunan xalça eskizlərinin və çeşnilərin hazırlanması

üçün rəssamlıq otağı yaradılıb. Burada 30-dan artıq şagirdə xalçaçılığın sirləri öyrədiləcək. Perspektivdə xalça fabrikinin yaradılması nəzərdə tutulur.

Mərkəzdə 300 nəfərlik 3D kinozalı da fəaliyyət göstərir. «Nizami» Kino Mərkəzində nümayiş olunan filmlərin müasir texnologiya ilə təchiz olunan bu kinozalda da yayımlanması nəzərdə tutulub. Burada xüsusi akustik sistem, lisenziyalı proyektor, işıq və havalandırma sistemləri qurulub. Zalda konsert, musiqili gecələr, iclas, toplantı və təqdimatların keçirilməsi də mümkündür.

Nikah evində nikahların qeydiyyatı aparılacaq və bununla əlaqədar tədbirlər keçiriləcək. Yeni evlənənlərin tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi, yeni doğulmuş körpələrin qeydiyyatı da burada aparılacaq. Mədəniyyət Mərkəzində yeni evlənənlər üçün müxtəlif mərasimlərin və əyləncələrin təşkili ilə bağlı geniş imkanlar var.

Mərkəzdə idman və bədii gimnastika təlimləri üçün nəzərdə tutulan gimnastika zalı da yaradılıb və zal Gimnastika Federasiyası tərəfindən müvafiq avadanlıqlarla təchiz olunub. Art-studiya isə rəngkarlığın sirlərini öyrənmək istəyən müxtəlif yaş qruplarına aid istedadlı gənclərin cəlb olunması üçün nəzərdə tutulub. Studiya zəruri avadanlıq və rəngkarlıq vasitələri ilə təchiz edilib. Burada gələcəkdə tanınmış rəssamların ustad dərslərinin təşkili planlaşdırılır.

Elektron kitabxana mərkəzləşdirilmiş sistemlə təchiz olunub və 3000-dən çox elektron vəsait bazaya yüklənib. Kitabxana xüsusi dizaynla tərtib olunub. İstifadəçilərin rahatlığı üçün kitablar sərbəst istifadəyə verilib.

Foto-video studiya da rəqəmsal texnologiyanın ən son avadanlıqları ilə təchiz edilib. Burada müasir fotostudiya – xüsusi fon pərdələri, işıq sistemi, kompüterləşmiş fotoavadanlıq qurulub. Studiyada peşəkar çəkiliş və xidmətlə yanaşı, foto və videomontaj dərslərinin keçirilməsi, mərasimlərin işıqlandırılması nəzərdə tutulub.

Zirə Mədəniyyət Mərkəzində seçicilər, qəsəbə sakinləri ilə qəbul və görüşlərin keçirilməsi üçün də hər cür şərait yaradılıb. Seminar, treninq, iclas, təqdimat və yığıncaqların təşkili üçün zəruri avadanlıqla təchiz olunan 60 nəfərlik konfrans zalı qurulub.

*Mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada Orxideya evinin yaradılmasıdır. Ölkədə ilk dəfə yaradılan bu məkanda 150 nəfərlik qonaq qəbulu və müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Zalın tərtibatında müxtəlif ekzotik gül və ağac kompozisiyalarından, rəngarəng orxideya növlərindən istifadə olunub.*

*Dövlətimizin başçısı və ailə üzvləri Xəzər rayonunun və Zirə qəsəbəsinin bir qrup sakini ilə görüşdülər.*

**İlham Əliyev:** Bu gün çox əlamətdar bir gündür. Zirədə belə gözəl Mədəniyyət Mərkəzi və Eko-Park açılır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu doğrudan da nadir layihədir. Deyə bilərəm ki, bu nəinki ölkəmizdə, dünya miqyasında seçilən layihələrdən biridir. Burada həm böyük park yaradılıbdır, həm də 10 hektar ərazidə, eyni zamanda, bu Mədəniyyət Mərkəzində müxtəlif dərnəklər, studiyalar fəaliyyət göstərir, Xalça Muzeyi, kinozal, kitabxana, konfranslar üçün müxtəlif otaqlar var. Yəni bu doğrudan da müasir, çox gözəl mərkəzdir və şadam ki, bu mərkəz Zirə qəsəbəsində yaradılıbdır.

Son vaxtlar ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində ictimai yerlər yaradılır, parklar salınır. Misal üçün, bizim ən böyük parkımız bulvardır. Əvvəlki uzunluğu 3 kilometr idisə, indi 16 kilometrə çatıb və ən yüksək səviyyədə qurulubdur. Həmçinin yeni parklar salınıbdır. Məsələn, Mərkəzi park – Heydər Əliyev sarayının arxasında yerləşən park yeni yaradılıbdır. Yasamal parkı – bu da yeni yaradılıb, şəhərimizin ən böyük parklarından biridir, Dədə Qorqud parkı və digər parklar. Şəhərdə indi ekoloji layihələr icra edilir. Böyükşor gölünün bir hissəsi təmizlənib, orada da gözəl bulvar salınıb, böyük park yaradılıbdır. Heydər Əliyev Mərkəzinin qarşısında təqribən 7-8 hektar ərazidə park yaradılıbdır. Şadam ki, nəinki şəhərin mərkəzində, eyni zamanda, qəsəbələrdə də gözəl parklar salınır. Bu imkanlardan həm qəsəbə sakinləri, həm də qonşu qəsəbələrdən gələn qonaqlar istifadə edəcəklər. Eyni zamanda, hesab edirəm ki, buraya mütləq şəhərimizin sakinləri və xarici qonaqlar da gələcəklər. Çünki mehmanxanalarımızda bu parkla

bağlı kitabçalar təqdim ediləcək və xarici qonaqlar gəlib görəcəklər ki, Azərbaycanda belə gözəl əsərlər yaradılır.

Zirə qəsəbəsinin inkişafı uğurla gedir və burada xüsusilə sizin deputatınızın fəaliyyətini qeyd etmək istəyirəm.

**S a k i n l ə r:** Allah cansağlığı versin.

**İ l h a m Ə l i y e v:** Mehriban xanım artıq 10 ildir ki, sizin deputatınızdır. Zirə qəsəbəsində və digər qəsəbələrdə inkişaf Mehriban xanımın adı ilə bağlıdır. Bu layihə də Heydər Əliyev Fondu tərəfindən icra edilibdir. Şadam ki, bu layihənin ekoloji komponentinin müəllifi mənim qızım Leyladır.

**S a k i n l ə r:** Allah saxlasın, xoşbəxt olsun.

**İ l h a m Ə l i y e v:** O da çalışır ki, ölkəmizin ümumi inkişafına töhfə versin, xüsusilə ətraf mühitin, nadir heyvanların qorunması istiqamətində çox böyük işlər görür. Azərbaycanda ekoloji vəziyyətlə bağlı görülən işlər artıq beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bu yaxınlarda Parisdə iqlim dəyişikliyi ilə bağlı dünya əhəmiyyətli beynəlxalq konfrans keçirilmişdir. Azərbaycanın təqdim etdiyi nailiyyətlər orada xüsusilə qeyd edilmişdir. Çünki ətraf mühitin qorunması işində biz doğrudan da böyük uğurlara nail ola bilmişik. Xüsusilə Bakıda, Abşeronda, əfsuslar olsun ki, onilliklər ərzində neft hasilatı nəticəsində böyük ərazilər çirklənmişdir. İndi o ərazilərin təmizlənməsi işi gedir və o cümlədən dediyim kimi, Böyükşor gölünün, Bibiheybət buxtasının təmizlənməsi artıq reallıqdır.

Son illər Zirə qəsəbəsində müxtəlif sosial layihələr icra edilmiş, səhiyyə, təhsil ocaqları yaradılmışdır. Əminəm ki, bu gözəl yeni layihə Zirə sakinlərinin sərəncamına veriləndən sonra buraya insanlar gələcək və istirahət edəcəklər. Uşaqlar burada müxtəlif dərnəklərdə təlim alacaqlar. Yəni Zirə qəsəbəsinin son illərdəki inkişafı doğrudan da çox müsbətdir, uğurludur. Əminəm ki, Heydər Əliyev Fondu gələcəkdə bu qəsəbədə və bütün başqa yerlərdə öz fəaliyyətini uğurla davam etdirəcəkdir.

İnfrastruktur layihələri icra edilir və yollar salınır. Bu gözəl aeroport yolundan ta Pirallahıya qədər yeni yol artıq salınır, genişləndirilir və onun bir hissəsi istifadəyə verilibdir. Pirallahıya gedən yol əsaslı şəkildə təmir olunur, yenidən qurulur, körpü tikilir. O

körpünün də çox böyük ekoloji mənası var. Çünki bu günə qədər bu bənd sanki dənizi bölür və imkan vermir ki, su təmizlənsin. İmkan vermir ki, ekoloji vəziyyət normallaşsın. İndi bəndin əvəzinə körpü salınır və bunun çox böyük müsbət ekoloji təsiri olacaqdır.

Ümumiyyətlə, son illər ərzində Bakı qəsəbələrində gedən işlər, demək olar ki, mövcud problemlərin böyük hissəsini həll edibdir. Çünki hər bir qəsəbədə yollar salınır, içməli su xətləri çəkilir, qazlaşdırma, demək olar ki, başa çatmışdır, elektrik enerjisi təchizatı normallaşıb, iş yerlərinin yaradılması istiqamətində addımlar atılıbdır, o cümlədən Zirə qəsəbəsində.

Bütün bu işlər Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsində mümkün olmuşdur. Proqram davam edir, gələn il də bir çox layihələr icra ediləcəkdir. Qarşıya vəzifə qoyulub ki, Bakıətrafı qəsəbələrdə bütün infrastruktur, sosial məsələlər öz həllini tapsın. Yaxşı yollar salınsın, məktəblər, uşaq bağçaları, tibb ocaqları, idman obyektləri tikilsin, iş yerləri yaradılsın. Biz bu istiqamətdə ardıcıl şəkildə bütün işləri görürük və əminəm ki, yaxın gələcəkdə qəsəbələrdə bütün problemlər öz həllini tapacaq.

Mən xüsusilə içməli su layihələrini qeyd etmək istəyirəm. Bu yaxınlarda Ceyranbatan su anbarında yeni, dünyanın ən böyük sutəmizləyici qurğusu istifadəyə verilib. Bu qurğu hesabına Bakı sakinlərinə Ümumdünya Səhiyyə Təşkilatının səviyyəsinə uyğun sutkada 24 saat ərzində içməli su verilməlidir. Artıq bu proqram da başlanıbdır.

Biz sizinlə bu gün Yeni il, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində görüşürük. 2015-ci ildə mənim bir çox ölkələrə rəsmi və işgüzar səfərlərim olmuşdur. Mən xaricdə 20 beynəlxalq tədbirdə iştirak etmişəm. Ölkə üzrə də təqribən 20-dən çox rayonda olmuşam. Amma ili mən burada, Zirədə ailəmlə, sizinlə bərabər başa vururam və sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı bütün Zirə sakinlərinə çatdırasınız. 2016-cı ildə sizə, bütün Azərbaycan xalqına xoşbəxtlik, uğurlar, əmin-amanlıq arzulayıram.

2015-ci il sınaq ili olmuşdur. Dünyada gedən proseslər istər-istəməz bizə də təsir etmişdir. Ancaq 2015-ci ildə Azərbaycanda ictimai sabitlik təmin edildi, xalqımız sülh, əmin-amanlıq şəraitində

yaşayır və yaşamalıdır. Baxmayaraq ki, indi ətraf bölgələrdə müşahidə olunan mənzərə çox acınacaqlıdır. Əfsuslar olsun ki, 2015-ci ildə həm dünyada, həm bölgədə qanlı toqquşmalar, müharibələr, ayrı-seçkilik və anlaşılmazlıq özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycanda isə bütün işlər normal məcrada davam edir, xalqımızın təhlükəsizlik şəraitində yaşaması təmin edilir, milli birlik, həmrəylik hökm sürür. Əlbəttə, biz diqqəti xüsusən gələcək iqtisadi inkişafımıza yönəltməliyik. Son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilib. Şəhərlərimizin siması dəyişib, Bakı dünyanın ən gözəl şəhərinə çevrilib. Ancaq görüləsi işlər çoxdur. Gələn il xüsusilə idarəetmə sahəsində çox ciddi islahatlar davam etdiriləcək. Bu islahatlar daim aparılır. Ancaq gələn il daha da ciddi struktur islahatları aparılacaq. Biz xüsusilə idarəetmə sahəsində artıq yeni formatda daha böyük səmərə ilə işləməliyik. Bütün sahələrdə tam şəffaflıq təmin edilməlidir ki, dövlət büdcəmizin gəlirləri ilə bağlı heç bir problem olmasın. Biz elə işləməliyik ki, neftin qiymətindən asılılığı aradan götürək. Mən bunu dəfələrlə bəyan etmişəm və son illərdə qeyri-neft sektorunun inkişafı, bax, bu məqsədi güdür. Əgər biz bu islahatları aparmasaydıq, bu gün çox ağır vəziyyətdə ola bilərdik.

Ancaq neftdən asılılıq hələ ki, davam edir və davam edəcək. Bu asılılığı ən aşağı səviyyəyə endirmək üçün həm iqtisadi, həm idarəetmə sahəsində çox ciddi islahatlar aparılmalıdır. İlk növbədə, bütün sahələrdə şəffaflıq tam təmin edilməlidir. İcra orqanlarının, vergi-gömrük orqanlarının fəaliyyəti, ümumiyyətlə, bizim bütün maliyyə sistemimiz şəffaf olmalıdır. Biz dünyanın inkişaf etmiş ölkələrinin praktikasını tam şəkildə tətbiq etməliyik. Gəlirlərə, xərclərə nəzarət gücləndirilməlidir, xüsusilə ictimai nəzarət. Mən bu barədə də dəfələrlə demişəm ki, ictimaiyyət daha da fəal olmalıdır.

Əhaliyə göstərilən xidmətlərdə çox ciddi islahatlar aparılmışdır. «ASAN xidmət» artıq 2 ildir fəaliyyət göstərir, 7 milyondan çox insan bu xidmətin imkanlarından istifadə edib və əvvəlki illərdə olan pozuntular, nöqsanlar artıq yoxdur. Yəni bunu etmək mümkündür. Hər bir sahədə şəffaflıq olmalıdır, yerli və mərkəzi icra orqanları ilk növbədə, insanlara xidmət göstərməli və anlamalıdırlar ki, onlar insanlar üçün

çalışırlar. Xalq tərəfindən onlara verilən qiymət, yəni münasibət əsas meyardır. Mən onların fəaliyyətinə qiymət verəndə ilk növbədə, bu amili nəzərə alıram və alacağam.

Əlbəttə ki, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Biz bunu bilməliyik. Ancaq elə işləməliyik ki, mənfi tərəfləri minimum səviyyəsinə endirək. Mən əminəm ki, 2016-cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edəcək, heç bir sosial proqramın icrası ilə bağlı problem olmayacaq. Biz daha da ciddi sosial siyasət aparacağıq və çalışacağıq ki, daha çox xarici sərmayəni cəlb edək, israfçılığa yol verməyək. Qeyd etdiyim kimi, idarəetmə sistemində xoşagəlməz halların aradan qaldırılması işində daha da fəal işləyəcəyik.

Azərbaycan inamla inkişaf edəcək. Biz inkişaf yolu ilə, müstəqillik yolu ilə gedirik, müstəqil siyasət aparırıq. Ona görə bəzi hallarda əsassız təzyiqlərə məruz qalırıq. Ancaq biz ləyaqətli siyasət aparırıq. Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür və mən bundan sonra da bu maraqları müdafiə edəcəyəm. Mən xalqın dəstəyini hiss edərək, bu işləri daha da inamla aparıram. Bir daha sizi qarşıdan gələn bayramlar münasibətilə təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**Q ə s ə b ə s a k i n i:** Bu gün çox sevindirici gündür. Siz ailənizlə üçüncü dəfədir Zirə kəndinə təşrif buyurursunuz. Mən öz adımdan, Zirə kəndinin əhalisi, ziyalıları, ağsaqqalları adından Sizə təşəkkür edirəm. Demək istəyirəm ki, Zirə qəsəbəsində bütün yollar qısa zamanda asfaltlaşdırılıb. Az vaxt ərzində Heydər parkı, xəstəxana, idman kompleksi, bu mərkəz və Eko-Park yaradılıb. Kimin təşəbbüsü ilə? Hamısı bizim hörmətli Prezidentimiz və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə! Demək istəyirəm ki, bu kiçik qəsəbədə bu qədər işlər görülübsə, baxın, Azərbaycanın rayonlarında, qəsəbələrində nə qədər böyük işlər görülüb. Bu işlərin hamısı Sizin təşəbbüsünüzlə, göstərişinizlə görülüb. Ona görə də qəsəbəmizin, Bakıətrafı kəndlərin əhalisi adından Sizə öz təşəkkürümüzü bildiririk. Bir neçə gün bundan əvvəl Sizin ad gününüz olub. Camaatımız, ağsaqqallarımız, ziyalılarımız adından Sizi təbrik edirik, Sizə uzun ömür, cansağlığı arzu edirik. Allah-Taaladan arzu edirik ki, Sizə, ailənizə ən gözəl nemət olan cansağlığı versin. Allah-

Taala Sizi yerin, göyün bəlalarından hifz etsin. Allah-Taala Sizin kimi prezidenti biz Azərbaycan xalqına çox görməsin. Allah Sizi hifz etsin.

**Türkan qəsəbə sakini:** Bu gün Zirədəyik, Zirə qəsəbəsindən danışırıq. Amma bu o demək deyil ki, təkcə Zirə qəsəbəsi abadlaşır. Mən Türkan qəsəbəsinin ağsaqqalı kimi, deyə bilərəm ki, Türkanda illər boyu qazla bağlı çətinlik olub. Biz sovet vaxtı da orada qaz görməmişik. Bu gün qazla bağlı problem yoxdur. Bu da ölkə rəhbərinin təşəbbüsü ilə mümkün olub. İşıqla bağlı qəti problem yoxdur. Su haqqında danışdınız, çox sağ olun, o vaxt Siz Ağsuda çıxış edəndə mən televizorda baxırdım. Siz dediniz ki, su bizim həyatımızdır. Su gələcəyimiz, balalarımızın sağlam həyatı üçün vacibdir. Artıq 2 aydır ki, biz də sudan fasiləsiz istifadə edirik. Gecə-gündüz Sizə də, Mehriban xanıma da, Leyla xanıma da dua edirik. Televizora baxanda görürük ki, dünyanın bir çox yerində Heydər Əliyev Fondu tərəfindən uşaqlar, qocalar üçün binalar tikilir. Həqiqəti deyirəm, adam sevincdən kövrəlir. Ona görə ki, əgər biz başqa ölkələrdə də xeyirxah işlər görmüşüksə, özümüzü, ölkəmizi Sizin timsalınızda tanıtdırmışıqsa, bu bizim üçün fəxrdir.

Mehriban xanımın təşəbbüsü ilə Türkanda məktəb tikilib, internat-məktəbi təmir olunub. Gözəl Mədəniyyət evi var. Əvvəl Mədəniyyət evi yox idi. Bu gün gözəl ikimərtəbəli, geniş, 200 nəfərlik Mədəniyyət evimiz var. Uşaq bağçası tikildi. Keçən il poliklinika çox yüksək səviyyədə inşa olundu. Məktəblərimiz var, asfalt yol da ki, öz yerində. Mən də Türkan camaatı adından Sizə təşəkkür edirəm. Bu gün burada bildik ki, Mehriban xanımın təşəbbüsü var. Prezidentimizə və ona cansağlığı arzu edirik. Biz arzu edirik ki, Prezidentimizlə, deputatımız Mehriban xanımla həmişə belə xoş işlərdə görüşək, Sizin rəhbərliyinizlə ölkəmiz, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz gündən-günə abadlaşsın. Allah Sizə cansağlığı versin. Mən türkanlılar adından Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**Mehriban Əliyeva** *(Heydər Əliyev Fondunun prezidenti):* Çox minnətdaram. Bu fürsətdən istifadə edərək, seçkilər zamanı mənə göstərdiyiniz yüksək dəstəyə, inama görə sizə dərin minnətdarlığımı bildirirəm. Artıq biz illərdir ki, bərabər çalışırıq və

bütün bu işləri, əlbəttə, Heydər Əliyev Fondu sizin dəstəyinizlə həyata keçirir. Əminəm ki, qalan bütün problemləri də gələcək illərdə birgə həll edəcəyik və belə gözəl açılışlarda daha çox iştirak edəcəyik. Mən sizi təbrik edirəm, sizə cansağlığı arzu edirəm.

**S a k i n l ə r:** Çox sağ olun. Biz də sizə cansağlığı arzu edirik.

**İ l h a m  Ə l i y e v:** Son illərdə Xəzər rayonunun, demək olar ki, bütün qəsəbələrində doğrudan da çox böyük quruculuq işləri aparılır. Bu çox təqdirəlayiq bir haldır. İnfrastruktur yaradılır, sosial obyektlər, məktəblər, poliklinikalar, tibb mərkəzləri tikilir. Mən dəfələrlə demişəm ki, əgər hər bir qəsəbənin, kəndin problemi həll olunarsa, onda ölkədə bütün problemlər həll olunacaq. Ancaq bilirsiniz, vaxtilə tikilmiş binalar artıq yararsız vəziyyətə düşüb. Son 10 il ərzində 3 mindən çox məktəb tikilib, təmir edilib. Təsəvvür edin, Azərbaycanda təxminən 5 minə yaxın məktəb var. Onun 3 mini yenidən tikilib, bərpa edilib. Ancaq hələ də qəzalı məktəblər var. Mən rayonlarda olarkən hər dəfə arayış alıb baxıram ki, neçə məktəb qəzalıdır. Bütün bunları etmək üçün vəsait, büdcə vəsaiti, gəlirlər lazımdır.

Biz neftin qiymətinin yuxarı səviyyədə olduğu dövrdə imkandan istifadə etdik ki, insanları narahat edən əsas problemləri tezliklə həll edək. Bu problemlər nə idi? İşıq yox idi, heç Bakıda yox idi. Gecə vaxtı kəsilirdi. Yaxud qazlaşdırma. İndi Bakı 100 faiz qazlaşdırılıb, bölgələr də buna yaxındır, ölkə üzrə təxminən 90 faizə yaxınlaşır. İçməli su maşınlarla daşınırdı. Biz də vaxt olub Bakıda evimiz olmayanda qəsəbələrdə qalmışıq. Biz də bilirik bu nədir! Ona görə də hər bir yerdə, hər qəsəbədə içməli su olmalıdır. Xətlər çəkilib, Oğuz–Qəbələ xətti istifadəyə verilib, Ceyranbatan sutəmizləyici qurğusu yaradılıb ki, təmiz su gəlsin. Hələ ki, bunu tam təmin edə bilməmişik. 10 il bundan əvvəl Bakı əhalisinin təxminən 45-46 faizi sutkada 24 saat su alırdı, indi bu rəqəm 78 faizdir, amma qalan 22 faiz almır. Bu problemdir. O da həll olunmalıdır, ona da vəsait lazımdır. Bax, biz bu işlərlə məşğul olmuşuq – elektrik stansiyalarının tikintisi, qaz xətləri, içməli su üstəgəl sosial obyektlər.

Son 10 ildə Bakıda, bütün bölgələrdə 500-dən çox səhiyyə müəssisəsi yaradılıb. İndi elə bir rayon yoxdur ki, orada müasir səhiyyə ocağı olmasın. Uşaq bağçalarına böyük ehtiyac var. İndi bizdə əhali artır, bu da çox müsbət haldır. Hər il təxminən 130–140 min körpə dünyaya göz açır. Yəni uşaq bağçaları problemdir. Çünki yer çatmır. Təminat aşağı səviyyədədir. Yeni bağçalar tikilməlidir, ərazi ayrılmalıdır. Yenə də vəsait lazımdır. Ona görə də sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Ancaq bu məsələləri həll etmək üçün iqtisadi imkan olmalıdır. Əgər sənin imkanın, gəlirin yoxdursa, sən bunu nəyin hesabına edə bilərsən? Bizim indi gəlirlərimiz çox ciddi şəkildə azalıb. 2015-ci ildə heç kim gözləyə bilməzdi ki, neftin qiyməti 3 dəfə aşağı düşəcək. Yəni bu o deməkdir ki, bizim gəlirlərimiz 3 dəfə azalıb. Ona görə indiki şəraitdə biz ancaq və ancaq çox düşünülmüş siyasət, səmərəli iş, yenə də deyirəm, idarəetmə sahəsində aparılan və aparılacaq islahatlar hesabına öz iqtisadi inkişafımızı təmin edə bilərik. Bu, iqtisadiyyat üçün bir stress idi. Əlbəttə, bunun çox böyük mənfi fəsadları var. Amma digər tərəfdən, bu bizim hamımızı daha da səmərəli işə sövq etməlidir. İndi cəmiyyəti, insanları narahat edən xoşagəlməz hallara son qoyulmalıdır. Burada, əlbəttə ki, insanlardan çox şey asılıdır. Dövlət siyasəti də aparılır, aparılacaqdır. Elə tədbirlər görülməlidir ki, xoşagəlməz halların meydanı, necə deyərlər, daralsın. Sistem xarakterli islahatlar aparılmalıdır. Məsələn, «ASAN xidmət» – orada 30-a yaxın xidmət göstərilir və heç bir problemsiz, bürokratiyasız, rüşvətsiz. Bir arayışı almaq üçün hansı əzabları çəkirdik. İndi yoxdur. Yəni mümkündür. Hər yerdə, hər sahədə, bütün icra orqanlarında, yerli, mərkəzi, dövlət strukturlarında belə olmalıdır. Dövlət məmurları vicdanla işləməlidirlər. Onların, necə deyərlər, vicdanı imkan verməməlidir ki, ayrı yolla getsinlər. Amma eyni zamanda, ictimai nəzarət də güclü olmalıdır. Xalq da siqnal verməlidir, deməlidir, məlumat ötürməlidir ki, bax, filan yerdə bu və ya digər çatışmazlıq var. Belə olan halda, heç bir problem bizim qarşımızı kəsə bilməz.

Yenə də deyirəm, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Ancaq mən tam əminəm ki, Azərbaycan inkişaf edəcək, biz bütün sosial proqramları icra edəcəyik. Bununla bərabər, investisiyalar üçün də bizdə

kifayət qədər vəsait olacaqdır. Hesab edirəm ki, gələn ilin əvvəlində biz dövlət büdcəmizə yenidən baxmalıyıq. Dürüstləşmə aparılmalıdır və orada həm insanların sosial təminat məsələləri öz həllini tapacaq, həm investisiya məsələləri ki, biz 2016-cı ildə uğurla inkişaf edək. Bax, bizim vəzifəmiz bundan ibarətdir.

**S a k i n:** Möhtərəm Prezidentimiz, bu gün mənim üçün bəlkə də burada oturanlardan daha uğurlu bir gündür. Bəlkə də 2015-ci il daha uğurlu ildir. Sizin dekabr ayında imzaladığınız sərəncama əsasən mənim işlədiyim təhsil müəssisəsi ilin ən yaxşı ümumtəhsil müsabiqəsinin qalibi olub.

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm.

**S a k i n:** Çox sağ olun. Mən şəxsən heç inanmazdım ki, üzbəüz gəlib Sizə bu barədə öz təşəkkürümü bildirərəm. Biz Sizin gördüyünüz o uğurlu işləri dəstəkləyirik. Deyirsiniz ki, birlik lazımdır. Əlbəttə, biz Sizinlə birlikdəyik. Əgər xalq öz rəhbəri, lideri ilə birləşməsə, heç bir uğur əldə etmək olmaz. Amma bu gün Sizinlə xalqın arasında olan bu gözəl münasibət bunun bariz nümunəsidir ki, biz uğurla addımlayırıq. Sizə dəstək olan gözəl xanımınız, bizim rayonumuzun deputatı Mehriban xanımla həmişə qürur duyuruq. Mehriban xanım, Sizə bildirirəm ki, inşalarımızda mən bu birliyi həmişə şagirdlərimizə nümunə çəkmişəm. Sizin ailəniz bizə nümunə olub. Bu gün Sizin tərbiyə etdiyiniz bu gözəl Leyla balamız bizim gənclərimizə nümunədir.

Hörmətli cənab Prezident, Sizin 148 saylı məktəbdə etdiyiniz çıxışdan irəli gələn vəzifələr bu gün bizim fəaliyyət planımızda ən prioritet sahə kimi qarşımızda qoyulan istiqamətlərdəndir. Siz bu çıxışınızda milli-mənəvi dəyərlərimizə, azərbaycançılıq məfkurəsinə böyük qiymət vermisiniz, milli ruhumuzun, milli şüurumuzun formalaşmasına böyük diqqət yetirmisiniz. Çünki uğurumuzun rəhni yalnız budur. Biz də öz işimizlə Sizin bu uğurlarınıza, əlbəttə, dəstək olmalıyıq. Gözəl adət-ənənələrimizdən biri də sələflərimizin xələflərinə verdikləri adlardır. Bu gün həmin adı, ulu öndərimizin adını daşıyan bir balamız var. Biz inşamızda da, yenə bildirirəm ki, bunu qeyd etmişik. Ulu öndər Heydər Əliyevin adını daşıyan kiçik Heydər Əliyevimiz var. O da bizim gənclərimizə nümunədir. Biz

onun bu gün nümunəvi davranışını Azərbaycan gənclərinə nümunə göstəririk. Arzumuz budur ki, gələcəkdə bu adın məsuliyyətini Sizə layiq şəkildə davam etdirsin, inşallah.

Bir daha Sizi bu Həmrəylik Günü münasibətilə təbrik edirik. Bizimlə görüşməyinizi bir xəyal hesab edirdik. Bayaq orada «dəyirmi masa»da ağsaqqallarımızla bir yerdə əyləşmişdik. Deyirdik Allahın bizə lütfüdür ki, biz bu gün Sizinlə yeni təqvim ilimizi – 2016-cı ili qarşılayırıq. Allah-Taala həmrəyliyimizi bizə çox görməsin. Mən əminəm ki, bu xalq həmişə Sizin arxanızda olacaq, bu tandemin arxasında olacaq.

Sosial rifahımızın yüksəlməsi üçün əlinizdən gələni edirsiniz. Ölkəmizdə, bölgələrimizdə, rayonlarımızda, kəndlərimizdə hətta hər xırda problemi belə, hamıdan gözəl bilirsiniz. Allah-Taala Sizə o qədər cansağlığı versin ki, məqsədlərinizə çatmağa nail olasınız, inşallah. Allah balalarınızı xoşbəxt etsin. Sağ olun.

**İlham Əliyev:** Çox sağ olun.

* * *

*Daha sonra prezident İlham Əliyev və ailə üzvləri Zirə Mədəniyyət Mərkəzinin ətrafında salınan eko-parkda yaradılan şəraitlə tanış oldular. Burada müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva olan «Ürək» əsərinin 3 metrlik abidəsi ucaldılıb. 10 hektar ərazidə salınan Eko-Park xüsusi landşaft dizaynı ilə layihələndirilib. Geniş yaşıllaşdırma işləri görülüb, minlərlə müxtəlif növ nadir dekorativ və meyvə ağacları, bəzək kolları və güllər əkilib. Parkda müxtəlif növ attraksionlardan ibarət uşaq meydançası yaradılıb, idman trenajor qurğuları quraşdırılıb. Elektromobillər və velosipedlər üçün xüsusi yollar salınıb. Parkın özəlliyini artıran mühüm cəhətlərdən biri də burada 25 adda 150-dək ekzotik quşların saxlanmasıdır. Onların saxlanması və artırılması üçün burada quş parkı yaradılıb. Bundan əlavə, parkda kiçik süni su hövzələri – gölməçələr də var. Ərazinin suvarılması xüsusi sistemlə həyata keçirilir və avtomatik idarə olunur.*

*Parkda asudə vaxtın səmərəli keçirilməsi üçün istirahət zonaları yaradılıb, köşklər qurulub. Fəvvarələr meydançası əraziyə xüsusi*

*yaraşıq verir. Pilləli formada yaradılan meydançada rəngarəng işıqlandırma sistemi də qurulub.*

*Qeyd edək ki, 2005-ci ildən başlayaraq prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın başçılığı ilə bütün ölkədə olduğu kimi, Xəzər rayonunda da çoxsaylı layihələr həyata keçirilib. İndiyə qədər Zirə qəsəbəsində İkinci dünya müharibəsi iştirakçılarının xatirəsinin əbədiləşdirildiyi Xatirə bağı yenidən qurulub, müasir Müalicə-Diaqnostika Mərkəzi tikilib, qəsəbə sakinlərinin asudə vaxtının səmərəli təşkili üçün salınan parkda Mədəniyyət evi, Zirə İdman Kompleksi, stadion və digər sosial obyektlər istifadəyə verilib, təhsil müəssisələri inşa olunub, yollar salınıb. Qəsəbə sakinlərinin məşğulluğunun təmin olunması məqsədilə mühüm tədbirlər həyata keçirilib. Təsadüfi deyil ki, Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın fəaliyyətə başlaması ilə burada 60-a yaxın yerli sakin daimi işlə təmin olunub.*

*Ərazi ilə tanışlıqdan sonra prezident İlham Əliyev və ailə üzvləri Eko-Parkda ağac əkdilər.*

*Qeyd edək ki, Zirə Mədəniyyət Mərkəzi xüsusi xidməti avtobuslarla təchiz olunub. Bundan əlavə, qəsəbə sakinlərinin rahatlığının təmin olunması üçün Zirə bələdiyyəsinə sərnişin avtobusları verilib. Onu da deyək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zirə Mədəniyyət Mərkəzinin yaxınlığında Suraxanı rayonu 2 saylı Uşaq evi üçün 140 yerlik yay düşərgəsinin inşası başa çatmaq üzrədir.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2015-ci il arxada qalır. 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə – 3 dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq.

Ancaq təbii ki, bizim gəlirlərimiz kəskin şəkildə azaldı, milli valyutamız – manat devalvasiyaya uğradı. Ancaq yenə də biz çalışırdıq, çalışırıq və çalışacağıq ki, bu vəziyyət insanların yaşayış səviyyəsinə təsir etməsin. Xüsusilə istehlak qiymətlərinin sabit saxlanması bizim əsas vəzifəmizdir.

Bu il «Kənd təsərrüfatı ili»dir. Şadam ki, kənd təsərrüfatı təxminən 7 faiz artıb. Bütövlükdə götürəndə bizim iqtisadi sahədə apardığımız siyasət mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünya miqyasında 40-cı yerdədir.

Bu, böyük və tarixi nailiyyətdir. Bu onu göstərir ki, biz düzgün siyasət aparırıq və gələcəkdə, əlbəttə, Azərbaycan xalqının maraqlarını daim təmin edəcəyik.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Baxmayaraq ki, gəlirlərimiz kəskin şəkildə azalıb, bir dənə də olsun sosial proqram təxirə salınmayıb. Bütün sosial layihələrimiz icra edilib. Bu da siyasətimizin mahiyyətini, yəni mənasını göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır.

2015-ci ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Mənim xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir. 2015-ci ildə rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdə olmuşam, 20 xarici səfər həyata keçirmişəm və bu il Azərbaycanda 15 dövlət və hökumət başçısı rəsmi və qeyri-rəsmi səfərlərdə olmuşlar.

Eyni zamanda, bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqemiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır.

Sizi əmin edirəm ki, 2016-cı ildə də və bundan sonrakı illərdə də Azərbaycan prinsipial siyasətdən dönməyəcək, müstəqil siyasət aparacaq və bizə qarşı kampaniya aparmaq istəyənlər bunu nəzərə alsınlar. Onların səyləri əbəsdir, bizim siyasətimizə təsir etmir və heç vaxt etməyəcəkdir.

Xarici siyasətimizin əsas prioriteti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə

bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdır.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqemizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Buna nail olmaq üçün, əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilib. Düşmənə sarsıdıcı zərbələr endirilib və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqemizdən dönməyəcəyik və lazım olarsa, hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur.

2015-ci ildə də məcburi köçkünlərin problemləri öz həllini tapıb. Hər il minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülür. Bu siyasət gələn il də davam etdiriləcəkdir.

2015-ci ildə enerji sahəsində önəmli addımlar atılıb. TANAP layihəsinin icrasına başlanılıb. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək.

Bu il nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılıb. Şərq–Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni «İpək yolu» layihəsi reallaşır və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə, bundan sonra – bu 2 mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir. Bu nə deməkdir, bunu izah etməyə ehtiyac yoxdur.

Bu il tarixdə ilk dəfə olaraq Avropa oyunları keçirilmişdir. Azərbaycan burada da öz gücünü göstərdi. 6000-dən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmiş və ölkəmizin reallıqları ilə özləri tanış ola bilmişdir. Avropa oyunları Yay Olimpiya oyunlarının səviyyəsində keçirildi. Avropa oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir. Çünki bizim idmançılarımız, milli komandamız 56 medal qazanaraq – onlardan 21-i qızıl medaldır – komanda hesabında 2-ci yerə layiq görüldü. Bu doğrudan da ölkəmizin böyük zəfəridir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, biz bu uğura imza ata bildik.

2015-ci ildə parlament seçkiləri keçirildi. Bu da ölkəmizin inkişafı üçün çox önəmli hadisə idi. Parlament seçkiləri şəffaf, ədalətli keçirildi. Bütün beynəlxalq müşahidəçilər bunu qeyd etmişlər. Azərbaycan xalqının iradəsi öz əksini tapmışdır. Parlament seçkilərinin nəticələri xalq tərəfindən bizim siyasətimizə verilən yüksək qiymətin təzahürüdür. Mən bunu belə qəbul edirəm.

Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu bizim şüurlu seçimimizdir. Xalq – iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar və Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları bilirlər ki, bu gün Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla gedir. Bu gün müstəqil Azərbaycan güclü dövlətdir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Mən bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2015-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi, eyni zamanda, Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz üzvləri olan xristian etiqadlı həmvətənlərimiz millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verərək, ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edirlər.

Əziz dostlar!

İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan və hər il Azərbaycanda xüsusi coşqu ilə qeyd edilən Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu əziz gün ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2016-cı il*

## NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASDA* İŞTİRAK

*10 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz 2015-ci ilin yekunlarını müzakirə edəcəyik. 2016-cı ildə görüləcək işlər haqqında danışacağıq.

2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yarandı. Əlbəttə, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir. Yaxın Şərqdə – İraqda, Suriyada, Liviyada münaqişələr, qanlı toqquşmalar, müharibələr davam edir.

---

* Назирляр Кабинетинин 2015-ъи илин сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунан иъласында Maliyyə naziri Samir Şərifov, Баш назирин мцавини Яли Щяsənov və Кянд Тясяррцфаты назири Heydər Əsədov çıxış etdilər.

Əlbəttə, bu bizi ciddi narahat edir. Çünki biz də bu regionda yaşayırıq və regionda baş verən hadisələr istər-istəməz bizə də öz təsirini göstərir.

Xarici müdaxilə nəticəsində Yaxın Şərqdən artıq qaçqın, köçkün vəziyyətinə düşmüş yüz minlərlə insan Avropaya pənah gətirir, yüz minlərlə insan həlak olub. Milyonlarla insan qaçqın, köçkün vəziyyətində yaşayır.

Əlbəttə, bu insanların aqibəti bizi narahat edir. Çünki biz də vaxtilə çox böyük humanitar fəlakətlə üz-üzə qalmışdıq. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan çox Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə düşmüşdü. Biz yaxşı bilirik ki, bu nə deməkdir. O vaxt Azərbaycan bu humanitar fəlakətlə təkbaşına üz-üzə qalmışdı. Bildiyiniz kimi, adambaşına ən yüksək köçkün, qaçqın səviyyəsi Azərbaycanda olmuşdur. Ancaq buna baxmayaraq, biz lazımi tədbirlər görərək, öz daxili resurslarımıza əsaslanaraq bu vəziyyətdən çıxa bildik. Biz köçkünlərin, qaçqınların yaşayış səviyyəsini böyük dərəcədə yaxşılaşdıra bilmişik.

Ancaq bu gün Avropada buna miqrant böhranı deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə vətənini, əmlakını, doğmalarını itirmiş insanlar üçün böhrandır. Onlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, islamofobiya meyillərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldıl-

ması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin.

Keçən il Türkiyə–Rusiya münasibətləri gərginləşdi. Təbiidir ki, bu bizi çox narahat edir. Çünki hər iki ölkə bizim qonşumuzdur, yaxın dostumuzdur. Əlbəttə, bizim üçün, əminəm ki, Türkiyə və Rusiya üçün bu, arzuolunan vəziyyət deyil.

Bununla bərabər, bu yaxınlarda İran–Səudiyyə Ərəbistanı münasibətləri həddindən artıq gərginləşdi və diplomatik əlaqələr kəsildi. İran və Səudiyyə Ərəbistanı bizim üçün yaxın və dost ölkələrdir. İran ilə bizi birgə tarix, mədəniyyət birləşdirir, bir çox layihələr birgə icra edilir. Səudiyyə Ərəbistanı bizim üçün çox önəmli tərəfdaşdır. Yaxşı bilirsiniz ki, keçən il mənim Səudiyyə Ərəbistanına rəsmi səfərim yüksək səviyyədə keçmişdir. Mənə, eyni zamanda, Azərbaycan dövlətinə, Azərbaycan xalqına çox böyük qonaqpərvərlik göstərilmişdir. Müqəddəs Kəbənin qapıları üzümüzə açılmışdır. Səudiyyə Ərəbistanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində həmişə birmənalı şəkildə Azərbaycanın mövqeyini dəstəkləyir, nəinki dəstəkləyir, hətta bu münaqişəyə və işğala görə Ermənistan ilə heç bir əlaqə, o cümlədən diplomatik əlaqə saxlamır. İran–Səudiyyə Ərəbistanı münasibətlərində yaranmış gərginlik bizi narahat edir. Çünki hər iki ölkə ilə bizim yaxın əlaqələrimiz var. Bu vəziyyət istər-istəməz müsəlman aləmində baş verən hadisələrə təsir göstərir.

Biz həmişə çalışmışıq və öz səylərimizi göstərmişik ki, müsəlman aləmi daha da sıx birləşsin. Bu gün də çalışırıq və Azərbaycanda keçirilən müxtəlif tədbirlər, o cümlədən gələn il keçiriləcək İslam Həmrəyliyi oyunları bu məqsədi güdür ki, müsəlman aləmində əlaqələr daha da yaxın olsun, münaqişələrə son qoyulsun, əməkdaşlıq üçün daha yaxşı zəmin yaradılsın.

Budur keçən il müşahidə olunan mənzərə. Mən hələ MDB məkanında baş verən iqtisadi və siyasi hadisələri demirəm. Neftin qiyməti dünya bazarlarında kəskin şəkildə – 3-4 dəfə aşağı düşüb. Bu bizim gəlirlərimizə mənfi təsir göstərib. 2015-ci ildə geosiyasi və geoiqtisadi mənzərə çox narahatedici və ağırdır. Bu reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqla hesablaş-

malıyıq. Əlbəttə, bu reallığı nəzərə alaraq öz siyasətimizi bu il və bundan sonrakı illərdə davam etdirəcəyik.

O ki qaldı ölkəmizin inkişafına, Azərbaycan 2015-ci ildə uğurla inkişaf edib. Qarşıda duran bütün vəzifələr icra edilib. Ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Mən keçən il xarici ölkələrə 20 rəsmi və işgüzar səfər etmişəm. Xarici ölkələrin dövlət və hökumət başçıları Azərbaycana səfərlər etmişlər, 15 dövlət və hökumət başçısı Azərbaycanda olub. Bizim beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox uğurlu olub. Azərbaycan bütün məsələlərlə bağlı öz prinsipial mövqesini bildirir, ifadə edir. Bizim mövqemiz haqq-ədalət, beynəlxalq hüquq əsasında formalaşır.

Bu gün burada regionda gedən proseslərlə bağlı öz fikirlərimi bildirərkən, eyni zamanda, ictimaiyyətə çatdırmaq istəyirəm ki, Azərbaycan bundan sonra da regionda sabitləşdirici rol oynamağa çalışacaq. Çalışacaq ki, risklər azalsın, əməkdaşlıq daha da dərinləşsin.

Əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmayıb. Deyə bilərəm ki, danışıqlar istiqamətində durğunluq müşahidə olunurdu. Sadəcə olaraq, ilin sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirildi. Bu görüş də deyə bilərəm ki, formal xarakter daşıyırdı – görüş naminə görüş. Çünki 2015-ci ildə prezidentlər səviyyəsində görüş keçirilməmişdi. Ancaq bu görüşün heç bir faydası, yaxud da ki, nəticəsi olmadı. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir. Status-kvonu nə qədər çox mümkündürsə, saxlamaq istəyir, işğal olunmuş torpaqlardan çəkilmək istəmir və danışıqları sadəcə olaraq, bir proses kimi qəbul edir, vaxt uzatmaqla məşğuldur və danışıqları sonsuz bir proses kimi, gələcəkdə də görmək istəyir.

Bizim isə mövqemiz tam fərqlidir. Biz münaqişənin həllini istəyirik. Vasitəçilər də, Minsk qrupunun həmsədrləri də dəfələrlə bildiriblər ki, onlar da münaqişənin həllini istəyirlər. Təbii ki, onların vəzifəsi bundan ibarətdir. Ancaq əfsuslar olsun ki, işğalçıya bu istiqamətdə heç bir ciddi təzyiq göstərilmir. Burada, əlbəttə ki, işğalçı ilə işğala məruz qalan ölkə arasında fərq qoyulmalıdır. Bizim

torpaqlarımız işğal altındadır və bu işğala son qoyulmalıdır. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları bir neçə dəfə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Biz bunu müsbət qarşılayırıq. Ancaq status-kvonun dəyişdirilməsi üçün heç bir konkret addım atılmır. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğala son qoyulacaq.

Əlbəttə ki, Azərbaycan öz mövqeyini bundan sonra da müdafiə edəcək. Bizim mövqemiz beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, erməni işğalçı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın. Onu da qeyd etməliyəm ki, postsovet məkanında buna oxşar münaqişələrlə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə qəbul etməyib. Ancaq işğala məruz qalan postsovet məkanının digər ölkələri ilə bağlı bəzi hallarda ərazi bütövlüyü haqqında birmənalı bəyanatlar səslənir. Bizim ərazi bütövlüyümüz də eyni əhəmiyyət daşıyır. Heç bir başqa ölkənin ərazi bütövlüyündən aşağı əhəmiyyət daşımır və bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Azərbaycan bu istiqamətdə öz siyasətini aparacaq. Əlbəttə ki, diplomatik səylər davam etdiriləcək. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün üzv olduğumuz beynəlxalq təşkilatların gündəliyindədir və olmalıdır da. Biz bu məsələni bütün beynəlxalq tribunalarda qaldırırıq və qaldıracağıq, diplomatik və siyasi səylərimizi artıracağıq. Ermənistanı bundan sonra da bu bölgədə bütün layihələrdən kənarda saxlayacağıq, öz hərbi gücümüzü artıracağıq.

Azərbaycanın hərbi potensialı 2015-ci ildə xeyli möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlüyü əldə edərək, öz iradəsini diktə etdi. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər.

Biz bundan sonra da bütün imkanlardan istifadə edəcəyik. Siyasi, diplomatik və iqtisadi rıçaqlardan istifadə edəcəyik, döyüş potensialımızı gücləndirəcəyik və beləliklə, münaqişənin həllini yaxınlaşdıracağıq. Bir daha demək istəyirəm ki, bizim prinsipial mövqemiz ədalətə, o cümlədən tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanır.

2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib. Bu da çox müsbət haldır. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməyib. Bu da mümkün deyildi. Çünki qeyd etdiyim kimi, neftin qiyməti 3-4 dəfə aşağı düşüb. Manatın məzənnəsi devalvasiyaya uğrayıb. Bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi imkan vermirdi ki, manatın məzənnəsi əvvəlki səviyyədə qalsın. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğrayıb. Belə olan halda, Azərbaycanda istehsal olunan məhsullar öz rəqabətqabliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Bu, qaçılmaz bir addım idi. Bunun səbəbi Azərbaycandan kənarda yaranmışdı. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsini mən şəxsən iqtisadi amillərlə, sırf iqtisadi amillərlə bağlaya bilmərəm. Çünki dünya iqtisadiyyatı o qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 3-4 dəfə aşağı düşsün. Mənim fikrimcə, burada ilk növbədə, siyasi amillər öz rolunu oynayıb. Kimsə kiminləsə mübarizə aparır, biz isə bundan əziyyət çəkirik. Bu da, əlbəttə ki, bizim iqtisadi vəziyyətimizə mənfi təsir göstərir. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların azalması üçün daha da fəal iş görək. Bu barədə mən bir qədər sonra öz fikirlərimi bildirəcəyəm.

Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artıb. Bu məni çox sevindirir. Çünki bu, son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir. Hesab edirəm ki, qeyri-neft sənayesinin 8,4 faiz artması bizim əsas göstəricimizdir.

Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulub. Bunun yarısı xarici sərmayədir. Bu da çox müsbət haldır. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi, öz potensialını təqdim edir. Başqa iqtisadi göstəricilər də müsbət dinamikanı göstərir. Yəni 2015-ci ildə bütün bu geosiyasi və iqtisadi amilləri nəzərə alsaq, iqtisadi inkişafa nail olmaq özlüyündə böyük nailiyyətdir.

Keçən il bütün sosial proqramlar icra edilib. Heç bir ixtisar olmayıb. İnsanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilib. Bu sahədə də islahatlar aparılıb və bu yardımı alan insanların sayı azalıb. Bunun hesabına həqiqətən bu yardıma möhtac olan ailələrə daha da böyük məbləğdə yardım verilir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artıb. Sosial infrastruktur layihələri icra edilir. Baxmayaraq ki, bizim gəlirlərimiz azalıb, ancaq bu sahəyə biz vəsaiti təşkil edə bilmişik. 60-a yaxın tibb müəssisəsi tikilib, təmir edilib, 20-dən çox məktəb təmir edilib, tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir. Yəni sosial infrastruktur layihələri Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuşdu və onlar icra edildi, bu il də icra edilməlidir.

Regionların inkişafı 2015-ci ildə sürətlə gedib. Mən dəfələrlə bölgələrdə olmuşam. Vəziyyətlə tanış olurdum, görürdüm ki, hər bir yerdə inkişaf, tərəqqi var, yeni sənaye müəssisələri açılır. 100 mindən çox yeni iş yerləri açılıb ki, onlardan 84 mini daimi iş yeridir. Bununla bərabər, onu da deməliyəm ki, 40 min iş yeri bağlanıb. Yəni 84 min daimi iş yeri açılıb, 40 min iş yeri bağlanıb. Yenə də burada biz müsbət dinamikanı görürük. Ancaq bununla bərabər, iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcək. Bu gün biz bu barədə də danışacağıq.

Azərbaycanda çox müsbət demoqrafik vəziyyət mövcuddur. Ötən il əhalinin sayı 114 min nəfər artıb. Bu çox müsbət haldır, ümumi iqtisadi inkişafın təzahürüdür. Bu bizi daha da fəal işləməyə sövq etməlidir. Çünki 1 il ərzində əhalinin sayının 114 min nəfər artması gələcəkdə yeni iş yerləri, bir neçə ildən sonra yeni uşaq

bağçaları, yeni məktəblər deməkdir. Biz bunları etməliyik. Bizim üstünlüyümüz ondan ibarətdir ki, əhali artır. Eyni zamanda, bu, iqtisadiyyatımıza əlavə yükdür. Biz elə işləməliyik ki, iqtisadi inkişaf, açılan iş yerləri, yaradılan sosial infrastruktur demoqrafik inkişafı üstələsin. Hökumət qarşısında bu vəzifə qoyulur və biz bu vəzifəni icra etməliyik.

Keçən il TANAP layihəsinin inşası başlanılıb. Bu, ölkəmiz, region və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli layihədir, strateji əhəmiyyət daşıyan bir layihədir. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Avropa isə alternativ qaz mənbəyi əldə edəcək. Tranzit ölkələr – eyni zamanda, onlar istehlakçı ölkələrdir – bundan böyük mənfəət götürəcək. Bu layihənin iştirakçıları böyük siyasi və iqtisadi dividend əldə edəcəklər. Bu layihənin təşəbbüskarı Azərbaycandır. Əsas iqtisadi yük bizim üzərimizə düşür və biz bu layihəni icra etməyə tərəfdaş ölkələrlə başlamışıq. Keçən il Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulub və işlər uğurla davam etdirilir. Bu il artıq kəmərin inşasına başlanılır.

2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş verdi. İlk dəfə olaraq Avropa oyunları keçirildi. Azərbaycan bu oyunları ən yüksək səviyyədə keçirə bildi. Baxmayaraq ki, oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirdik. Bütün Avropaya və dünyaya müstəqil ölkəmizin imkanlarını, xalqımızın qonaqpərvərliyini, gözəl Bakı şəhərimizi göstərdik. Azərbaycan reallıqlarını 6 min idmançı, minlərlə qonaq öz gözləri ilə görə bildi. Bu reallıqlar bizim nüfuzumuzu daha da artırır və gələcəkdə Azərbaycana qoyulacaq investisiyaların həcmini, Azərbaycana gələcək turistlərin sayını artıracaq. Yəni Avropa oyunları sadəcə olaraq, dünyaya bizim təqdimatımız deyildi. Onun çox böyük praktiki nəticələri olacaqdır. Biz müasir idman, xidmət və nəqliyyat infrastrukturu yaratmışıq. Bunlar Azərbaycan xalqının sərvətidir və bu oyunlar, əlbəttə ki, müstəqil ölkəmizin qüdrətini göstərdi. Bu oyunlar göstərdi ki, biz ən mötəbər beynəlxalq tədbiri ən yüksək səviyyədə keçirə bilərik. Əlbəttə, idmançılarımız da bizi sevindirdilər. Azərbaycan komanda hesabında

2-ci yeri tutdu. İdmançılarımız 56 medal qazanmışlar ki, onlardan 21-i qızıl medaldır. Biz idman gücümüzü də göstərdik. Əslində idman hər bir ölkənin ümumi inkişafını əks etdirir. İnkişaf etmiş ölkələr idman meydançalarında daha çox qələbə qazanırlar. Azərbaycan idman ölkəsidir, inkişafda olan dövlətdir və biz bu tarixi missiyanı şərəflə yerinə yetiririk.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin həyatında əlamətdar hadisə idi. Parlament seçkiləri ədalətli, şəffaf və demokratiya şəraitində keçirildi. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirmişlər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilmişdir. Bütün beynəlxalq rəy sorğuları da rəsmi nəticələri təsdiqləyir. Bu çox önəmli hadisədir, çünki biz demokratiya yolu ilə gedirik, demokratik cəmiyyət qururuq. İnsan haqları, demokratik inkişaf daim bizim prioritet istiqamətlərimizdir. Seçkilər – istənilən seçkilər bu istiqamətdə bir sınaqdır. Biz bu sınaqdan şərəflə çıxdıq. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə ifadə olundu. Aparılan siyasətə xalq tərəfindən yüksək qiymət verildi. Çünki mən seçkilərin nəticələrini belə qəbul edirəm. Bir tərəfdən, Azərbaycan dövləti demokratiyaya sadiq olduğunu bir daha nümayiş etdirdi, digər tərəfdən, parlament seçkilərinin nəticələri aparılan siyasətə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə görə Azərbaycan vətəndaşlarına minnətdaram və bəyan etmək istəyirəm ki, bundan sonra da biz ölkəmizi inamla irəliyə aparacağıq. Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda sabitlik təmin edilir, ictimai-siyasi vəziyyət müsbətdir. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir.

## YEKUN NİTQİ

Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Xüsusilə burada səslənən fikirlər və ümumiyyətlə, keçən il müşahidə olunan mənzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda, biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik.

Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılıb. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha da böyük uğurlara nail olacağıq.

Ümumiyyətlə, ümumi daxili məhsulumuzun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır. Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Vəzifə bundan ibarətdir. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik.

Bu il biz xarici investisiyaları Azərbaycana daha böyük həcmdə cəlb etməliyik. Düzdür, bu gün dünya miqyasında xarici investisiyalar uğrunda mübarizə aparılır. Ancaq Azərbaycan xarici sərmayə üçün çox gözəl ölkədir, xarici sərmayələr qorunur. Sərmayələr əsasən daha çox neft-qaz sektoruna qoyulur. Ancaq eyni zamanda, son vaxtlar qeyri-neft sektoruna da xarici sərmayə qoyulması müşahidə olunur. Biz çalışmalıyıq ki, xarici sərmayəni ölkəmizə cəlb edək, xüsusilə qeyri-neft sektoruna. O sahələrə ki, öz növbəsində bu sahələrin inkişafı ixrac potensialımızı gücləndirəcək və idxaldan asılılığımızı azaldacaq. Hesab edirəm ki, kənd təsərrüfatı sektoruna, sənaye sektoruna, xidmət sektoruna xarici sərmayəni cəlb etmək bizim üçün daha da məqbul sayıla bilər və hökumət bu istiqamətdə ciddi iş aparmalıdır. Əvvəlki illərdə xarici sərmayəni daha çox bizə olan müraciətlər əsasında cəlb edirdik. Xarici investorlar gəlirdilər, təkliflər verirdilər, müvafiq orqanlar buna

baxırdı və ondan sonra qərar qəbul olunurdu. Ancaq indiki şəraitdə biz özümüz fəal işləməliyik. Bizim iqtisadi qurumlarımız, eyni zamanda, xaricdəki səfirliklərimiz də bu işlərə qoşulmalıdır, potensial investorlara Azərbaycan haqqında daha da geniş məlumat verilməlidir. Bizim imkanlarımız, artan iqtisadi inkişafımız, genişlənən daxili bazarımız, eyni zamanda, regional bazarlar hesab edirəm ki, potensial investorlar üçün cəlbedici ola bilər. Bir sözlə, bu istiqamətdə çox ciddi iş aparılmalıdır və nəticələr olmalıdır.

Eyni zamanda, yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. Son vaxtlar biz bunu görürük. Xüsusilə dövlət tərəfindən verilən güzəştli kreditlər hesabına biz bunu görürük. Əlbəttə, bu, dövlət siyasətidir. Bu kreditlər sahibkarlara verildikdə də onların qarşısında şərt qoyulur ki, sərmayəni məhz bu və ya digər sahəyə yatırsınlar. Ancaq bizim artıq geniş biznes təbəqəmiz, iş adamlarımız var. Onlar da öz sərmayələrini ölkə iqtisadiyyatına qoymalıdırlar. İlk növbədə, sərmayəni iqtisadiyyatın real sektoruna – istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar. Dövlət qurumları isə – həm mərkəzi dövlət orqanları, həm yerlərdəki icra orqanları onlar üçün bütün şəraiti yaratmalıdır. Onların işinə müdaxilə etməməlidir, əksinə, onları təşviq etməli və mütəmadi qaydada məlumat verməlidirlər ki, hər bir bölgə üzrə nə qədər investisiya qoyulubdur, investisiyanın mənbəyi nədir. Çünki dövlət investisiyaları təbii ki, dövlət tərəfindən qoyulur. Burada yerli və mərkəzi icra orqanlarının fəaliyyəti o qədər də önəmli deyil. Ancaq, əlbəttə ki, mərkəzi və yerli dövlət qurumları özəl xarici və yerli investisiyaları cəlb etməyə çalışmalıdır.

Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq. Əvvəlki illərdə Neft Fondundan dövlət büdcəsinə böyük məbləğdə transfert olunurdu. Bunun da təbii səbəbləri var idi. Biz çalışırdıq ki, əsas infrastruktur layihələrini maksimum tez bir zamanda icra edək və buna nail ola bilmişik. Bu gün deyə bilərəm ki, Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Elektrik enerjisi ilə bağlı generasiya güclərimiz kifayət qədər böyükdür, qazlaşdırma uğurla aparılır, içməli su layihələri, yolların tikintisi… Yəni Dövlət Neft

Fondunun transfertlərinin məqsədi bundan ibarət idi ki, infrastruktur, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılsın və biz buna nail ola bilmişik. İndiki şəraitdə biz Neft Fondunun vəsaitini qorumalıyıq. Əvvəlki illərdə apardığımız siyasət davam etdirilə bilməz. Neft Fondundan dövlət büdcəsinə transfertlər bu il azalır və biz gələcəkdə xüsusilə hər bir layihəyə, onun əhəmiyyətinə baxmalıyıq və məhz ondan sonra qərar qəbul edilməlidir.

Vergi bazası genişləndirilməlidir. Buna nail olmaq üçün kifayət qədər ehtiyatlar var. Biz qeyri-formal iqtisadi fəaliyyəti leqal müstəviyə gətirməliyik və bu istiqamətdə çox ciddi addımlar atılmalıdır. Vergi Məcəlləsinə edilmiş bir sıra dəyişikliklər artıq qüvvəyə minmişdir və daha da gözəl imkanlar yaradır.

Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. İnhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Hesab edirəm ki, bax, biz bu 3 istiqamət üzrə fəal işləsək, büdcə gəlirlərimizin məbləğini xeyli artıra bilərik. Hesab edirəm ki, büdcəyə mövcud proqnozlardan daha çox vəsait daxil olmalıdır.

2016-cı ilin Dövlət İnvestisiya Proqramı yaxın günlərdə mənə təqdim edilməlidir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapacaqdır. Həmçinin dövlət sərmayəsi ölkəyə tez bir zamanda gəlir gətirə və idxalı əvəzləyə biləcək sahələrə qoyulmalıdır.

Maliyyə nəzarəti daha da gücləndirilməlidir. Xüsusilə Hesablama Palatasının işi daha da səmərəli şəkildə təşkil edilməlidir. Dövlət qurumlarının, dövlət şirkətlərinin xərclərinə çox ciddi nəzarət olmalıdır. Deyə bilmərəm ki, əvvəlki illərdə nəzarət lazımi səviyyədə idi. Bəzi hallarda dövlət qurumları, dövlət şirkətlərimiz lazım olmayan, səmərəsiz xərclər edirdi. Buna son qoyulmalıdır. Burada maliyyə nəzarəti çox güclü, ciddi olmalıdır. Pozuntulara yol verən şəxslər ciddi cəzalandırılmalıdırlar.

Azərbaycanda bir neçə dövlət qurumu, dövlət şirkəti var ki, onlar ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır, dövlət inhisarındadır. Ancaq orada, o şirkətlərdə idarəetmə qaydaları dəyişdirilməlidir. Korporativ idarəetmə prinsipləri tətbiq edilməlidir. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı korporasiyalarının

təcrübəsi öyrənilməli və tətbiq edilməlidir. Bu şirkətlər tam şəffaf fəaliyyət göstərməlidir.

Bununla yanaşı, ictimai nəzarət mexanizmləri işə salınmalıdır. Mən dəfələrlə ictimai nəzarət haqqında fikirlərimi bildirmişəm. Amma hesab edirəm ki, ictimai nəzarət mexanizmləri işlənməlidir. Çünki sadəcə olaraq, insanlardan tələb etmək ki, gedin o və ya bu sahəyə nəzarət edin, bu, çətin məsələdir. Burada lazımi səviyyədə həm ictimai fəallıq, həm də mexanizmlər olmalıdır. İctimai nəzarət mexanizmləri mütləq tətbiq edilməlidir. Hökumət bu məsələ ilə bağlı öz təkliflərini təqdim etsin. Təbii ki, heç bir vaxt israfçılığa yol verilməməlidir, xüsusilə indiki şəraitdə çox ciddi nəzarət olmalıdır.

Biz nağd pul dövriyyəsi sferasını azaltmalıyıq. Nağdsız ödəmələr genişləndirilməlidir. Müxtəlif vasitələr var. Buna nail olmaq üçün, o cümlədən fiskal təşviq mexanizmləri tətbiq edilməlidir ki, şirkətlər maraqlı olsunlar ki, nağdsız əməliyyatlar aparılsın.

Deyə bilərəm ki, bütövlükdə son illər ərzində apardığımız islahatlar öz nəticəsini verməkdədir. Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu doğrudan da böyük nailiyyətdir. Aparıcı reytinq agentlikləri 2015-ci ildə bizim müsbət reytinqlərimizi təsdiq edibdir. Bu da çox böyük nailiyyətdir. Ancaq biz daha da səmərəli işləməliyik və hansı sahədə qüsur varsa, o qüsurlar, nöqsanlar aradan qaldırılmalıdır.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görülməlidir. Ötən il çox ciddi addımlar atılıb. Burada bu səsləndi. Lisenziyaların sayı azaldılıb. İcazələrin sayı azaldılır. Bürokratik əngəllər aradan götürülür. Bu il də bu istiqamətdə daha da ciddi işlər aparılmalıdır və biznes ictimaiyyətinin təklifləri də nəzərə alınmalıdır. Onlarla mütəmadi qaydada əlaqələr saxlanılır. Ancaq indiki şəraitdə onların fikirləri hesab edirəm ki, daha da böyük əhəmiyyət daşıya bilər. Hansı problemlər var, onların biznes fəaliyyəti üçün əngəllər nədən ibarətdir ki, bunu biz aradan götürək və biznes mühitini daha da yaxşılaşdıraq.

Sahibkarlara güzəştli kreditlərin verilməsi təmin edilməlidir. Keçən il güzəştli şərtlərlə təxminən 250 milyon manat məbləğində kreditlər verilib. Bunun böyük əksəriyyəti aqrar sektora, regionlara verilib. 5240 sahibkara güzəştli kreditlər verilib. Bu il bu siyasət davam etdirilməlidir. Əlbəttə, indi bizim maliyyə imkanlarımız əvvəlki illərdəki kimi deyil, ancaq biz bu sahəyə mütləq vəsait təşkil etməliyik. Çünki bu, iqtisadiyyatın real sektoruna qoyulan sərmayədir. Bu sərmayə qoyuluşunda dövlət siyasəti tam öz əksini tapır. Çünki biz dövlət üçün lazım olan sahələri inkişaf etdirməliyik ki, idxalı əvəzləyə biləcək, ixrac qabiliyyətli məhsulları yetişdirək. Ona görə güzəştli kreditlərin məqsədyönlü şəkildə verilməsi öz müsbət rolunu oynayır. Bu ilin dövlət büdcəsində bu məqsədlər üçün ən azı keçən ilin səviyyəsində vəsait ayrılmalıdır. Nəzərə alsaq ki, verilən bu kreditlərin böyük hissəsi əvvəlcə götürülmüş və qaytarılmış kreditlər hesabına verilir, burada büdcə yükü o qədər də böyük olmayacaq. Olsa da yenə də bu çox önəmli və öz səmərəsini verən sahədir.

Mən bu barədə əvvəllər də öz fikirlərimi bildirmişdim. İndiki şəraitdə buna daha da böyük ehtiyac var. Özəl banklar daha çox iqtisadiyyatın real sektoruna kreditlər ayırsınlar. Dövlət özəl bankları dəstəkləyir. Ümumiyyətlə, bank sektorunda islahatlar aparılmalıdır. Bank sektorunda konsolidasiya aparılmalıdır. Özəl banklar ölkə iqtisadiyyatının inkişafında daha fəal iştirak etməlidir. Əlbəttə ki, özəl banklar gəlir qazanmalıdır. Onlar üçün başqa alətlər bəlkə daha cəlbedici ola bilər. Ancaq dövlət maraqları hər şeydən üstündür. Ona görə özəl banklara tövsiyə olunmalıdır ki, daha çox iqtisadiyyatın real sektoruna vəsait ayırsınlar. Əgər bu gün onların kredit portfelinə baxsaq görərik ki, iqtisadiyyatın real sektoruna xeyli vəsait ayrılır. Ancaq hesab edirəm ki, biz bunu, bu siyasəti daha da gücləndirməliyik. Çünki bu gün ölkə qarşısında duran əsas vəzifələr qeyri-neft sektorunun inkişafı, idxalı əvəzləyən, ixrac qabiliyyətli məhsulların istehsalıdır ki, bu məhsullar ixrac edilərək, ölkəmizə valyuta gətirir. Çünki valyuta gəlirlərimiz kəskin şəkildə aşağı düşüb. Bu sahədə, əlbəttə ki, ilk növbədə, kənd təsərrüfatı, emal sənayesi istiqamətinə, tikinti materialları istiqamətinə vəsait ayrılmalıdır

ki, biz özümüzü bu məhsullarla daxili istehsal hesabına tam təmin edək.

İstehlak qiymətlərinə çox ciddi nəzarət etmək lazımdır. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar qiymətləri süni şəkildə qaldırmaq istəyirlər. Əlbəttə ki, biz ərzaq məhsulları ilə bağlı müəyyən dərəcədə idxaldan asılıyıq. Hələ ki, özümüzü tam 100 faiz təmin edə bilməmişik. Ancaq o məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı, ümumiyyətlə, mümkün deyil, olmamalıdır. Ancaq mən bilirəm, məlumat da gəlir ki, natəmiz insanlar, işbazlar, bax, bu məzənnə məsələsindən sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir. Biz sadəcə olaraq, cərimələrlə kifayətlənməməliyik. Prokurorluq orqanları çox ciddi məşğul olsun. Bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir. Mətbuatda da bu işıqlandırılmalıdır ki, buna son qoyulsun.

Bu il pensiya və əməkhaqqının qaldırılması nəzərdə tutulmalıdır. Hökumət təkliflər hazırlasın. Əlbəttə, indiki şəraitdə bunu etmək o qədər də asan məsələ deyil. Ancaq mən dəfələrlə demişəm ki, biz çox güclü sosial siyasət aparırıq. Giriş sözümdə qeyd etdiyim kimi, sosial infrastrukturun yaradılması, ünvanlı dövlət sosial yardımının təmin edilməsi üçün çox ciddi böyük vəsait tələb edən addımlar atılıb. Ona görə pensiyaların və əmək haqlarının qaldırılması məsələsinə hökumət baxmalıdır, təkliflər verməlidir. Əlbəttə, dövlət büdcəsinə də düzəlişlər ediləcək, dürüstləşmə aparılacaq. Orada həm sosial təminat məsələləri, həm də investisiyayönümlü məsələlər öz həllini tapmalıdır.

Mən manatın devalvasiyası ilə bağlı fikirlərimi artıq bildirdim. Bu bizdən asılı olan məsələ deyildi. Bir daha demək istəyirəm ki, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, qonşu ölkələrdə milli valyutaların devalvasiyası bu addımı qaçılmaz etmişdir. Bizim vəzifəmiz bu vəziyyətdən minimum itkilərlə çıxmaqdır. Əminəm ki, biz buna nail ola biləcəyik. Dediyim o məsələlər öz həllini tapmalıdır.

Biz bu il bütün sosial proqramları tam icra edəcəyik. Bu barədə heç kimin şübhəsi olmasın. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsait nəzərdə tutulur. Ötən il 15 min köçkün, 2014-cü ildə isə 20 min köçkün yeni evlərə köçüb və bu siyasət davam etdiriləcək. Dövlət Neft Fondunda bu məqsədlər üçün kifayət qədər vəsait nəzərdə tutulub.

Keçən il «Kənd təsərrüfatı ili» idi. Mən çox şadam ki, «Kənd təsərrüfatı ili»ndə kənd təsərrüfatı 6,6 faiz artıb. Bu çox gözəl göstəricidir, qeyri-neft sektorunun inkişafıdır. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar da, bax, bu vəziyyəti şərtləndirir. Bu islahatlar daha da dərinləşməlidir. Belə olan halda biz özümüzü ərzaq məhsulları ilə tam, yəni 100 faiz təmin edə bilərik və ərzaq məhsullarının tərkibində yerli komponent daha da böyük həcmdə ola bilər. Vəzifəmiz isə özümüzü ərzaq məhsulları ilə 100 faiz təmin etməkdir. Ərzaq təhlükəsizliyi bu deməkdir.

İxrac qabiliyyətimizi artırmalıyıq. Çünki bizim neft və qazdan başqa, əsas ixrac məhsullarımız kənd təsərrüfatı məhsullarıdır. Xüsusilə nəzərə alsaq ki, ənənəvi bazarlarımıza çıxışımız var, biz yeni bazarlar axtarmalıyıq. Bizim kənd təsərrüfatı məhsulları üçün əsas bazarımız Rusiyadır. Rusiyada bizim məhsullara indi daha çox tələbat var. Biz bu tələbatı təmin etməliyik və Rusiya bazarına daha da böyük məhsulla çıxmalıyıq. Eyni zamanda, Qazaxıstanda müasir logistika mərkəzi tikilib, demək olar ki, hazırdır. Yaxın vaxtlarda biz ərzaq məhsullarımızı Qazaxıstana da ixrac etməyə başlayacağıq. Yaxın Şərq ölkələri bizim məhsullarımızla maraqlanırlar. Səfərlər zamanı bu məsələ müzakirə edilir və biz bu bazarlara da çıxmalıyıq. Çünki bizim keyfiyyətli məhsullarımız böyük marağa səbəb olur. Bizim üçün isə əsas məsələ ənənəvi bazarlara daha böyük həcmlə çıxmaq və yeni bazarlara öz məhsullarımızı təqdim etməkdir.

Nəzərə alsaq ki, keçən il meliorasiya işləri ilə bağlı çox ciddi addımlar atılıb, biz yararsız torpaqları dövriyyəyə buraxmalıyıq və minlərlə, on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq. Artıq o torpaqlarda suvarma işləri təmin edilir və məhsuldarlığı, əkin sahələrini artırmalıyıq. Beləliklə, əminəm ki, biz bu il də kənd təsərrüfatında böyük artıma nail ola biləcəyik.

Dövlət İnvestisiya Proqramında infrastruktur layihələri öz əksini tapacaq. Onların içində içməli su layihələrini xüsusilə qeyd etmək istərdim. Çünki indi Azərbaycanda qazlaşdırma təxminən 90 faizə çatıb. Çox gözəl göstəricidir. «Azərişıq» indi bölgələrdə fəal iş aparır. Mən də bölgələrdə olarkən, vəziyyətlə maraqlanarkən yerli nümayəndələr, vətəndaşlar bildirirlər ki, son vaxtlar bölgələrdə elektrik enerjisi ilə təchizat daha da yaxşılaşıb. Elə etməliyik ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Ona görə kifayət qədər generasiya güclərimiz yaradılıb. İndi əsas məsələ ondan ibarətdir ki, biz insanlara bu elektrik enerjisini fasiləsiz çatdıra bilək.

Keçən il 300 subartezian quyusu qazılıb. Bu da çox önəmli infrastruktur layihəsidir. Eyni zamanda, keçən il 60-a yaxın kənddə, bu günə qədər isə 384 kənddə sutəmizləyici qurğular quraşdırılıb. Çaylar boyu yerləşən bu kəndlərdə insanlar təmiz içməli sudan qıtlıq çəkirdilər. Ümumiyyətlə, son illər ərzində 625 min nəfər bu yolla təmiz içməli su ilə təmin edilib.

Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən əvvəlki müşavirələrdə də öz fikirlərimi bildirmişəm. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək. Çünki artıq neçə vaxtdır ki, biz bu barədə danışırıq, işlər gedir, amma hələ nəticə yoxdur. Burada mərkəzi icra orqanları, bu sahəyə cavabdehlik daşıyan orqanlar və xüsusilə yerli icra orqanları da fəal işləməlidirlər. Onlar bunu təşkil etməlidirlər, yerlər ayırmalıdırlar, şərait yaratmalıdırlar. Onların işi bundan ibarətdir. Ona görə hesab edirəm ki, bizim yerli icra orqanları daha da səmərəli işləməlidir, təşəbbüs göstərməlidir. Oturub mərkəzdən göstəriş gözləməməlidir. Bu onların gündəlik işidir. Hər bir rayonun iqtisadi və sənaye potensialı güclənməlidir. Buna imkanlar var. Ancaq bizim əksər rayonlarımız dotasiya ilə yaşayır. Əvvəlki illərdə biz buna, necə deyərlər, göz yuma bilərdik. Böyük gəlirlərimiz var idi və bu dotasiyaları biz verirdik. Ancaq nə üçün bizim rayonlarımız dotasiya ilə işləməlidir?! Bizim rayonlarımızın orta hesabla əhalisi o qədər də

böyük deyil. Onlar özləri iqtisadi cəhətdən daha səmərəli işləsələr, bütün xərclərini bağlaya bilərlər. Amma gözləyirlər ki, bunlara nə qədər vəsait ayrılacaq. Onsuz da vəsait ayrılır. Bax, dövlət hesabına yollar, qaz xətləri, su xətləri çəkilir, hətta sayğaclar da qoyulur. Hansı ölkədə dövlət hesabına sayğaclar qoyulur?!

Bütün infrastruktur layihələri icra edilir, böyük sərmayə qoyulur, turizm infrastrukturu yaradılır. Kim bunu yaradır? Dövlət və özəl şirkətlər. Amma yerlərdə onlar daha fəal işləməlidirlər. Onların qarşısında vəzifə qoyuram ki, hər rübdə bir dəfə görülən işlərlə, açılan yeni iş yerləri ilə, açılan müəssisələrlə bağlı məlumat versinlər. Yəni onlar da nəticə çıxarsınlar. Dövlət onsuz da öz siyasətini aparacaq və lazımi sərmayəni qoyacaq. Ancaq mən əminəm ki, bizim bütün rayonlarımız daha səmərəli işləyə bilər və daha da yaxşı nəticələr olar.

Rayonlarda sənaye zonalarının yaradılması ilə bağlı mən artıq bir neçə dəfədir ki, məsələ qaldırıram. Ancaq indi 1 pilot layihəsi icra edilir, Neftçala rayonunda. Başqa rayonlarda niyə bunlar icra edilmir? Çünki biganəlik göstərirlər, buna yol vermək olmaz. Hər bir icra başçısının vəzifəsi bundan ibarətdir. Kim bu vəzifənin öhdəsindən gələ bilmirsə, işdən kənarlaşdırılacaq.

Bu il biz struktur islahatları aparmalıyıq. Buna ehtiyac var. Ümumiyyətlə, daha da çevik, operativ idarəetmə mexanizmi işlənməlidir. Bəzi hallarda bəzi qurumlar bir-birinin fəaliyyətini təkrarlayırlar. Buna yol vermək olmaz.

Struktur islahatları mütləq aparılmalıdır. Bəzi hallarda süni şəkildə iş yerləri yaradılır. Misal üçün, insanlar işləmirlər, amma onlara maaş yazılır. Sonra o maaş onun-bunun cibinə gedir. Bu hallara son qoyulmalıdır. Ona görə çox ciddi maliyyə nəzarəti, ictimai nəzarət, dövlət nəzarəti olmalıdır. Lazım olmayan qurumlar ləğv edilməlidir və bu istiqamətdə yaxın gələcəkdə addımlar atılacaqdır.

İnformasiya-kommunikasiya sektorunun inkişafı istiqamətində daha da ciddi addımlar atılmalıdır. Bu sektorun çox böyük potensialı var. Bu sahədə inkişaf müşahidə olunur. Ancaq bu sektorda da tam şəffaflıq təmin edilməlidir və dövlət bu sektorun inkişafından gələn xeyrini görməlidir. Çünki bu günə qədər ancaq dövlət investisiyaları

qoyulur, kreditlər verilir, informasiya-kommunikasiya istiqamətində layihələr icra edilir. 2 peykimiz var. Yəni dövlət artıq bunun faydasını, gəlirini görməlidir. Amma əfsuslar olsun ki, bəzi hallarda gəlir başqa ciblərə gedir, dövlət xeyir götürmür, burada da tam şəffaflıq təmin edilməlidir. Arada gəzən şirkətlər burada əsassız qaydada böyük məbləğdə pul qazanır, onların fəaliyyəti dayandırılmalıdır. Yəni bütün gəlirlər dövlətə, büdcəyə gəlməlidir və bunun hesabına informasiya-kommunikasiya texnologiyaları sektoru bundan sonra da inkişaf edəcək. Dövlət artıq bu sahəyə kifayət qədər, artıqlaması ilə vəsait ayırıb. Yoxlamalar göstərir ki, bu vəsaitdən vicdansızcasına istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. İndi prokurorluq ciddi məşğuldur. Bir malın qiyməti bir neçə dəfə şişirdilir – 3 dəfə, 4 dəfə. Bu cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir və bu əməlləri törədən insanlar indi məsuliyyətə cəlb olunurlar və bu hamıya dərs olmalıdır, bütün qurumlara dərs olmalıdır. Ona görə əminəm ki, çox ciddi nəzarət belə halların təkrarlanmaması üçün yaxşı imkanlar yaradacaq.

İnformasiya-kommunikasiya texnologiyaları sektoru inkişaf etməlidir, xarici şirkətlər də buna maraq göstərir. İndi Azərbaycanda kompüter istehsalına başlanılır. Bu da çox müsbət haldır və bizim intellektual potensialımızı göstərir. Burada tam şəffaflıq yaradılmalıdır.

Biz turizm sektorunun inkişafı üçün yerli və xarici sərmayəni cəlb etməliyik. Dövlət artıq kifayət qədər böyük işlər görübdür. Biz dövlət hesabına «Şahdağ» kurort zonasını yaratmışıq. Düzdür, sonra özəl qurumlar da orada hotellər, mehmanxanalar tikiblər. Ancaq bütün infrastruktur və birinci hotel dövlət hesabına tikilib. Nəyə görə? İnsanlara şərait yaratmaq, o bölgəni – şimal bölgəsini inkişaf etdirmək, iş yerləri yaratmaq, xarici turistləri cəlb etmək və gələcəkdə gəlir qazanmaq üçün. Budur məqsəd. Burada həm sosial, həm regional, həm də iqtisadi siyasət birləşir. Ona görə bütün başqa məqbul zonalarda da turizm geniş inkişaf etməlidir. İndi bizim belə zonalarımız var. «Şahdağ» mərkəzi, Qəbələ beynəlxalq turizm zonasına çevrilib. İndi Naftalan beynəlxalq kurort şöhrətini özünə

qaytarır. Cənub zonasında, qərb zonasında kifayət qədər gözəl imkanlar var. Sadəcə olaraq, yerli şirkətlər və yaxşı olar ki, xarici şirkətlər də sərmayə qoysunlar və biz turistlərin axınını təmin edək. Bütün süni əngəllər, vizalarla bağlı mövcud olan problemlər aradan götürülür ki, Bakıya, Azərbaycana səyahət etmək istəyən xarici qonaq vaxt itirmədən bilet alıb müvafiq prosedurlardan keçərək, gəlib istirahət edə bilsin.

Bu il nəqliyyat dəhlizlərinin daha da səmərəli işləməsi ilə bağlı çox ciddi addımlar atılmalıdır. Keçən ilin sonunda ciddi addımlar atılıb. Tranzit yüklərin Azərbaycan ərazisindən daşınması üçün Koordinasiya Şurası yaradılıb. Bu çox ciddi bir addımdır. Koordinasiya Şurasında nəqliyyatla bağlı olan bütün qurumlar birləşir. Vahid tarif siyasəti aparılır və aparılmalıdır. Eyni zamanda, Gürcüstan və Türkiyə rəhbərliyi ilə bu məsələlər müzakirə edildi. Azərbaycan təklif etdi ki, Azərbaycan, Gürcüstan və Türkiyə bu dəhliz üçün vahid tarif siyasəti aparsın. Bütün müvafiq qurumlar bir siyasət aparsınlar ki, bu dəhliz daha da cəlbedici olsun. Əgər biz sadəcə olaraq, burada tarif siyasətində güzəştlər etsək, qonşu ölkələr etməsə, bunun səmərəsi olmayacaq. Eyni zamanda, potensial yükgöndərənlərlə də çox ciddi danışıqlar aparıldı. Mənim keçən ilin sonunda Çinə dövlət səfərim çərçivəsində bu məsələlər geniş şəkildə müzakirə edilmişdir və artıq Çindən Azərbaycana bu dəhliz ilə birinci konteyner qatarı da göndərilib. Əminəm ki, biz gələcəkdə bu dəhlizin daha da böyük həcmdə işləməsinə nail olacağıq. Çünki ən qısa yol Azərbaycan ərazisindən keçən yoldur. İnfrastruktur var, bunu biz yaratmışıq. Həm dəmir yolu, həm dəniz nəqliyyatı, yeni ticarət limanı da tikilir, onun bir hissəsi artıq istifadəyə verilib. Eyni zamanda, ictimaiyyət yaxşı bilir ki, Türkiyə–Rusiya münasibətlərinin gərginləşməsi nəticəsində Türkiyənin böyük tır maşınlarının Orta Asiyaya, Qazaxıstana çıxışı çətinləşdi. Azərbaycan dərhal öz imkanlarını ortaya qoydu, güzəştlər edildi və bu gün bu istiqamətdə də dəhliz işləyir. Biz buna hazır olmalıyıq və Xəzər sahilinin şərqində yerləşən infrastruktur da, əlbəttə ki, buna daha hazır olmalıdır. Ancaq bu bizim üçün yeni imkanlar yaradır. Çünki bu gün biz tranzit potensialımızdan istənilən səviyyədə istifadə etmirik. Bu da nəyə

görədir? Ona görə ki, nəqliyyat qurumlarının – Xəzər gəmiçiliyi, dəmir yolu, liman – hərəsi öz korporativ maraqlarını güdür, ortada isə Azərbaycan maraqları zərər görür. Buna yol vermək olmaz. Burada da tam şəffaflıq olmalıdır. Gəlirlər dövlətə gəlməlidir və biz bu gəlirlər hesabına daha çox investisiya qoyacağıq, daha çox infrastruktur yaradacağıq. Yəni bir daha demək istəyirəm ki, son vaxtlar sürətli inkişafımız bəzi hallarda bu məsələlərə diqqətimizi azaltmışdır. Çünki biz neftdən gələn gəlirləri çalışırdıq ki, tezliklə lazım olan sahələrə yönəldək. Dövlət bütün yükü öz üzərinə götürmüşdür. Ona görə bəzi dövlət qurumları, şirkətlər passiv fəaliyyət aparırdılar, təşəbbüs göstərmirdilər. Hər ilin sonunda daha çox sifariş edirdilər ki, mənə filan qədər vəsait ayırın, mən burada yol çəkəcəyəm, bunu tikəcəyəm, onu tikəcəyəm. Birincisi, tikinti ilə bağlı. Burada da yeni qaydalar tətbiq edilməlidir. Açıq tenderlər elan olunmalıdır. Tenderlərdə qalib gələn şirkətlər bu və ya digər layihəni icra etməlidir. Çünki bizdə adət olub, dəmir yolu çəkilir, gərək bunu dəmir yolu idarəsi tiksin. Nəyə görə? Orada monopoliya, inhisarçılıq yaranır, qiymətlər şişirdilir. Açıq tender elan olunmalıdır. Mən artıq göstəriş vermişəm. Yerli şirkətlərə üstünlük verilməlidir, xarici şirkətlər iştirak etmək istəyirlərsə, onlar da iştirak etsinlər. Kim daha ucuz qiymətə daha keyfiyyətli tikərsə tiksin.

Bizdə su xətlərini «Azərsu» çəkir. Birincisi, o qədər böyük layihələri icra etmək üçün onlarda texniki imkan yoxdur. Burada da müxtəlif şirkətlər cəlb edilməlidir. Belə olan halda, biz bunu daha da ucuz qiymətə, daha böyük səmərə ilə şəffaf, açıq şəkildə icra edəcəyik. Həmçinin yolların tikintisi. Bizim bir qurumumuz var ki, yollar tikir. Açıq olmalıdır, bizdə indi kimin imkanı, texnikası, təcrübəsi var, yerli, xarici şirkətlər iştirak etsinlər. Burada şəffaflıq tam təmin olunmalıdır. Xahiş edirəm, hökumət buna çox ciddi nəzarət etsin.

Nəqliyyat dəhlizlərinə gəldikdə, bu il Bakı–Astara dəmir yolunun qalan hissəsi tikilməlidir. Orada qalan hissə 8 kilometrdir. Bu il bu tikilməlidir. İran ilə artıq danışıqlar aparılıb və bu yolun əhəmiyyəti çox böyükdür. Bu, Azərbaycanı Şimal–Cənub dəhlizinin çox önəmli partnyoruna çevirəcək. Beləliklə, Şərq–Qərb və Şimal–Cənub – bütün

yollar Azərbaycandan keçəcək. Bu bizim siyasi, iqtisadi maraqlarımızı təmin edəcək. Ona görə bir daha demək istəyirəm, bu il ən azı qalan o 8 kilometr yol tikilməlidir və burada bütün müvafiq qurumlarla koordinasiya işləri də aparılmalıdır.

Keçən il şəhər nəqliyyatının tənzimlənməsi üçün lazımi tədbirlər görülüb. Ölkəmizə yeni müasir avtobuslar gətirilib. Yeni marşrutlar açılıb. Yeni idarəetmə qaydaları tətbiq edilir. Şəhər nəqliyyatı vahid bir sistem olmalıdır, inteqrasiya edilmiş sistem. Burada da biz sadəcə olaraq, inkişaf etmiş şəhərlərin təcrübəsini tətbiq etməliyik. Metro, avtobus, digər vasitələr vahid sistem şəbəkəsinə qoşulmalıdır. Müvafiq göstərişlər verilib. Yeni qurum yaradılıb. Tezliklə bu qurumun işi təşkil edilməlidir ki, şəhər nəqliyyatı Bakıda ən yüksək standartlara cavab versin. İndi bizim texniki vasitələrimiz var, müasir avtobuslar alınıb, yenə də almaq lazımdır. Sistem elə olmalıdır ki, yollar, dayanacaqlar, işıqforlar, metro, avtobuslar vahid sistem kimi işləməlidir. Bakıdan çəkilən yeni yollar bu ümumi siyasətin tərkib hissəsi olmalıdır.

Biz Bakıda son vaxtlar şəhər nəqliyyatının təkmilləşdirilməsi üçün çox işlər görmüşük – körpülər salınıb, yollar genişləndirilib, yolötürücüləri tikilib. Çox böyük işlər görülüb. Əgər biz bu işləri görməsəydik, indi şəhər tıxac içində boğulardı. Ancaq bundan sonra daha da məqsədyönlü və düşünülmüş işlər aparılmalıdır. Proqram şəklində, yəni pərakəndə qaydada yox. Hansı yollar harada açılmalıdır, harada köçürmələr olmalıdır. Bu il bu sahəyə çox ciddi diqqət verilməlidir.

Ekoloji tədbirlər daim aparılır. Keçən il 4 milyondan çox ağac əkilib. Bu siyasət davam etdirilməlidir. Yadımdadır, əvvəllər biz buna kampaniya deyirdik, «Ekologiya ili»ndə biz bu işə fəal başlamışdıq. Ancaq hələ o vaxt mən deyirdim ki, bu, kampaniya olmamalıdır, bu, daimi proses olmalıdır. Bakıda və Abşeron yarımadasında ağacəkmə daimi proses olmalıdır. Çirklənmiş yerlər təmizlənməlidir. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi keçən il həyata keçirildi. Çirklənmiş və üfunət iyi verən bu ərazi indi artıq adamın gözünü oxşayır. Təmizlənmiş gölə köçəri quşlar qonur. Burada böyük bulvar salınıb. Böyükşor gölünün təmizlənməsinin ikinci hissəsi də bu il icra

edilməlidir. Zığ gölünün təmizlənməsi layihəsi də icra edilməlidir. Dövlət büdcəsində bu məqsədlər üçün vəsait tapmaq lazımdır.

Bu il 2 yeni «ASAN xidmət» Mərkəzi açılmalıdır – Masallıda və Qəbələdə. Beləliklə, «ASAN xidmət» mərkəzlərinin sayı 11-ə çatacaq. Bundan əlavə, səyyar xidmət göstərilir, 10 avtobus ölkəmizi dolaşır. «ASAN xidmət» Azərbaycan brendidir. Mən çox şadam ki, bəzi başqa ölkələr də bu təcrübədən istifadə edirlər. Düzdür, bəzi hallarda «ASAN xidmət»in təcrübəsinə istinad edilmir. Ancaq eybi yoxdur, bizim üçün əsas məsələ odur ki, Azərbaycan vətəndaşları bu xidmətdən yararlansınlar. 2 il ərzində 7 milyondan çox müraciət olub. «ASAN xidmət»in, əgər belə demək mümkündürsə, xalq tərəfindən bəyənilmə əmsalı 100 faizə yaxındır. Bu ictimai xidmətlər də korrupsiyaya qarşı mübarizə sahəsində doğrudan da inqilabdır. Eyni zamanda, könüllülər sinfi yaradılıb. Fəal vətənpərvər gənclər könüllülər kimi fəaliyyət göstərirlər. Bu təşəbbüsün çox böyük müsbət mənası var. Gələcəkdə «ASAN xidmət»də göstərilən xidmətlərin sayı daha da artmalıdır. Bizdə harada hələ ki, şəffaflıq təmin edilmir, bax, o sahələr də «ASAN xidmət»də öz həllini tapacaq. Ona görə hökumət bu məsələ ilə bağlı əlavə təkliflər versin ki, biz hansı xidmətləri «ASAN xidmət»ə əlavə edə bilərik.

Bu il Bakıda mötəbər beynəlxalq tədbir – Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilib. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki, bizim üçün böyük şərəfdir.

Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni edir. Əfsuslar olsun ki, getdikcə bu iş daha da çətinləşir. Mən giriş sözümdə bu məsələyə toxundum, bir daha demək istəmirəm. Biz nə qədər çalışsaq da, əfsuslar olsun ki, sivilizasiya-

lararası dialoqu daha az görürük. Biz daha çox sivilizasiyalararası, dinlərarası anlaşılmazlıq, inamsızlıq, toqquşmalar görürük.

Ancaq biz bu yoldan dönməyəcəyik. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşsünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşsünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə yaşaya bilərlər, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, necə ki, Azərbaycanda yaşayırlar. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın – necə ki, bu gün belədir – regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin.

Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq, mən bu ili Azərbaycanda «Multikulturalizm ili» elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda «Multikulturalizm ili» elan olunur.

2016-cı ildə biz fəal işləməliyik. Dediyim bütün vəzifələr icra edilməlidir. Vəzifələrin icrası üçün mexanizmlər qısa bir zamanda işlənib mənə təqdim edilməlidir. Müvafiq qərarlar qəbul ediləcək ki, 2016-cı ili də biz uğurla başa vuraq. Sağ olun.

# İRİ QABARİTLİ TRANSFORMATORLAR ZAVODUNUN AÇILIŞI VƏ YENİ MÜƏSSİSƏNİN TƏMƏLQOYMA MƏRASİMİ

*11 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Bakının Suraxanı rayonunda «ATEF Şirkətlər Qrupu»nun İri qabaritli transformatorlar zavodunun açılışında iştirak etmiş, Yüksək-gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoymuşdur.*

*İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev qurumun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.*

*«ATEF Şirkətlər Qrupu»nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı Yağ transformatorları zavodu, Qaraçuxur qəsəbəsində Transformatorlar və elektrotexniki avadanlıqlar zavodu, Hövsan qəsəbəsində isə Metal konstruksiya zavodu barədə məlumat verdi. Bildirildi ki, bunlardan başqa, şirkətin layihə-konstruktor bürosu, 3 tikinti-quraşdırma, həmçinin nəqliyyat və mexanikləşdirmə idarələri var. Şirkətin Transformatorlar zavodu 2005-ci, Metal konstruksiya zavodu isə 2011-ci ildən fəaliyyət göstərir.*

*Prezident İlham Əliyevə şirkətin Azərbaycanda və xaricdə gördüyü işlər, ixrac imkanları və perspektivləri barədə məlumat verildi. «ATEF Şirkətlər Qrupu» ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı sərəncamla özəlləşdirilən Bakı Mayesiz transformatorlar zavodunun bazasında yaradılıb. Ümummilli lider Heydər Əliyev 1982-ci və 1986-cı illərdə bu istehsal müəssisəsində olmuş, kollektivlə görüşmüşdür. Hazırda şirkət tərəfindən Bakı–Tbilisi–Qars, Bakı–Böyük Kəsik dəmir yolu xəttinin, eyni zamanda, Sabirabad, Qazax, Beyləqan rayonlarında məcburi köçkünlər üçün salınan qəsəbələrin elektrik təchizatını nəzərdə tutan yarımstansiyaların quraşdırılması üzrə işlərin icrası davam etdirilir.*

*İri qabaritli transformatorlar zavodunun sınaq laboratoriyası müasir səviyyədədir. Buradakı qurğular 2,4 milyon voltadək yüksələ bilən impuls gərginliyi və 700 min voltadək dəyişən cərəyan verə bilir.*

*Bu isə istehsal edilən transformatorların izolyasiyasını yoxlamağa imkan verir. Zavodda azərbaycanlı mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər.*

*Prezident İlham Əliyev İri qabaritli transformatorlar zavodunu işə saldı.*

*Məlumat verildi ki, ümumi sahəsi 15,6 hektar, istehsal sahəsi isə 14 min kvadratmetr olan zavod 3 korpus və 5 istehsal sahəsindən ibarətdir. Müəssisədə iri qabaritli güc transformatorları və reaktorların istehsalı nəzərdə tutulur. Burada həm də müxtəlif növ elektrotexniki avadanlıqlar, açıq və qapalı tipli yarımstansiyalar istehsal ediləcək. Cənubi Qafqazda analoqu olmayan, dünyanın aparıcı şirkətlərinin istehsal etdiyi avadanlıqlarla təchiz edilmiş zavodda yüksəkkeyfiyyətli məhsul hazırlamaq üçün bütün şərait var. Burada 300 nəfər işlə təmin edilib.*

*Qeyd edildi ki, ərazisi 130 min kvadratmetr, istehsal gücü illik 8700 ədəd transformator, müxtəlif növ elektrotexniki avadanlıqlar və 20 min ton metal konstruksiya olan bu şirkətin digər zavodlarının maliyyələşdirilməsinə İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 15 milyon manat güzəştli kredit verilib. Bütövlükdə isə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən son illər ümumi dəyəri 981 milyon manat olan 130-dan çox müasir sənaye layihəsinin maliyyələşdirilməsinə 410 milyon manatdan çox güzəştli kredit ayrılıb. Artıq bu müəssisələrdən 115-i istifadəyə verilib. Həmin müəssisələrdə istehsal olunan məhsullar idxalı əvəz etməklə yanaşı, ölkənin sənaye potensialının reallaşdırılmasında mühüm rol oynayacaq.*

*Zavodun sərgi salonunda şirkətin müəssisələrində istehsal edilən məhsullar barədə məlumat verildi. Zavodlarda müxtəlif təyinatlı və gərginlikli yağ və güc transformatorları, açıq və qapalı tipli yarımstansiyalar, mühafizə və idarəetmə panelləri, elektrotexniki avadanlıqlar, radiatorlar, bloklar, şkaflar, ümumilikdə 200 çeşiddən artıq tam hazır məhsul və hissələr istehsal olunur. Bu məhsullar Kanada, Cənubi Afrika Respublikası, İraq, Bəhreyn, Bol-*

*qarıstan, Rusiya, Ukrayna, Moldova, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Gürcüstan və digər ölkələrə ixrac olunur. 3 il ərzində şirkətlər qrupunun zavodları 150 milyon dollarlıq məhsul ixrac edib. Yaxın illərdə isə ixracı 3 dəfə artırmaq üçün xarici ölkələrlə danışıqlar aparılır, müqavilələr imzalanır.*

*Sonra prezident İlham Əliyev Yüksəkgərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoydu.*

*Qeyd edildi ki, zavodun ümumi sahəsi 20 min kvadratmetr olacaq. Müəssisədə müasir avadanlığın quraşdırılması nəzərdə tutulur ki, bu da keyfiyyətli və rəqabətədavamlı məhsul əldə etməyə imkan verəcək. Yeni yaradılacaq müəssisənin istehsal gücü illik 3,4 min müxtəlif avadanlıq, o cümlədən daxili və xarici tip eleqaz açarlar, ayırıcılar, paylayıcı qurğular olacaq. Şirkətin zavodlarında orta aylıq əməkhaqqı 500 manat olmaqla, 2024 nəfər işlə təmin edilib. Yeni zavodun istifadəyə verilməsindən sonra bu rəqəmin 2500-ə çatdırılması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## XALQ ŞAİRİ ZƏLİMXAN YAQUBUN VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*11 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Təzəpir məscidində müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq şairi Zəlimxan Yaqub ilə vida mərasimində iştirak etmişdir.*

*Əvvəlcə Qurani-Kərimdən ayələr oxundu.*

*Dövlətimizin başçısı mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi.*

*Zəlimxan Yaqubun ailə üzvləri mərhumun xatirəsinə göstərilən ehtirama görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər. Sonra Xalq şairi Zəlimxan Yaqubun cənazəsi son mənzilə yola salındı. Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin üzvləri, ictimaiyyət nümayəndələri, mədəniyyət xadimləri iştirak etdilər.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulun Sultanəhməd meydanında törədilmiş partlayış nəticəsində insanların həlak olması və yaralanması xəbərindən olduqca sarsıldıq.

Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı ən kəskin şəkildə və hamılıqla mübarizə aparılmasını zəruri hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2016-cı il*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ LAHSSAN BOUFARES İLƏ GÖRÜŞ

*12 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Lahssan Boufaresin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Lahssan Boufares Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Lahssan Boufares etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Əlcəzair arasında əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı bu əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Azərbaycan Prezidenti qarşılıqlı səfərlərin və biznes nümayəndələrinin birgə əməkdaşlığının ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağını qeyd etdi. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda, o cümlədən BMT çərçivəsində əməkdaşlığının önəmini vurğuladı. Hər iki ölkənin İslam Əməkdaşlıq Təşkilatında uğurla əməkdaşlıq etdiyini bildirən prezident İlham Əliyev Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi və əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində səylər göstərdiyini dedi. Dövlətimizin başçısı, həmçinin ölkələrimizin təhlükəsizlik və terrorizmə qarşı mübarizə sahələrində də əməkdaşlığının önəmini qeyd etdi. Prezident İlham Əliyev səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz*

*arasında ikitərəfli əlaqələrin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Səfir Lahssan Boufares Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanın salamlarını və ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı. O, Əlcəzairdə səfirliyin açılması ilə bağlı Azərbaycanın qəbul etdiyi qərarın ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini dedi. Azərbaycan ilə Əlcəzair arasında əməkdaşlığın səviyyəsinin razılıq doğurduğunu deyən səfir bu əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.*

*Dövlətimizin başçısı Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair Prezidentinə çatdırmağı xahiş etdi.*

## MONQOLUSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BADAMDORJ BATXİŞİQ İLƏ GÖRÜŞ

*12 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Monqolustanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Badamdorj Batxişiqin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Badamdorj Batxişiq Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Badamdorj Batxişiq etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycanın Monqolustan ilə əməkdaşlığı bütün sahələrdə inkişaf etdirməyə maraq göstərdiyini deyən prezident İlham Əliyev bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Monqolustan prezidenti Saxiaqiyn Elbeqdorj ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə bağlı apardıqları danışıqları məmnunluqla xatırladan dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrin inkişaf etdirilməsinin xalqlarımız və ölkələrimiz üçün önəmli olduğunu vurğuladı. Azərbaycan ilə Monqolustanın biznes strukturları arasında əməkdaşlığın o qədər də fəal olmadığını deyən prezident İlham Əliyev ölkələrimizin bir-birini daha yaxından tanımalarının, investisiya və biznes imkanlarının düzgün istiqamətləndirilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Badamdorj Batxişiqin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi və səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Badamdorj Batxişiq Monqolustan prezidenti Saxiaqiyn Elbeqdorjun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Səfir ölkəsinin müxtəlif sahələrdə əldə etdiyi iqtisadi uğurlardan danışdı. O, Azərbaycandakı diplomatik fəaliyyəti*

*dövründə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini* dedi.

*Dövlətimizin başçısı* Monqolustan prezidenti Saxiaqiyn Elbeqdorjun *salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını* Monqolustan *Prezidentinə çatdırmağı xahiş* etdi.

## ABŞ-ın MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ AVROPA ÜZRƏ BAŞ DİREKTORU ÇARLZ KAPÇAN İLƏ GÖRÜŞ

*13 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə inkişafından danışıldı, ölkələrimiz arasında bir çox sahələrdə tərəfdaşlıq münasibətlərinin qurulmasından məmnunluq ifadə olundu. Zəngin tarixə malik olan enerji sahəsində əməkdaşlığın ABŞ-ın dəstəyi ilə daha da genişləndirilməsinin önəmi qeyd edildi. Beynəlxalq terrorizmə qarşı mübarizə, təhlükəsizlik sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq, Azərbaycan hərbçilərinin Əfqanıstandakı sülhməramlı missiyanın tərkibində uğurlu fəaliyyətinin əhəmiyyəti vurğulandı, ölkəmizdə gedən demokratik proseslər və bunun perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı, həmçinin regional vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edildi.*

*İkitərəfli münasibətlərin hazırkı vəziyyətinin təhlil olunduğu görüşdə əməkdaşlığımızın bundan sonra daha da möhkəmləndirilməsinin vacibliyi bildirildi.*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI MƏHƏMMƏD ZAKAULLAH İLƏ GÖRÜŞ

*14 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı Məhəmməd Zakaullahı qəbul etmişdir.*

*Azərbaycan ilə Pakistan arasında siyasi münasibətlərin yüksək səviyyəsinin məmnunluq doğurduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin yaxın tərəfdaş və müttəfiq dövlətlər olduğunu, xalqlarımızın bir-birinə qardaşlıq münasibəti bəslədiyini dedi. Dövlətimizin başçısı Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin Azərbaycana səfərini və səfər zamanı aparılan konstruktiv müzakirələri məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi sahədə əlaqələrin genişləndirilməsinin önəmini vurğulayan prezident İlham Əliyev bu sahədə əməkdaşlığın ikitərəfli münasibətlərimizin daha da gücləndirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Pakistanın Hərbi Dəniz Qüvvələrinin komandanı Məhəmməd Zakaullahın ölkəmizə səfərinin bu sahədə əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Hərbi Dəniz Qüvvələrinin komandanı Məhəmməd Zakaullah Pakistan prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Pakistanlı qonaq ölkəmizin, xüsusilə Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını dedi. Pakistan ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin tarixi, dini və mədəni köklərə malik olduğunu xüsusi vurğulayan Məhəmməd Zakaullah xalqlarımızın münasibətlərinin yüksək səviyyədə olduğunu dedi, ölkələrimiz arasında əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin vacibliyini qeyd etdi.*

*Dövlətimizin başçısı prezident Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistan Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVƏ

Hörmətli Murad Kajlayev!

Sizi – istedadlı musiqiçi və pedaqoqu 85 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, firavanlıq və yeni yaradıcılıq uğurları arzulayıram.

Sizin bütün ailəniz ölkəmizdə elmin, təhsilin, səhiyyənin və mədəniyyətin inkişafına layiqli töhfələr vermiş Bakı ziyalıları nəslinə mənsubdur. Siz Azərbaycan Dövlət Konservatoriyasının məzunu kimi, Azərbaycan musiqiçiləri ilə səmərəli əməkdaşlıq etmisiniz. Sizin ən müxtəlif janrlarda və üslublarda yazdığınız əsərlər sovet musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib. «Fərhad və Şirin», «İmam Şamil» kimi parlaq simfonik musiqi nümunələri, caz konsertləri, kinofilmlərə yazdığınız musiqi və aktiv dirijorluq fəaliyyətiniz Sizə haqlı olaraq şöhrət qazandırıb.

Dağıstanın müasir musiqi mədəniyyətinin təşəkkülünə yönəlmiş çoxşaxəli fəaliyyətiniz öz xalqınıza fədakarcasına xidmət nümunəsidir. Mahaçqalada Sizin rəhbərlik etdiyiniz xüsusi istedadlı uşaqlar üçün incəsənət məktəbi Qafqazın musiqi irsi ənənələrinin qorunub saxlanılmasına yönəlmiş nadir bir missiyanı reallaşdırır.

Ümidvaram ki, Sizin yaradıcılığınız gələcəkdə də Azərbaycan–Rusiya mədəni əlaqələrinin daha da inkişafına şərait yaradacaq.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 yanvar 2016-cı il*

## SLOVENİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İQOR YUKİÇ İLƏ GÖRÜŞ

*18 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İqor Yukiçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir İqor Yukiç Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*İqor Yukiç etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Sloveniyanın müxtəlif sahələrdə yaxşı əməkdaşlıq təcrübəsinin olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında qarşılıqlı siyasi əlaqələrin uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Ölkəmizin iqtisadiyyatının müxtəlif sektorlarında çalışan Sloveniya şirkətlərinin və Sloveniyada çalışan Azərbaycan şirkətlərinin işindən danışan dövlətimizin başçısı onların fəaliyyətlərinin daha da genişləndirilməsi üçün səmərəli əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini bildirdi. Səfir İqor Yukiçin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirən prezident İlham Əliyev ona işində müvəffəqiyyətlər arzuladı.*

*Ölkələrimiz arasında siyasi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Sloveniyanın Azərbaycanda yeni təyin olunmuş səfiri İqor Yukiç əlaqələrimizin möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Diplomat hər iki ölkənin biznes nümayəndələrinin gələcəkdə də əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını dedi. Sloveniyalı səfir ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının inkişafındakı rolu xüsusi vurğulandı.*

# İQTİSADİ VƏ SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİ İLƏ BAĞLI MÜŞAVİRƏDƏ İŞTİRAK

*18 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iqtisadi və sosial məsələlərin həlli ilə bağlı yanvarın 18-də keçirilmiş müşavirədə iştirak etmişdir.*

*Dövlətimizin başçısı müşavirədə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

2015-ci ildə dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi nəticəsində neft ixrac edən ölkələr bəzi çətinliklərlə üzləşdilər. Neftin qiymətinin düşməsi bu gün də davam edir. Biz 2016-cı ildə də bu prosesi müşahidə edirik. Son 1 il ərzində neftin qiyməti 4 dəfə düşüb. Yəni bütün neft ixrac edən ölkələrin gəlirləri böyük dərəcədə azalıb. Təsəvvür edin, əgər hər hansı bir ailədə gəlirlər 4 dəfə aşağı düşərsə, əlbəttə, o ailədə ailə büdcəsinə yenidən baxılmalıdır. Təbii ki, Azərbaycanın gəlirlərinin böyük hissəsi neftlə bağlıdır. Biz uzun illərdir çalışırıq ki, neftdən asılılığı azaldaq. Buna müəyyən dərəcədə nail ola bilmişik. Ancaq hələ ki, buna tam nail ola bilməmişik. Belə olan halda, neftin qiymətinin aşağı düşməsi bizim iqtisadi vəziyyətimizə mənfi təsir göstərir. Hər bir ölkə və hər bir ailə ayağını yorğanına görə uzatmalıdır. Deyə bilərəm ki, Azərbaycan bu vəziyyətdən çıxmaq üçün çox ciddi addımlar atır. Bizimlə eyni vəziyyətdə olan ölkələr arasında bu böhranlı vəziyyətdən Azərbaycan ən az itkilərlə çıxa bilmişdir.

Nazirlər Kabinetinin 2015-ci ilin yekunlarına həsr edilmiş iclasında həm vəziyyətin təhlili, eyni zamanda, müvafiq tapşırıqlar verilmişdir. Bu tapşırıqlar mütləq yerinə yetirilməlidir. Belə olan halda, Azərbaycan iqtisadiyyatı 2016-cı ildə də öz tempini saxlayacaq və bu çətin vəziyyətdən ölkəmiz şərəflə çıxacaqdır. Biz əvvəllər bundan da çətin vəziyyətlərlə üzləşmişik. Azərbaycan xalqı və Azərbaycan dövləti buna oxşar bütün belə məqamlarda güclü iradə nümayiş

etdirib. Biz müstəqil dövlət quruculuğu işində çox böyük uğurlara nail ola bilmişik. Bu gün Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkədir. Son 10 il ərzində dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ölkə olmayıb. Bu həqiqətdir, reallıqdır və bunu bütün göstəricilər təsdiqləyir. Beynəlxalq maliyyə qurumlarının hesabatlarında Azərbaycanda əldə edilmiş uğurlar daim qeyd edilir.

Deyə bilərəm ki, indiki dünya iqtisadi böhranını heç kim təsəvvür edə bilməzdi. Heç kimin ağlına gələ bilməzdi ki, 1 il ərzində neftin qiyməti 4 dəfə aşağı düşsün. Bir daha demək istəyirəm, dünya iqtisadiyyatı indi böhran içindədir, böyük ölkələrdə iqtisadi sahədə çox ağır proseslər gedir. Ancaq bununla belə, dünya iqtisadiyyatı bu qədər tənəzzülə uğramayıb ki, neftin qiyməti 4 dəfə aşağı düşsün. Burada təbii ki, başqa səbəblər, geosiyasi səbəblər də var. Ancaq bu, bugünkü müşavirənin mövzusu deyil. Əsas mövzu ondan ibarətdir ki, biz bu vəziyyətdən ən az itkilərlə çıxaq və bu istiqamətdə əlavə tədbirlər görülməlidir. İlk növbədə, islahatlar dərinləşməlidir, müvafiq tapşırıqlar verilib. Son həftə ərzində mən hökumət üzvləri ilə bir neçə müşavirə keçirmişəm, müxtəlif fikirlər, təkliflər səsləndirilibdir və artıq bu təkliflərin icra edilməsinə başlanılıb.

Bugünkü müşavirədə əlavə tapşırıqlar veriləcək. Əminəm ki, bu tapşırıqlar yerinə yetirilərkən həm ölkə iqtisadiyyatı yeni nəfəs alacaq, iqtisadi fəallıq artacaq, əlbəttə ki, həm də insanların sosial müdafiəsi lazımi səviyyədə təmin ediləcəkdir. İlk növbədə, biz insanların sosial müdafiəsi məsələlərini daim diqqətdə saxlamalıyıq. Əslində bu bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycanda çox genişmiqyaslı sosial siyasət aparılır. Dəfələrlə bəyan etmişəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Son illər ölkədə aparılan işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi, yoxsulluğu aradan qaldırmaq idi.

Ona görə indiki şəraitdə ilk növbədə, insanların sosial müdafiəsi məsələləri öz həllini tapmalıdır və tapır. Qeyd etməliyəm ki, pensiyaların və əmək haqlarının 10 faiz qaldırılması bu istiqamətdə atılan önəmli addımdır. Bizim imkanımız hələlik buna çatır. Bir daha demək istəyirəm ki, hər bir dövlət ayağını yorğanına görə uzatmalıdır. Onu da qeyd etmək istəyirəm ki, neftlə zəngin olan ölkələrin və bu gün bu

neftin qiymətinin düşməsindən əziyyət çəkən ölkələrin böyük əksəriyyətində buna oxşar addımları biz müşahidə etmirik. Hər halda, bu barədə məndə məlumat yoxdur ki, hansısa bir ölkə indiki böhran şəraitində əmək haqlarını, pensiyaları qaldırsın. Bu çox ciddi sosial addımdır və bizim güclü sosial siyasətimizin təzahürüdür. Bu təşəbbüsü reallaşdırmaq üçün dövlət büdcəsindən 100 milyonlarla manat vəsait xərclənəcəkdir. İndiki şəraitdə bu nə deməkdir? Hesab edirəm ki, bunu izah etməyə ehtiyac yoxdur. İstisna edilmir ki, il ərzində bu məsələyə yenidən baxılacaq. Əlbəttə ki, bu bizim imkanlarımıza bağlı olan məsələdir.

Süni bahalaşmaya qarşı çox ciddi mübarizə aparılmalıdır və aparılır. Əfsuslar olsun ki, bəzi hallarda natəmiz insanlar, işbazlar bu vəziyyətdən istifadə edərək, qiymətləri süni şəkildə qaldırmağa çalışırlar. Dövlət orqanları, prokurorluq, istehlak bazarına nəzarət edən orqanlar bu məsələ ilə ciddi məşğuldurlar. Görülən tədbirlər, o cümlədən verilmiş qərarlar nəticəsində çörəyin və unun qiyməti əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Bu da sosial təşəbbüsdür. İlk növbədə, biz bunu çətin vəziyyətdə olan insanların mənafeyini nəzərə alaraq edirik. Çalışmalıyıq ki, gələcəkdə bu sahədə maksimum şəffaflıq olsun. İndiki şəraitdə əgər kimsə bu vəziyyətdən öz şəxsi iqtisadi, yaxud da ki, siyasi maraqları üçün istifadə etmək istəyirsə, o insanlar cəzalarını alacaqlar. Təxribatçılar, işbazlar, dəllallar ciddi şəkildə cəzalandırılır və cəzalandırılacaqlar.

Biz son illər ərzində Azərbaycanda əldə edilmiş uğurları qoruyacağıq, ölkəmizin sürətli inkişafını təmin edəcəyik. İmkan verə bilmərik ki, kimsə bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etsin. Bu il bütün sosial proqramlar icra ediləcək. Bu məsələ ilə bağlı heç kimin şübhəsi olmasın. İnsanların sosial müdafiəsi ilə bağlı olan əlavə tədbirlər də görülməlidir.

Mən Nazirlər Kabinetinin iclasında qeyd etmişdim ki, struktur islahatları dərinləşməlidir. Bu məsələlərlə bağlı artıq addımlar atılır. Əslində bu, daimi proses olmalıdır. Dövlət orqanlarının strukturu elə olmalıdır ki, bu orqanlar operativ, çevik siyasət aparsınlar və bu siyasətin çox böyük səmərəsi olsun. Ona görə bir-birini təkrarlayan, yaxud da ki, o qədər də lazım olmayan dövlət qurumları ya

birləşdirilir, ya da ki, ləğv edilir. Əlavə tapşırıqlar verilibdir. Bu tapşırıqlar hazırda müzakirə olunur və yaxın vaxtlarda təkliflər veriləcəkdir.

Valyuta bazarının tənzimlənməsi ilə bağlı müvafiq göstərişlər verilib və təkliflər hazırlanır. Burada qanunvericilikdə də dəyişikliklər edilməlidir və Milli Məclis növbədənkənar toplantı keçirəcəkdir. Çünki bu addımlar atılmasa, bizim iqtisadi islahatlarımızın uğurlu icrası ləngiyə bilər. Bu sahədə də inkişaf etmiş ölkələrin təcrübəsi, beynəlxalq praktika Azərbaycanda tətbiq edilməlidir. Əfsuslar olsun ki, bəzi hallarda biz müəyyən səbəblərə görə bu praktikanı tətbiq edə bilməmişik. Vaxt gəlib çatıb ki, dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi tam tətbiq edilsin.

2008–2009-cu illərin dünya iqtisadi böhranı zamanı inkişaf etmiş ölkələr tərəfindən atılmış addımlar təhlil edilir və biz də daxili iqtisadi vəziyyəti nəzərə alaraq, düşünülmüş addımlar atmalıyıq. Əlbəttə, nəzərə alsaq ki, bizim valyuta gəlirlərimiz böyük dərəcədə azalır, valyuta bazarının tənzimlənməsi bu istiqamətdə önəmli tədbirlərdən biridir.

Geniş özəlləşdirmə proqramı hazırlanmalıdır, müvafiq göstərişlər verilib. Biz həm xarici, həm yerli investorları bu işə cəlb etməliyik. Hələ ki, Azərbaycanda bir çox özəlləşdirilməmiş müəssisələr var və onların fəaliyyəti dayandırılıbdır. Bəzi hallarda bu müəssisələr yarıdağılmış vəziyyətdədir, onların çox böyük torpaq sahələri var. Biznes mühitini yaxşılaşdırmaq və iqtisadi canlanmanı sürətləndirmək üçün mütləq geniş özəlləşdirmə proqramı həyata keçirilməlidir. Bu proqram tam şəffaf keçirilməlidir, beynəlxalq ekspertlər bu işə cəlb olunmalıdır. Yerli və xarici investorlar üçün elə şərait yaratmalıyıq ki, onlar böyük maraqla, həvəslə vəsait qoysunlar. Nəzərə alsaq ki, Azərbaycanın uzunmüddətli uğurlu inkişafı heç bir investorda şübhə doğurmur, Azərbaycan iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf edəcək. Burada həm neft-qaz amili var, həm də Azərbaycanda qeyri-neft sektorunun inkişafı sürətlə gedir. Keçən il Azərbaycanda qeyri-neft sənayesi 8 faizdən çox artıb. Bu, görülən işlərlə bağlı olan nəticədir. Ona görə yenə də demək istəyirəm, elə şərait yaratmalıyıq ki, xarici və yerli investorlar bu özəlləşdirmə proqramında böyük maraqla iştirak etsinlər.

Neftin qiymətinin kəskin düşməsindən və qonşu ölkələrdə milli valyutaların devalvasiyasından sonra, əlbəttə ki, biz də manatı əvvəlki səviyyədə saxlaya bilmədik. Baxmayaraq ki, buna çox çalışdıq. Deyə bilərəm ki, qonşu valyutalar arasında Azərbaycan manatı ən çox müqavimət göstərən valyuta idi. Ancaq devalvasiya qaçılmaz idi və bunun səbəbinin Azərbaycanın daxili vəziyyəti ilə heç bir əlaqəsi yoxdur. Bu, xaricdə formalaşan səbəblərdir.

İndiki vəziyyətdə milli valyutamıza etimad müəyyən qədər azalıb. Biz bu etimadı bərpa etməliyik. Manat sabit valyutadır. 10 il ərzində – 2005-ci ildə pul islahatı aparılandan sonra 10 il ərzində manat nəinki öz məzənnəsini saxlayıb, hətta dollara qarşı 30 faiz bahalaşıb. Əslində əgər biz 10 ilin dinamikasına baxsaq, pul islahatı aparılandan sonra manat elə bil ki, hər il 5 faiz qiymətini itirib. Ancaq bu, 1 il ərzində olduğu üçün, əlbəttə ki, bunun təsiri daha da ciddi olubdur. Ona görə indiki şəraitdə biz manata olan inamı bərpa etməliyik. Biz deyəndə, əlbəttə, mən dövləti, hökuməti, iqtisadi bloku, bank sektorunu və vətəndaşları nəzərdə tuturam. Biz hamımız bu istiqamətdə iş aparmalıyıq.

Əfsuslar olsun ki, Azərbaycanda dollarizasiya prosesi gedir. Bunun heç bir iqtisadi əsası yoxdur. Bəzi ölkələrin devalvasiyaya uğrayan valyuta bazarına nəzər salsaq görərik ki, orada dollarizasiya getmir. Azərbaycanda müəyyən dərəcədə ajiotaj yaranıb. Özü də bu ajiotaj yenə də başqa ölkələrdə baş verən proseslərlə bağlı idi. 2014-cü ilin sonu, 2015-ci ilin əvvəli misal kimi gətirilə bilər. O vaxt Azərbaycanda manatla bağlı heç bir problem yox idi. Qonşu ölkələrdə milli valyutalar dəyərdən düşürdü. Əfsuslar olsun ki, bizdə bəzi qurumlar və insanlar bu vəziyyəti Azərbaycan reallıqlarına da keçirməyə cəhd etmişdilər. Ondan sonra – keçən ilin yay aylarında valyuta bazarında müsbət meyillər müşahidə olunmağa başladı. Bu da təbii idi. Çünki görülən tədbirlər bunu diktə edirdi. Ancaq yenə də bəzi qonşu ölkələrdə milli valyutalar kəskin şəkildə aşağı düşdü və dərhal Azərbaycanda ajiotaj yarandı. Ona görə indiki vəziyyətin yaranmasında Azərbaycan daxilində baş verən heç bir amil yoxdur. Bütün bu amillər kənarda formalaşıb. Neftin qiymətinin düşməsi, qonşu ölkələrdə milli valyutaların dəyərdən düşməsi və bunun bir

neçə dalğası əfsuslar olsun ki, Azərbaycanda da valyuta bazarında panika, ajiotaj yaratdı.

Dollara qarşı bütün valyutaların ucuzlaşması prosesi gedir. Hətta avro da öz dəyərini saxlaya bilmədi, təxminən 30 faiz ucuzlaşdı. Ona görə manatın məzənnəsinin sabit saxlanması təkcə hökumətdən asılı deyil. Əlbəttə, burada islahatlar dərinləşəcək, əlavə addımlar atılacaq. Amma vətəndaşlar da bununla bağlı hökumətlə bir istiqamətdə fəaliyyət göstərməlidirlər. Bu halda əminəm ki, manata inam bərpa olunandan sonra biz bu vəziyyətdən ən az itkilərlə çıxa biləcəyik.

Bank sektorunun tənzimlənməsi məsələləri də öz həllini tapacaq. Təkliflərə baxılır. Problemli bankların sağlamlaşdırılması prosesi getməlidir, bank konsolidasiyası aparılmalıdır və əmanətlərin sığortalanması məsələsi də öz həllini tapmalıdır. Bir neçə il bundan əvvəl Azərbaycan bu praktikanı tətbiq etməyə başlamışdır və indi də əmanətlərin sığortalanması işində əlavə tədbirlər görüləcək. Əminəm ki, görüləcək tədbirlər həm bank sektoruna, eyni zamanda, milli valyutamıza olan inamı böyük dərəcədə artıracaq. Əminəm ki, bu addımlar çox müsbət nəticə verəcəkdir.

Azərbaycan iqtisadiyyatının vəziyyəti çox möhkəmdir və müsbətdir. Bütün iqtisadi göstəricilər bunu göstərir. Hətta böhranlı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib. Ümumi daxili məhsul, qeyri-neft sektoru, sənaye istehsalı artıb, kənd təsərrüfatı təxminən 7 faiz artıb. Bizim valyuta ehtiyatlarımız yaxşı səviyyədədir. Valyuta ehtiyatlarımızı qoruyuruq. Xarici dövlət borcumuz çox aşağı səviyyədədir – təxminən 12 faiz səviyyəsində. Devalvasiyadan əvvəl isə 10 faizdən az idi. Yəni bu, dünya miqyasında ən yaxşı göstəricilərdən biridir. Bütün bu amilləri, iqtisadi dayanıqlılığı və xarici borcumuzun aşağı səviyyədə olmasını nəzərə alaraq, hesab edirəm ki, biz xarici maliyyə bazarlarından lazım olan həcmdə valyuta resurslarını Azərbaycana cəlb edə bilərik. Bu məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib. Hesab edirəm ki, tezliklə bu məsələyə də baxılmalıdır. Mən şəxsən heç vaxt tərəfdarı deyildim ki, Azərbaycanın xarici dövlət borcu artsın, həmişə istəyirdim ki, 10 faizi keçməsin. Ancaq indiki vəziyyətdə nəzərə alsaq ki, bizdə bu səviyyə cəmi 12 faizdir – bəzi inkişaf etmiş ölkələrdə 100 faizdir, 120 faizdir, 150 faizdir, yəni çox az ölkə

tapılar ki, orada xarici borc bizdəki səviyyədə olsun – xarici valyuta bazarlarından əlavə valyuta resurslarının cəlb edilməsi bizim üçün heç bir problem yaratmaz. Ona görə hesab edirəm ki, bu məsələ ilə bağlı addımlar atılmalıdır.

Dövlət istiqrazlarının buraxılması məsələsinə də baxıla bilər. Bu da beynəlxalq praktikada çox tez-tez baş verən hadisədir. Hətta bizimlə müqayisə edilməz dərəcədə daha da böyük həcmdə neft hasil və ixrac edən ölkələr buna gedirlər. Ən çox neft ixrac edən ölkələr buna gedirlər, xarici maliyyə bazarlarından valyutanı cəlb edirlər. Ona görə biz də buna getməliyik. Burada heç bir problem yoxdur. Əslində bu, imkan yaradacaq ki, biz iqtisadiyyata daha da böyük təkan verək.

Əlbəttə ki, indiki şəraitdə qeyri-neft sektorunun inkişafı daha böyük prioritet olmalıdır. Mən qeyri-neft sektorunun inkişafı haqqında artıq neçə ildir ki, həm deyirəm, həm də praktiki addımlar atılır. Regionların inkişafı, regionlarda infrastrukturun, sosial infrastrukturun yaradılması – yolların, qaz xətlərinin, elektrik stansiyalarının, məktəblərin, xəstəxanaların, kənd yollarının tikintisi, müəssisələrin, iş yerlərinin yaradılması – bütün bunlar son illər Azərbaycan reallıqlarını əks etdirir. Əgər vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün biz ölkə daxilində olan tələbatı heç ödəyə də bilməzdik.

Əfsuslar olsun ki, bu gün biz ərzaq təhlükəsizliyini tam təmin edə bilməmişik. Bunun obyektiv səbəbləri var. Biz hələ ki, dünya bazarlarına qeyri-neft sektoru xətti, böyük ixrac malları ilə çıxa bilmirik. Bunun da səbəbi ondan ibarətdir ki, ilk növbədə, biz idxalı azaltmalıyıq. Çünki müstəqilliyimizin ilk illərində Azərbaycanda heç nə istehsal olunmurdu. Bütün istehlak malları, o cümlədən gündəlik tələbat malları xaricdən gəlirdi. Bu gün Azərbaycan böyük dərəcədə öz ehtiyaclarını ödəyir – həm tikinti materialları, həm ərzaq malları sahələrində. Ancaq bu yerli istehsal mallarının tərkibində xarici komponentlər var. Biz növbəti illərdə çalışmalıyıq ki, bu xarici komponentləri də aradan götürək, Azərbaycanda istehsal olunan bütün ərzaq məhsullarının xammalı da məhz Azərbaycan mənşəli olsun. Ona görə də qeyri-neft sektorunun inkişafı sürətlə gedir və gedəcəkdir.

Bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə fermerlərə, iş adamlarına ən azı 250 milyon manat güzəştli kredit veriləcəkdir. Onların da vəsaitlərini nəzərə alsaq, iqtisadiyyatın real sektoruna, o cümlədən regionlarda qoyulacaq investisiyaların həcmi təqribən 1 milyard manata yaxın olmalıdır. İqtisadiyyat Nazirliyi 1 milyard 500 milyon manat həcmində investisiya layihələrini tərtib edib, hazırlayıb. Bu layihələr tezliklə icra edilməlidir. Hesab edirəm ki, Azərbaycanın iş adamları ilk növbədə, Azərbaycana sərmayə qoymalıdırlar ki, bu sahədə biz qısa müddət – 1-2 il ərzində öz ehtiyaclarımızı tam bağlaya bilək. Vəzifə bundan ibarətdir.

Beləliklə, qeyri-neft sektorunun inkişafı imkan verəcək ki, biz idxaldan asılı olmayaq. Belə olan halda, qiymətlərin tənzimlənməsi də lazımi səviyyədə təmin ediləcək. Mən qeyd etdim ki, biz görülən tədbirlər nəticəsində unun qiymətini əhəmiyyətli dərəcədə aşağı sala bildik. Ancaq biz özümüzü unla, taxılla tam təmin edə bilmirik. Ona görə müəyyən dərəcədə problemlər yaranır. Ancaq bu gün yaradılan iri fermer təsərrüfatları, taxılçılıqla məşğul olan təsərrüfatlar və yeni yaradılacaq müəssisələr qısa müddət ərzində bu problemin həllinə kömək göstərməlidir. Dövlət öz tərəfindən lazımi tədbirləri görür. Fermerlər də bu işlərə fəal qoşulublar. Bank sektorunun, əlbəttə ki, burada çox böyük rolu olacaq. Əminəm ki, bank sektorunun tənzimlənməsi prosesi başa çatandan sonra bu sahəyə xüsusi diqqət göstərməlidir. Bu mənim onlara göstərişimdir. Dövlət özəl banklara kömək göstərir, onları bəzi hallarda xilas edir. Onlar da öz növbəsində, dövlətin maraqlarını təmin etməlidirlər. Onlar dövlətə lazım olan sahələrə investisiya yatırmalı, kredit verməlidirlər. Qeyri-neft sektoru dedikdə, əlbəttə ki, mən ilk növbədə, kənd təsərrüfatı, sənaye istehsalı və emal sənayesini nəzərdə tuturam. Bu istiqamətlərə əlavə vəsait də təmin edilməlidir.

Biz iqtisadi fəallığı artırmalıyıq. Təbii ki, gəlirlər azaldıqca bizim investisiya qoyuluşumuz da, dövlət xətti ilə qoyulan investisiyaların həcmi də azalır. Bu da öz növbəsində, iqtisadi fəallığı müəyyən dərəcədə aşağı salır. Bu reallıqdır, bir-biri ilə bağlı olan məsələlərdir. Ona görə biz görüləcək əlavə tədbirlər nəticəsində iqtisadi fəallığı artırmalıyıq, həmçinin tikinti

sektorunda. Bakıda və bütün şəhərlərdə tam imkan verilməlidir ki, iş adamları böyük tikinti layihələrini icra etsinlər. Bəzi hallarda burada iş adamları müxtəlif çətinliklərlə üzləşirlər – bürokratiya, korrupsiya. Onlara qarşı əsassız tələblər irəli sürülür. Bütün bunlar yığışdırılmalıdır. Tikinti sektoru tam sərbəst şəkildə inkişaf etməlidir. Əlbəttə ki, şəhərsalma qaydalarına riayət etmək şərti ilə. Biz imkan verə bilmərik ki, burada xaotik vəziyyət yaransın. Ancaq bütün süni əngəllər aradan qaldırılmalıdır.

Əgər qanunvericilikdə, yaxud da kı, qaydalarda hər hansı bir düzəlişlər edilməlidirsə, biz bunları da etməliyik. Onu da deyim ki, Dünya Bankının «Doing Business» hesabatlarında Azərbaycanın müxtəlif istiqamətlər üzrə islahatları yüksək qiymətləndirilir. Ancaq bizi ən çox geriyə salan məhz tikinti sektorunda, bax, bu qeyri-normal vəziyyətdir. Çünki burada o qədər icazələr tələb olunur və burada o qədər pozuntular var ki, hətta beynəlxalq qurumlar da bunu qeyd edirlər. Ona görə mən bu gün ciddi tapşırıq verirəm bütün şəhər və rayon icra hakimiyyəti orqanlarına, ilk növbədə, Bakı Şəhər İcra Hakimiyyətinə ki, bundan sonra tikinti ilə bağlı heç bir süni əngəl olmamalıdır. İş adamlarına da müraciət edirəm, əgər sizdən kimsə qanunsuz nə isə tələb edərsə, birbaşa məlumat verin və o qanunsuz əməlləri törətmək istəyənlər ciddi şəkildə cəzalandırılacaqlar. Mənə mütəmadi qaydada məlumat verilməlidir ki, hər rüb nə qədər tikinti layihəsi icra edilir, harada və bunun əmək bazarına olan təsiri nədən ibarətdir?!

Burada, əlbəttə, ilk növbədə iş adamlarının fəaliyyətini gözləyirik. Eyni zamanda, ipoteka xətti ilə böyük tikinti layihələri icra edilə bilər. Əfsuslar olsun ki, bizdə bu sektorda durğunluq müşahidə olunur. Mən ipoteka ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm, o cümlədən Nazirlər Kabinetinin toplantılarında. Ancaq bu proses hələ ki, kütləvi xarakter almayıb. Bunu dərhal başlamaq, yəni davam etdirmək lazımdır. Təxirəsalınmaz tədbirlər görülməlidir. Bu tədbirlər haqqında mənə məlumat

verilməlidir. Biz nə etməliyik ki, ipoteka xətti ilə tikiləcək bu binaların inşasını sürətləndirək?!

Bir sözlə, iqtisadi islahatlar dərinləşməlidir. Biz burada inkişaf etmiş ölkələrin müsbət praktikasını mütləq nəzərə almalıyıq. Bizim bütün iqtisadi və maliyyə sistemimiz şəffaflaşdırılmalıdır. Bank sektoru inkişaf etməlidir. Biznes mühiti daha da yaxşılaşdırılmalıdır. İş adamlarına daha da yaxşı şərait yaradılmalıdır. Bütün bürokratik əngəllər aradan qaldırılmalıdır. Bu tapşırıqlar yerinə yetirilməlidir. Belə olan halda, biz tezliklə müsbət dinamikanı sürətləndirə bilərik.

Son illər ərzində bütövlükdə iqtisadi sahədə aparılan siyasət özünü doğruldur. Azərbaycan son 10 il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Sadəcə olaraq, indiki şəraitdə biz fəaliyyətimizi daha da təkmilləşdirməliyik. Azərbaycanda düşünülmüş siyasət, iqtisadi islahatlar aparılır. İnsanların vətənpərvərlik hissi yüksək səviyyədədir. Xalqla iqtidar birliyi möhkəmdir. Bax, budur uğurlarımızın əsas amilləri. Dövlət, hökumət, vətəndaşlar bir yerdə olaraq, bu gözlənilməz vəziyyətdən çıxış yollarını müəyyən etməlidirlər. Dövlətin bu istiqamətdə çox ciddi proqramı vardır. Əminəm ki, belə olan halda, 2016-cı ildə Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir problem olmayacaq. Qarşıda duran bütün sosial və iqtisadi vəzifələr icra ediləcək. Əminəm ki, belə də olacaq.

## İSVEÇ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İNQRİD TERSMAN İLƏ GÖRÜŞ

*18 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də İsveç Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri İnqrid Tersmanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir İnqrid Tersman Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*İnqrid Tersman etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan–İsveç əlaqələrinin yaxşı tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı iki ölkə arasında müxtəlif sahələrdə mövcud əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd etdi və bunun üçün yaxşı potensialın olduğunu dedi. Prezident İlham Əliyev iqtisadi münasibətlərin inkişaf etdirilməsi üçün biznes nümayəndələri arasında əlaqələrin artırılmasının, bu sahədə yeni imkanların araşdırılmasının önəmini də vurğuladı. Azərbaycanın yerləşdiyi regionda müəyyən iqtisadi çətinliklərin, eləcə də Avropada bəzi problemlərin müşahidə olunduğunu qeyd edən dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin regional əməkdaşlığın gücləndirilməsi işinə də töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan–Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyini vurğulayan prezident İlham Əliyev bu əlaqələrin ikitərəfli münasibətlərimizin gündəliyində saxlanmasının vacibliyini qeyd etdi. Prezident İlham Əliyev səfirə ölkəmizdəki diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*Səfir İnqrid Tersman İsveç kralı əlahəzrət XVI Karl Qustavın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə mövcud dialoqu genişləndirmək niyyətində olduğunu dedi. İnqrid Tersman ölkələrimizin regional inkişaf və təhlükəsizlik, miqrasiya və mədəniyyət, o cümlədən beynəlxalq məsələlərlə yanaşı, bir çox*

*sahələrdə də ümumi mövqeyə* malik *olduğunu* qeyd etdi. *İqtisadi əlaqələrin yaxşı səviyyədə* olduğunu *deyən səfir* bu *əlaqələrin* daha da *inkişaf etdiriləcəyinə əminliyini* bildirdi. *İnqrid* Tersman *ölkələrimiz arasında ikitərəfli əlaqələrin Azərbaycan*–Avropa *İttifaqı əməkdaşlığının* daha da *genişləndirilməsində xüsusi* rol *oynadığını* dedi. *Səfir Azərbaycandakı* diplomatik *fəaliyyəti dövründə* iki *ölkə arasında münasibətlərin möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

Prezident *İlham Əliyev İsveç kralı əlahəzrət XVI* Karl *Qustavın salamlarına görə minnətdarlığını* bildirdi, onun da *salamlarını İsveçin Kralına çatdırmağı xahiş* etdi.

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişlər.*

*Qanlı Yanvar hadisələrindən 26 il keçir. 1990-cı il yanvarın 20-də ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi, bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.*

*20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə, ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.*

*Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nə-*

*inki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə, bu vəhşiliyi gizlətmək üçün əllərindən gələni etdilər. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı səfirliyinə gedərək, xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.*

*Uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində işləyən, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olan, SSRİ rəhbərliyinin qəzəbinə tuş gələrək, təqaüdə göndərilən Heydər Əliyev yenə də bütün məhrumiyyətlərə baxmayaraq, o ağır günlərdə xalqının arasında, onunla birgə, həmrəy oldu.*

*Heydər Əliyev bəyanatı ilə əslində Azərbaycanda gedən proseslərə qiymət verdi. Ulu öndər SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə qətiyyən xoşniyyətli davranmadığını diqqətə çatdırmaqla yanaşı, həm də hakimiyyəti onda qınadı ki, Azərbaycana siyasi savadı olmayan, kölə xislətli insanın rəhbər təyin edilməsi xalqla hakimiyyət arasında dərin uçurumun yaranmasına səbəb olmuşdu. Bu uçurumun yaradılması da ilk növbədə, mərkəzi hakimiyyətin maraqlarına xidmət edirdi və bununla belə, gələcəkdə yaranacaq bütün problemlərin, konkret desək, 20 Yanvar faciəsinin baş verməsinə səbəb olmuşdu.*

*Bir müddət sonra – 1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu hadisəyə siyasi-hüquqi qiymət verdi. Bu tarixi sənəddə Azərbaycan xalqına qarşı törədilən siyasi və hərbi qəsdin cavabdehləri və günahkarları açıqlandı. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilən bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində heç bir iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra*

*– 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı.*

*Azərbaycanın azadlığı uğrunda canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. Eləcə də 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı həmişə dövlətimizin başçısının diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb. Dövlətimizin başçısı bu istiqamətdə sərəncamlar və fərmanlar verib. Bundan başqa, əlillərin reabilitasiyası üçün respublikada yeni sağlamlıq mərkəzləri inşa olunub. Ötən il əlil və şəhid ailələrinə yeni mənzillər verilib ki, onların arasında 20 Yanvar əlilləri və şəhidlərinin ailələri də var. 20 Yanvar faciəsində şəhid olan şəxslərin ailələrinə Prezident təqaüdü verilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də səhər Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmişlər.*

*Dövlətimizin başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişlər.*

*Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak etmişlər.*

## İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20-də xanımı Mehriban Əliyeva ilə birlikdə İsveçrəyə işgüzar səfərə gəlmişlər.*

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşmüşdür.*

*Baş nazir Əhməd Davudoğlu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın salamını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə yüksək səviyyədə inkişafından məmnunluq ifadə olundu. Yüksək səviyyədə mütəmadi görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edildi. Beynəlxalq səviyyəli tədbirlərdə Azərbaycanın və Türkiyənin birgə iştirakının önəmi vurğulandı.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamına görə minnətdarlığını bildirdi, onun da salamını prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Böyük Britaniyanın* bp *şirkətinin baş icraçı* direktoru *Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz»* yataqlarının *işlənilməsində Azərbaycan ilə* bp *şirkəti arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə* olundu. *Həmçinin* Abşeron *yarımadasının* dayaz *sulu hissəsində* geoloji *kəşfiyyat işlərinin aparılması sahəsində işlərin uğurla davam* etdirildiyi *vurğulandı.*

## «LUKOYL» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Rusiyanın «LUKoyl» şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Görüşdə qeyd olundu ki, «LUKoyl» şirkəti 20 ildən artıqdır Azərbaycanda uğurla fəaliyyət göstərir və etibarlı tərəfdaşdır. «LUKoyl» şirkəti uğurla icra edilən «Şahdəniz» layihəsinin iştirakçısıdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə «LUKoyl» arasındakı əməkdaşlıq artıq yeni sahələri əhatə edir.*

*Söhbət zamanı Azərbaycan ilə «LUKoyl» şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.*

## «LAZARD AVROPA» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ METYU PİQAS İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda «Lazard Avropa» şirkətinin vitse-prezidenti Metyu Piqas ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Azərbaycan ilə «Lazard Avropa» şirkəti arasında əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı bu əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladı.*

*«Cənub Qaz Dəhlizi» layihəsinin maliyyələşdirilməsi üzrə ölkəmizin maliyyə məsləhətçisi olan «Lazard Avropa» şirkətinin vitse-prezidenti Metyu Piqas bildirdi ki, Azərbaycan yüksək reytinqə malikdir. O, qeyd etdi ki, Azərbaycanda aparılan islahatlar ölkənin imicinə yaxşı təsir edir və nəticədə əlavə maliyyə resurslarının cəlb olunması imkanlarını genişləndirir.*

*Söhbət zamanı Azərbaycan ilə «Lazard Avropa» şirkətinin işgüzar münasibətləri müzakirə edildi, digər sahələrdə də potensial əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ MƏHƏMMƏD NƏHAVƏNDİAN İLƏ GÖRÜŞ

*Davos*

*20 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda İran İslam Respublikası Prezident Administrasiyasının rəhbəri Məhəmməd Nəhavəndian ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İran arasında son illərdə dinamik inkişaf edən ikitərəfli əlaqələrin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olundu.*

*Məhəmməd Nəhavəndian İran prezidenti Həsən Ruhaninin salamını və xoş arzularını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı.*

*Dövlətimizin başçısı İrana qarşı tətbiq edilən sanksiyaların götürülməsi münasibətilə İran Prezidentinə və xalqına təbriklərini çatdırdı. Azərbaycan Prezidenti bildirdi ki, bu, ölkələrimiz arasındakı əməkdaşlığın bütün sahələrdə daha sürətli inkişafına töhfə verəcək. Prezident İlham Əliyev, həmçinin qeyd etdi ki, Azərbaycan–İran əlaqələri ölkələrimizin maraqlarına xidmət etməklə yanaşı, regionda sabitliyin və təhlükəsizliyin daha da möhkəmlənməsi işinə töhfə verəcək.*

*Söhbət zamanı birgə layihələrin həyata keçirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Bank, nəqliyyat və digər istiqamətlərdə iqtisadi əməkdaşlığı inkişaf etdirmək üçün geniş imkanların olduğu vurğulandı.*

*Sanksiyaların götürülməsindən sonra İranın imkanlarının genişləndiyini vurğulayan Məhəmməd Nəhavəndian bildirdi ki, Azərbaycan ilə İran bundan istifadə edərək, digər ölkələrin də iştirakı ilə yeni layihələr reallaşdıra, əməkdaşlığı daha da dərinləşdirə bilər.*

*Görüşdə Azərbaycan ilə İran arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin region üçün böyük əhəmiyyət daşıdığı bildirildi. Həmçinin sənaye, elektrik stansiyalarının tikintisi, sərmayə qoyuluşu və digər sahələrdə yeni layihələrin həyata keçirilməsi imkanları müzakirə edildi. Terrorizmə qarşı səylərin birləşdirilməsinin regionda təhlükəsizliyin və sabitliyin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Prezident İlham Əliyev İran dövlətinin başçısının salamına görə minnətdarlığını bildirdi, onun da salamının prezident Həsən Ruhaniyə çatdırılmasını xahiş etdi.*

## «YENİ ENERJİ TARAZLIĞI» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*
*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən «Yeni enerji tarazlığı» mövzusunda sessiyada iştirak etmişdir. Sessiyanın aparıcısı, CNN-in redaktoru Con Defterios Azərbaycan prezidenti İlham Əliyevə müraciət etdi.*

**C o n D e f t e r i o s:** Cənab Prezident, Sizə «Brent» markalı neftin 28 dollara düşəcəyini desəydim, mənim günorta yeməyində su və ya çay əvəzinə başqa bir şey içdiyimi düşünərdiniz. Cənab Prezident, bizə bu gün neftin qiymətini gördükdə necə təəccüb keçirdiyinizi, qiymətlər daha da aşağı düşməyə davam edərsə, gələcəyi necə planlaşdıracağınızı danışın.

**İ l h a m Ə l i y e v:** Nefti bundan daha aşağı qiymətlərdə görmək çətindir. Ancaq bu gün bunu gördükdən sonra artıq buna da təəccüblənməyəcəyik. Əlbəttə, buna hazır deyildik. Biz Azərbaycanda özümüzü neftsonrası dövrə – 20 il sonraya hazırlayırdıq. Buna görə də bu bizim üçün gözlənilməz oldu. Eyni zamanda, bu bizim iqtisadiyyatımız üçün bir zərbə idi. Biz bu il büdcəmizi neftin 50 dollar qiymətinə görə, ötən il isə 90 dollar qiymətinə görə planlaşdırmışdıq. Biz xərclərimizi, investisiyalarımızı azaltmalı və sosial təminatı eynilə saxlamalı olduq. Bizim iqtisadiyyatımız sabit və davamlıdır. Bizim geniş ehtiyatlarımız var. Bu vəziyyəti tarazlaşdıra bilərik. Ancaq bu vəziyyət daha uzun müddətə davam edərsə, əlbəttə, bu, büdcəmizə ciddi təsir göstərəcək.

*«Cambridge Energy Research Associates» konsaltinq şirkətinin vitse-prezidenti Daniyel Yergin neftin qiymətinin dünyanın aparıcı və inkişaf etmiş ölkələrin iqtisadiyyatı ilə əlaqəli olduğunu bildirdi. O, 2003-cü ildən bəri OPEC-in neftin qiyməti ilə bağlı apardığı siyasətdən danışdı.*

*Səudiyyə Ərəbistanının Səhiyyə naziri, «Saudi Aramco» neft şirkətinin rəhbəri Xalid əl-Falih ölkəsinin iqtisadi potensialından danışdı.*

*Bildirdi ki, neftin qiymətinin aşağı düşməsi davam etsə, bəzi istehsalçılar qısamüddətli əməliyyat xərclərini qarşılaya bilməyəcəklər. «Bazarın bütün istehsalçılara ehtiyacı var» – deyən Xalid əl-Falih ilin sonunadək neftin qiyməti ilə bağlı proqnoz verməyə çətinlik çəkdiyini bildirdi. Bununla yanaşı, neftin qiymətinin qalxacağına ümidvar olduğunu dedi.Rusiya Birbaşa İnvestisiyalar Fondunun baş direktoru Kiril Dmitriyev qeyd etdi ki, bir çox ölkələr bazarda daha çox pay əldə etməyə çalışır və bu da qiymətlərin aşağı düşməsinə təsir edir. Dünyanın enerjiyə çox ehtiyacı olduğunu bildirən Kiril Dmitriyev neftin qiymətinin sabitləşəcəyinə ümidvar olduğunu dedi. Onun sözlərinə görə, «Reuters»in analitiklər arasında apardığı sorğuya əsasən, gələn il neftin 1 barrelinin qiyməti 57,9 dollar olacağı gözlənilir.*

*Çinin Araşdırmalar və Enerji Siyasəti Universitetinin professoru Lim Bocen neftin qiymətinin aşağı düşməsinin ölkəsinin iqtisadiyyatına təsirindən və ümumilikdə, dünyada hazırda mövcud olan maliyyə və iqtisadi böhranın Çində də yaratdığı fəsadların aradan qaldırılması ilə bağlı hökumətin gördüyü tədbirlərdən danışdı. Nigeriyanın Neft naziri, OPEC-in hazırkı prezidenti Emanuel Kaçikvu da neftin qiyməti ilə bağlı nikbin fikirdə olduğunu bildirdi. Qeyd etdi ki, OPEC-ə üzv ölkələrlə quruma üzv olmayan ölkələr vəziyyətlə bağlı danışıqlar aparmalıdır.*

**C o n  D e f t e r i o s: Real olaraq Siz OPEC üzvü olmadan gündəlik 800 min barrel neft istehsal edirsiniz. Heç OPEC-lə əlaqə yaradıb «Azərbaycanda çətinlik çəkirik, bununla əlaqəli bir şey etməliyik» – demisinizmi?**

**İ l h a m  Ə l i y e v:** Biz bunu etməyə hazırıq. Əslində bu mövzu bir sıra OPEC üzvü olan ölkələrlə müzakirələrimizin bir hissəsi olub. Biz böyük istehsalçı deyilik. Ancaq düşünürəm ki, OPEC üzvləri və OPEC üzvü olmayan böyük istehsalçılar arasında istehsalın azaldılması istiqamətində daha yaxşı koordinasiya olsa, bəlkə də bir nəticə əldə edərik. Çünki təəssüflər olsun ki, hər OPEC üzvlərinin görüşündən sonra neftin qiyməti aşağı düşür. Bu səbəbdən də yeni mümkün görüşdən ehtiyatlanırıq. Bəlkə də bu görüşü keçirməmək daha yaxşıdır.

**C o n  D e f t e r i o s: Son zamanlar OPEC-ə çox etibar etmirsiniz.**

**İ l h a m Ə l i y e v:** Bu, real vəziyyətdir. Düşünürəm ki, OPEC üzvü olmayan böyük istehsalçılar və OPEC üzvləri arasında istehsalın azaldılması barədə razılıq, əlaqələndirmə olsa, qarşılıqlı etibarı artırar. OPEC təkbaşına bu qərarı verə bilmədi. Bu qərar olmadıqda isə indiki vəziyyət alınır və neftin qiymətinin ən aşağı həddə enməsini gözləyirik. Hər gün ən aşağı hədd olduğunu düşünürük və daha sonra yeni neft qiymətini görürük. Sözün açığı, ölkənin büdcəsini tarazlamaq, investisiya üçün maliyyəyə malik olmaq kimi ehtiyaclardan başqa, bu bir az da psixoloji cəhətdən yorucudur. Bu, təkcə neft və qaz sektorunda deyil. Şirkətlər və ölkələr arasındakı fərq də budur. Biz sosial infrastruktura, sənaye infrastrukturuna investisiya qoymalıyıq. Eyni zamanda, istehsal gücünü sabit saxlamaq üçün də neft və qaz sənayesinə investisiya qoymalıyıq. İndiki vəziyyət, əlbəttə, ürəkaçan deyil. Ancaq eyni zamanda, bu, Azərbaycanda islahatlar üçün əlverişli məqamdır. Biz maliyyə sektorumuzun yeni təfəkkürdə islahatlarına, iqtisadi islahatlara, ixracatyönümlü qeyri-neft məhsullarının istehsalına başlamışıq və neft amilini unutmalıyıq. Əvvəldə dediyim kimi, özümüzü bu dövrə – 15-20-25 il sonraya hazırlamağa çalışırdıq. Amma bunu indi etməliyik və düşünürəm ki, bu vəziyyətdən çıxa biləcəyik. Bir daha deyirəm, Azərbaycanın iqtisadi vəziyyəti sabitdir. Bizim xarici borcumuz ümumi daxili məhsulun yalnız 12 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız da, demək olar ki, ümumi daxili məhsul ilə eyni səviyyədədir. Əminəm ki, biz böhrandan çıxacağıq. Ancaq gələcək il üçün büdcə planlaşdırması aparmaqdan ötrü, əlbəttə ki, proqnozlaşdırıla bilən bir gələcək istəyirik.

**C o n D e f t e r i o s: Sizin valyutanız 70 faiz devalvasiyaya məruz qaldı. Bu çox ağrılı bir proses oldu və hətta Azərbaycanda bir sıra etirazlar yaratdı. Buna səbəb neftin qiymətlərinin kəskin düşməsi idi.**

**İ l h a m Ə l i y e v:** Bunun bir çox səbəbi var. Birincisi, neftin qiymətlərinin azalması. Bizim milli valyutamız ötən 10 ildə dollara nisbətdə çox dəyər qazanmışdı. Manat 1,3 dollara bərabər idi. İlk devalvasiya zamanı manat 1–1 nisbətində oldu. İkinci devalvasiyanın əsas səbəbi isə qonşu ölkələrdə milli valyutaların kəskin devalvasiyası oldu. Nəticə olaraq bizim məhsullarımızın rəqabətədavamlılığı azaldı və bu, büdcəmiz üzərində artıq yükə çevrildi. Beləliklə, bu, qaçılmaz idi.

Bacardığımız qədər bunun qarşısını almağa çalışdıq. Milli Bank ehtiyatlarımızın bir hissəsini itirdik. Ancaq bu addımı atmalı idik. Bununla əlaqədar bir sıra narahatlıqlar yarandı. Çünki idxal edilən məhsulların qiymətində dərhal artım oldu. Biz hələ də bəzi məhsullar baxımından idxaldan asılı ölkəyik. Bu səbəbdən qiymətlərin artması bir sıra narahatlıqlara səbəb oldu. Bu, kiçik bir etiraz idi. Bunun səbəbi də insanların hazır olmadığı bir stress vəziyyəti yaşaması idi. Amma artıq bu bitdi və zənn edirəm ki, Azərbaycandakı inkişaf davamlı olacaq. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatına sahib idi. Son 10 ildə iqtisadiyyatımız 300 faiz artmışdı və zənnimcə bu bizim üçün bir qədər yüksək göstərici idi. İndi də bu tempin azalması vaxtıdır. Valyuta ehtiyatları ilə biz bu vəziyyətdən çıxacağıq.

**C o n D e f t e r i o s: Cənab Prezident, son sözlərinizi eşitmək istərdik. Neftin 28 dollar qiymətində necə bir planlaşdırma aparacaqsınız? Qiymətin ən aşağıya çox yaxın olduğumuzu düşünürsünüzmü? Növbəti rübdə vəziyyəti dəyişə biləcəyikmi?**

**İ l h a m Ə l i y e v:** Bəli, mən belə düşünürəm. Zənnimcə, daha 2-3 dollar enmə ola bilər. Daha sonra ilin ikinci yarısında bazar böyüməyə başlayacaq. Çünki biz hamımız bilirik ki, bu, dövri sistemdir. Böyük neft inkişafı layihəsini 1994-cü ildə işə salan zaman neftin qiyməti, ümumiyyətlə, 12 dollar idi. Bu da normal qarşılanırdı. O vaxt inkişaf planlaşdırılması aparılan zaman xatırlayıram, optimist ssenariyə görə neftin qiyməti 23 dollar götürülmüşdü. İndi də 22 il əvvəlki optimist ssenariyə çox yaxınıq. Ümid edirəm ki, bazar sabitləşəcək. Çünki neft sektoru investisiyalar tələb edir. Keçən il neft sektoruna ən az investisiya qoyulmasının şahidi olduq. Bu olmasa, qiymət sözsüz, yüksələcək. Heç bir proqnoz vermək istəmirəm. Ancaq 1 barrel üçün 60–70 dolların şirkətlərə, investorlara, hökumətlərə əla qiymət olacağını düşünürəm və bunu gec-tez görməyə ümid edirəm.

**C o n D e f t e r i o s: 2017-ni nəzərdə tutursunuz?**

**İ l h a m Ə l i y e v:** Bəli, belə düşünürəm. 2017-də. Ümidvaram ki, bu ilin ikinci yarısı sabitləşmə dövrü olacaq və biz artımı görəcəyik.

## İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsrail arasında münasibətlərin inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ GERİ EDRÜ KUMBE İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda «Procter and Gamble Europe» şirkətinin prezidenti Geri Edrü Kumbe ilə görüşmüşdür.*

*Görüşdə «Procter and Gamble Europe» şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd edildi. Söhbət zamanı Azərbaycan ilə bu şirkət arasında əməkdaşlığın daha da genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

# «MİCROSOFT CORPORATİON» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ SYUZAN HAUSER İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda «Microsoft Corporation» şirkətinin vitse-prezidenti xanım Syuzan Hauser ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sisteminin uğurla inkişaf etdiyi və bu sahənin böyük önəm daşıdığı qeyd olundu. «Microsoft Corporation» şirkətinin Azərbaycanda bu sahəyə böyük diqqət yetirdiyi məmnunluqla vurğulandı. Azərbaycan iqtisadiyyatının modernləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin mühüm rol oynadığı qeyd edildi, bu baxımdan təhsilin, kosmik sənayenin prioritet sahələr olduğu bildirildi. Həmçinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə kənd təsərrüfatı sahəsində pilot layihələrin həyata keçirildiyi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə «Microsoft Corporation» şirkəti arasında əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirildi, ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar barədə fikir mübadiləsi aparıldı. Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensialın olduğu vurğulandı, bu baxımdan yeni imkanlar müzakirə edildi.*

## AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edildi. Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolunun önəmi qeyd edildi, bu baxımdan «Cənub Qaz Dəhlizi» layihəsinin əhəmiyyəti vurğulandı. Həmçinin «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla reallaşdırıldığı qeyd olundu, bu layihənin həyata keçirilməsinə Avropa Komissiyası tərəfindən tam dəstəyin göstərildiyi bildirildi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NAVAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*Davos*

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Navaz Şərif ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev bu görüşün ölkələrimiz arasındakı münasibətlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu dedi. Azərbaycan ilə Pakistan arasında əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edən dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə verdiyi dəstəyi yüksək qiymətləndirdi. «Bizim üçün Pakistan dünyada ən yaxın müttəfiq ölkələrdəndir və biz tərəfdaşlığımızın daha da gücləndirilməsini istəyirik» – deyən prezident İlham Əliyev iqtisadi əlaqələrimizi də çox güclü olan siyasi əməkdaşlığın səviyyəsinə qaldırmağın vacibliyini vurğuladı, ölkələrimizin energetika, nəqliyyat, sərmayə qoyuluşu, təhlükəsizlik sahələrində əməkdaşlıq etməsinin əhəmiyyətini bildirdi.*

*Dövlətimizin başçısı Pakistanda universitetdə törədilmiş dəhşətli terror hadisəsi ilə bağlı Baş nazir Məhəmməd Navaz Şərifə və dost ölkənin xalqına başsağlığı verdi.*

*Baş nazir Məhəmməd Navaz Şərif başsağlığına görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. O, Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu vurğuladı. Prezident İlham Əliyevin Pakistanın böyük dostu olduğunu deyən Məhəmməd Navaz Şərif Pakistan xalqının Azərbaycana böyük məhəbbət hissi bəslədiyini bildirdi. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin Pakistanda böyük hörmətlə xatırlandığını, ulu öndərin İslamabada səfəri zamanı onunla görüşünü ehtiramla xatırladığını, prezident İlham Əliyevin ümummilli liderin siyasətini uğurla davam etdirərək,*

Azərbaycanı dünya miqyasında qüdrətli ölkəyə çevirdiyini diqqətə çatdırdı.

Azərbaycan ilə Pakistan arasında dostluq münasibətlərinin inkişaf etdiyini deyən Pakistan hökumətinin başçısı ölkələrimizin əməkdaşlıq baxımından mövcud potensialının gücləndirilməsində maraqlı olduqlarını bildirdi, bunun üçün ciddi səylərin göstərilməsinin əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Məhəmməd Navaz Şərifin ümummilli lider Heydər Əliyev haqqında dediyi xoş sözlərə görə minnətdarlığını bildirdi, ulu öndərin ölkələrimiz arasında münasibətlərin əsasını qoyduğunu dedi, Azərbaycan xalqının Pakistana böyük rəğbət hissi bəslədiyini vurğuladı.

Görüşdə münaqişələrin həllində ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyinin böyük əhəmiyyəti olduğu qeyd edildi. Dövlətimizin başçısı ölkəmizin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllində Pakistanın ədalətli mövqeyini yüksək qiymətləndirdi.

Söhbət zamanı iqtisadi əlaqələrin daha da genişləndirilməsi, qarşılıqlı investisiya qoyuluşu, hərbi sahədə əməkdaşlıq və digər məsələlər müzakirə olundu.

## PREZİDENT İLHAM ƏLİYEV: «AZƏRBAYCAN İQTİSADİYYATININ GƏLƏCƏYİ»

*21 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan iqtisadiyyatının gələcəyi» mövzusunda məqaləsi Davos İqtisadi Forumunun rəsmi saytında yerləşdirilmişdir.*

* * *

Dünyada gedən dərin iqtisadi və maliyyə böhranına baxmayaraq, Azərbaycan öz iqtisadiyyatını bu böhranın yaratdığı mənfi meyillərdən maksimum dərəcədə qorumağa çalışır.

Azərbaycan bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə dinamik inkişafını müvəffəqiyyətlə davam etdirən tolerant bir ölkədir. Son vaxtlar neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, ölkə iqtisadiyyatı özünün inkişaf templərini davam etdirməkdədir.

Azərbaycan iqtisadiyyatı son 10 ildə 300 faiz artıb. Yoxsulluq və işsizlik kəskin şəkildə aşağı düşüb. Hazırda hər iki göstərici 5 faiz səviyyəsindədir. 2015-ci ildə qeyri-neft sənayesi 8,4 faiz artıb.

Dünyadakı siyasi, hərbi və maliyyə böhranının dərinləşməsi şəraitində iqtisadi inkişafı saxlamaq, əlbəttə ki, böyük nailiyyətdir. Neftin qiyməti 2015-ci il ərzində 3 dəfə aşağı düşüb. Ona görə bizim gəlirlərimiz də kəskin şəkildə azalıb, təbii ki, büdcə gəlirləri və eləcə də büdcə xərcləri. Biz 2015-ci ildə büdcə xərclərinə böyük qənaət edə bilmişik. Əfsuslar olsun ki, dünyada gedən proseslər 2016-cı il üçün də nikbin əsaslar vermir.

İndiki vəziyyətdə hökumət qarşısında duran əsas vəzifə makroiqtisadi sabitliyi təmin etmək, inflyasiyanı normal səviyyədə saxlamaqdır. 2015-ci ilin yekunlarına görə inflyasiya 4 faizdən az olmuşdur. Biz 2016-cı il ərzində də bu rəqəmi ən aşağı səviyyədə saxlamağa çalışmalıyıq.

Son illərdə Azərbaycanda yerli istehsala böyük əhəmiyyət verilir, həm dövlət, həm də özəl sektora vəsait qoyulur. Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, lazımsız yoxlamaların aradan qaldırılması və lisenziyalarla bağlı vəziyyətin yaxşılaşdırılması üçün iqtisadi islahatlar məsələsinə mühüm əhəmiyyət verilir. Azərbaycanda iqtisadi və maliyyə sektorunun şəffaflaşması prosesini davam etdiririk. Bu baxımdan Davos Dünya İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə 40-cı yerə, MDB məkanında isə yenidən 1-ci yerə layiq görüb.

Qeyri-neft sektoru, əlbəttə, iqtisadi inkişafımızın əsas hərəkətverici sahəsidir. Azərbaycan iqtisadiyyatı artıq çoxşaxəli iqtisadiyyatdır. Qeyri-neft sektoru ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir. Məqsədimiz qarşıdakı illərdə qeyri-neft sektorunun sürətli inkişafına nail olmaqdır.

Azərbaycanın zəngin neft-qaz resursları və məqsədyönlü siyasəti enerji sahəsində də böyük işlərin görülməsinə imkan yaratmışdır. Azərbaycanın irəli sürdüyü təşəbbüs və layihələr regionumuzun hüdudlarını aşaraq, ölkələri və qitələri birləşdirir.

Enerji təhlükəsizliyi məsələsinə nəzər saldıqda aydın görünür ki, Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu baxımdan «Cənub Qaz Dəhlizi» layihəsinin icrasına başlanılması tarixi hadisədir.

«Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir. Birincisi, «Şahdəniz-2» fazasının işlənilməsidir. «Şahdəniz» yatağında qaz ehtiyatları 1 trilyon kubmetrdən çoxdur. Ümumiyyətlə, Azərbaycanın digər yataqları ilə birlikdə qaz ehtiyatları 2.6 trilyon kubmetr təşkil edir. İkinci layihə Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» qaz kəmərinin genişləndirilməsidir. Üçüncü layihə Trans–Anadolu qaz kəməri (TANAP) layihəsidir. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış bu layihəyə əsasən, qaz kəməri Türkiyə–Gürcüstan sərhədindən Türkiyə–Yunanıstan sərhədinə qədər uzanacaq. Dördüncü layihə isə Trans–Adriatik boru kəməri (TAP) layihəsidir. Bu layihə əsasında qaz kəməri Yunanıstandan Albaniyaya, oradan da Adriatik dənizinin altından keçməklə, İtaliyaya çatacaqdır. Bütün bu 4 layihə «Cənub Qaz Dəhlizi»ni formalaşdırır. Azərbaycan

bu 4 layihədə önəmli səhmdar, TANAP layihəsində isə əsas səhmdardır. «Cənub Qaz Dəhlizi»nin icrası nəticəsində bir çox ölkələr alternativ qaz mənbəyi kimi, Azərbaycan qazına çıxış əldə edəcəklər. Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçılarıdır. Eyni zamanda, Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya bu layihəyə qoşulmaq barədə Azərbaycan tərəfi ilə Anlaşma Memorandumu imzalamışlar. Beləliklə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli və etibarlı tərəfdaşa çevrilir.

Nəqliyyat infrastrukturunun inkişafı da ölkəmizdə prioritet istiqamətlərdəndir. Bu gün biz müasir texnologiyaların tətbiqi və qonşu dövlətlərin iştirakı ilə tarixi İpək yolunu bərpa edirik. Hazırda Azərbaycan və Gürcüstandan keçməklə, Türkiyəyə qədər uzanacaq Bakı–Tbilisi–Qars dəmir yolu tikilir ki, bu da ilk dəfə olaraq Azərbaycanı dəmir yolu vasitəsilə Avropa ilə birləşdirəcək. Bunun tarixi əhəmiyyəti var.

Eyni zamanda, Azərbaycanda bir neçə beynəlxalq aeroport tikilib. Yeni Beynəlxalq Dəniz Ticarət Limanı da tikilməkdədir. Bu da Xəzər hövzəsində ən böyük ticarət limanı olacaqdır.

Nəqliyyat infrastrukturunda olduğu kimi, müasir texnologiyaların müxtəlif sahələrdə tətbiqinə də xüsusi önəm verilir. Azərbaycan «Azərspace-1» və «Azərsky» peyklərini orbitə çıxararaq dünya kosmik ailəsinə qoşulub. Ölkəmizdə müasir idarəetmənin təmin olunması və şəffaflığın artırılması üçün «Elektron hökumət» quruculuğu istiqamətində işlər aparılır.

Dövlət orqanları «ASAN xidmət» mərkəzləri vasitəsilə əhaliyə elektron xidmətlərin göstərilməsini təmin edir. Hazırda respublika üzrə 9 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə dövlət orqanları tərəfindən 30 sahə üzrə 112, yardımçı funksional sahələr üzrə isə 140 xidmət göstərilir. 2 yeni mərkəz isə tikilməkdədir. 10 səyyar avtobus ölkənin müxtəlif bölgələrində əhaliyə xidmət göstərir. «ASAN xidmət»in fəaliyyətə başlamasından 2 il vaxt keçir. Bu müddət ərzində 7 milyon insan xidmətdən istifadə edib və əhalinin bu xidmətdən razılıq əmsalı 100 faizə yaxındır. Bəzi

ölkələr bizim bu sahədə təcrübəmizdən istifadə etməyə başlamışdır.

Ölkəmizdə sosial infrastruktur layihələri də uğurla icra olunur. Son illərdə çoxlu sayda məktəb, uşaq bağçası və tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir.

Azərbaycanda turizm sektorunun inkişafına xüsusi diqqət ayırırıq. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektləri, mehmanxana kompleksləri tikilib. Son bir neçə ildə dünyanın ən məşhur beşulduzlu hotel brendləri Azərbaycana gəlmişdir. Bakıda indi dünyanın bütün aparıcı hotelləri fəaliyyət göstərir. Turizmin inkişafı qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin olduğunu bir daha təsdiqləyir.

Qeyd edək ki, Azərbaycan dünyada həm də multikultu-ralizmin mərkəzlərindən biri kimi tanınır və xalqımız bununla fəxr edir.

## DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-RƏSMİ TOPLANTISINDA İŞTİRAK

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində dünya iqtisadi liderlərinin «2016-cı il üçün mütləq xarakterli tövsiyələr» mövzusunda qeyri-rəsmi toplantısında iştirak etmişdir.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ YOHAN ŞNAYDER-AMMAN İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Yohan Şnayder-Amman ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Siyasi, iqtisadi, enerji, sərmayə qoyuluşu, nəqliyyat sahələrində səmərəli əməkdaşlığın olduğu vurğulandı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolundan danışıldı.*

*Söhbət zamanı beynəlxalq aləmdə hazırkı vəziyyət, neftin qiymətinin aşağı düşməsi fonunda gedən iqtisadi proseslər, maliyyə və iqtisadi sahələrdə böhran ətrafında fikir mübadiləsi aparıldı, həm Azərbaycanda, həm də İsveçrədə bu istiqamətdə atılan addımlar müzakirə edildi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqların hazırkı vəziyyəti ilə bağlı müzakirələr aparıldı.*

## DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS ŞVAB İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşmüşdür.*

*Söhbət zamanı Dünya İqtisadi Forumunun əhəmiyyəti qeyd edildi, Azərbaycanın bu mötəbər tədbirdə fəal və davamlı iştirakı məmnunluqla vurğulandı. Həmçinin «İpək yolu» layihəsinə dair məsələlər müzakirə olundu, hazırkı dövrdə regional və beynəlxalq aləmdə neftlə bağlı gedən proseslər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə Klaus Şvab Dünya İqtisadi Forumunda 10-cu dəfə iştirak etdiyinə görə Davos Fəxri üzvlər klubunun nişanını prezident İlham Əliyevə təqdim etdi.*

## NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ BORGE BRENDE İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Norveçin Xarici İşlər naziri Borge Brende ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi bildirildi, qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Gürcüstan Respublikasının Baş naziri Giorgi Kvirikaşvili ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Söhbət zamanı əlaqələrin intensivləşdirilməsi, qarşıya çıxan məsələlərlə bağlı məsləhətləşmələrin aparılması, birgə layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olundu.*

## TOTAL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANNE İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Total şirkətinin baş icraçı direktoru Patrik Puyanne ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Total şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi. Söhbət zamanı «Abşeron» qaz yatağının işlənilməsi və digər layihələrin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin hazırkı vəziyyətindən məmnunluq ifadə edildi. Ölkələrimiz arasında iqtisadi sahədə, o cümlədən nəqliyyat, energetika, sərmayə qoyuluşu və digər istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olundu. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin və əməkdaşlığın həyata keçirildiyi vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Hindistan arasındakı münasibətlərin xoş ənənələri mövcuddur. İnanıram ki, dostluq və əməkdaşlıq münasibətlərimizin möhkəmləndirilməsi və inkişafı yolunda bundan sonra da birgə səylərimizi davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 yanvar 2016-cı il*

## AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA

Hörmətli cənab General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Avstraliya münasibətlərinin son vaxtlar genişlənməsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 yanvar 2016-cı il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də ATƏT Parlament Assambleyası sədrinin müavinləri Georgi Tseretelinin və Kent Harstedtin başçılıq etdiyi, ATƏT Parlament Assambleyasının baş katibi Roberto Montellanın daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Georgi Tsereteli ATƏT Parlament Assambleyasının sədri İlkka Kanervanın xəstəliyi ilə bağlı Azərbaycana səfər edə bilməməsini təəssüflə qeyd etdi. O, ölkəmizin təmsil etdiyi qurum üçün prioritet olduğunu və Azərbaycan ilə əməkdaşlığın böyük əhəmiyyət daşıdığını dedi. Georgi Tsereteli ATƏT-in həyata keçirdiyi layihələrdə Azərbaycanın iştirakına görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. O, ATƏT Parlament Assambleyasının 2014-cü ildə Bakıda illik sessiyasının yüksək səviyyədə keçirildiyini məmnunluqla xatırlatdı. Azərbaycan ilə bu günə qədər əməkdaşlığın uğurla həyata keçirildiyini bildirən qonaq bu əməkdaşlığı konstruktiv və anlaşma ruhunda yeni mərhələdə davam etdirmək niyyətində olduqlarını dedi.*

*Dövlətimizin başçısı ATƏT Parlament Assambleyası sədrinin müavini Georgi Tseretelinin ölkəmizə səfərinin məhsuldar və səmərəli olacağına ümid etdiyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ İKİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA İŞTİRAK

*26 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda iştirak etmişdir.*

*Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edəcəyik. Üçüncü Proqram 2014-cü ildə qəbul edilmişdir, uğurla icra olunur. Hər il biz bu Proqramın icrasını müzakirə edirik. Gələcək fəaliyyət üçün istiqamətlər müəyyən edilir. Bir sözlə, bu Proqramın icrası çox uğurlu addımımızdır və 2004-cü ildə birinci Proqram qəbul olunanda məsələ elə qoyulmuşdu ki, Azərbaycanın regionları sürətlə inkişaf etməlidir. Regionlarda infrastruktur layihələri, iş yerləri, sosial müəssisələr yaradılmalıdır ki, ölkəmizin inkişafı hərtərəfli və dayanıqlı olsun.

2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Dünya iqtisadiyyatı hələ ki, böhrandan çıxa bilmir. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumunda iştirak edərkən bir daha bunun şahidi oldum ki, hələlik dünya iqtisadiyyatı ağır vəziyyətdə qalacaq. Buna baxmayaraq, 2015-ci ildə Azərbaycanda bir çox məsələlər öz həllini tapıb. İlin əvvəlində nəzərdə tutduğumuz bütün vəzifələr icra edilib. O qədər də asan olmayan geosiyasi vəziyyəti və dünya iqtisadi böhranını nəzərə alsaq, əlbəttə ki, bu bizim böyük uğurumuzdur. Çünki bizim

bölgəmizdə qanlı toqquşmalar, müharibələr davam edir, yeni qarşıdurma ocaqları yaranır. Avropada həm iqtisadi böhran yaşanır, eyni zamanda, miqrantlarla bağlı vəziyyət gərginləşir. Öz evlərini, yaxınlarını, əmlakını itirmiş insanlar Avropaya pənah gətirirlər və onları orada nələrin gözlədiyi hamımızın gözü qarşısında baş verir. Əfsuslar olsun ki, bu miqrant böhranı Avropada radikal qüvvələrin güclənməsinə gətirib çıxarır. Bu da həm Avropa üçün, həm bizim üçün, həm də dünya üçün çox böyük təhlükədir.

Azərbaycan uzun illərdir ki, dinlərarası, sivilizasiyalararası dialoqun güclənməsində öz rolunu oynayır və təəssüf ki, biz dünya miqyasında dialoq əvəzinə qarşıdurma, anlaşılmazlıq, ədavət görürük.

Budur iqtisadi və geosiyasi vəziyyət. Bölgədə və dünyada yaşanan bu vəziyyət, əlbəttə ki, bizi narahat edir. Lakin eyni zamanda, biz bu vəziyyətdə daha da fəal işləməliyik, öz siyasətimizi uğurla aparmalıyıq və ölkə qarşısında duran bütün vəzifələri icra etməliyik.

Hesab edirəm ki, Azərbaycan 2015-ci ildə də bütün istiqamətlər üzrə uğurlu inkişaf dinamikasını saxlaya bilib. Bizim beynəlxalq nüfuzumuz böyük dərəcədə artıb. Keçən il mən 20 xarici səfər etmişəm – rəsmi və işgüzar səfər. Azərbaycana 15-dən çox xarici dövlət və hökumət başçısı səfər edib. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, Azərbaycan beynəlxalq aləmdə çox fəal rol oynayır və Azərbaycana dünyada çox böyük rəğbət var. Bunu mən hər dəfə xarici səfərlərdə olarkən görürəm. Bu dəfə Davos Forumunda iştirak edərkən bir daha gördüm ki, ölkəmizin siyasətinə, mövqeyinə, prinsipiallığına, əldə edilmiş uğurlarımıza çox böyük rəğbət, hörmət var. Azərbaycan bu gün dünya miqyasında böyük hörmətə malik olan ölkədir.

Beynəlxalq təşkilatlarla əməkdaşlığımız uğurla davam edir. Üzv olduğumuz təşkilatlar çərçivəsində fəaliyyətimizi gücləndiririk. Bütün başqa təşkilatlarla da münasibətlərimizi qarşılıqlı hörmət əsasında qurmuşuq və bu münasibətləri dərinləşdirmək istəyirik. Hesab edirəm ki, 2016-cı ildə beynəlxalq təşkilatlarda fəaliyyətimiz daha da sürətlə aparılacaqdır.

Azərbaycanda ictimai-siyasi sabitlik qorunur, təmin edilir. Bunun başlıca səbəbi xalq–iqtidar birliyidir. Çünki bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını müdafiə edir. Mənim üçün Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqları hər şeydən üstündür. Gördüyümüz

bütün işlərin mahiyyəti və məqsədi ondan ibarətdir ki, daha da güclü dövlət, xalqımız üçün daha da yaxşı şərait yaradaq ki, Azərbaycan xalqı rifah içində, təhlükəsizlik şəraitində yaşasın və inkişaf etsin.

Ona görə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması təbii haldır. Bir daha demək istəyirəm ki, xalqımızın milli həmrəylik, vahid amal ətrafında birləşməsi, düşünülmüş siyasət, əldə edilmiş uğurlar bu reallığı təmin edir. Baxmayaraq ki, ətraf bölgələrdə və dünyanın bir çox ölkələrində vəziyyət gərginləşir, daxili çəkişmələr, qarşıdurmalar baş verir. Belə olan vəziyyətdə, əlbəttə ki, Azərbaycan nümunəsi dünya üçün də çox əhəmiyyətlidir və deyə bilərəm ki, bir çox yerlərdə Azərbaycan təcrübəsi öyrənilir.

Keçən il demokratik inkişaf istiqamətində önəmli addımlar atılıb. Azərbaycan demokratiya yolu ilə inamla irəliləyir. Bu bizim şüurlu seçimimizdir. Mən tam əminəm ki, köklü iqtisadi islahatlar və iqtisadi inkişaf demokratik prosesdən ayrı təmin oluna bilməz. Ona görə Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və aparılacaq. Keçən ilin sonunda parlament seçkiləri də bizim demokratiyaya nə qədər sadiq olduğumuzu bir daha sübut etdi. İştirak etmiş bütün müşahidəçilərin rəyinə görə parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir, Azərbaycan xalqının iradəsi və arzuları tam təmin edilmişdir. Seçkilərin nəticələri bizim son illər ərzində apardığımız siyasətimizə çox böyük dəstəkdir. Çünki mən bu seçkilərin nəticələrini belə qəbul edirəm: Azərbaycan xalqı bir daha bizim siyasətimizə öz böyük dəstəyini göstərdi. Buna görə mən Azərbaycan vətəndaşlarına minnətdaram və Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, dünyada baş verən bütün hadisələrə, böhranlara baxmayaraq, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir.

Keçən il bizim iqtisadi inkişafımız təmin edilmişdir. Baxmayaraq ki, əvvəlki illərlə müqayisədə ümumi daxili məhsulun artması o qədər də böyük rəqəmlərlə ölçülmür, cəmi 1,1 faiz artıb. Ancaq indiki vəziyyətdə neftin qiymətinin 4 dəfə düşməsini nəzərə alaraq, hesab edirəm ki, bu, müsbət nəticədir. Ən müsbət nəticə isə ondan ibarətdir ki, qeyri-neft sənayemiz 8,4 faiz artıb. Bax, budur əsas göstərici.

Çünki bu onu göstərir ki, ölkəmizdə aparılan sənayeləşmə siyasəti öz bəhrəsini verir.

Kənd təsərrüfatı – bu sahəyə də son vaxtlar xüsusi diqqət göstərilir – 6,6 faiz artıb. Yəni budur əsas göstəricilərimiz. Bu onu göstərir ki, hətta böhranlı illərdə də biz inkişaf edirik və edəcəyik. Bu il icra ediləcək layihələr – bu barədə hələ biz danışacağıq – imkan verəcək ki, 2016-cı ildə də ölkə iqtisadiyyatı inkişaf etsin, yeni iş yerləri, sənaye müəssisələri yaradılsın və biz bu dinamikanı nəinki saxlaya, hətta sürətləndirə bilək.

2015-ci il enerji sektorunda yaddaqalan il olub. «Cənub Qaz Dəhlizi»nin icrası istiqamətində çox önəmli addımlar atılıb. Bildiyiniz kimi, ilin əvvəlində «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının Bakıda birinci iclası keçirildi. Tədbirdə bu dəhlizin icrasında iştirakçı olan ölkələrin yüksəkvəzifəli şəxsləri iştirak edirdilər. Konkret proqram təsdiq olundu. Birgə Bəyannamə qəbul edildi ki, orada da Azərbaycanın bu dəhlizin reallaşmasında xüsusi və aparıcı rolu qeyd edildi. «Cənub Qaz Dəhlizi» Avropa üçün enerji təhlükəsizliyi layihəsidir. Bizim üçün isə bu dəhlizin reallaşması əlavə siyasi, maliyyə, iqtisadi imkanları yaradacaqdır. İmkan verəcək ki, bizim zəngin qaz resurslarımız dünya bazarlarına bundan sonra onilliklər ərzində ixrac edilsin. Bu da bizə iqtisadi mənfəət gətirəcək, valyuta axını təmin ediləcək və bizim dayanıqlı inkişafımız daha da möhkəm olacaqdır.

Bu il «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı əlavə tədbirlər görüləcək. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir – «Şahdəniz», «Cənubi Qafqaz» kəməri, TANAP, TAP. Hər bir layihə üzrə işlər uğurla icra edilir.

Keçən il Azərbaycan özünü dünyaya çox güclü tranzit ölkəsi kimi təqdim edə bilmişdir. Bildiyiniz kimi, nəqliyyat infrastrukturuna qoyulan sərmayə bu imkanları yaradır. Bu gün Şərqdən Qərbə, Şimaldan Cənuba gedən yollar Azərbaycandan keçir. Bu da dünya üçün yenilikdir. Bunu biz yaratmışıq. Sərmayələri qoymaqla, gözəl biznes mühitini yaratmaqla, biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzinə çeviririk. Keçən il və bu il bu istiqamətdə çox önəmli addımlar atılıb. Artıq nəinki Orta Asiyadan, hətta Çindən, Cənubi

Koreyadan Avropaya Azərbaycan ərazisindən yüklər getməyə başlayıb.

Biz tarixdə ilk dəfə bu tarixi İpək yolunu bərpa edirik. Bununla bərabər, ilk dəfə olaraq Avropadan Asiyaya, yəni Ukraynadan Çinə yüklər Azərbaycan ərazisindən getməyə başlayıb. Əvvəlki illərdə Türkiyədən Orta Asiyaya Gürcüstan və Rusiya ərazilərindən gedən yüklər indi Asiyaya Azərbaycan ərazisindən, Xəzər dənizi üzərindən gedir.

Bu imkanları biz yaratmışıq. Əgər biz bu işlərlə məşğul olmasaydıq, bu gün Azərbaycan tranzit ölkəsi ola bilərdimi?! Əgər biz təşəbbüs göstərib 2012-ci ildə Türkiyə ilə birlikdə TANAP layihəsinə imza atmasaydıq, bu gün «Cənub Qaz Dəhlizi» haqqında kimsə danışa bilərdimi?! Bu gün Avropanın enerji təhlükəsizliyini kimsə bizsiz təmin edə bilərdimi?! Bunları biz edirik. Nəyə görə? Çünki bu bizim xalqımıza lazımdır. Bu bizim dövlətimizi, ölkəmizi gücləndirir və bizim maraqlarımıza xidmət edir.

2015-ci ildə bütün sosial proqramlar icra edilib. Mən bir daha demək istəyirəm, baxmayaraq ki, bu il də bizim maliyyə vəziyyətimiz əvvəlki illərdəki kimi deyil, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək. Əksinə, bildiyiniz kimi, bu il maaşlar, pensiyalar, sosial müavinətlər qaldırılıb. Bu da bizim sosial siyasətimizin əsasını təşkil edir.

Bir sözlə, hesab edirəm ki, keçən il ölkəmiz üçün uğurlu olub. Dünya iqtisadiyyatı stress vəziyyətindədir. Neftin qiyməti 4 dəfə düşüb. Biz axıra qədər çalışırdıq ki, manatın məzənnəsini sabit saxlayaq və buna müəyyən dərəcədə nail ola bildik. Ancaq neftin qiymətinin 4 dəfə aşağı düşməsi və qonşu ölkələrdə milli valyutaların 100 faizdən çox aşağı düşməsi imkan vermədi ki, biz manatın məzənnəsini istədiyimiz səviyyədə saxlaya bilək. Ancaq o da həqiqətdir ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və milli valyutamızı süni şəkildə istədiyimiz səviyyədə saxlaya bilmərik.

Ancaq görülmüş tədbirlər nəticəsində sosial müdafiə paketinin təqdim edilməsi, qiymətlərə nəzarət, eyni zamanda, çox dərin iqtisadi islahatların aparılması bizə imkan verəcək ki, bu vəziyyətdən də uğurla çıxa bilək. 2016-cı il çox ciddi iqtisadi islahatlar ili olmalıdır və olacaqdır. Artıq

müvafiq qərarlar qəbul edilib, qanunvericiliyə dəyişikliklər olunub. Mən bir neçə fərman, sərəncam imzalamışam. Əlavə sərəncamlar imzalanacaq ki, biz bu il iqtisadiyyatımızı daha da gücləndirək. Bu islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı şəffaflığına görə dünyanın aparıcı ölkələrinin iqtisadiyyatlarından fərqlənməsin. Əminəm ki, biz bunu birgə səylərlə təmin edəcəyik.

Demək istəyirəm ki, 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bütövlükdə tarixi hadisədir və tarixi nailiyyətdir. Bu illər ərzində ölkəmiz sürətlə inkişaf edib. Biz infrastruktur layihələrini icra etmişik. 2004-cü ildən bu günə qədər ölkəmizdə 25 elektrik stansiyası tikilib. Ümumi elektrik stansiyalarının sayı 34-dür, 25-i son 12 il ərzində tikilib.

2004-cü ildə rayonlarda, demək olar ki, qaz yox idi. Mənim rayonlara səfərlərim zamanı insanların ən böyük arzuları ondan ibarət idi ki, xahiş edirik, bizi qazla təmin edin. Amma biz özümüz-özümüzü təmin edə bilmirdik. Biz 2007-ci ilə qədər qazı xaricdən alırdıq. Bu gün Azərbaycanda qazlaşdırma 90 faizə yaxınlaşır, bölgələrdə isə bütün şəhərlər 100 faiz qazlaşdırılıb. Hətta sovet dövründə heç vaxt qaz görməyən yerlərə də biz qaz xətləri çəkdik. Bu gün bölgələrdə qazlaşdırma 80 faizə yaxındır.

Son 12 il ərzində 10 min kilometrdən çox yol çəkilib. Bizim bir dənə də olsun magistral yolumuz yox idi. Yəqin ki, çoxları bunu xatırlamır, hansı vəziyyətdə idi bizim yollarımız. İndi magistral yollar – şəhərləri, başqa ölkələri birləşdirən yollar çəkilib və çəkilir, kənd yolları 10000 kilometrdir. Hesab edirəm bu il kənd yollarının çəkilişi üçün əlavə vəsait ayrılmalıdır ki, biz bu proqramı təxirə salmayaq.

İçməli su layihələri bir çox şəhərlərdə artıq icra edilib, 24 saat fasiləsiz təmiz, beynəlxalq standartlara, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Bu layihələr davam edir. Bütün şəhərlərdə əhaliyə 24 saat fasiləsiz, təmiz içməli su verilməlidir. Bununla bərabər, çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular yaradılıb. Yarım milyon insan, bax, o imkanlardan istifadə edir. Əvvəllər onlar çaylardan, kanallardan su içirdilər.

Budur gördüyümüz işlər. Sosial sahədə nə qədər böyük işlər görülüb. Sosial infrastruktur yaradılıb. 12 il ərzində 3000-ə yaxın məktəb,

600-ə yaxın xəstəxana tikilib, təmir edilib. Cəmi məktəblərimizin sayı təqribən 5000-ə yaxındır, 3000-i 12 ildə tikilib. Bölgələrdə 41 Olimpiya Mərkəzi tikilib. Hələ mən Bakını demirəm. Bakı artıq Avropa oyunlarına ən yüksək səviyyədə ev sahibliyi edibdir.

Maaşlar təxminən 5 dəfə, pensiyalar 7 dəfə artıb. 89 köçkün qəsəbəsi tikilib, 225 min insan yeni evlərə, mənzillərə köçürülüb. Hesab edin ki, böyük bir şəhər tikmişik, yaratmışıq.

Digər istiqamətlər üzrə də nəticələr çox müsbətdir. Biz sahibkarlığın inkişafına böyük dəstək vermişik. Güzəştli şərtlərlə 1,7 milyard manat kreditlər verilib. Əgər biz bu ili də nəzərə alsaq, 2 milyard manat təşkil edəcəkdir. Azərbaycana 200 milyard manat sərmayə qoyulub. Onun yarısı xarici sərmayədir. Əgər biz sabitliyi, inkişafı, gözəl biznes və investisiya mühitini yaratmasaydıq, hansı xarici şirkət buraya sərmayə qoya bilərdi?! İndi sabitliyi pozulmuş ölkələrə baxın, heç kimsə sərmayə qoyur?! Qoymur və təbiidir, kim risk edəcək?! Biz indi özümüz – indi bizim vəsaitimiz var – gedib haradasa sabitliyi olmayan ölkəyə sərmayə qoya bilərikmi? Əlbəttə ki, yox!

Ona görə bütün bunları biz yaratmalı idik. Azərbaycan xalqının xoşbəxtliyi ondan ibarətdir ki, 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi, bütün xoşagəlməz proseslərə, vətəndaş müharibəsinə son qoydu, siyasi, iqtisadi islahatlara start verdi və ölkə 1996-cı ildən sonra yavaş-yavaş inkişaf etməyə başladı. 1996-cı ilə qədər sabitləşmə dövrü gedirdi. Baxın, əvvəlki rəhbərlik Azərbaycanı hansı vəziyyətə qoymuşdu. Hətta ulu öndər Heydər Əliyev üçün təxminən 3 il vaxt lazım idi ki, vəziyyət sabitləşsin və biz inkişafa qədəm qoyaq.

Bu gün Azərbaycan dünya miqyasında seçilmiş ölkələrdəndir, ləyaqətli ölkədir, müstəqil siyasət aparan ölkədir. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır və güclü iqtisadiyyatdır. Əgər biz iqtisadi müstəqilliyi təmin etməsəydik, başqa ölkələrdən asılı vəziyyətə düşə bilərdik və düşəcəkdik də. Necə ki, indi biz bəzi ölkələri görürük. Əgər özü-özünü təmin edə bilmirsə, bunun başqa yolu yoxdur, gərək başqasının iradəsi ilə hərəkət etsin.

Biz özümüz-özümüzü təmin edirik. Düzdür, keçən il çətin il olmuşdu. Amma nə olar, biz çətinliklə də üzləşməliyik. Keçən əsrin 90-cı illərindən çətin dövr olmamışdır. İndi dünya iqtisadiyyatı dövri xarakter daşıyır. Biz uzun illər ərzində yüksələn xətlə getmişik. İndi dünya iqtisadiyyatında bizdən asılı olmayan səbəblərə görə tənəzzül yaşanır. Biz də dünya iqtisadiyyatının bir parçasıyıq. Biz axı özümüzü dünya birliyindən, iqtisadiyyatından təcrid etməmişik. Biz inteqrasiya etmişik, açıq bazar siyasəti, liberal iqtisadi siyasət aparırıq. Ona görə bizə də təsir edir. Eybi yoxdur, biz inamla inkişaf edəcəyik. Biz qarşıda duran bütün vəzifələri icra etməliyik.

Yenə də demək istəyirəm ki, son 12 il ərzində biz böyük, şərəfli yol keçmişik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum layihələrini icra etmişik. Bakı–Tbilisi–Qars layihəsi bu yaxınlarda başa çatır.

Azərbaycan bu illər ərzində kosmik dövlətə çevrilib. Təsəvvür edin, Azərbaycan kosmik dövlətə çevrilib. Kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının inkişafı bizim üçün prioritet məsələlərdən biridir.

Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr verib. Təsadüfi deyil ki, bu il Bakıda Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcək. Bu, qlobal forumdur, BMT-nin himayəsi altında keçiriləcəkdir. Budur bizim uğurlarımız, töhfəmiz, reallıqlarımız. Əminəm ki, bu il biz uğurlu inkişafı təmin edəcəyik. Baxmayaraq ki, son 12 il ərzində 1 milyon 500 min yeni iş yeri açılıb, yenə də iş yerlərinin açılmasına ehtiyac var, bu barədə də danışacağıq. Əminəm ki, 2016-cı ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra ediləcəkdir.

## YEKUN NİTQİ

Bu gün daha çox sahibkarlara şərait yaradıldı ki, onlar öz sözlərini desinlər. Dövlət məmurlarının öz sözlərini deməyə daha da geniş imkanları var. Ona görə mən istədim ki, bu gün bütün bölgələri təmsil edən sahibkarlar çıxış etsinlər. Həm görülmüş işlərlə bağlı

məlumat versinlər, eyni zamanda, onları narahat edən problemlər də müzakirə mövzusuna çevrilsin.

Bu gün fasilədən sonra nazirlər, dövlət məmurları, icra hakimiyyəti başçıları və sahibkarlar bölmələrdə öz işlərini davam etdirəcəklər. Əminəm ki, orada müzakirə ediləcək məsələlər əhəmiyyətli olacaq və müzakirə nəticəsində konkret təkliflər də irəli sürülməlidir.

Sahibkarlığın inkişafı üçün çox işlər görülübdür. Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsi – 80 faizdən çoxu özəl sektorda formalaşır. Bu, son illər ərzində görülmüş işlərin nəticəsidir. Ancaq yeni dövr, yeni vəziyyət yeni yanaşmalar tələb edir. Ona görə indiki şəraitdə sahibkarlığı daha da genişləndirmək, sahibkarlara daha da yaxşı şərait yaratmaq, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir. Mən artıq müvafiq dövlət qurumlarına göstəriş vermişəm. Ancaq çox istəyirəm ki, yerlərdən sahibkarlar özləri də o problemləri dilə gətirsinlər, ortaya qoysunlar ki, onlar tezliklə öz həllini tapsın.

Bu ilin planları ilə bağlı ilk növbədə demək istəyirəm ki, bütün sosial proqramlar tam icra ediləcək. Bildiyiniz kimi, maaşlar, pensiyalar və sosial müavinətlər qaldırıldı. Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir. Bazar iqtisadiyyatı Azərbaycanda uğurla inkişaf edir. Ancaq islahatları apararkən biz hər zaman sosial məsələləri yadda saxlamalıyıq. Unutmamalıyıq ki, biz xalq üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərini biz həll etməliyik. Bizim bütün səylərimiz, o cümlədən iqtisadi inkişaf bu məqsədə qulluq etməlidir. Ona görə Azərbaycanda güclü sosial siyasət aparılır və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcəkdir.

Bu il regionlarda nəzərdə tutulan bütün infrastruktur layihələri icra edilməlidir. Bir çox layihələr artıq icra edilib. Mən giriş sözümdə bu barədə öz fikirlərimi dedim, amma hələ ki, elektrik enerjisi, qazlaşdırma, xüsusilə kənd yollarının tikintisi ilə bağlı görüləsi işlər çoxdur. Mən hesab edirəm ki, bu il kənd yollarının tikintisinə əlavə böyük vəsait ayrılmalıdır. Çünki ilk növbədə, buna ehtiyac var. Yerlərdən təkliflər irəli sürülür. Eyni zamanda, bu, bölgələrdə insanları bu işlərə cəlb edəcək və olan işsizliyi də aradan götürəcək. Biz son illər ərzində işsizliyə qarşı çox fəal işləmişik. Bunun

nəticəsidir ki, Azərbaycanda işsizlik son illər ərzində 5 faizə düşüb. Bu doğrudan da bizim tarixi nailiyyətimizdir. İşsizlik ilə bərabər, həmçinin yoxsulluq da 5 faizə düşüb. Ancaq indiki şəraitdə işsizlik arta bilər və artır. Düzdür, yeni iş yerləri açılır, amma digər iş yerləri bağlanır. Misal üçün, keçən il 80 mindən çox daimi iş yeri açılıb, 40 min iş yeri bağlanıb. Biz bu il də bu statistikanı düzgün aparmalıyıq. O yerlərdə, o bölgələrdə ki, iş yerləri bağlanır, orada daha da böyük həcmdə işlər getməlidir. Həm dövlət qurumları, həm də özəl sektor bu məsələni diqqətdə saxlamalıdır.

Kənd yollarının tikintisi isə bu istiqamətdə çox önəmli addımdır, iki məqsədi güdür – həm infrastruktur yaxşılaşır, həm insanlar işə cəlb olunur. Kənd yollarının tikintisində bizim xarici komponentə heç bir ehtiyacımız yoxdur. Lazım olan bütün mal–materiallar Azərbaycanda istehsal edilir. Kənd yollarının tikintisində valyuta komponenti yoxdur. Bu da indiki şəraitdə çox önəmli amildir.

İçməli su layihələri də icra edilməlidir. Bu layihələr insanları içməli su ilə təmin edəcək və yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Biz içməli su layihələrinin icrasında da bu işləri daxili istehsalla təmin edirik. Son illər ərzində daxili istehsala verdiyimiz diqqət, qoyduğumuz sərmayə bu reallığı təmin edir. Əgər biz bunu etməsəydik, indi idxaldan daha da çox asılı vəziyyətdə olacaqdıq. Mən bu barədə hələ danışacağam. Ona görə infrastruktur layihələri icra edilməlidir. Bəziləri hesab edir ki, neftin qiymətinin 4 dəfə aşağı düşməsi ilə bağlı biz xərcləri daha da ixtisar etməliyik. Təbiidir ki, bu belədir. Hesab edirəm ki, biz 2016-cı ildə infrastruktur və biznes layihələrini icra etməklə, ölkəmizə daha böyük dinamizm verə bilərik və biz bunu edəcəyik.

Son illər ərzində 1500-ə yaxın subartezian quyusu qazılıb. Keçən ilin sonunda bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan əlavə 10 milyon manat ayrılıb. Ola bilər ki, il ərzində əlavə vəsait ayrılacaq. Subartezian quyularının qazılması prosesi davam etdirilməlidir.

Sosial infrastruktur layihələri icra ediləcək. Həm Bakıda, həm böyük, həm də kiçik şəhərlərdə məktəblərin, tibb mərkəzlərinin, xüsusilə uşaq bağçalarının tikintisinə böyük ehtiyac var.

Yeni iş yerlərinin yaradılması bu il xüsusi əhəmiyyət kəsb edir. Çünki qeyd etdiyim kimi, bəzi iş yerləri bağlanır. Son 12 il ərzində 1

milyon 500 min iş yeri yaradılıb. Onlardan 1 milyonu daimi iş yeridir. Ancaq bu illər ərzində Azərbaycanın əhalisi artıb. Əlbəttə ki, bu da inkişafın əlamətidir. 2003-cü ildə Azərbaycan əhalisi 8,4 milyon idisə, bu il 9,7 milyondur. Yəni əhali 1 milyon 300 min nəfər artıb. Bu bizim böyük üstünlüyümüzdür və inkişafın əlamətidir. Əgər o artım dinamikasına nəzər salsanız görərsiniz ki, sürətli inkişaf dövründə əhali daha çox artır. Bu üstünlükdür, amma eyni zamanda – mən bunu artıq neçə dəfə demişəm – bu bizi daha da fəal işləməyə çağırır. Çünki artan əhali artan iş yerləri deməkdir. 1 milyon daimi iş yeri yaradılıb, 1 milyon 300 min əhali artıb. Bu, yeni məktəblər, yeni uşaq bağçaları, yeni yolların çəkilməsi deməkdir.

Şəhərsalma işi daha da düşünülmüş şəkildə aparılmalıdır. Bizim şəhərlərimiz böyüyür. Şəhər infrastrukturu buna uyğun şəkildə qurulmalıdır. Misal üçün, bizim bütün içməli su layihələrinin icrasında əhalinin 2030-cu ilədək mümkün olan artımı nəzərdə tutulur. İş yerlərinin yaradılması ilə daim məşğul olmalıyıq. Əlbəttə, biz fəxr edirik ki, qısa müddət ərzində 1 milyon daimi iş yeri açılmışdır. Ancaq əhali də artır. Ona görə hansı sahələrdə iş yerləri yaradılmalıdır? Bizim əmək resurslarımız kifayət qədər böyükdür. Həmişə belə olub. Sovet dövründə də belə olub, bu gün də belədir. Bu çox ciddi məsələdir. Mən çox şadam ki, əhali artır. Bəlkə də bunun ən böyük tərəfdarı mənəm. Ancaq iqtisadiyyat, infrastruktur, iş yerləri buna uyğun şəkildə artmalıdır. Hökumət bu məsələlərlə bağlı ciddi işləməlidir. Uzunmüddətli konkret plan tərtib edilməlidir ki, əmək resurslarının işlə təmin edilməsi üçün hansı addımlar atılmalıdır.

İndiki şəraiti nəzərə alaraq hesab edirəm ki, sahibkarlar da yeni iş yerlərinin yaradılması istiqamətində əlavə tədbirlər görə bilərlər. Mənə verilən məlumata görə, son 12 il ərzində Azərbaycanda 70 mindən çox müəssisə yaradılıb və ümumiyyətlə, müəssisələrin sayı 100 minə yaxındır. Onların içində, əlbəttə ki, böyük və kiçik müəssisələr var. Ancaq hesab edirəm ki, əgər iş adamları bu məsələyə sosial məsuliyyət nöqteyi-nəzərdən yanaşsalar və işsiz qalan insanları işə götürsələr, yaxud da ki, ixtisar etmək istədikləri insanları ixtisar etməsələr, onlar ümumi işimizə töhfə verərlər. Çünki bu, sosial məsuliyyətdir. Bu bizim ümumi işimizdir. Bununla bərabər, artıq mən

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Azərbaycan dövlət şirkətlərinə tapşırıq vermişəm ki, birgə işləsinlər. Məşğulluq idarələrinə müraciət edən insanları işlə təmin etmək üçün dövlət şirkətlərində yeni vakansiyalar açılmalıdır. Əlbəttə, bir daha demək istəyirəm ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bu prinsipdən dönməyəcəyik. Hamımız yaxşı başa düşürük ki, bazar özü hər şeyi tənzimləməlidir, bu və digər şirkətdə nə qədər insan işləməlidir, nə qədər məhsul istehsal edilməlidir. Ancaq hesab edirəm ki, müvəqqəti, yaxud da ki, daimi iş yerlərinin açılması prosesi mütləq başlanmalıdır. Bakıda və bütün bölgələrdə dövlət şirkətləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə nümunə göstərməlidir. İşi itirən insanlar o idarələrə müraciət etsinlər və əminəm ki, onları işlə təmin etmək üçün bizdə imkanlar olacaqdır. İlk növbədə, dövlət şirkətləri bunu etməlidir. Özəl sektor bu amili nəzərə alsın. Xüsusilə nəzərə alsaq ki, dövlət sahibkarlığın inkişafına bu qədər kömək göstərir, həm siyasi, həm metodoloji dəstək verir. İqtisadiyyat Nazirliyi bütün layihələr üzrə biznes-planlar hazırlayır, maliyyə dəstəyi verir. Son 12 il ərzində sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kredit verilib. Bu ili nəzərə alsaq, 2 milyard manat edir, bu, dövlət dəstəyidir. Ona görə sahibkarlar da həm iş yerləri yaratmalıdırlar, öz istehsal sahələrini genişləndirməlidirlər, həm də fəaliyyət göstərdikləri bölgələrdə sosial məsuliyyəti hiss etməlidirlər.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində işlər aparılır, müvafiq göstərişlər, tapşırıqlar, sərəncamlar verilir. Bu sahə mütləq daim diqqət mərkəzində olmalıdır. Beynəlxalq maliyyə qurumları bu istiqamətdə apardığımız fəaliyyəti yüksək qiymətləndirir, Dünya Bankı «Doing Business» hesabatında Azərbaycanı yüksək yerlərə layiq görür. Davos Dünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Biz dünya miqyasında 40-cı yerdə, MDB məkanında 1-ci yerdəyik.

Biznes, investisiya mühitinin yaxşılaşdırılması, iqtisadi, maliyyə sektorlarının, vergi, gömrük orqanlarının tam şəffaflaşması, vergi bazasının genişləndirilməsi, uçotun, statistikanın düzgün aparılması – bax, bütün bunlar çox vacib olan məsələlərdir. Deyə bilmərəm ki, bu məsələlərin

həllində biz istədiyimizə nail ola bilmişik. Yox, hələ ki, görüləsi işlər çoxdur. Qüsurlar var, onlar aradan götürülür, götürülməlidir. 2016-cı il bu istiqamətdə həlledici rol oynayacaqdır. 2016-cı ildə biz bütün maliyyə-iqtisadi sistemimizi inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən təşkil etməliyik. Burada, əlbəttə ki, uçot və statistika xüsusi yer tutur. Bizim statistikamız da aparıcı ölkələrin statistikasına xas olan bütün əlamətləri özündə ehtiva etməlidir. Çünki əsas budur – məlumatdır. Biz dəqiq bilməliyik harada nə işlər görülür, hansı məhsullar istehsal olunur. Əgər belə olmasa, gələcək fəaliyyətimizi planlaşdırmaq çətin olacaqdır.

Biz mütləq daxili bazarımızı, yerli istehsalı qorumalıyıq, bununla bərabər, inhisarçılığa yol verməməliyik. Bu da çox ciddi məsələdir. Çox istəyirəm ki, Azərbaycan məhsulları daha çox istehsal olunsun, biz idxaldan asılılığı daha da azaldaq, iş yerləri yaradılsın, ixrac qabiliyyətli məhsullar istehsal edək. Ancaq bununla bərabər, əgər biz idxal mallarına süni əngəllər qoysaq, bu zaman rəqabət olmayacaq. Amma rəqabət əsasdır. Hər bir ölkənin inkişafı üçün azad, ədalətli, sərbəst rəqabət əsas şərtdir. Burada iki amil nəzərə alınmalıdır. Həm qiymətlərin tənzimlənməsi, bütün süni maneələr, idxal qarşısında duran maneələr aradan götürülməlidir, eyni zamanda, daxili istehsal qorunmalıdır. Ona görə müvafiq qurumlar çox fəal işləməlidirlər ki, bu iki amili təmin etsinlər. Yerli istehsal, idxaldan asılılığın azaldılması bizim gələcək dayanıqlı inkişafımızın əsas məsələsidir. Ancaq eyni zamanda, inhisarçılığa da yol vermək olmaz. Bəzi hallarda bizdə təbii inhisarçılıq yaradılır. Çünki bazar o qədər də böyük deyil. Hər hansı bir, ya iki böyük müəssisə görürsən ki, bütün bazarı öz əlinə götürür. Burada, əlbəttə ki, Antiinhisar Xidmətin rolu xüsusilə əhəmiyyətlidir. Biz elə etməliyik ki, sərbəst rəqabətə mane olan bütün amillər aradan götürülsün.

İnvestisiyaların təşviqi sistemi artıq yaradılıb, tətbiq edilir. Müvafiq qərarlar qəbul edilib. Biz xarici investisiyaları daha da çox cəlb etməliyik. İnvestisiyaların təşviqi məsələsi burada mühüm rol oynayır. Bütövlükdə deyə bilərəm ki, Azərbaycanda investisiya iqlimi müsbətdir. Əgər belə olmasaydı, xarici firmalar Azərbaycana 100 milyard dollar investisiya qoymazdılar. Biz isə çalışmalıyıq ki, indi xarici sərmayəni qeyri-neft sektoruna, ixracyönümlü məhsulların istehsalına yönəldək. Eyni zamanda, ixracın stimullaşdırılması üçün

konkret addımlar atılıb. Mənim tərəfimdən müvafiq qərarlar verilib və artıq Azərbaycanda ixracın təşviqi sistemi yaradılır. Biz keçmişdə bu barədə çox danışmışıq. Ancaq bu gün biz bunu etməliyik, edirik də. Burada da biz bu yolu keçən ölkələrin təcrübəsinə mütləq nəzər yetirməliyik və ən müsbət təcrübəni tətbiq etməliyik.

Azərbaycanda rəqabətqabliyyətli məhsulu istehsal edən, bunu dünya bazarına çıxaran sahibkarlara dövlət tərəfindən güzəştlər edilməlidir. İndi İqtisadiyyat Nazirliyi bu məsələlərlə bağlı işləyir və hesab edirəm ki, sahibkarlar da bugünkü konfransda bu məsələ ilə bağlı öz təkliflərini verməlidirlər.

Mən artıq bəyan etmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda genişmiqyaslı özəlləşdirmə proqramı icra ediləcək. Buna böyük ehtiyac var. İlk növbədə, ölkəmizə əlavə sərmayə, valyuta gətirəcək. Digər tərəfdən, biz işləməyən müəssisələri canlandıracağıq. Elə müəssisələr var ki, artıq 20 ildir dayanıb, qapısı qıfıllanıb, yarıdağılmış, yaxud dağılmış vəziyyətdədir və onlar nədənsə özəlləşdirməyə çıxarılmır.

İlk növbədə, ciddi təhlil aparılmalıdır. Hansı müəssisələr ilk növbədə özəlləşməyə açılmalıdır və özəlləşdirmə nəticəsində ölkə iqtisadiyyatı hansı dividendlər götürəcək. Əlbəttə, hər bir özəlləşdirilən müəssisənin gələcək fəaliyyəti ilə bağlı biznes-plan təqdim edilməlidir. Belə çıxmasın ki, kimsə gəldi özəlləşdirdi, yenə də o müəssisə belə bağlı vəziyyətdə qalacaq. Biznes-plan, öhdəlik, məsuliyyət – bütün bunlar nəzərə alınmalıdır. Genişmiqyaslı özəlləşdirməni aparmaq üçün bizə mütləq yüksək nüfuza malik olan beynəlxalq məsləhətçi şirkətlər lazımdır. Onlara da müraciət etmək lazımdır. Mən Davos Forumu çərçivəsində artıq bu barədə də danışıqlar aparmışam. Müəyyən təkliflər var. Mütləq onlar gəlib bizə həm məsləhət versinlər, kömək göstərsinlər, həm də yaxşı mənada nəzarət etsinlər. Aparılacaq özəlləşdirmə şəffaf olmalıdır, Azərbaycan dövlətinin maraqları maksimum təmin edilməlidir.

Bank sektorunun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə tədbirlər görüləcək. Əmanətlərin sığortalanması məsələsinə baxılıb. Hesab edirəm ki, bu, dövlət tərəfindən atılan çox ciddi addımdır. Ancaq bank sektorunun sağlamlaşdırılması prosesi daha

sürətlə getməlidir. Burada inkişaf üçün çox böyük imkanlar var. Tələblərə, meyarlara cavab verməyən, öz fəaliyyətini qura bilməyən, böyük nöqsanlar buraxan banklar bizim bank sektorumuzda fəaliyyət göstərə bilməz. Bu məsələ ilə bağlı bir neçə dəfə hökumət yığışıbdır, məsələ qoyulubdur. Ancaq əfsuslar olsun ki, məsələ çox ləng gedir.

Biz bank sektorunu sağlamlaşdırmalıyıq. Bu hər bir ölkə üçün çox vacib məsələdir. Elə etməliyik ki, bank sektoru Azərbaycan iqtisadiyyatına daha da çox fayda versin, iqtisadiyyatın real sektoruna daha da çox kredit resursları təşkil etsin ki, biz işləri təkcə dövlət büdcəsi hesabına, yaxud da ki, sahibkarların öz vəsaiti hesabına görməyək. Bank sektoru da burada çox ciddi alət, daha fəal olmalıdır. Ona görə bank sektorunun sağlamlaşdırılmasına Azərbaycan dövləti kömək göstərir və bu istiqamətdə islahatlar daha da sürətlə getməlidir.

Qeyd etdiyim kimi, qeyri-neft sənayesi sürətlə artıb – 8,4 faiz. Azərbaycanda sənayeləşmə prosesi gedir. Texnoparklar yaradılır, sənaye klasterləri yaradılmalıdır. Mən göstəriş vermişdim ki, hər bir rayonda sənaye zonaları yaradılsın. Ancaq bu proses ləng gedir. Burada oturan bütün şəhər, rayon icra başçıları da bu işlərdə daha fəal olmalıdırlar. Onlar, İqtisadiyyat Nazirliyi və sahibkarlar bu işi görməlidirlər. Bu gün fasilədən sonra bu məsələ mütləq müzakirə edilməlidir. Hər bir rayondan ayrılacaq sahələrlə bağlı konkret təkliflər verilməlidir. İcra başçıları özləri bu işlərə çox ciddi fikir verməlidirlər. Ümumiyyətlə, bölgələrimizə investisiya axınını daha çox Azərbaycan dövləti, sahibkarlar təşkil edirdi. Hesab edirəm ki, yerli icra hakimiyyəti orqanları bu işlərdə daha da fəal olmalıdırlar. Onların fəaliyyətinə veriləcək qiymət böyük dərəcədə bu amildən asılı olacaq: nə qədər investisiya cəlb etmisən, sahibkarlara nə qədər şərait yaratmısan, nə qədər müəssisə yaradılıb, nə qədər yeni iş yeri açılıb?! Ona görə ilk növbədə, hər bir yerdə statistika düzgün aparılmalıdır ki, burada şişirtmə olmasın. Çünki bu, köhnə xəstəlikdir və işlər düzgün qurulmalıdır. Bu il hər bir rayonda sənaye zonalarının yaradılmasına başlanılmalıdır.

Ümumiyyətlə, mən özümüzü qeyri-qida məhsulları ilə təminetmə imkanlarımız haqqında bir neçə rəqəmi səsləndirmək istəyirəm. Bu həm görülən işləri əks etdirir, həm də sahibkarlara, icra başçılarına,

dövlət qurumlarının nümayəndələrinə bir növ yol xəritəsi olacaqdır – harada boşluqlar var və hansı işlər görülməlidir.

Beləliklə, sement istehsalı – biz Azərbaycanda özümüzü bu məhsulla 92 faiz səviyyəsində təmin edirik. Burada maya dəyərində idxaldan asılılıq 10 faizdir. Bu, əsas qatqılar və qablaşdırma materiallarıdır. Ona görə sement istehsalı nəinki 100 faiz, daha da çox olmalıdır. İstehsal gücümüz var, biz sementi ixrac etməliyik. Çalışmalıyıq ki, bu 10 faiz xarici komponenti də özümüz istehsal edək. Bentonit – biz öz tələbatımızı dəfələrlə ödəyirik və böyük ixrac potensialı yaranıb. Karton – özümüzü cəmi 60 faiz təmin edirik. Mütləq yeni karton fabrikləri tikilməlidir və istehsalda biz 50 faiz xarici materiallardan asılıyıq. Bunu da tədricən aradan götürməliyik. Polietilen borular – özümüzü 60 faiz təmin edirik. Yerli istehsalın tərkibində 70 faiz xarici komponent var. Bu da xammaldır. Əhəng – özümüzü tam təmin etmirik, cəmi 50 faiz səviyyəsində, xarici komponent 13 faizdir. Gips – 1,6 dəfə. Yəni həm 100 faiz təmin edirik, həm də ki, ixrac potensialı var. Ancaq istehsalda 50 faiz xarici komponentdən – qatqılar və qablaşdırma materiallarından istifadə olunur. Bu qablaşdırma materialları bütün sahələr üzrə var. Bu nəyi göstərir? Onu göstərir ki, bu sahəyə fikir verilməmişdir. Ona görə müxtəlif qablaşdırma məmulatlarının istehsalı bu il başlanmalıdır. Kərpic – özümüzü 99 faiz təmin edirik və burada cəmi 2 faiz xarici amil var. Beton tikinti blokları – özümüzü 100 faiz təmin edirik, 30 faiz xarici komponentdir. Alçipan – özümüzü 95 faiz təmin edirik, maya dəyərinin 48 faizi xaricdən asılıdır. Burada da metal profillər əsas rol oynayır. Metal konstruksiyalar – özümüzü 40 faiz təmin edirik, elektrik kabelləri – 48 faiz, elektrotexniki avadanlıqlar – 62 faiz.

Bu onu göstərir ki, son illər ərzində bu sahəyə çox böyük investisiyalar qoyulub, dövlət kömək edib, özəl sektor və böyük dərəcədə biz bu vəziyyəti yaxşılaşdıra bilmişik. Ancaq hələ görüləsi işlər çoxdur. Birinci vəzifə, 100 faiz özümüzü təmin etmək, ikinci vəzifə, maya dəyərində xarici asılılığı minimuma endirməkdir. Təbii ki, mən bilirəm, biz bunu 100 faiz edə bilməyəcəyik, ancaq

çalışmalıyıq. Belə halda, neftin qiyməti düşsə də, qalxsa da istehlak qiymətlərində heç bir dəyişiklik olmayacaq.

Keçən il Azərbaycanda «Kənd təsərrüfatı ili» idi. Kənd təsərrüfatı 6,6 faiz artıb. Bu çox yaxşı göstəricidir. Məhsuldarlıq artıb, xüsusilə taxılçılıqda. İri fermer təsərrüfatlarının fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Orada məhsuldarlıq orta məhsuldarlıqdan təxminən 2 dəfə çoxdur. Ona görə bu bir nümunədir. Biz iri fermer təsərrüfatlarının yaradılmasını bu il də davam etdirməliyik. Bu bizə imkan verəcək ki, idxaldan asılılığı azaldaq. Ancaq biz kiçik və orta fermer təsərrüfatlarını da yaddan çıxarmamalıyıq. Onlara da daim diqqət göstərilməlidir, şərait yaradılmalıdır.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün prioritet məsələdir. Keçən il bir neçə fərman imzalanıb. Bu fərmanların praktiki nəticələri artıq görünməkdədir. Əlavə vəsait ayrılıb. Bizim üçün kənd təsərrüfatı o sahədir ki, qeyri-neft ixracımızı, ərzaq təhlükəsizliyini, insanları işlə təmin edəcək. Ona görə keçən il «Kənd təsərrüfatı ili» olmuşdur. Ancaq hesab edin ki, bu il də «Kənd təsərrüfatı ili»dir. Hər il «Kənd təsərrüfatı ili» olmalıdır.

İslahatlar daha da dərinləşməlidir. Torpaq fondunun dəqiq uçotu aparılmalıdır. Biz yenə də uçota gəlirik. Çünki burada da bəzi hallarda uyğunsuzluq var. Vaxtilə verilmiş torpaq sahələri, real, faktiki sahələr sənədlərdə olan sahələrlə üst-üstə düşmür. İndi bizim peyk imkanlarımız var – «Azərsky». Mən onlara da tapşırmışam ki, mütləq bizim torpaq fondumuzun dəqiq uçotu aparılsın. Yəni kağızda verilir bir sahə, amma real fermer başqa sahədə işləyir. Burada biz bu uyğunsuzluğu aradan götürməliyik. Hesab edirəm ki, əlbəttə, sənədləşmə dəqiq aparılmalıdır. Çünki biz indi fermerlərə deyə bilmərik ki, bu sənin sahən deyil. Harada işləyir, o da onun mülkiyyətidir. Ancaq düzgün uçot və sənədləşmə aparılmalıdır. Bu iş vaxt tələb edir. Hesab edirəm ki, bu il bu istiqamətdə ciddi addımlar atılmalıdır. «Elektron kənd təsərrüfatı» proqramı icra edilir. Bu yaxınlarda mənə məruzə edilmişdir. Biz bunu daha da geniş yaymalıyıq.

Kənd təsərrüfatının inkişafı üçün biz böyük meliorasiya layihələrini icra etdik. Taxtakörpü və Şəmkirçay su anbarlarını inşa

etdik. Samur–Abşeron kanalının yenidən qurulması layihəsi təmin edildi. Ceyranbatan gölünün təmizlənməsinə, müasir təmizləmə qurğularının yaradılmasına nail olduq. Yəni biz həm içməli su, həm meliorasiya məqsədləri üçün Samur sularından istifadə edirik. Beləliklə, bizdə on minlərlə hektar yeni torpaq sahələri suvarılacaq və tezliklə suvarılmalıdır. O sahələrdə, qərb və şimal zonalarında – Siyəzən, Şabran, Xızı, Şəmkir və ətraf rayonlarda tezliklə yeni fermer təsərrüfatları yaradılmalıdır.

Heyvandarlığın inkişafı üçün Kənd Təsərrüfatı Nazirliyi yeni təkliflər irəli sürüb. Biz əvvəllər daha çox cins mal-qaranın alınması ilə məşğul idik. Bu davam edir. Ancaq Azərbaycanda cinsin yaxşılaşdırılması üçün imkanlar var. Burada süni mayalanma sistemi geniş tətbiq olunmalıdır. Mənə verilən məlumata görə, bir neçə il ərzində biz tamamilə mal-qara cinsini yaxşılaşdıracağıq və beləliklə, əlavə imkanlar yaranacaqdır.

Bitkiçilikdə böyük inkişaf var. Keçən il kənd təsərrüfatının inkişafı daha çox bitkiçiliklə bağlı idi. Hesab edirəm ki, biz pambıqçılıqla daha ciddi məşğul olmalıyıq. Çünki bu həm insanları işə cəlb edir – pambıq tarlalarında çox insan işləyəcək, maaş alacaqdır – həm də bu, valyuta gətirən məhsuldur. Biz həm xam pambığı satmalıyıq, həm də ki, onu ipliyə, daha sonra tekstilə çevirib ixrac etməliyik. Bu, mütləq olmalıdır. Hesab edirəm ki, pambıq yığanlara verilən pul artırılmalıdır. Mənə verilən məlumata görə, indi 1 kiloqram pambıq üçün insanlara 42 qəpik ödənilir, bu çox azdır. Bu, əhəmiyyətli dərəcədə qaldırılmalıdır. Pambıqçılıq sürətlə inkişaf etməlidir, həmçinin tütünçülük və çayçılıq. Bu sahədə də bizim böyük ənənələrimiz var. Sovet dövründə nə qədər pambıq yığılırdı – 1 milyon ton. Çay, tütün – biz bu sahələri canlandırmalıyıq.

Məndə ərzaq məhsulları ilə bağlı da buna oxşar arayış var. Mən indi onu da səsləndirəcəyəm. Ona görə səsləndirirəm ki, həm ictimaiyyət bilsin hansı nailiyyətlər var, həm də iş adamları, yerli icra orqanları bilsinlər hansı sahələrə daha çox diqqət verilməlidir.

Beləliklə, əsas ərzaq məhsulları üzrə özünü təminetmə və maya dəyərində idxaldan asılılıq səviyyəsinə dair məlumat: mal əti – özümüzü 92 faiz təmin edirik. Burada maya dəyərində idxaldan

asılılıq 5 faizdir. Bu əsasən yem və dərmandır. Qoyun əti – özümüzü 99 faiz təmin edirik, maya dəyərində cəmi 2 faiz xarici amil var. Yenə də yem və dərman. Quş əti – özümüzü 98,6 faiz təmin edirik. Son bir neçə il ərzində quş ətinin istehsalında böyük irəliləyiş var. Nəyə görə? Çünki quş fabrikləri yaradıldı. Dövlət dəstək, kredit verdi, sahibkarları bu istiqamətə yönəltdi ki, biz özümüzü quş əti ilə tam təmin edək. Biz buna artıq çatmışıq. Ancaq maya dəyərində idxaldan asılılıq 65 faizdir. Nədir bu asılılıq? Qarğıdalı, soya, günəbaxan və dərman. Sahibkarlar üçün bu, fəaliyyət meydanıdır. Qarğıdalı, soya, günəbaxan əkilməlidir. Dərman Azərbaycanda istehsal olunmalıdır. Niyə biz özümüzü dərmanla təmin edə bilmirik? Etməliyik. Bu olsa, onda biz quş ətini 100 faiz daxili komponent hesabına əldə edəcəyik. Yumurta – özümüzü 99,6 faiz təmin edirik. Yenə də maya dəyərində 65 faiz xarici amil var.

Süd və süd məhsulları – özümüzü təminetmə əmsalı 80 faizdir. Burada da çox böyük irəliləyiş var – cəmi 10 faiz xarici amildən asılıyıq. Bu da yenə dərman və yemdir. Hesab edirəm ki, bu il də süd fabriklərinin tikintisinə böyük diqqət verilməlidir. Çünki biz özümüzü südlə 100 faiz təmin etməliyik və ixrac etməliyik. Bildiyimə görə, indi ixrac olunur, ancaq idxal da var. İdxal ancaq çeşidlərin sayına görə olmalıdır. Asılılıq isə tamamilə aradan götürülməlidir.

Azərbaycanda taxıl istehsalı artıbdır. 2014-cü ildə 2 milyon 300 min ton, 2015-ci ildə 2 milyon 900 min ton istehsal olunmuşdur. Çox gözəl inkişafdır. Ancaq özümüzü cəmi 64 faiz səviyyəsində təmin edirik. Ona görə iri fermer təsərrüfatlarının yaradılması prosesi bundan sonra da getməlidir. İri fermer təsərrüfatlarında məhsuldarlıq 1 hektardan 50 sentnerdir, bəlkə də çox, orta məhsuldarlıq isə 30 sentnerdir. Onu da biz ancaq bu il əldə etmişik. Əvvəllər 23-24 sentner idi. Dövriyyəyə yeni torpaq sahələri verilməlidir. Dövlət infrastruktur layihələrini icra etməlidir. Biz özümüzü 100 faiz taxılla təmin etməliyik. 100 faiz – qarşıya belə vəzifə qoyulur. Müzakirə edin, məlumat verin – biz nə vaxt buna nail ola bilərik və buna nail olmaq üçün nə lazımdır? Burada – taxıl istehsalında maya dəyərində idxaldan asılılıq 20 faizdir – gübrə, dərman.

Kartof – özümüzü 90 faiz təmin edirik. Hesab edirəm ki, bu qəbuledilməzdir. Özümüzü kartofla 100 faiz təmin etməliyik, ixrac da etməliyik. Ona görə ciddi məşğul olun ki, biz bu boşluğu dolduraq. Kartof istehsalında 35 faiz xarici amil var – yenə də gübrə, dərman. Soğan – özümüzü 100 faizdən çox təmin edirik. Burada xarici amil yoxdur. Bostan məhsulları 100 faiz, yenə də xaricdən asılı deyilik. Meyvə, giləmeyvə təxminən 110 faiz, maya dəyərində xarici idxaldan 30 faiz asılılıq – yenə gübrə, dərman. Ona görə gübrə zavodu tikilir, ancaq gərək sürətlə tikilsin. O vaxt biz bu layihəni başladıq ki, idxaldan asılılığı azaldaq, ancaq çox uzanıb. Bu dözülməzdir. Bu il çox ciddi işlər aparılmalıdır. Tezliklə gübrə zavodu işə düşməlidir. Dərman haqqında isə mən dedim, müzakirə edin. Nə etmək lazımdır, harada müəssisələr yaradılmalıdır, bizə nə qədər lazımdır, illik tələbat nə qədərdir?

Duz – özümüzü 87 faiz təmin edirik, xarici amil 5 faizdir. Bu da qablaşmadır. Şəkər və şəkərdən hazırlanan məhsullar – özümüzü 191 faiz təmin edirik, İmişlidəki Şəkər zavodunun hesabına. Ancaq burada xaricdən 80 faiz asılılıq var. Xam şəkər xaricdən gətirilir. Ona görə çalışmalıyıq ki, bu xarici komponenti biz aşağı salaq. Bunun üçün nə lazımdır? Aydın məsələdir, daha çox şəkər çuğunduru əkilməlidir. Bu həm iş yerləri yaradacaq, həm xarici amildən asılılıq aradan götürüləcək.

Bitki yağları və marqarin – özümüzü 67 faiz təmin edirik. Burada da idxaldan 80 faiz asılıyıq. Nədir? – xam yağ və qablaşdırma. Bizdə bitkiçiliyin inkişafı hesabına özümüz yerli məhsullardan daha çox yağ əldə edə bilərik. Kərə yağı – özümüzü cəmi 60 faiz təmin edirik, xarici amil 10 faizdir. Hesab edirəm ki, biz kərə yağını da Azərbaycanda 100 faiz istehsal etməliyik. Bunun üçün nə lazımdırsa, təklif verin. Makaron – özümüzü 52 faiz təmin edirik. Ancaq bu yerli istehsalın 95 faizi xaricdən gələn xammal hesabına təmin edilir. Ona görə taxılçılığın, keyfiyyətli unun istehsalı makaron istehsalında da imkan verəcək ki, xarici amildən asılı olmayaq. Meyvə-tərəvəz şirələri – özümüzü 105 faiz təmin edirik. Meyvə-tərəvəz konservləri təxminən 90 faiz və 10 faiz xarici amildir.

Bu cədvəllər nəyi göstərir? İlk növbədə onu göstərir ki, biz son illər ərzində tarixi nailiyyətlərə imza atmışıq. Sovet dövründə biz yağı da, əti də, südü də, pendiri də – hamısını Rusiyadan, Ukraynadan gətirirdik. İndi biz özümüzü böyük dərəcədə təmin edə bilmişik. Ona görə ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasəti uğurla aparılır. Eyni zamanda, onu göstərir ki, hələ görüləsi işlər çoxdur. Səsləndirdiyim bu iki cədvəl iş adamları, dövlət qurumları, yerli icra orqanları üçün əsas sənəd – yol xəritəsi olmalıdır və bunu tezliklə icra etməliyik.

Turizmin inkişafı daha sürətlə getməlidir. Xüsusilə Avropa oyunlarından sonra Azərbaycana dünyada maraq daha da artdı. Biz bundan istifadə etməliyik. Nə qədər çox turist gəlsə, o qədər də çox adam Azərbaycanı tanıyacaq və turistlər ölkəmizə valyuta gətirəcəklər. Son 12 il ərzində Azərbaycanda 300-ə yaxın mehmanxana tikilib. Bizim indi dünya səviyyəli kurortlarımız var – Şahdağ kurortu, Naftalan kurortu. Qəbələ beynəlxalq kurort mərkəzinə çevrilibdir və Qalaaltı müalicəvi kurort mərkəzidir. Naxçıvanda «Duzdağ» kurort mərkəzi yaradılıbdır. Sadəcə, daha fəal olmalıyıq ki, turistləri cəlb edək. Burada vizaların sadələşdirilməsi işində əlavə tədbirlər görülüb ki, biz daha da çox turist axınını təmin edək. Azərbaycanın turistləri maraqlandıran ənənəvi sənət növləri də inkişaf etdirilməlidir, o cümlədən xalçaçılıq. Bu bizim böyük milli sərvətimizdir. Hesab edirəm ki, indi, xüsusilə kəndlərdə şərait yaradılmalıdır ki, qadınlar xalçaçılıqla məşğul olsunlar. Onlar materiallarla, dəzgahlarla, iplərlə təmin olunmalıdırlar ki, xalça toxusunlar, pul qazansınlar və biz bu malları xarici bazarlara çıxara bilək.

Bu il də ekoloji tədbirlər görülməlidir. Xüsusilə ağacəkmə prosesi gedir. Ağac əkməyə insanları daha çox cəlb etmək olar, xüsusilə bölgələrdə. Burada müvəqqəti iş yerləri yaradılmalıdır. Yerli icra orqanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyi təkliflər hazırlasınlar ki, bu il biz nə qədər ağac əkəcəyik, nə qədər insan bu işlərə cəlb ediləcəkdir.

Bütövlükdə demək istəyirəm ki, indi – dünyada böhran yaşanan dövrdə bir çox ölkələrdə ictimai işlərə daha çox üstünlük verilir. Bizdə

böhran yoxdur. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir və inkişafımız dayanıqlı olacaq.

Ancaq mən istəyirəm ki, Azərbaycanda, ümumiyyətlə, işsiz adam olmasın. Hər kəs iş tapa bilmir. Ona görə verdiyim tövsiyələr və tapşırıqlar mütləq icra edilməlidir. Bu il biz müvəqqəti ictimai işlərə daha çox insanı cəlb etməliyik. Onlara maaş veriləcək və onlar da xalq, dövlət üçün çalışacaqlar.

İstehlak qiymətlərinə nəzarət daim olmalıdır. Süni bahalaşmaya qarşı mübarizə aparılır və aparılacaq, cəza tədbirləri görülür. Söhbət süni bahalaşmadan gedir.

Korrupsiyaya və rüşvətxorluğa qarsı mübarizə gedir, öz bəhrəsini verir. Korrupsiya böyük bəladır, bütün ölkələr üçün, o cümlədən Azərbaycan üçün. Biz həm cəza tədbirlərini tətbiq edirik, inzibati addımlar atılır, həm də institusional tədbirlər görülür. Korrupsiya, rüşvətxorluq üçün meydan daralır, yeni ictimai xidmətlər yaradılır. «ASAN xidmət» 2 il ərzində artıq 7 milyon insana xidmət göstərib. Bu 7 milyon insan bu 2 il ərzində «ASAN xidmət»də korrupsiyanın nə olduğunu görməyib. Ancaq əvvəlki dövrlərdə hansı qapıya gedirdilərsə, onlardan qanuni arayışa, icazəyə və s. görə nə isə tələb olunurdu. İnstitusional tədbirlər çox səmərəlidir. Bununla bərabər, korrupsiyaya qarşı cəza tədbirləri də tətbiq edilir. Burada heç kimin imtiyazı ola bilməz. Heç kim toxunulmaz deyil. Son hadisələr Azərbaycanda bunu bir daha göstərdi. Əgər bəzi yüksəkvəzifəli şəxslər qanunu pozurlarsa, öz vəzifə borclarını yerinə yetirə bilmirlərsə, onlar mütləq cəzalandırılacaq və cəzalandırılır. Xalq da, ictimaiyyət də bunu görür. Hamı bilsin, Azərbaycanda bir nəfər də olsun toxunulmaz adam yoxdur. Hamı qanun qarşısında bərabərdir.

Mən artıq qeyd etdim ki, bu il yerli icra orqanları daha çox iş yerlərinin yaradılması, investisiyanın cəlb edilməsi ilə məşğul olmalıdır. Əldə edilmiş nailiyyətlərlə bağlı Prezidentə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə müntəzəm olaraq məlumat verilməlidir. Dövlət məmurları xalqla bir yerdə olmalıdır. Mən həmişə demişəm ki, hər bir dövlət məmuru, o cümlədən də prezident xalqın xidmətçisidir. Xalq bizə etibar edib və biz də bu etibarı, inamı hər gün doğrultmalıyıq.

Dövlət məmurları və onların ailə üzvləri özlərini təvazökar aparmalı, xalqla bir yerdə olmalı, yekəxanalıq göstərməməlidirlər. Hesab etməməlidirlər ki, onların hansısa xüsusi statusu var. Onların statusu var – insanlara xidmət etmək, insanların problemlərini həll etmək, onlara qayğı göstərmək. İnsanları incitməməlidirlər, əksinə, qayğı, diqqət göstərməlidirlər və kömək etməlidirlər. Dediyim bütün bu amillər onların fəaliyyətinə verilən qiymətdə əsas rol oynayacaq.

Dövlət qurumları. Burada bəzi çıxışlarda səsləndi – indi Azərbaycanda yerli istehsal nə qədər inkişaf edir, o cümlədən mebel istehsalı. Ancaq bizim dövlət idarələrində yerli mebeldən istifadə edirlərmi? Yox! Hər bir kiçik məmur istəyir ki, onun kabinetində xarici mebel olsun. Nə üçün?! Bu nə ədabazlıqdır?! Bizdə gözəl mebel istehsal olunur. Bu təkcə «Embawood» şirkəti deyil. Bizdə bəlkə də mebel istehsal edən onlarla şirkət var. Amma di gəl ki, bizim yüksək və kiçik vəzifəli dövlət məmurlarımız onu bəyənmirlər. Özü də onun keyfiyyəti heç bir başqa mebeldən fərqlənmir. Amma deyir ki, yox, bu, Azərbaycan malıdır, mən bunu özümə rəva bilmirəm. Mənim üçün gərək İtaliya, Rumıniya mebeli olsun. Buna son qoyulmalıdır! Bütün dövlət məmurlarının kabinetlərində bundan sonra yerli mebellər olmalıdır. Bütün təftiş edən orqanlar – Hesablama Palatası, Maliyyə Nazirliyi və digər orqanlar nəzarət etməlidirlər.

Təkcə mebeldən söhbət getmir. Digər mal, materiallar alınanda da nədənsə bizdə xarici mallara üstünlük verilir. Mənə bu yaxınlarda hətta hökumət müşavirəsində ayaqqabı gətirib göstərdilər ki, görün Azərbaycanda nə gözəl ayaqqabı istehsal olunur. Ancaq bizim bəzi hərbi qurumlar bunu bəyənmir, əsgər üçün xaricdən ayaqqabı alır. Nə üçün? Ona görə bu sahə çox ciddi nəzarət altında olmalıdır. Beləliklə, biz israfçılığa yol verməyəcəyik, xərclər azalacaq, valyuta xaricə getməyəcək, yerli istehsal güclənəcək. Mənim göstərişim hamıya aiddir. Bundan sonra belə də olmalıdır. İndi o vəziyyət deyil ki, kimsə özü üçün xüsusi bir avtomobil alsın, özü də dövlət hesabına. Bizim Naxçıvanda Avtomobil zavodumuz var, dövlət qurumları oradan alsınlar. Yaxşı da maşınlardır. Heç xarici maşından o qədər də fərqlənmir. Çox gözəldir. Daha çox alsınlar. Yəni hökumət bu sahəyə

çox ciddi diqqət verməlidir. Harada ki, pozuntular var, dərhal mənə məlumat verilməlidir və ölçülər götürüləcək.

Sahibkarlar ölkə iqtisadiyyatına daha çox vəsait qoysunlar. Mən bilirəm, indi Azərbaycan sahibkarları xaricə də investisiya qoyurlar. Mən özüm də həmişə bunun tərəfdarı olmuşam, istəyirdim ki, bizim firmalar dünya bazarlarına çıxsınlar, onları tanısınlar. İndi söhbət düşmüşkən deyim ki, mən həmişə, hətta xarici səfərlərdə Azərbaycan sahibkarlarını təbliğ edirəm, istəyirəm onlar xaricdə fəaliyyət göstərsinlər. Ancaq indiki şəraitdə sahibkarların əsas vəsaiti Azərbaycana qoyulmalıdır. Sahibkarlar, əlbəttə, məsuliyyətli olmalıdırlar, vergiləri tam ödəməlidirlər. Bunu etmək üçün vergi uçotu düzgün aparılmalıdır. Çünki bəzi hallarda sahibkarın yanına gəlib deyirlər ki, sən filan qədər verməlisən. Yəni dövlətə verməlisən, mən bunu nəzərdə tuturam. Bəzən yəqin ki, başqa hallar da olur. Amma bu da sahibkarları narahat edir. Çünki sahibkar əldə etdiyi gəlirə görə vergi verməlidir. Ona görə burada uçot ən vacib məsələdir. Sahibkarlar şəffaf fəaliyyət göstərməlidirlər və kənd təsərrüfatına, emal sənayesinə, sənaye materiallarının istehsalına vəsait qoymalıdırlar.

Mən dəfələrlə demişəm, elə işləməliyik ki, sanki bizdə neft-qaz resursları yoxdur. Əslində indi neftin qiyməti belə vəziyyətə gətirib çıxarıb ki, elə bil doğrudan da belədir. Sözün düzü, biz hesablayırdıq ki, postneft dövrü Azərbaycanda 30-cu, 40-cı illərdən sonra başlayacaq. Çünki bizim bütün proqnozlarımız onu göstərir ki, hələ onilliklər bundan sonra Azərbaycanda neftin hasilatı təxminən sabit qalacaqdır. 2-3 ildən sonra reallaşacaq «Cənub Qaz Dəhlizi»nin faydası da, əlbəttə ki, müəyyən dərəcədə 40-cı ildən sonra neftin tənəzzülünün qarşısını alacaq. Çünki biz bazara böyük qazla çıxacağıq.

Ancaq neftin qiyməti 4 dəfə aşağı düşdü və biz artıq bu gün postneft dövründə yaşayırıq. Biz qısa zaman çərçivəsində bu işləri görürük ki, insanlar bunu hiss etməsinlər. Ona görə bundan sonra islahat, şəffaflıq, məsuliyyət, qeyri-neft sektorunun inkişafı, ixrac-yönümlü məhsulların istehsalı, idxaldan asılılığın azaldılması – bütün bu amillər bizim dayanıqlı inkişafımızı təmin edəcək. Mən əminəm ki, Azərbaycan 2016-cı ildə və bundan sonrakı illərdə də uğurla inkişaf

edəcəkdir. Biz müstəqillik yolu ilə, inkişaf yolu ilə gedirik. Bu yolda sizə və bütün Azərbaycan xalqına uğurlar arzulayıram. Sağ olun.

## ALMANİYA VƏ BOLQARISTANIN STATİSTİKA QURUMLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*27 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayteri və Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarskini qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılmasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə dəstək «Tvinninq» layihəsinin ikinci fazasının təqdimatı ilə bağlı keçirilən konfransın əhəmiyyətini qeyd etdi. Bütün sahələrdə işlərin planlaşdırılmasında, iqtisadi inkişafa nail olunmasında dəqiq statistikanın rolunu xüsusi vurğulayan prezident İlham Əliyev ölkəmizin statistika sistemində islahatların aparılmasının önəmindən danışaraq, bu baxımdan «Tvinninq» layihəsinin uğurla həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Bolqarıstan Milli Statistika İnstitutunun prezidenti Sergey Tsvetarski layihənin birinci fazasının icrası zamanı ölkəmizdə Tvinninq üzrə rezident-müşavir vəzifəsində çalışdığı müddətdə görülən işlərdən danışdı.*

*Almaniya Federal Statistika İdarəsinin prezidenti Diter Sarrayter səmərəli siyasətin işlənib hazırlanmasında düzgün statistik məlumatların əldə edilməsi və istifadə olunmasının vacibliyinə toxundu, bu sahənin təkmilləşdirilməsinin əhəmiyyətini vurğuladı.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XƏLİL İBRAHİM AKÇA İLƏ GÖRÜŞ

*28 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akçanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə çox yaxşı ikitərəfli əlaqələrinin, o cümlədən siyasi və iqtisadi əməkdaşlığının əhəmiyyətini vurğulayaraq ölkəmizin bu əməkdaşlığı daha da genişləndirmək niyyətində olduğunu dedi. Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə fəal əməkdaşlıq etdiyini bildirən prezident İlham Əliyev təşkilatın iki sammitinin ölkəmizdə keçirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı dünyada iqtisadi çətinliklərin və böhranın hökm sürdüyü bir vaxtda təşkilatın üzv dövlətləri arasında iqtisadi əməkdaşlığın əhəmiyyətli olduğunu dedi. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Xəlil İbrahim Akçanın ölkəmizə səfərinin təşkilatın fəaliyyətinin gələcək planları ilə bağlı müzakirələrin aparılması üçün yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvlərindən biri olduğunu vurğulayan baş katib Xəlil İbrahim Akça rəhbərlik etdiyi təşkilatın ölkəmizdə keçirilən sonuncu sammitini məmnunluqla xatırlatdı.*

*Görüşdə Azərbaycan ilə İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ÖLKƏ GƏNCLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*29 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Azərbaycan Gənclərinin I Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşmüşdür.*
*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Bir neçə gündən sonra biz I Gənclər Forumunun 20-ci ildönümünü qeyd edəcəyik. Biz bu əlamətdar tarix ərəfəsində görüşürük. 1996-cı il fevralın 2-də prezident Heydər Əliyevin təşəbbüsü ilə I Gənclər Forumu keçirilmişdi. Doğrudan da çox əlamətdar hadisə idi. Məhz o vaxt Azərbaycanın gənclər siyasətinin əsas istiqamətləri müəyyən olundu.

Ümumiyyətlə, 1996-cı il müstəqil tariximizin xüsusi ili idi. Çünki 1996-cı ildən sonra ölkəmizdə inkişaf dövrü başlandı. Sabitləşmə dövrü isə xalqın tələbi ilə Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən sonra başlanmışdı. Ancaq 1996-cı ilə qədər ölkəmizdə gedən proseslər imkan vermirdi ki, ölkə inamla inkişaf dövrünə qədəm qoysun. Əgər statistik göstəricilərə nəzər salsaq görərik ki, 1996-cı ildən sonra iqtisadi artım başlanmışdır, iqtisadiyyatda tənəzzül aradan götürülmüşdür, inflyasiyanın səviyyəsi aşağı düşməyə başlamışdır. Ümumiyyətlə, Azərbaycanın müstəqillik tarixinin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdi. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra çox ağır vəziyyətlə üzləşmişdi. Daha doğrusu, bu vəziyyət ondan əvvəlki dövrdə yaranmışdı. Azərbaycana qarşı erməni iddiaları, torpaq iddiaları və Sovet hökumətinin bu məsələdə ermənilərin tərəfini tutması ölkəmiz üçün böyük problemlər yaratmışdı. Hələ keçən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağda, Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi komitə yaradılmışdı və faktiki

olaraq Dağlıq Qarabağ Azərbaycan tabeçiliyindən çıxarılmışdı. Bu, xalqımıza qarşı məkrli planların tərkib hissəsi, onun başlanğıcı idi.

Ondan sonra sovet hökuməti, sovet ordusu tərəfindən xalqımıza qarşı qanlı cinayət törədildi. Sovet rəhbərliyinin bilavasitə tapşırığı ilə Qanlı Yanvar faciəsi törədildi, günahsız insanlar şəhid oldular. Bildiyiniz kimi, faciədən sonra Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, öz etiraz səsini ucaltmışdı. Sovet hökumətini, sovet rəhbərliyini, onların hərəkətlərini, cinayətlərini pisləmişdi. Deyə bilərəm ki, sovet dövründə bu çox nadir bir hadisə idi. Çünki hələ Sovet İttifaqının dağılmasına 2 il vaxt qalırdı. Sovet hökuməti kifayət qədər güclü idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı, Kommunist Partiyası dağılacaq. Ona görə Heydər Əliyevin bu addımı çox cəsarətli addım idi. Əsl vətənpərvər, xalqını hər şeydən üstün tutan insanın addımı idi. Təbii ki, o, böyük siyasətçi kimi, başa düşürdü ki, ona qarşı təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Hətta onun həbsi haqqında qərar qəbul edilmişdi və o, məcbur olub Moskvadan Bakıya gəlmişdi, özü də böyük çətinliklərlə. Bakıda da ona qarşı təxribatlar planlaşdırılırdı. Ona görə Naxçıvana getdi və ondan sonrakı dövrünü siz tarixdən bilirsiniz. Naxçıvan camaatı, əhalisi onu müdafiə etdi. Ondan sonra isə o, Naxçıvanı müdafiə etdi. İmkan vermədi ki, Ermənistan Naxçıvanda da Dağlıq Qarabağdakı əməlləri törətsin.

Yəni o illər doğrudan da ağır idi və gələcək inkişafımız üçün həlledici idi. 1991-ci ildə Sovet İttifaqı dağıdıldı, bütün respublikalara sanki tarixi bir şans verildi ki, öz dövlətlərini qursunlar. Əgər bu gün biz keçmiş müttəfiq respublikaların indiki vəziyyətinə nəzər salsaq görərik ki, bəzi ölkələr bu günə qədər də xarici təsirdən yaxasını qurtara bilməmişdir. Azərbaycan isə müstəqil dövlətdir, güclü dövlətdir, uğurlu inkişaf yolunu keçən dövlətdir.

Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdi. Erməni işğalı, torpaqlarımızın itirilməsi, Dağlıq Qarabağdan azərbaycanlıların qovulması, 1992-ci ilin may ayında Şuşa və Laçının işğal altına düşməsi bizim böyük faciəmizdir. 1993-cü ilin aprel ayında Kəlbəcərin erməni işğalı altına düşməsi nəticəsində faktiki olaraq, biz Dağlıq Qarabağı Ermənistanla ayıran bölgəni də itirdik və

beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Bu da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində, əlbəttə ki, çox mənfi rol oynadı.

Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu bizim dədə-baba torpağımızdır. Heç vaxt Azərbaycan xalqı və dövləti bu vəziyyətlə barışmayacaq. Mən tam əminəm ki, biz ərazi bütöv-lüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda, tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar. İndiki Ermənistan tarixi Azərbaycan torpağıdır. Əgər keçən əsrin əvvəlində dərc edilmiş xəritələrə baxsaq görərik ki, orada şəhərlərin adlarının böyük əksəriyyəti Azərbaycan mənşəlidir. Ermənistan–Azərbaycan müharibəsinin yaranması, əlbəttə ki, bizim dövlətçiliyimizə, dövlətimizə, xalqımıza qarşı törədilən böyük cinayətdir. Ermənistanın, əlbəttə ki, böyük havadarları var idi, bu gün də var. Siz bunu yaxşı bilirsiniz və məsələnin həll olunmamasının səbəbi məhz bundadır. Çünki Ermənistan təkbaşına deyil, onun böyük havadarları, dəstək verənləri var. Dünya gücləri – təkcə dünya erməniliyindən söhbət getmir – böyük dövlətlər müxtəlif səbəblərə görə Ermənistanın işğalçılıq siyasətini faktiki olaraq şərtləndirirlər. Ancaq mən bir daha demək istəyirəm və siz də gənclər kimi, bunu bilməlisiniz ki, bizim əsas vəzifəmiz ərazi bütövlüyümüzün bərpasıdır, tarixi torpaqlarımıza qayıtmağımızdır, o cümlədən indiki Ermənistan ərazisinə Azərbaycan əhalisi qayıtmalıdır və qayıdacaq da. Əlbəttə, bu, zaman aparacaq. Ancaq bu bizim müqəddəs amalımızdır. Biz hamımız bu amalla yaşamalıyıq. Bu gün Azərbaycanın uğurlu inkişafı, əhalimizin artması əminəm ki, buna gətirib çıxaracaq. Yəni biz öz işimizlə hər gün bu günü yaxınlaşdır-malıyıq.

O vaxt problemlərimizdən biri də hakimiyyətdə olan adamların təcrübəsizliyi, bəzi hallarda xəyanəti olmuşdu. Çünki siz gənclər təbii ki, o illəri xatırlamırsınız. Əlbəttə ki, bizim nəsil – o illəri yaşamış insanlar yaxşı xatırlayırıq. Azərbaycan Xalq Cəbhəsi–Müsavat hakimiyyəti xalqımız üçün böyük bəla, böyük biabırçılıq idi. Birincisi, 1992-ci ildə onlar hakimiyyəti qanunsuz yollarla zəbt etmişdilər. O vaxt Dağlıq Qarabağda qanlı döyüşlər gedirdi. Ancaq onların əsas məqsədi nəyin bahasına olursa-

olsun hakimiyyətə gəlmək idi. Hətta bəziləri sevinirdilər ki, Şuşa, Laçın işğal altına düşüb və bu, tezliklə əvvəlki hakimiyyətin yıxılmasına gətirib çıxaracaqdır. O vaxtkı tarix çox acınacaqlıdır, çox ağırdır, tariximizin qara səhifələridir. Hakimiyyəti zəbt edəndən sonra onlar Azərbaycanı faktiki olaraq, uçurum kənarına qoymuşdular. Birincisi, əgər o vaxt Azərbaycana rəhbərlik edənlərin şəxsiyyətlərinə nəzər salsaq, heç bir şərhsiz görərik ki, bu adamlar nəinki ölkəni, bir kolxozu da idarə edə bilməzlər. Gənclər bu tarixi, əlbəttə, bilməzlər. Amma baxın, kimlər Azərbaycanı idarə etmişlər. Parlamentin Sədri kiçik elmi işçi idi, 11 il ərzində kiçik bir dissertasiyanı müdafiə edə bilməmişdi. Baş nazir, yumşaq desək, ticarətlə məşğul idi, kiçik ticarətlə, özü də o ticarət mövsümi xarakter daşıyır. Dövlət katibi komsomolçu idi – sonradan flüger kimi, əqidəsini dəyişmiş və xalq hərəkatına qoşulmuş birisi. Ondan sonrakı dövrdə də bir neçə dəfə əqidəsini dəyişmişdi. Hətta keçən əsrin 90-cı illərinin ortalarında hakimiyyətlə sıx əlaqədə olaraq parlamentdə də təmsil olunurdu. Ancaq silahdaşları, yoldaşları onu yaxşı tanıyırlar. Ağır vaxtda öz liderinə xəyanət etmiş insan, əlbəttə ki, yüksək keyfiyyətlərə malik ola bilməz. Müdafiə nazirinin Şuşanın ermənilərə verilməsində bilavasitə əli, günahı vardır. Daxili İşlər naziri canlı efirdə bir müxalifət nümayəndəsini döymüşdü. Görün, hüquq-mühafizə orqanının yüksəkvəzifəli şəxsi veriliş gedə-gedə nə isə xoşuna gəlməyib, studiyaya gedib onu xalq qarşısında döymüşdü və buna görə heç bir məsuliyyət daşımamışdı. Xarici İşlər naziri Fizika İnstitutunun kiçik elmi işçisi idi və belə önəmli vəzifəyə irəli sürülmüşdü. Heç bir xarici dil bilməyən, hətta rus dilində düz-əməlli danışa bilməyən, yəni yumşaq desək, statusuna adekvat olmayan bir adam idi.

Budur Azərbaycan Xalq Cəbhəsi–Müsavat hakimiyyətinin öndə gedənləri. Bu adamlar ölkəni necə idarə edə bilərdilər?! Hakimiyyətə gələndən sonra onlar dərhal bir-biri ilə mübarizəyə başlamışlar. Bu mübarizə və eyni zamanda, xalq tərəfindən onlara olan inamsızlıq, mənfi münasibət nəticəsində cəmi 1 il hakimiyyətdə qala bilmişlər. Onlar üçün vəziyyət gərginləşəndə – 1993-cü ilin yaz-yay aylarında bütün vəzifələrdən gedərək, bəziləri ölkəni tərk etmiş, bəziləri qaçıb gizlənmişlər və onların dırnaqarası cəsarəti artıq yox olmuşdur.

Bax, bu ağır vəziyyətdə – 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldi və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə

doğru getməyə başladı. Amma vəziyyət 1996-cı ilə qədər yenə də çox gərgin idi. 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» imzalandı və bu gün də bizim inkişafımızın uğurlu olmasında bu müqavilə çox mühüm rol oynayır. Bu çox ciddi siyasi və iqtisadi addım idi. Bu bəzi xarici ölkələri çox narahat edirdi və 2 həftə keçmədən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərildi. Əlbəttə, Azərbaycan xalqı imkan vermədi ki, bu, baş tutsun. Amma bu, xalqımıza, dövlətimizə qarşı çox ciddi bir hərbi əməliyyat idi. 1995-ci ildə artıq digər qruplaşma – xarici oriyentasiyadan olan qruplaşma yenə də dövlət çevrilişinə cəhd göstərdi. O cəhd də yatırıldı. Yenə də xalq küçələrə, meydanlara çıxıb hakimiyyəti, Heydər Əliyevi müdafiə etdi. 1996-cı il artıq sabitləşmə ili kimi tarixdə qaldı. Təsadüfi deyil ki, 1996-cı ilin əvvəlində Gənclər Forumu keçirilmişdir.

Mən bu tarixə nəyə görə qayıdıram? Çünki birincisi, bu həqiqətdir. Dediyim sözlər və xüsusilə verdiyim qiymətlər ən diplomatik və yumşaq qiymətlərdir. Gənclər bunu bilməlidirlər ki, biz hansı vəziyyətdən çıxıb, hansı vəziyyətə gəlib çıxmışıq. Digər tərəfdən, əgər bu tarixi yaddan çıxarsaq, onda biz öz gələcək planlarımızı düzgün qura bilməyəcəyik.

Biz bu gün güclü dövlət qururuq. O dövlət ki, dünya miqyasında böyük hörmətə malikdir. Biz çalışmalıyıq və çalışırıq ki, inkişafımız dayanıqlı olsun. Buna nail olmaq üçün sadəcə, güclü iqtisadiyyata malik olmaq kifayət deyil. Dayanıqlı inkişaf üçün gərək gələcəkdə ölkəmizi idarə edəcək insanlar da daim dövlətçiliyə, inkişafa töhfə versinlər. Siz gənclər gələcəkdə ölkəmizi idarə edəcəksiniz. Ölkəmizin taleyi sizdən asılı olacaqdır. Ona görə sizin fəaliyyətiniz, baxışlarınız və fikirləriniz gələcəkdə ölkəmiz üçün həlledici olacaq.

Azərbaycan əsrlərboyu müstəqillikdən məhrum olub. Xalqımız müstəqillik arzuları ilə yaşayıb. Bu, tarixi bir şansdır ki, bizə verildi. Sovet İttifaqının dağılmasını heç kim təsəvvür edə bilməzdi. Hətta böyük dövlətlərin analitik mərkəzlərində də belə ssenari nəzərdən keçirilmirdi. Bu fürsət bizə verildi və bu məsuliyyət bizim üzərimizdədir. Biz Azərbaycanda güclü, özünə güvənən, müstəqil dövlət qururuq. Bu dövlət əbədi yaşamalıdır və uğurla yaşamalıdır!

Son 20 il inkişaf, sabitlik dövrü olub. Bu dövr ərzində Azərbaycan dünya miqyasında, bir daha demək istəyirəm ki, çox güclü dövlətə

çevrilib. Təsadüfi deyil ki, 155 ölkə bizim namizədliyimizi BMT Təhlükəsizlik Şurasına seçilərkən dəstəkləyib. Güclü iqtisadiyyat yaratmışıq, güclü sosial siyasət aparılır, güclü ordu qurmuşuq. Hətta beynəlxalq hesablamalarda Azərbaycan Ordusu dünya miqyasında 40 ən qüdrətli ordu sırasındadır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, bizim ordumuz güclü ordular sırasındadır. Mənim təhlilimi beynəlxalq qurumlar da təsdiqləyir.

Biz bu illər ərzində enerji siyasətində tarixi layihələrə imza atdıq, Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdik. Hazırda «Cənub Qaz Dəhlizi»ni icra edirik. Bu da bizim təşəbbüsümüzdür. Özü də 1994-cü ildə «Əsrin müqaviləsi» imzalananda, əlbəttə ki, bizim iqtisadi və siyasi vəziyyətimiz indiki kimi deyildi. Bizə hər tərəfdən təzyiqlər göstərilirdi və o vaxt iqtisadiyyatımız, demək olar ki, dağılmış vəziyyətdə idi. Ancaq Heydər Əliyevin güclü iradəsi, cəsarəti və gələcəyə olan baxışları bunu mümkün etdi. Biz bu illərdə iqtisadi şaxələndirmə ilə məşğul olmuşuq, bir çox məsələləri həll edə bilmişik. Amma bu sahə ilə yenə də məşğul olmaq lazımdır. Azərbaycan indi kosmik dövlətə çevrilibdir. Elmin, təhsilin inkişafı, infrastruktur layihələrinin icrası – bütün bunlar ölkəmizi gücləndirir.

Hesab edirəm ki, bu gün ölkəmiz üçün yeni dövr başlanır. Əminəm ki, bu dövr də uğurlu olacaqdır. Bu, postneft dövrüdür. Postneft dövrü bizim hesablamalarımıza görə 2040-cı ildən sonra başlamalı idi. Ancaq neftin qiymətinin kəskin düşməsi nəticəsində artıq biz postneft dövründə yaşayırıq.

Əlbəttə ki, iqtisadi sahədə ciddi islahatların aparılmasına çox böyük ehtiyac var. Bu islahatlar başlayıb və dərinləşəcək. Biz çalışmalıyıq və əminəm, buna nail olacağıq ki, Azərbaycan iqtisadiyyatı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarından fərqlənməsin, o səviyyədə olsun. Çünki gərək bütün mexanizmlər, bütün meyarlar bu tələbləri ehtiva etsin.

Bizim çox güclü intellektual potensialımız var, coğrafi vəziyyətimiz çox əlverişlidir. Bu gün Azərbaycan tranzit ölkə kimi, artıq dünya miqyasında böyük hörmətə malikdir. Siz də yəqin izləyirsiniz ki, tranzit yollar artıq Azərbaycandan keçir. Digər üstünlüklərimiz var. Azərbaycanda savadlılıq 100 faizdir. Bu da bizim böyük

sərvətimizdir. Ona görə mən ölkəmizin uğurlu inkişafına nəinki inanıram, əminəm ki, belə də olacaq.

Növbəti 2-3 il ərzində, xüsusilə iqtisadi sahədə yeni iqtisadi model artıq işləməyə başlayacaqdır. Birinci mərhələdə – ötən əsrin 90-cı illərinin əvvəllərində biz tənəzzülün qabağını almalı idik və aldıq. Bundan sonra Heydər Əliyev neft strategiyasının icrası nəticəsində böyük layihələrə nail ola bildik. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum bizə çox böyük imkanlar yaratdı. Neft Fondu yaradıldı. Azərbaycan böyük həcmdə nefti ixrac etməyə və gəlir əldə etməyə başladı. Biz gəliri də ölkəmizin inkişafına yönəltdik. Bölgələrdə, Bakıda yeni infrastruktur layihələri həyata keçirildi, məktəb binaları, xəstəxanalar tikildi, yəni infrastruktur tamamilə yeniləndi. Hələ ki, görüləsi işlər çoxdur. Amma infrastruktur layihələrinin böyük hissəsi artıq reallaşıb. Buna biz vəsait sərf etdik ki, gələcəkdə neftdən asılılığı daha da azaldaq.

İndiki dövr isə inkişaf etmiş ölkələrdəki kimi, daha çox innovasiya, intellektual inkişaf dövrü olacaq. Onlar nəyin hesabına inkişaf edirlər? İnkişaf etmiş ölkələrdə, onların böyük əksəriyyətində neft, qaz yoxdur. Onların böyük şirkətləri var. Onlar gedib xarici ölkələrdə neft, qaz hasil edirlər və öz büdcələrinə vergi ödəyirlər. Onlar nəyin hesabına inkişaf edirlər? Ancaq texnologiya, bilik və savad hesabına.

Bu gün dünyada bizdən qat-qat çox neft hasil edən, ixrac edən ölkələr var. Ancaq onlar da texnologiyaları Qərbdən alırlar. Bu, bu günün reallıqlarıdır. Mən çox istərdim ki, Azərbaycanda alimlər ixtiralar ortaya qoysunlar, dünya elminə töhfələr versinlər. Əminəm ki, bu olacaq.

Amma indiki dövrdə biz Azərbaycana qabaqcıl texnologiyaları gətirməliyik və kadr potensialı da hazırlanmalıdır ki, gələcəkdə texnoloji tərəqqidən kənarda qalmayaq. Bundan sonrakı dövrdə həm siyasi müstəvidə, həm də iqtisadi və hərbi sahələrdə texnologiyalar, bilik, savad hər şeyi həll edəcək. Bu gün artıq hərbi sahədə yeni texnologiyalar hər şeyi dəyişir. O qədər də böyük orduya malik olmayan ölkələr bəlkə də hərbi cəhətdən ən güclü ölkələrə çevrilir. Ona görə biz bu sahəni daim diqqət mərkəzində saxlamalıyıq və

Azərbaycanda elmin inkişafına, yeni texnologiyaların, İKT-nin, kosmik sənayenin inkişafına böyük diqqət verilir. Təkcə ona görə yox ki, biz bu sahəni yaradaq və onunla öyünək. Ona görə ki, bu, intellektual inkişafa təkan verir.

Xüsusilə bu, gənclərə aiddir. Burada təhsil, bilik ön plandadır. Yəqin biz hamımız və balaca uşaqlar, tələbələr də tez-tez eşidirik ki, oxumaq, təhsil almaq lazımdır. Bəziləri buna öyrəşir, amma doğrudan da budur əsas. Bilik, savad olmasa, ölkələr inkişaf edə bilməyəcək. Neftlə, qazla zəngin olan ölkələr bundan sonra da texnologiyalar alacaqlar. Xarici şirkətlər gəlib onlar üçün infrastruktur yaradacaqlar və s. Amma nə vaxtsa bu neft, qaz qurtaracaq. Ondan sonra nə olacaq?!

Biz gələcəyə, bax, bu prizmadan yanaşmalıyıq. Uzunmüddətli strategiyamızı müəyyən edirik və edəcəyik. Neftdən asılılıq tamamilə aradan götürülməlidir. Biz iqtisadi islahatlar, sahibkarlığın inkişafı, şəffaflığın hesabına buna nail oluruq və olacağıq. Gənclər cəmiyyətimizin fəal üzvləri kimi, əlbəttə ki, bütün bu işlərdə fəal rol oynamalıdırlar. Mən əminəm ki, belə də olacaq və gənclərdən fəallıq gözləyirəm. Cəmiyyəti narahat edən, incidən məsələlərin ortaya çıxmasında gənclərin də böyük rolu var. Biz çalışmalıyıq ki, bütün qüsurları aradan götürək və hər sahədə ədalət tam təmin edilsin. Çünki ədalət olmasa, inkişaf ola bilməz. Ədalət ailədə də, məişətdə də, siyasətdə də – hər sahədə olmalıdır.

Belə olan halda, ölkəmiz uzunmüddətli inkişafa nail olacaq. Mən demişəm, bizim müstəqilliyimiz əbədidir. Amma biz gərək müstəqilliyi möhkəmləndirək. O qədər müstəqil ölkə var ki, müstəqil siyasət apara bilmir. Yəni müstəqillik şərti xarakter daşıyır. Biz müstəqil siyasət aparırıq. Buna görə bir çox hallarda hədəfə çevrilirik. Bizə qarşı olan təzyiqlər, qarayaxma kampaniyalarının əsas səbəbi də odur ki, biz həmişə özümüzü ləyaqətlə aparırıq. Bütün auditoriyalarda, açıq və qapalı görüşlərdə sözümüzü deyirik, xalqımızın, dövlətimizin maraqlarını müdafiə edirik. Bəzilərinin bundan xoşu gəlmir. Ona görə müxtəlif yollarla bizə təzyiq etməyə başlayırlar. O təzyiq mexanizmləri də çox primitivdir. Burada da hesab edirəm ki, bu təzyiqləri edənlər bir balaca gərək innovasiyalara şərait yaratsınlar,

yeni bir üsul icad etsinlər. Çünki eyni, şablon ittihamlara artıq heç kim inanmır.

Amma bu bizim iradəmizə, əlbəttə ki, təsir edə bilməz. Çünki mən həmişə bu fikirdə olmuşam: əgər hesab edirsən ki, sən düzgün yoldasan, gərək bu yola davam edəsən. Əgər şübhən varsa, soruş. Əgər nəyisə bilmirsənsə, bunu etmə. Bax, budur mənim yanaşmam və bilirəm ki, biz düzgün yoldayıq. Azərbaycan reallıqları bunu göstərir. Bir çox məsələlərdə Azərbaycan başqa ölkələr üçün nümunədir və bu bizim töhfəmizdir.

Bu il Azərbaycanda Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Çox mötəbər, dünya miqyaslı beynəlxalq tədbirdir. BMT-nin himayəsi altında keçirilən tədbirdir. Nəyə görə? Ona görə ki, biz burada artıq bir neçə ildir buna oxşar tədbirləri keçirmişik. Ona görə ki, bu sahədə Azərbaycan doğrudan da dünya üçün nümunədir və bu reallıqdır. Bu, cəmiyyətimizin bugünkü statusudur. Həm dövlət siyasətidir, həm cəmiyyətin sifarişidir. Ona görə biz bütün istiqamətlər üzrə fəal işləyəcəyik. İslahatları dərinləşdirəcəyik. O ki qaldı xarici siyasət məsələlərinə, burada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi bizim əsas prioritetimizdir. Əfsuslar olsun ki, bu münaqişə öz həllini tapmır. Mən həmişə demişəm ki, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi yaranmazdı. Çünki mən özüm şəxsən yaxşı xatırlayıram ki, keçən əsrin 80-ci illərində Heydər Əliyev Dağlıq Qarabağa, Şuşaya, Xankəndiyə gedəndə onu o yerli əhali necə qarşılayırdı – həm azərbaycanlılar, həm də ermənilər. Böyük hörmətlə, böyük sevgi ilə, gurultulu alqışlarla və bu, təbii idi. Çünki mən də o səfərlərdə atamla bərabər olmuşam və görmüşəm ki, doğrudan da orada qarşıdurma üçün heç bir əsas yox idi. Xatırlayıram, Şuşa şəhərində Vaqif məqbərəsinin açılışında qarlı bir hava idi. Orada erməni və Azərbaycan şairlərinin çıxışları oldu. Erməni şairləri Azərbaycan dilində şeir söyləyirdilər. Özləri yazdıqları şeirləri söyləyirdilər. Doğrudan da heç kimin ağlına gələ bilməzdi ki, bu süni münaqişə yarana bilər. Ancaq yenə də demək istəyirəm ki, bu, xalqımıza qarsı törədilən böyük təxribat idi. Bunu erməni millətçiləri və sovet hökuməti törətdi.

İndi bu məsələni həll etmək üçün bilirsiniz ki, biz çox çalışırıq. Ancaq əfsuslar olsun ki, Ermənistan tərəfi vaxtı uzatmağa çalışır. Çox təəssüf edirəm ki, bu məsələ ilə bilavasitə məşğul olmalı olan Minsk qrupunun həmsədrləri münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar. Baxın, Avropa Şurasında son dinləmələrdə onların təxribatçı fəaliyyəti nəyə gətirib çıxartdı. Sual olunur: onlar özlərini nə sayırlar? Yəni bütün beynəlxalq təşkilatlara təzyiqmi edəcəklər? Bütün beynəlxalq təşkilatlara göstərişmi verəcəklər? İndi Avropa Şurası bu məsələni gündəliyə çıxarır. Məruzəçi təyin edilibdir. Avropa Şurası beynəlxalq təşkilatdır. Düzdür, Azərbaycan bu təşkilatla əlaqələri 15 ildir ki, qurubdur və münasibətlərdə heç də hər zaman problemsiz dövr olmayıb. Ancaq Avropa Şurası ilk dəfə olaraq 2005-ci ildə Ermənistanın işğalını pisləyən qətnamə qəbul edib. Həmin sənəddə göstərilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Əlbəttə, orada müxtəlif adamlar var. Antiazərbaycan mövqeyində adamlar var, islamofob adamlar kifayət qədər çoxdur. Ümumiyyətlə, Ermənistanla həmrəy olanlar, erməni lobbisi ilə bağlı olanlar var. Mən orada üzv olmuşam, bunu bilirəm. Ancaq bu təşkilat indi bu məsələni gündəliyə çıxarıb. Minsk qrupunun həmsədrləri onlara təzyiq edirlər ki, bu məsələyə baxılmasın. Məhz bu təxribatçı fəaliyyətə görə bizə 4 səs çatmadı ki, bu qətnamə qəbul olunsun.

Ona görə Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə hansı qiyməti vermək olar? Ancaq mənfi. Mən onların üzünə də demişəm və deyirəm. Bu gün bunu açıq deyirəm ki, ictimaiyyət də bilsin. Məsələnin həll olunmamasında onların ən böyük rolu var. Nə üçün? Çünki ikili standartlar var. Səbəb nədir? Soruşanda cavab yoxdur. O da bir taktikadır. Nə vaxt ki, sual sərf etmir, cavab vermirlər. Amma bu cavabı biz bilirik – ikili standartlar. Əlbəttə ki, burada siz də bilməlisiniz, Azərbaycan xalqı da bilməlidir. Daha doğrusu bilir, amma mən bunu deyəcəyəm. Burada din amili rol oynayır. Müsəlman olduğumuza görə bizə ikili standartlar münasibəti göstərilir. Xüsusilə indiki dövrdə ki, Avropada islamofobiya pik həddinə çatıb.

İndi o müharibədən əziyyət çəkənlər Avropaya pənah gətirirlər. Orada onlarla necə rəftar edirlər? Qəfəsə salırlar. Qəfəsin içinə ərzaq tullayırlar. Elə bil ki, onları zooparkda qəfəsə salıblar. Budurmu dəyərlər?! Haradadır mərhəmət, insan haqları, tolerantlıq? Ancaq şüar üçün. Ona görə bu, dünyada gedən real proseslərdir. Avropaya nə qədər çox miqrant üz tutursa, Avropada radikal qüvvələrin gücü də o qədər çox artır. Əgər Avropanın aparıcı ölkələrində keçirilmiş seçkilərin nəticələrinə nəzər salsanız, görərsiniz ki, 10 il ərzində radikal islamofob partiyaların faizi nə qədər artıb. Bəlkə də 2 dəfə və bu meyildir. Bu gün onlar, əlbəttə ki, siyasətdə söz sahibi deyillər. Amma bu meyildir. Bu meyil nəyə gətirib çıxaracaq? Ona gətirib çıxaracaq ki, bəlkə də 10 ildən, 15 ildən sonra onlar hakimiyyətə gələcəklər. Onda necə olacaq? Onda müsəlmanlara artıq rəsmi mövqe necə olacaq? Belə olan halda, bizim orada yerimiz varmı?

Biz dünyəvi, tolerant ölkəyik, tolerant xalqıq. Biz istəyirik ki, bütün millətlər bir yerdə olsunlar. Biz ona görə bu forumları keçiririk. Bu il «Multikulturalizm ili» elan olunmuşdur ki, sivilizasiyaları, dinləri birləşdirək. Yenə də demək istəyirəm ki, Azərbaycan nümunədir. Amma demək olar ki, biz bu dünyada təkik. Ona görə inteqrasiya məsələsi müzakirə olunanda biz bu reallığı daim nəzərə almalıyıq.

Biz Avropa İttifaqı ilə Assosiasiya Sazişini imzalamadıq. Bunun bir neçə səbəbi var idi. Birinci səbəb, ona görə ki, bizim təkidimizə baxmayaraq, o sənəddə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqe nəzərdə tutulmamışdır. Mən də dedim ki, əgər bu olmasa, biz Assosiasiya Sazişinə qol qoymayacağıq. Hesab edirdilər ki, biz burada, necə deyərlər, şantaj edirik. Amma bu bizim mövqemizdir. Belə də oldu. Başqa səbəblər də var idi. Amma əsas səbəb bu idi. Bu, ikili standartlardır. Bu dözülməzdir.

Əgər bu gün ikili standartlar dünya miqyasında, dünya siyasətində bir meyardırsa, onda onu bəyan etsinlər. Onda riyakarlığa son qoyulsun. Deməsinlər ki, biz demokratiyanın, bərabərliyin tərəfdarıyıq, bütün xalqlar bərabərdir, insan haqlarının tərəfdarıyıq. Bəs 1 milyon Azərbaycan vətəndaşının insan haqları barədə onlar heç düşünürlərmi? Yox, bu onları maraqlandırmır! Real vəziyyət bundan ibarətdir. Biz real

dünyada yaşayırıq. Bunu nəzərə almalıyıq. Öz siyasətimizdə də nəzərə alırıq. Ancaq eyni zamanda, öz sözümüzü həmişə demişik və deyəcəyik. Bu təzyiqlərin səbəblərindən biri də budur. Bu nəyi göstərir? Birincisi, onu göstərir ki, dünyada ədalət yoxdur. İkincisi, onu göstərir ki, beynəlxalq hüquq normaları dünyada kobudcasına tapdalanır. Elə bil ki, bu normalar kiçik ölkələr üçün yazılıbdır. Böyük ölkələr bunlara məhəl qoymurlar, bu normaları istədikləri kimi yozurlar. Nə vaxt sərf edir ərazi bütövlüyü, nə vaxt sərf edir öz müqəddəratını təyinetmə prinsipi və digər məsələləri də necə istəyirlər elə də yozurlar. Beynəlxalq hüququ pozan ölkələrə qarşı təzyiq mexanizmi yoxdur. Ancaq kiçik ölkələrə qarşı belə addımlar atılır. Ona görə o qədər də böyük olmayan ölkə belə vəziyyətdə nə etməlidir, ilk növbədə, öz daxili resurslarına arxalanmalıdır. İşlər elə getməlidir ki, ölkə güclənsin, insanlar daha da yaxşı yaşasınlar və təhlükəsizlik təmin edilsin. Biz təhlükəsizliyi özümüz təmin edirik. Azərbaycanda insanlar təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayırlar. Bu gün Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır.

Gənclər isə, əlbəttə ki, cəmiyyətimizin fəal üzvləri kimi, ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində mən görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq. Hətta sovet dövründə dilimizi, adət-ənənələrimizi, bayramlarımızı qorumuşuq. Yadımdadır, Moskvada oxuyanda Novruz bayramında bufetə şəkərbura, paxlava, səməni gətirəndə məni orada tənqid, tənbeh edirdilər ki, Əliyev burada dini bayramı qeyd edir. Yəni o da olub. Amma qorumuşuq və müdafiə etmişik. Baxmayaraq ki, Novruz bayramı dini bayram deyil, indiki şəraitdə biz onu qorumalıyıq. Çünki indi başqa risklər, başqa çağırışlar var – qloballaşma, digər kənar təsirlər. Bəzi xarici dairələr gənclər arasında iş aparırlar və aydındır ki, bunun məqsədi nədir. Məqsəd özləri üçün dayaq yaratmaqdır. O dayaq ki, nə vaxtsa işə salına bilər. Amma gənclər milli ruhda böyüyəndə, xarici təsirin heç bir əhəmiyyəti olmayacaq. Ona görə vətənpərvərliyi, milli dəyərləri, ənənələri qorumalıyıq və biz qoruyuruq. Əsas budur. Bugünkü Azərbaycan iqtidarı bu sahəyə çox böyük diqqət göstərir. Elə etməliyik ki, bu, davamlı olsun. Bizdən sonra hakimiyyətə

gələn nəsil də bu amalla yaşasın – dövlətçilik, milli maraqlar, azərbaycançılıq, ləyaqət və güclü dövlət.

Mən qarşıdan gələn tarix münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, siz bundan sonra da – burada əyləşənlər gəncliyin seçilmiş nümayəndələridir – ölkəmizin inkişafına xidmət edəcəksiniz, öz töhfənizi verəcəksiniz.

* * *

*Sonra Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup gəncə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomları təqdim olundu.*

**Nurəddin Mehdiyev** *(Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri):* Möhtərəm cənab Prezident, çox sağ olun. Bu təltifə görə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan gəncliyi, Azərbaycan gənclər təşkilatları, gənclər hərəkatının nümayəndələri hər zaman Sizin diqqət və qayğınızı hiss etmiş, hər zaman bu diqqət və qayğı ilə əhatə olunmuşlar. Azərbaycan gəncləri, gənclər təşkilatları bu etimada görə Sizə minnətdarlıqlarını bildirirlər. Biz çalışmışıq və əzmlə çalışacağıq ki, bu etimadı bundan sonra da doğruldaq. Hörmətli cənab Prezident, Sizə bir daha minnətdarıq.

**İlham Əliyev:** Sağ olun.

**Fərid Sadıxlı** *(«ASAN könüllüləri» Gənclər Təşkilatı İctimai Birliyinin sədri):* Möhtərəm cənab Prezident, bu gün dəyərli vaxtınızı bizə ayırdığınız üçün Sizə təşəkkür edirik. Bu gün Azərbaycanda 300-dən çox gənclər təşkilatı fəaliyyət göstərir və onlar 30-dan çox beynəlxalq platformada təmsil olunublar. Bundan savayı, diqqətinizə çatdırmaq istəyərdik ki, əksəriyyəti könüllü əsaslarla fəaliyyət göstərir. Sizin də qeyd etdiyiniz kimi, könüllülük nəcib bir fəaliyyətdir və bu gün könüllülər cəmiyyətimizin ayrılmaz bir parçasına çevrilmişlər. Könüllülük hərəkat səviyyəsindən institut səviyyəsinə qədər yüksəlibdir. Eyni zamanda, biz bunu «Bakı–2015» ilk Avropa oyunları vaxtı da müşahidə etdik. Bundan başqa, bu gün Bakı şəhərində, həmçinin bir sıra regionlarda 6000-dən çox gənci əhatə

edən «ASAN könüllüləri»ni, həmçinin «SABAH» qrupları könüllülərini də qeyd etmək istərdim.

Möhtərəm cənab Prezident, burada gənclər sektorunu təmsil etdiyimə görə icazənizlə, bir sıra təkliflərimi bildirim. İlk növbədə, Gənclər evi məsələsinə toxunmaq istərdik. Bizdə ən yüksək standartlara cavab verən Gənclər evi mövcuddur və Sizin də çıxışınızda qeyd etdiyiniz kimi, gənclər vətənpərvər, bilikli və milli ənənələr ruhunda tərbiyə olunmalıdırlar. Məhz Gənclər evi gənclərimizin məşğulluq məsələsinin həllində böyük rol oynaya bilər. Bu məsələdə də normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədəuyğun olardı. İkincisi, təhsilimizlə bağlı da bir sıra təkliflər irəli sürmək istərdik. Sizin də çıxışınızda qeyd etdiyiniz kimi, postneft erasına daxil olduq və artıq iqtisadiyyatımız daha da şaxələnəcək. Bundan başqa, bu gün əksər Azərbaycan universitetlərində fakültələr ümumi sahələri əhatə edir. Amma sırf dar ixtisaslaşmış kadrlara ehtiyac olduğundan daha dar ixtisaslaşmış fakültələrə də ehtiyac vardır. Həmçinin peşə məktəblərini də diqqətinizə çatdırmaq istərdik. Çünki vacib deyil ki, hamı ali təhsil alsın. Bundan öncə Sizin qeyd etdiyiniz kimi, regionlarda xalçaçılıq və digər sənətkarlıq növləri inkişaf etdirilməlidir. Bunun üçün peşə məktəbləri mühüm rol oynaya bilər.

Ümumiyyətlə, son illər ərzində könüllülük fəaliyyəti o səviyyəyə çatıb ki, artıq nəinki Bakını, eyni zamanda, regionları da əhatə edir. Artıq biz bir neçə qurumun məhz könüllülük fəaliyyətini əhatə etdiyini görə bilərik. Bunların hamısı Sizin siyasətinizin, diqqət və qayğınızın nəticəsidir. Həmçinin ADA Universitetinin sonuncu kurs tələbəsi olaraq, mənim kimi bir çox tələbəni maraqlandıran bir məsələyə də toxunmaq istərdim. Xaricdə təhsil proqramının perspektivləri haqqında Sizin fikirlərinizi bilmək istərdik.

Bu gün bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Bu bizim üçün həm böyük qürurverici amildir və eyni zamanda, böyük şərəfdir.

Çox sağ olun, diqqətinizə görə minnətdaram.

**İlham Əliyev:** Sağ olun, çox yaxşı. Bu təklifləri mən bəyənirəm. Hesab edirəm ki, Gənclər və İdman Nazirliyi bu təklifləri irəli sürsün. Bildiyiniz kimi, indi bütün regionlarda Gənclər evi yaradılır. Mən də regionlarda olarkən mütləq oraya baş çəkirəm, bir çox

açılışlarda da iştirak etmişəm. Əsas məsələ ondan ibarətdir ki, Gənclər evi işləsin və gəncləri cəlb etsin. Əlbəttə ki, Bakıda da Gənclər evi yaradılmalıdır. Hesab edirəm ki, bu çox müsbət addımdır.

Könüllülər hərəkatına gəldikdə, bu bizim üçün nisbətən yeni bir hərəkatdır. Amma qısa müddət ərzində geniş vüsət alıb. «ASAN xidmət»dən başlayan könüllülər sonra Avropa oyunlarında çox fəal işlədilər. Bu hərəkatın çox böyük gələcəyi var. Həm kadrların hazırlanması, eyni zamanda, cəmiyyətdə müsbət meyillərin gücləndirilməsi üçün könüllülər institutu çox mühüm funksiya daşıyır. Çünki bu, insanlara və dövlətə ürəkdən gələn, təmənnasız kömək etmək hərəkatıdır. Mən bunu belə qəbul edirəm və şadam ki, artıq Azərbaycanda könüllülər institutu formalaşıb. Hesab edirəm ki, bunun böyük gələcəyi olacaqdır.

O ki qaldı gənclərin xaricdə təhsilinə, əlbəttə, mənim buna münasibətim çox müsbətdir. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Dövlət Neft Fondundan xüsusi vəsait ayrılmışdır ki, biz gəncləri xarici ölkələrin aparıcı ali məktəblərində oxudaq.

Bildiyiniz kimi, Dövlət Neft Fondunun xətti ilə ancaq ölkəmiz üçün strateji əhəmiyyətli layihələr icra edilir. Onların içində birinci yerdə məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması layihələridir. Son illər ərzində Dövlət Neft Fondunun xətti ilə köçkünlər üçün 90-a yaxın qəsəbə tikilib. Həmçinin strateji infrastruktur layihələri, o cümlədən Taxtakörpü su anbarı, Samur–Abşeron kanalı, Bakı–Tbilisi–Qars dəmir yolu, ən müasir qazma qurğusunun inşası, «Cənub Qaz Dəhlizi»nin yaradılması – bax, bu layihələr bilavasitə Dövlət Neft Fondunun xətti ilə icra edilir. O cümlədən xaricdə tələbələrin oxuması da bu sıradadır. Yəni bu bizim üçün prioritetdir. Bu, birinci mərhələ idi və əlbəttə ki, bu mərhələ davam edəcək. Keçən il və bu il bu məqsədlər üçün təqribən 40 milyon manat vəsait nəzərdə tutulub. Ancaq, əlbəttə, mən çox istərdim, Azərbaycanda təhsilin səviyyəsi elə olsun ki, buna ehtiyac qalmasın. Ona görə xarici ali məktəblərin Azərbaycanda filiallarının açılması prosesi də başlanmışdır. Lomonosov adına Moskva Dövlət Universiteti, Seçenov adına Moskva Dövlət Tibb Universiteti, indi Fransa ilə Təhsil Nazirliyi əməkdaşlıq haqqında saziş imzalayıb və

birgə ali məktəb yaradılacaqdır. Biz çox istəyirik, dünyanın aparıcı ali məktəbləri Azərbaycanda filiallar açsınlar ki, daha xaricə getməyə ehtiyac qalmasın.

Siz peşə ixtisası üzrə çox mühüm məsələyə toxundunuz. Artıq həm Təhsil Nazirliyinə, həm İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər verilib ki, peşə təhsili Azərbaycanda geniş vüsət almalıdır. Çünki bu gün bizə daha çox mühəndis, müxtəlif peşə sahibləri lazımdır. Peşə təhsili elə qurulmalıdır ki, ümumi iqtisadi inkişafımızla uzlaşsın. Çünki biz iqtisadi inkişafımızı, o cümlədən sənaye inkişafımızı planlaşdırırıq. Əlbəttə, dövlət müəyyənləşdirir ki, hansı sahələr inkişaf edəcək və beləliklə, bizə hansı sahələrdə daha çox mütəxəssis lazım olacaq. İnsanların bir hissəsi işsizdir, amma eyni zamanda, çoxlu vakansiyalar var. Sadəcə olaraq, o vakansiyaları doldurmaq üçün bəzi insanlarda peşə qabiliyyəti çatmır. Ona görə peşə təhsilinin inkişafı gələcək illər üçün prioritet olacaqdır və yeni peşə məktəblərinin tikilməsi üçün dövlət büdcəsindən vəsait ayrılacaqdır.

**A z a d R ə h i m o v:** *(Gənclər və İdman naziri):* Cənab Prezident, Sizin tapşırığınıza əsasən Xəzər, Suraxanı, Sabunçu, Qaradağ rayonlarında Gənclər evi açılıbdır və bu il də Binəqədi rayonunda açılacaq. Bu Gənclər evində hər cür şərait yaradılıb, səslənən təkliflərə əsasən orada bu işləri aparmaq olar.

**İ l h a m Ə l i y e v**: İndi bizim neçə rayonumuzda Gənclər evi var?

**A z a d R ə h i m o v:** 31-i var, 32-cisi də olacaq.

**İ l h a m Ə l i y e v**: Çox yaxşı. Hər rayonda olmalıdır.

**M ə r y ə m M ə c i d o v a** *(«Tələbələrin İqtisadiyyat və Menecmentlik üzrə Assosiasiyası» İctimai Birliyinin sədri):* Cənab Prezident, təşkilatımız Azərbaycanda son 10 ildir fəaliyyət göstərir və əsas məqsədimiz gənclər arasında menecment və eyni zamanda, idarəetmə qabiliyyətlərinin artırılmasıdır. Biz bunu beynəlxalq mübadilələr proqramında edirik. Çünki bildiyiniz kimi, bu, beynəlxalq təşkilatdır, 67 ildir bütün dünyada fəaliyyət göstərir. 2025-ci il gənclər siyasətinin strategiyalarından biridir. Məqsədimiz beynəlxalq arenada Azərbaycanın gənc dostlarının sayının artırılması, eyni zamanda, mədəniyyətinin, tarixinin tanıdılmasıdır.

Azərbaycan son 15 ildə müxtəlif beynəlxalq qurumlara üzv olub və onlardan biri də BMT-dir. Bu təşkilat 2015-ci ilin sentyabr ayında dayanıqlı inkişaf məqsədlərini çağırış edib. Üzv ölkə kimi, fəxr edirik ki, biz 2017-ci ilin məqsədləri üzərində də çalışacağıq. Məqsədlərdən biri keyfiyyətli təhsildir. Azərbaycanda Sizin qeyd etdiyiniz kimi, təhsil sahəsində inkişaf gedir. Mənim təklifim qeyri-formal təhsil sahəsində inkişafın artırılmasıdır. Yəni məsələn, intellektual oyunların və digər bu kimi forumların Azərbaycanda keçirilməsidir. Bilirsiniz, artıq Gənclər və İdman Nazirliyi tərəfindən «Xəmsə» intellektual təşkilatı yaradılıb. Rusdilli əhalisi olan 15 ölkədə artıq bu oyunlar keçirilir. Bunlar onlayn rejimdə həyata keçirilir və bu həm büdcə, həm də Azərbaycanın tanınması baxımından bilavasitə əhəmiyyətlidir. Məsələn, gələcək illərdə sırf intellektual forumların Azərbaycanda keçirilməsinə necə baxırsınız?

**İlham Əliyev:** Çox yaxşı, çox müsbət baxıram. Mən hesab edirəm ki, bu bizim ümumi intellektual potensialımızı göstərir. İntellektual oyunların Azərbaycanda keçirilməsi və xüsusilə televiziya vasitəsilə göstərilməsi çox böyük effekt verir. Misal üçün, «Nə? Harada? Nə vaxt?», «Xəmsə», ondan sonra «Brain Ring» – onları mən indi vaxtaşırı televiziyada izləyirəm. Bundan başqa, «Parlaq zəka», «Mən azərbaycanlıyam»ı da qeyd etmək olar. Deyə bilərəm ki, bir çox kanallarda intellektual oyunlar keçirilir. Bir çox yaxşı verilişlər var. Onlar həm intellektual səviyyəni qaldırır, eyni zamanda, vətənpərvərlik hisslərini artırır. Həm oyunlarda iştirak edənlər, həm də ki, geniş auditoriya üçün ölkəmizin tarixi haqqında maraqlı məqamları təqdim edir. Hesab edirəm ki, Azərbaycanda bir çox intellektual oyunların beynəlxalq yarışları da keçirilə bilər. Mən bunu dəstəkləyirəm, siz də keçirirsiniz.

**Azad Rəhimov:** Daim olur, davamı da olacaq.

**İlham Əliyev**: Çox yaxşı.

**Elmira Məmmədova** *(«BMT-nin modeli» layihəsinin əlaqələndiricisi):* Cənab Prezident, mən də həm tarixi ekskursa görə, həm qeydlərə görə Sizə təşəkkürümü bildirirəm. Həqiqətən, bunu şəxsən Sizdən eşitmək çox maraqlı idi. İcazənizlə, beynəlxalq əməkdaşlıq haqqında qısa məlumat verim. Gənclər və İdman Nazirliyi

beynəlxalq əməkdaşlıq sahəsində müxtəlif istiqamətlərdə bir çox layihələrə imza atıb. Burada həm xarici, yəni fərqli hökumətlərlə, həm qeyri-hökumət təşkilatları ilə, həm gənclər səviyyəsində əməkdaşlıq aparılır. Maraqlı layihələrdən biri «Mən Azərbaycan haqqında nə bilirəm?» layihəsidir. «Azərbaycan gəncləri 2011–2015-ci illərdə» Dövlət Proqramı çərçivəsində keçirilən bu layihə nəticəsində Azərbaycana 40 xarici ölkədən 400-ə yaxın gənc səfər edib. Bu səfərlər əslində onlara bir hədiyyə idi. Çünki səfərdən qabaq onlar Azərbaycanın tarixi, mədəniyyəti, enerji resursları ilə bağlı müxtəlif mövzularda maraqlı araşdırmalar aparmışdılar. Sonra onlara şans verilmişdi ki, araşdırdıqları mövzuları gəlib Azərbaycanda öz gözləri ilə görsünlər.

Başqa bir maraqlı layihə «Univision» layihəsidir. Bu, Azərbaycanın «Eurovision» mahnı müsabiqəsində uğurlarının davamıdır. «Univision» mahnı müsabiqəsinin maraqlı məqamı ondan ibarətdir ki, burada məhz qeyri-peşəkarlar yarışır və onlar tələbələrdir. Yəni fərqli universitetlərdə – bu, həkimlər, mühəndislər ola bilər – onlar öz vokal istedadlarını göstərirlər. Bu da beynəlxalq layihədir və böyük əks-sədaya səbəb olub. Lakin, əlbəttə ki, bizim əsas tərəfdaşlarımızdan biri Birləşmiş Millətlər Təşkilatı və onun alt qurumlarıdır. 2014-cü ildə Bakıda gənclər siyasəti üzrə I Qlobal Forum keçirilib. Siz o forumda şəxsən çıxış etmişdiniz. Forumun ən böyük müsbət nəticəsi Gənclər Siyasəti üzrə Bakı Öhdəlikləri sənədinin qəbul edilməsi olub. Hazırda Birləşmiş Millətlər Təşkilatının Baş katibi Pan Gi Munun gənclər siyasəti üzrə son hesabatında da həmin öhdəliklər sənədi xüsusi qeyd edilib.

Bundan başqa, bizim maraqlı bir layihəmiz də var. Bu, «BMT modeli» layihəsidir. Layihə çərçivəsində gələcək diplomatlar üçün imkan yaradırıq ki, onlar diplomatiyanı yaşasınlar. Orada onlar müxtəlif ölkələri təmsil edərək – düzdür, biz hamımız azərbaycanlıyıq və öz kökümüzə bağlıyıq – bir-iki gün azərbaycanlı olduqlarını unudaraq başqa ölkənin mövqeyindən çıxış etməyi öyrənirlər. Düşünürəm ki, gələcək diplomatları yetişdirmək üçün bu, maraqlı bir təşəbbüsdür.

Son olaraq onu qeyd etmək istəyirəm ki, bizim BMT ilə əməkdaşlığımız çərçivəsində Azərbaycan hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı Baş katibinin gənclər siyasəti üzrə xüsusi elçisinin ofisi arasında Anlaşma Memorandumu imzalanıb. Bu da çox önəmli bir sənəddir. Çünki Pan Gi Mun bu ofisi yaradanda bütün ölkələrə müraciət etmiş və bu ofisə dəstək verməyə çağırmışdı. Azərbaycan Sizin təşəbbüsünüzlə bu çağırışa cavab verən ilk ölkələrdən biri olub. Bu Memorandumun nəticəsi olaraq, bir azərbaycanlı mütəxəssis BMT sistemində yer alıb və hazırda fəaliyyət göstərir. Təəssüf ki, BMT sistemində azərbaycanlı gənclər istisna haldır, baxmayaraq ki, orada «Gənc nümayəndə» və «Gənc peşəkar» kimi proqramlar var. Siz necə düşünürsünüz, Azərbaycan bu istiqamətdə hansı addımları ata bilər və gənc mütəxəssislərin, gələcək diplomatların beynəlxalq təşkilatların sistemlərinə yerləşdirilməsi üçün hansı qərarları qəbul edə bilər?

Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun, qaldırdığınız məsələlər doğrudan da çox önəmlidir. Xüsusilə toxunduğunuz bu son məsələ. Bu məsələ ilə bağlı mən artıq neçə dəfə müvafiq göstərişlər vermişəm ki, Azərbaycan nümayəndələrinin beynəlxalq təşkilatlardakı sayı çox aşağı səviyyədədir. Bu o qədər də asan proses deyil. Mənə indi bəziləri deyirlər ki, belə istedadlı mütəxəssisləri bizim bəzi dövlət qurumlarımız buraxmaq istəmirlər. İstəmirlər ki, onları itirsinlər. Mən bunu başa düşürəm. Amma Azərbaycanı dünyada daha geniş şəkildə təmsil etmək üçün eyni zamanda, kadrların təcrübə toplamaları baxımından da beynəlxalq təşkilatlarda, əlbəttə ki, bizim olmağımız çox önəmlidir. Xarici İşlər Nazirliyinə və Prezident Administrasiyasına göstəriş verilmişdir ki, biz çalışmalıyıq, gənclərimiz, xüsusilə gənc mütəxəssislərimiz bütün beynəlxalq təşkilatlarda təmsil olunsunlar, beynəlxalq məmur statusuna malik olsunlar və orada çalışsınlar. Onlar azərbaycanlıdırlar. Onlar həmişə öz dövlətinə xidmət edəcəklər, eyni zamanda, gözəl təcrübə toplayaraq Vətənə qayıtdıqdan sonra burada daha fəal işlərlə məşğul olacaqlar.

Ümumiyyətlə, bizim beynəlxalq təşkilatlarla əlaqələrimiz kifayət qədər güclüdür. Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. Onların içində, əlbəttə ki, birinci yerdə BMT dayanır. BMT-də də bizim mövqelərimiz kifayət qədər güclüdür. Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınır. Təsadüfi deyil ki, biz Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilmişik. Onu da qeyd etməliyəm ki, bu o qədər də asan olmamışdır. Çünki bizim 2 rəqibimiz var idi. Hər 2 rəqib həm Avropa İttifaqına, həm NATO-ya üzv dövlət idi. Azərbaycan Şərqi Avropa ölkələri qrupundan namizədliyini vermişdi. Birinci turdan sonra bir rəqib az səs topladığı üçün kənarda qaldı və ondan sonra 15 ya 16 raund səsvermə aparıldı. Bu da BMT tarixində nadir bir hadisə idi. Bunun da səbəbi ondan ibarət idi ki, bəzi qüvvələr, Azərbaycanı istəməyən qüvvələr çalışırdılar bizim seçilməyimizi əngəlləsinlər. Səsvermə 3 gün davam etdi. Yadımdadır, bizim Xarici İşlər nazirimiz Nyu-Yorkda idi və demək olar ki, hər saat mənə zəng edirdi. 2 rəqib – Azərbaycan ilə digər ölkə qalanda hər bir səsvermədə biz daha üstün səs toplayırdıq. Getdikcə bu fərq böyüyürdü. Ancaq müəyyən bir səviyyəyə qalxmalı idik ki, ondan sonra seçilək. Orada qaydalar belədir. Yüz neçə səs lazım idi ki, ölkəmiz seçilsin. Rəqib ölkə də öz namizədliyini geri götürmürdü. Baxmayaraq, yaxşı anlayırdılar ki, onların seçilmə şansı yoxdur. Sadəcə olaraq, onlara bəzi ölkələr təlimat vermişdilər ki, siz axıra qədər bu səsvermədə iştirak edin, biz Azərbaycanı Təhlükəsizlik Şurasına buraxmayaq. Ondan sonra bəzi ölkələr belə bir təklif irəli sürdülər ki, bir halda, bu seçkilər nəticə vermir, gəlin belə təklif irəli sürək – hər 2 ölkə öz namizədliyini geri götürsün və üçüncü bir kompromis ölkə seçilsin. Bu da bizə qarşı təxribat planlarının tərkib hissəsi idi. Əlbəttə, biz buna getmədik və mən göstəriş verdim ki, axıra qədər gedəcəyik, bu səsvermə 1 ay, 1 il çəksə də biz məqsədimizdən dönməyəcəyik. Beşinci gün idi, ondan sonra təxirə saldılar, birinci günə. İki gün ərzində müxtəlif ölkələrlə iş apardılar ki, Azərbaycanın əleyhinə səs versinlər. Amma yenə də nail ola bilmədilər və 16-cı, ya 17-ci turdan sonra Azərbaycan seçildi.

Demək istəyirəm ki, BMT doğrudan da Azərbaycana çox böyük hörmətlə yanaşır. BMT o təşkilatdır ki, beynəlxalq birlik tərəfindən

söz deyə bilər. Çünki bəzi hallarda məhdud sayda üzvü olan təşkilat özünü dünya birliyi kimi təqdim etməyə çalışır və deyirlər ki, dünya birliyinin mövqeyi belədir. Amma halbuki, o təşkilatda 20–30 üzv var. Bu, dünya birliyini necə təmsil edə bilər? Dünya birliyi BMT-dir. Azərbaycan BMT-də çox güclü mövqelərə malikdir və mən çox şadam ki, siz də BMT ilə çox sıx əlaqədə işləyirsiniz. Bu çox müsbət haldır. Çox şadam ki, artıq Azərbaycana gəlmək üçün insanlar müsabiqədən keçirlər və bu da ölkəmizin önəmini göstərir. Çalışmalıyıq ki, qonaqları, gəncləri, ümumiyyətlə, dünyada, öz ölkələrində söz sahibi olan insanları maksimum dərəcədə Azərbaycana dəvət edək.

Biz xaricdə tariximizlə, mədəniyyətimizlə, siyasətimizlə bağlı çoxsaylı təqdimat mərasimləri keçiririk. Onların, əlbəttə ki, böyük səmərəsi var. Amma biz ən böyük səmərəni xarici qonaq Azərbaycana gələndə hasil edirik. Çünki yenə də erməni lobbisi bizi qaralamaq, ləkələmək, bizə şər-böhtan atmaq üçün durmadan çalışır. Antiazərbaycan qüvvələr onlara qoşulublar. Bizim müstəqil siyasətimizi həzm edə bilməyənlər də bizi ləkələyirlər. Ona görə bəziləri hesab edə bilər ki, Azərbaycanda vəziyyət çox ağırdır. Hətta, bax, dünyada yaşanan böhranlı vəziyyətlə bağlı görün indi Azərbaycan haqqında həqiqəti əks etdirməyən nə qədər yazılar gedir. Ona görə xarici qonaqları Azərbaycana dəvət edirik. Onlar öz gözləri ilə Azərbaycan reallıqlarını görürlər. Görürlər ki, doğrudan da Azərbaycan çox inkişaf edən, mütərəqqi bir ölkədir.

Dünyada böhran yaşandığı indiki vəziyyətdə neft hasil edən ölkələr müəyyən çətinliklərlə üzləşiblər. Yenə də xarici mətbuatı izləyərkən görürəm ki, antiazərbaycan qüvvələr necə də sevinirlər və uydurmalar yayırlar. Əfsuslar olsun ki, mötəbər mətbu orqanlar da bu yalan kampaniyasına qoşulmuşlar. Xüsusilə bu yaxınlarda «Financial Times» qəzeti 2 ya 3 məqalə dərc etmişdi. Tamamilə cəfəng mövzuda olan yazılar ki, guya Azərbaycan beynəlxalq maliyyə qurumlarından yardım istəmişdir. Birincisi, bu yalandır. Biz heç kimdən yardım istəməmişik. Buna ehtiyac yoxdur. Bizim maliyyə vəziyyətimiz kifayət qədər möhkəmdir. İkincisi, bu yalan məlumatı əgər Azərbaycanın hər hansı bir müxalifət saytı yazsa idi, buna biz heç fikir

verməzdik, təəccüb etməzdik. Amma mötəbər, beynəlxalq aləmdə nüfuzlu mətbu orqan belə yalanları dərc edəndə, əlbəttə ki, sual yaranır: nə üçün? Yəni bu məsələni yoxlamaq üçün imkanınızmı olmamışdır? Yəni bu bizə qarşı növbəti bir kampaniyadır ki, göstərsinlər, Azərbaycanda hər hansı bir çətin vəziyyət yaranıbdır. Heç bir çətin vəziyyət yoxdur. Bizim maliyyə göstəricilərimiz dünya miqyasında ən yüksək səviyyədədir – istər xarici borc olsun, istər valyuta ehtiyatları, istərsə də iqtisadi inkişaf olsun.

İndi bir mövzunu da xarici mətbuat xüsusilə gündən-günə qabardır ki, Azərbaycanda kütləvi etirazlar baş veribdir. Sual olunur – bir gün əgər 100, ya 150 nəfər etiraz edibsə, bu nə dərəcədə kütləvi etiraz sayıla bilər? Ermənistanda prezident seçkilərində saxtakarlığa görə müxalifət aylarla meydanlarda idi, polis onlara zor tətbiq edirdi, su ilə, qaz ilə onları dağıdırdı. Onlar meydanda kiçik çadırlar qurmuşdular. Bir dənə də olsun xarici mətbu orqan bunu işıqlandırmamışdı. Ondan sonra Ermənistanda «Elektromaydan» hadisəsi baş verdi. Aylarla insanlar meydanları zəbt etmişdilər. Qərb mətbuatında bu barədə bir dənə də olsun məlumat getməmişdi. Yəni bunu görmürsünüzmü? Azərbaycanda bir gün 150 nəfər unun bahalaşmasına görə etiraz edəndə, bunu hər gün, necə deyərlər, çeynəyirlər və təqdim etmək istəyirlər ki, Azərbaycanda, bax, vəziyyət belədir. Bu nəyi göstərir? Yenə də bizə qarşı qərəzli mövqeni. Antiazərbaycan qüvvələr, bizim inkişafımızı istəməyən, son illər ərzində inkişafımıza paxıllıq edənlər hesab edirlər ki, bax, indi nə isə əldə edə biləcəklər. Heç bir şey əldə edə bilməyəcəklər. Azərbaycan inamla inkişaf edir. Bizim iqtisadi inkişafımız son illər ərzində dünya miqyasında ən sürətli idi. Görüləcək işlər və aparılacaq dərin islahatlar nəticəsində biz tamamilə neft amilindən asılılığı kənara qoyacağıq. Ona görə bir daha demək istəyirəm ki, sizin fəaliyyətinizi mən dəstəkləyirəm. Çalışın bundan sonra da qonaqları Azərbaycana maksimum dərəcədə dəvət edin.

**Müşfiq Həsənov** *(gənc sahibkar, Davos İqtisadi Forumunun «Global Shapers» təşkilatının üzvü):* Hörmətli cənab Prezident, mən gənc sahibkar olaraq, gənclərin məşğulluğu ilə və sahibkarlıqla bağlı fikrimi bölüşmək istərdim. Mənim fikrimcə, «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı çərçivəsində bir çox

effektiv tədbirlər keçirilib və nailiyyətlər əldə edilib. Dövlət Proqramında öz əksini tapmış vacib məqamlardan biri gənclərin məşğulluğunun təmin edilməsi idi və bu illər ərzində bir çox karyera yarmarkaları keçirilib. Bu əmək yarmarkalarında on minlərlə gənc iş yerləri tapıb. Gəncə, Bakı kimi şəhərlərdə Gənclər və İdman Nazirliyi tərəfindən dəstəklənən gənclər üçün karyera mərkəzləri qurulub. Bu mərkəzlərin hər bir ali məktəbdə yaradılması gənclərin işə düzəlmələri üçün güclü dəstək ola bilər.

Dövlət Proqramının digər çox vacib tərəfi gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsidir. 2011-ci ildə Sizinlə görüşdə gənclər tərəfindən bir ideya irəli sürülmüşdü ki, Azərbaycanda biznes inkubasiyaları yaradılsın. Bundan sonra gənc sahibkarlara dəstək daha da gücləndi. İndi Bakıda 9 biznes inkubator fəaliyyət göstərir. Məsələn, Dövlət İqtisad Universitetinin biznes inkubatoru artıq 6 biznes yetişdirib və 6 biznes yaradıb. Bizim «Youth Inc.» proqramı da «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə» Dövlət Proqramı çərçivəsində fəaliyyətə başlayıb. Bu layihə cəmiyyətin, dövlətin və şirkətlərin effektiv əməkdaşlığı sahəsində gənc sahibkarlara dəstək proqramıdır. Biz 3 il ərzində 5000-dən çox gəncə müxtəlif təlimlər keçmişik və artıq bir neçə biznes yaranıb. Bu nümunələr onu göstərir ki, Azərbaycanda biznesə başlamaq çox asandır. Dünya Bankının biznes qeydiyyatı və başlanılması üzrə dünya reytinqində Azərbaycan 189 ölkə arasında 7-ci yerdədir. Ancaq Dünya Bankının ümumi biznes fəaliyyəti üzrə ölkələr reytinqində orta sıralardayıq. Biz gənc sahibkarlarla işləyərək görürük ki, əsasən bizi geri çəkən səbəblər investisiyalara çıxış problemi və texnoloji transfer çətinliyidir. Azərbaycan gənc sahibkarlar, investorlar, innovasiya və texnologiyalar üçün regional mərkəzə çevrilə bilər və çevrilməlidir. Bu sahədə irəliləyiş üçün Azərbaycanda da əla şərait yaranıb. İlk növbədə, bu, strateji əhəmiyyət daşıyan böyük İpək yolunun bərpası layihəsidir. Bu layihə ölkəni vacib ticarət və iqtisadi mərkəzə çevirə bilər və gənc sahibkarlara bu sahədə biznes qurmaq imkanı yaradar.

Sizin bu yaxınlarda qeyd etdiyiniz və təməlini qoyduğunuz olduqca vacib digər məsələ «Made in Azerbaijan» brendinin yaranmasıdır. Məsələn, ölkəmizin kənd təsərrüfatının üstün cəhəti ondan ibarətdir ki,

Azərbaycanda geni dəyişdirilməmiş məhsullar yetişdirilir. Dünya trendi onu göstərir ki, bu, güclü rəqabət üstünlüyü yaradılmasında vacib amildir. Bizim bu baxımdan güclü rəqabət üstünlüyümüz var. Burada gənc sahibkarlara dəstək vermək lazımdır. Bu sahələrdə biznes dəstəyi üçün Sahibkarlara Kömək Milli Fondu artıq bir çox tədbirlər həyata keçirir. 2011-ci ildən 2015-ci ilədək 3341 gənc sahibkara və fermerə 197 milyon manat güzəştli kredit verilib. Lakin bundan əlavə, innovasiyaları, «startup»ları, texnoloji transferi dəstəkləmək və belə layihələri inkişaf etdirmək üçün gənc sahibkarlarla fəaliyyət göstərən və koordinasiya həyata keçirən effektiv bir alətin yaradılması, mənim fikrimcə, zəruridir. Bu istiqamətdə praktiki addımlardan biri Gənc Sahibkarlara Dəstək Fondunun yaradılması ola bilər. Bu fonda bir neçə ictimai təşkilat, biznes strukturları, investisiya fondları və ölkənin biznes inkubatorları daxil ola bilər. Fondun fəaliyyəti gənc sahibkarların innovativ layihələrinə investisiyalar ayrılması və bu investisiyaların istifadəsinə nəzarətin həyata keçirilməsi, texnoloji transferə dəstək, biznesin inkişafının qanunvericilik əsaslarının yaxşılaşdırılması istiqamətində hökumətə təkliflər verilməsi və digər işlər ola bilər.

Təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v**: Sağ olun. Mən hesab edirəm ki, qaldırdığınız məsələlər təqdirəlayiqdir, diqqətəlayiqdir. Onları təklif şəklində tərtib edin və mənə təqdim edin. Hökumətə, İqtisadiyyat Nazirliyinə müvafiq göstərişlər veriləcək.

Qaldırdığınız məsələlər doğrudan da çox vacibdir. Ölkəmizin gələcəyi sahibkarlığın inkişafından asılı olacaqdır. Xüsusilə indi geniş özəlləşdirmə proqramı nəzərdə tutulur. Dövlət ancaq strateji aktivləri öz inhisarında saxlayacaqdır. Bu ona görə lazımdır ki, dövlətin strateji aktivləri dövlətin nəzarətində olsun. Ancaq geniş özəlləşdirmə sahibkarlığın inkişafına yeni təkan verəcək.

Sahibkarlığın inkişafı üçün siz də qeyd etdiyiniz kimi, çox böyük işlər görülür. Bu günə qədər sahibkarlara güzəştli şərtlərlə 1 milyard 700 milyon manat kredit verilib. Bu il də 250 milyon manat nəzərdə tutulubdur. Bu, iqtisadiyyatın real sektoruna qoyulan birbaşa vəsaitdir, yeni iş yerləri yaradır, idxaldan asılılığı azaldır. Əlbəttə ki, bu gün ixracyönümlü məhsulların istehsalı da prioritetdir.

Biznes inkubatorlarının yaradılması prosesi də gedir. Siz qeyd etdiniz, Bakıda – 9, amma eyni zamanda, bölgələrdə də var. Şimal bölgəsində, ondan sonra göstəriş verilmişdir ki, digər bölgələrdə də olsun. Gənc sahibkarların da müəyyən struktur çərçivəsində formalaşması hesab edirəm ki, yaxşı təklifdir. Əgər gənc sahibkarları dəstəkləmək üçün xüsusi bir mexanizm lazımdırsa, onu da təklifinizdə təqdim edin. Mən bunu istisna etmirəm, biz gərək buna baxaq. Əlbəttə ki, orada gərək yaş həddi müəyyən olunsun. Gənclər daha çox yəqin ki, innovasiyalarla bağlı olan sahələrə investisiya cəlb edə bilərlər. Hesab edirəm ki, burada daha çox intellektual sahə, investisiyalar, texnologiya transferi – necə ki, siz qeyd etdiniz – mühüm rol oynayacaq. Çünki sahibkarlığın inkişafı müxtəlif istiqamətlərdən ibarətdir. Əlbəttə, biz hesab edirik ki, ilk növbədə, kənd təsərrüfatı, emal sənayesi, yüngül sənaye, ümumiyyətlə, sənayenin inkişafı daha da sürətlə getməlidir. Eyni zamanda, intellektual məhsulların istehsalı, investisiyaların cəlb edilməsi.

Nəzərə alsaq ki, dünya miqyasında böyük firmalar Azərbaycana çox böyük maraq göstərirlər, biz bundan istifadə etməliyik. Bu, Davos Forumunda mənim 10-cu iştirakım idi. Hətta Forumun rəhbəri Klaus Şvab bunun əlaməti kimi, mənə xüsusi bir nişan təqdim etdi. Yəni Forumda 10 dəfə iştirak edən artıq Forumun ailə üzvünə çevrilir. Bütün forumlarda mən həmişə çalışıram ki, Azərbaycana diqqəti daha da artırım. Bu dəfə də çoxsaylı görüşlərim olmuşdur – saat 07:30-dan başlayaraq saat 10-a qədər. İKT şirkətlərinin, böyük transmilli şirkətlərin rəhbərləri də görüşlər əsnasında Azərbaycana böyük maraq olduğunu göstərmişlər. Biz onları cəlb etməliyik. Azərbaycanda bütün istiqamətlər üzrə sahibkarlıq inkişaf etməlidir. Ona görə təklifləri təqdim edin və biz buna baxacağıq.

Mən bir məsələni də qeyd etmək istəyirəm. Bilirsiniz ki, mən Azərbaycanda istifadəyə verilən bir çox müəssisələrin açılışında şəxsən iştirak edirəm – həm Bakıda, həm bölgələrdə. Öz müşahidələrim və eyni zamanda, məndə olan məlumat onu göstərir ki, çox böyük layihələrin həm icrasında, həm də ondan sonra idarə edilməsində daha çox xarici mütəxəssislərə üstünlük verilir. Mən bunu normal qarşılayıram. Çünki Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Xarici mütəxəssislər də burada olmalıdırlar, işləməlidirlər. Ancaq hesab edirəm vaxt gəlib ki,

Azərbaycan menecerləri bu işi öz öhdələrinə götürsünlər. Bizim, demək olar ki, bütün 4-5 ulduzlu hotellərin menecerləri xarici vətəndaşlardır. Əlbəttə, bu, böyük dünya şəbəkələridir. Onların öz kadrları, öz menecment heyəti var. Onlar ölkədən-ölkəyə miqrasiya edirlər. Amma biz də elə kadr yetişdirməliyik ki, vaxt gəlsin, Azərbaycan menecerləri böyük şirkətlərin qlobal məsələlərində iştirak etsinlər.

Misal üçün, sənaye müəssisələrinin açılışlarında görürəm ki, xarici mütəxəssislərdir. Aydındır, ona görə ki, menecment daha da düzgün aparılsın. Amma biz də gərək bu sahəyə çox böyük diqqət verək və 5–10 il ərzində bu strategiyanı düzgün qursaq, artıq bizim bütün şirkətlərimizin başında Azərbaycan vətəndaşları dayanacaq, burada ümid gənclərədir. Çünki siz xarici dil bilirsiniz, müasir insanlarsınız və idarəetmədə, əlbəttə ki, daha da böyük işlər görə bilərsiniz.

**A y s u n  Z e y n a l o v a** *(«Gəncə 2016 – Avropa gənclər paytaxtı» İctimai Birliyinin beynəlxalq əlaqələr üzrə katibi):* Möhtərəm cənab Prezident, bildiyiniz kimi, 2012-ci ildə Gəncə şəhəri Azərbaycanın ilk gənclər paytaxtı seçilmişdi. Bundan sonrakı hədəf isə «2016-cı il Avropa gənclər paytaxtı» seçilmək idi. Ümumiyyətlə, «Avropa gənclər paytaxtı» titulu Avropa Gənclər Forumu tərəfindən hər il bir Avropa şəhərinə təqdim olunur. Gəncənin «Avropa gənclər paytaxtı» seçilməsi onu göstərir ki, həmin şəhərin gəncləri fəal şəkildə fəaliyyət göstərirlər və orada gənclərin istifadəsi üçün infrastruktur da mövcuddur. 2013-cü ildə Gəncə Avropanın 15 digər şəhərini geridə qoyaraq bu titula layiq görülüb.

İndi biz hazırlıqlar dövründəyik. Fevral ayından sonra «Avropa gənclər paytaxtı» ilinin açılışı mərasimi planlaşdırılır. Ümumilikdə, bu il ərzində 43 layihənin həyata keçirilməsi planlaşdırılır. Onların 25-i beynəlxalq, 18-i isə yerli layihələrdir. Fəaliyyət planı hazırda bizim gənclərimiz üçün çox önəmli mövzu olan 5 prioritet sahəyə ünvanlanıb. Bunlar məsələn, gənclərin məşğulluğu, gənclərin cəmiyyətdə fəal iştirakı, könüllülük, təhsil və sosial rifah kimi mövzulardır.

Əlbəttə ki, «Avropa gənclər paytaxtı» titulu bizim ölkəmiz üçün çox böyük bir imkandır. Düşünürük ki, bu titul Gəncə və digər region gəncləri ilə yanaşı, ümumiyyətlə, respublika gənclərinin Avropaya

yaxınlaşmasına kömək göstərəcək. Artıq bizim şəhərimiz böyük, dünya miqyaslı layihələrə ev sahibliyi etmək imkanına malik olacaq. Yüzlərlə avropalı gənc Gəncəyə səfər edəcək, Azərbaycan gənclərinin də Avropada və dünyada keçirilən beynəlxalq layihələrdə iştirakı artacaq.

Xüsusilə qeyd etmək istərdim: Gəncə ilk «Avropa gənclər paytaxtı»dır ki, Avropa İttifaqına daxil olmayan ölkəni təmsil edir. Bu, hazırda Azərbaycanda gedən uğurlu gənclər siyasətinin nəticəsidir. Bizim regionda gənclərin istifadəsi üçün mövcud olan infrastruktur buna imkan verir, şərait yaradır ki, biz artıq böyükmiqyaslı layihələrə ev sahibliyi edək və Avropada öz sözümüzü deyək. Əlbəttə ki, bu, böyük imkan olmaqla yanaşı, həmçinin böyük məsuliyyətdir. Ona görə də əlimizdən gələni edəcəyik ki, Avropanın digər şəhərləri üçün nümunəvi bir «Gənclər paytaxtı» olaq.

Bu gün bizimlə görüşdüyünüz üçün Sizə təşəkkür edirəm. Əminəm ki, bu görüş biz gənclərə regionların da inkişafına töhfəmizi verməyə bir təkan olacaq.

Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Mən çox şadam ki, Gəncə bu şərəfli ada layiq görülüb. Bu çox böyük hadisədir. Sizi, bütün Gəncə sakinlərini təbrik edirəm. Əminəm ki, Gəncə Avropaya öz inkişafını göstərəcək. Mən çox şadam ki, Gəncə tarixi simasını saxlamaq şərti ilə gözəlləşir, abadlaşır. Gəncə bizim qədim diyarımızdır, Nizami yurdudur. Şadam ki, Avropa gəncləri də Gəncə ilə daha geniş şəkildə tanış olacaqlar.

Bu bir daha ölkəmizin indiki vəziyyətini və inkişafını göstərir. Bakıda Avropa mahnı müsabiqəsi, Avropa oyunları, «Gəncə – Avropa gənclər paytaxtı» tədbirləri keçirilib və keçiriləcəkdir. Eyni zamanda, Bakı bir neçə il bundan əvvəl «İslam mədəniyyətinin paytaxtı» elan olunmuşdu. 2018-ci ildə Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» olacaqdır. Gələn il İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Doğrudan da bunlar bizim nadir vəziyyətimizi əks etdirir. Təbii ki, bunun tarixi əsasları, tarixi səbəbləri var. Ancaq burada daha çox bizim apardığımız siyasət öz rolunu oynayır. Çünki biz dünyada özümüzü müasir, dünyaya açıq, qitələrin birləşmə yeri olan ölkə kimi təqdim etmişik. Burada, əlbəttə ki, bir neçə amil öz rolunu oynayıb. Əsrlərboyu Azərbaycan xalqı öz tolerantlığı,

dözümlülüyü ilə fərqlənmişdir. Əsrlərboyu ölkəmizdə yaşayan bütün xalqlar, bütün dinlərin nümayəndələri heç vaxt ayrı-seçkiliyə, diskriminasiyaya məruz qalmamışlar. Dini, etnik zəmində heç vaxt qarşıdurma olmamışdır, yoxdur və olmayacaqdır. Həm bir neçə əsr bundan əvvəl, təbii ki, həm də sovet dövründə və postsovet dövründə. Bu bizim böyük sərvətimizdir. Xüsusilə indiki şəraitdə ki, dünyada qarşılıqlı inamsızlıq, aqressiya, mənfi münasibət artır. Müsəlman ölkəsinin Gəncə şəhərinin «Avropa gənclər paytaxtı» elan olunması çox önəmli hadisədir. Necə ki, Avropa oyunlarının Bakıda keçirilməsi təkcə idman yarışı deyil, eyni zamanda, çox ciddi bir siyasi addım idi.

Biz göstərəcəyik ki, öz milli dəyərlərimizi qoruyuruq. Bizim zəngin mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, musiqimiz var. Biz müsəlman aləminin ayrılmaz hissəsiyik, eyni zamanda, müsəlman ölkələri arasında bəlkə də Avropaya ən yaxın olan ölkəyik. Bu iki amil bir-birini inkar etmir. Biz dünyəvi dövlətik, cəmiyyətin statusu da dünyəvidir. Əhalimizin mütləq əksəriyyəti dərin milli köklər üzərində müasirlik prinsiplərinə sadiqdir. Mən hesab edirəm ki, bizim gələcək inkişaf modelimiz, yəni ideoloji inkişaf modelimiz, bax, bu əsas üzərində qurulub və inkişaf etməlidir. Biz milli köklərə bağlılıq, dünyaya açıq olmağımız, Avropa və digər qitələrlə sıx əməkdaşlıq formatında inkişaf edəcəyik.

Əminəm ki, Gəncə bu yüksək statusu şərəflə daşıyacaq və ölkəmizi daha da yüksəklərə qaldıracaqdır. Mən Gəncədə 10 dəfədən çox olmuşam. Hər il oluram və olacağam.

**F ə r h a d  H a c ı y e v** *(Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru):* Cənab Prezident, icazənizlə, Sizin tapşırığınızla yaradılmış Gənclər Fondu haqqında məlumat vermək istərdim.

Siz bu fondu yaradanda tapşırdınız ki, hər bir gəncin bu fondla əməkdaşlıq etmək imkanı olsun. Biz də tam şəffaf formada internet-resurs yaratdıq və bütün layihələr bizə yalnız internet vasitəsilə daxil olur. Bu da bir növ şəffaflığın və operativliyin həyata keçirilməsi üçün çox müsbət təkan oldu. Biz Avropada belə, tətbiq olunmayan bir təcrübəyə başladıq. Azərbaycanın hər bir gənc vətəndaşı Gənclər Fonduna müraciət edib bizdən birbaşa dövlət dəstəyi alır. Bu bir daha göstərir ki, Azərbaycan

dövləti öz vətəndaşına nə qədər inanır və onun inkişafına nə qədər investisiya qoyur.

Ümumilikdə, 5 mindən artıq layihə qəbul olunub və 2333 layihə dəstəklənib. Çox maraqlı məqamdır ki, bu yaxınlarda Ağsunun bir kəndindən bizə məktub gəlmişdi ki, biz layihə həyata keçiririk, xahiş edirik, nümayəndənizi göndərin monitorinq etsin. Artıq bölgələrdə də Gənclər Fondunun layihələri icra olunmaqdadır.

Fondun layihələri çərçivəsində 4000-dən artıq gənc müvəqqəti işlə təmin olunub: mühasib, koordinator, ekspert, təlimçi, hüquqşünas. Biz öz təcrübəmizi bu mərhələdə artıq beynəlxalq səviyyəyə keçirmişik. İstəyirik ki, Gənclər Fondu beynəlxalq təşkilatlar arasında da tanınsın. Avropa Şurasında biz Gənclər Fondunun təqdimatını edəndə onlar çox təəccüblənmişdilər ki, Azərbaycanda fərdə qrant verilir. Bu onlar üçün böyük yenilik idi.

İcazənizlə, cənab Prezident, iki təklifim də var. Burada gənclər artıq səsləndirdi, Arzu xanım bu yaxınlarda Topçubaşovun nümayəndə heyətinin Parisə səfəri haqqında «Əbədi ezamiyyət» adlı çox gözəl bir film təqdim etdi. Orada çox maraqlı bir məqam var idi. Topçubaşovun nümayəndə heyətinə Parisə getməyə viza vermirdilər və o, Bakıya, hökumətə yazır ki, ermənilər artıq 50 il bundan öncə Avropada çalışırlar və bizim oraya getməyimizi əngəlləyirlər. Amma indi artıq elə bir şərait yaranıb ki, biz ermənilərdən də öncə bir çox prosesləri həyata keçiririk. Bu da təbii ki, Sizin həyata keçirdiyiniz uğurlu siyasətin nəticəsidir. Burada Elmira artıq bu təcrübə proqramını qeyd etdi. Cənab Prezident, bu çox gözəl imkandır ki, bizim gənclər beynəlxalq təşkilatlarda təcrübə keçsinlər. Düzdür, bu bir az maliyyə vəsaiti tələb edən məsələdir. Amma biz onu yaxşı təqdim etsək, qura bilsək, Azərbaycan gənclərinin hətta xarici ölkələrin parlamentlərində təcrübə keçmək imkanı yaranar. Avropa strukturlarında, BMT-də təcrübə keçmək imkanı çoxdur. Biz Gənclər Fondu tərəfindən bunu edə bilərik.

Bir təklifim də «startup»larla bağlıdır. Bizim Gənclər Fondu sosial layihələrə dəstək verir. Əgər icazə versəniz, biz «startup»lara kiçik maliyyələr də ayırardıq ki, Müşfiqin dediyi gənclərin layihələrinə dəstək verə bilək.

Diqqətinizə görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v**: Sağ olun. Mən bunu dəstəkləyirəm. Siz təkliflər formasında təqdim edin. Biz onların hamısını həll edəcəyik. Bu doğrudan da çox önəmli bir təşəbbüsdür. Bu, imkan verir ki – sən də qeyd etdiyin kimi – fərdi qaydada qrantlar verilsin. Həm gənclər öz istedadlarını ortaya qoysunlar, eyni zamanda, əlbəttə ki, ölkəmiz üçün faydalı layihələri icra etsinlər. Mən çox istəyirəm ki, bu daha da kütləvi xarakter alsın. Əgər lazım olarsa, bu məsələni qaldırın. Biz fonda əlavə vəsait də ayırarıq.

**Z a f i q  X ə l i l o v** *(Heydər Əliyev Mərkəzinin baş mütəxəssisi, hüquq üzrə fəlsəfə doktoru):* Qeyd edim ki, mən özüm spesifik bir elm sahəsini araşdırıram – beynəlxalq hüququn hava hüququ və kosmos hüququ sahəsini. 2014-cü ildə Milli Aviasiya Akademiyasında «Beynəlxalq hava hüququnda hava azadlıqlarının nəzəri və praktiki problemləri» adlı dissertasiya işimi müdafiə etmişəm.

Siz Milli Elmlər Akademiyasının 70 illik yubileyindəki çıxışınızda, ümumiyyətlə, bütün çıxışlarınızda qeyd etmisiniz ki, Azərbaycanda kosmik sənaye inkişaf edir. Bu sahədə tədbirlərin həyata keçirilməsi təbii ki, gənc alimlərə yeni bir müstəvidə imkanlar açır. Bu baxımdan mən fikirləşirəm ki, artıq elmlər doktorluğu dissertasiyamı «Azərbaycan Respublikasında beynəlxalq kosmos hüququnun aktual problemləri və inkişaf perspektivləri» mövzusuna həsr edim.

Ümumiyyətlə, bu gün Azərbaycanda tədqiq olunmamış elm sahələri var və təbii ki, bu da aktual bir məsələdir. Elə elm sahələri var ki, o sahədə elmi dissertasiyalar, tədqiqat işləri yazılmayıbdır. Bu baxımdan da yaxşı olar ki, gələcəkdə və ümumiyyətlə, inkişaf etmiş ölkələrin təcrübəsinə istinad etməklə, magistratura və doktorantura səviyyəsində dar ixtisaslaşma modeli aparılsın. Hətta belə bir imkan yaradıla bilər ki, müxtəlif ali təhsil müəssisələrində müəyyən elm sahələrinin yarımsahələri üzrə dar ixtisaslaşma olsun və bu ixtisasların sayəsində həmin ali təhsil müəssisələrində gənclərin işlə təminat imkanı yaransın.

Mən Azərbaycanda sosiologiya və psixologiya elmlərinin inkişafi məsələsini xüsusi qeyd etmək istəyirəm. Məsələn, biz inkişaf etmiş ölkələrin təcrübəsinə əsasən görürük ki, orada müxtəlif sosioloji, yaxud da ki, psixoloji təhlillər aparılır. Bunun sayəsində həmin ölkədə uğurlu rəylər, təkliflər,

proqnozlar verilir ki, bu da müvafiq dövlət orqanlarının işinə, ümumiyyətlə, dövlətdə, cəmiyyətdə gedən proseslərə müsbət təsir göstərir.

Azərbaycanda isə bu gün biz görürük ki, sosiologiya və psixologiya elmləri sahələrində araşdırmalar, məsələn, Elmlər Akademiyasında, yaxud da ali təhsil müəssisələrində sadəcə, şöbə və ya hər hansı bir kafedra çərçivəsində aparılır və tədris prosesinə yönəldilir. Bu baxımdan Azərbaycanda bu işin vahid qurumda, mərkəzdə təşkil edilməsi yaxşı olardı. Ümumiyyətlə, bu sahədə mərkəzləşdirilmiş ayrıca elmi-tədqiqat institutunun yaradılması çox vacib, əhəmiyyətli sayıla bilər. Bu həm də Azərbaycanın inkişaf perspektivlərinə böyük bir təkan vermiş olar. Diqqətinizə görə minnətdaram. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Bu təkliflərə də baxılacaq. Əlbəttə, biz çalışmalıyıq ki, elmin bütün istiqamətləri inkişaf etsin, o cümlədən qeyd etdiyiniz sosiologiya, psixologiya sahələri. Sosiologiyanın, əlbəttə ki, çox böyük mənası və iqtisadiyyat üçün də çox böyük faydası var. Çünki bu o sahədir ki, insanların həm rəyini öyrənərkən eyni zamanda, cəmiyyətin sosioloji durumunu təhlil edərkən, düzgün tövsiyələr verə bilər. Xüsusilə indiki şəraitdə buna daha böyük ehtiyac var.

Əziz dostlar, sizə uğurlar diləyirəm. Əminəm ki, siz ölkənin inkişafında bundan sonra da öz dəyərli sözünüzü deyəcəksiniz. Bir daha təbrik edirəm. Sağ olun.

## YENİ AĞDAĞ GİPS ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*30 yanvar 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Bakının Qaradağ rayonunda «Mətanət-A» şirkətinin yeni Ağdağ gips zavodunun açılışında iştirak etmişdir.*

*Əvvəlcə İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Bakıətrafi qəsəbələr üzrə ödənilən güzəştli kreditlər barədə məlumat verdi. Qeyd edildi ki, indiyədək fondun vasitəsilə Bakıətrafi qəsəbələr üzrə 2220-dək sahibkara 430 milyon manat güzəştli kredit verilib. Bu məbləğin 286 milyon manatı yeni texnologiyalara əsaslanan 86 müəssisənin yaradılmasına ayrılıb. Bu müəssisələrin arasında transformator, elektrotexniki avadanlıqlar, qida sənayesi, tikinti materialları, neft-kimya sənayesi avadanlıqları, çörək zavodları, tikiş fabriki, logistik mərkəzlər və digər istehsal sahələri var. Bakıətrafi qəsəbələr üzrə verilmiş kreditlər hesabına 26 mindən çox yeni iş yeri yaradılıb. Qaradağ rayonu üzrə isə 100 sahibkara 78 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 3700-dən çox yeni iş yeri açılıb.*

*«Mətanət-A» şirkətinin rəhbəri Elxan Bəşirov şirkət barədə məlumat verdi. Bildirildi ki, bu şirkətin tərkibinə 5 zavod – Quru inşaat qarışıqları zavodu (illik istehsal gücü 100 min ton), Boya zavodu (5 min ton), Beton qatqıları zavodu (5 min ton), Gips hörgü bloku zavodu (250 min kvadratmetr) və Ağdağ gips zavodu (250 min ton) daxildir. Bu zavodlarda 800-dən çox iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 600 manatdır.*

*Prezident İlham Əliyevə şirkətin perspektiv layihələri barədə məlumat verildi. Şirkət tərəfindən 4 zavodun – Qaradağda illik istehsal gücü 8 milyon kvadratmetr olan gips karton-alçipan və 35 min ton olan mineral yun, Qazaxda 50 min ton olan əhəng və Balaxanıda*

*300 min ton zənginləşdirilmiş kvars qumu zavodlarının tikilməsi nəzərdə tutulur. Bu zavodların yaradılmasına ümumilikdə 105 milyon manat investisiya qoyulacaq və dövlətin güzəştli kreditlərindən də istifadə olunacaq. Zavodların yaradılması nəticəsində 1500 daimi və 500 mövsümi iş yeri açılacaq. Yeni zavodların işə başlaması Lerik, Abşeron, Qaradağ, Qobustan, Daşkəsən, Goranboy və Qazax rayonlarında yardımçı istehsal sahələrinin də yaradılmasına imkan verəcək.*

*Şirkətin 6-cı müəssisəsi olan yeni Ağdağ gips zavodu 4,4 hektar sahədə yaradılıb. Burada gips əsaslı tikinti materialları istehsal ediləcək. Müəssisədə yüksəkkeyfiyyətli məhsul əldə etmək üçün bütün şərait yaradılıb. Zavodda müasir və qabaqcıl texnologiyaların tətbiqi məhsulun maya dəyərinin aşağı düşməsinə, yüksək keyfiyyətin əldə edilməsinə və idxalın əvəz olunmasına imkan yaradır. Zavodun Goranboyda gips və Daşkəsəndə kalsid karxanaları var. Bu karxanalarda 100 nəfər çalışır. Müəssisənin illik istehsal gücü 400 min ton təşkil edir. Bu zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit verilib. Ümumilikdə isə «Mətanət-A» şirkətinə fond tərəfindən 2,5 milyon manat güzəştli kredit ayrılıb.*

*Dövlətimizin başçısı yeni Ağdağ gips zavodunda istehsal ediləcək məhsullara baxdı. Bu məhsullar müasir standartlara cavab verməklə yanaşı, həm də Azərbaycan brendi kimi, ölkəmizin iqtisadi potensialını dünyaya nümayiş etdirəcək. Müəssisədə quraşdırılan müasir avadanlıq hesabına məhsullar yüksək keyfiyyəti ilə seçiləcək. Zavodda əsasən yerli xammaldan istifadə olunacaq. Hazırlanan məhsulların daxili tələbatın ödənilməsi ilə yanaşı, 50 faizinin Rusiya, Qazaxıstan, Gürcüstan, Türkmənistan, İran və Ukraynaya ixrac olunması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev «Mətanət-A» şirkətinin digər zavodlarında istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 1000-dən çox çeşiddə məhsul buraxılır. Bu məhsullar satışa 200-dən artıq ticarət markası ilə çıxarılır. Şirkət bir neçə patentləşdirilmiş ixtiranın müəllifidir. 2000-ci ildə yaradılan bu şirkət fəaliyyətində «daha aşağı qiymətə daha keyfiyyətli məhsul əldə etmək»*

*devizini əsas meyar seçib. Şirkət məhsullarını İran və MDB ölkələrinə ixrac edir. Zavodlarda nano və smart texnologiyalar tətbiq edilir ki, bu da məhsulun yüksəkkeyfiyyətli olmasında mühüm rol oynayır. Ekoloji təmizliyi ilə də seçilən məhsullar arasında dünyanın əksər ölkələrində patentləşdirilmiş fasadda aqlay daşını yaradan quru qarışıq – FasNatural məhsulu da var. Su hopmayan bu məhsulun özəlliyi fasadın yükünü 11 dəfəyədək azaltması və şaxtaya tam davamlı olmasıdır.*

*Dövlətimizin başçısı yeni Ağdağ gips zavodunu işə saldı.*

*Sonra prezident İlham Əliyev zavodun kollektivinin üzvləri ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** Maaş da yaxşı verirsiniz?

**Elxan Bəşirov:** Orta aylıq əməkhaqqı 600 manatdır.

**İlham Əliyev:** Siz necə, razısınız?

**İşçilər:** Bəli, çox razıyıq.

**İlham Əliyev:** Bu gözəl şəraitdə işləmək insanlara zövq verir. Təbrik edirəm. Fəaliyyətinizi daha da genişləndirin. Həm şirkət, həm də ölkə iqtisadiyyatı, sənaye istehsalı inkişaf etsin.

**Fuad Bəşirov** *(şirkətin vitse-prezidenti):* Sizin uğurlu siyasətinizə yeni nailiyyətlərimizlə dəstək veririk.

**İlham Əliyev:** Şadam ki, 2016-cı ildə də belə gözəl müəssisələr açılır. İli yaxşı başlamışıq. «Mətanət-A» şirkətinin rəhbəri regional konfransda da çıxış etmiş, nailiyyətlər haqqında danışmışdı. Şadam ki, bu şirkət ölkəmizin sənaye inkişafına çox yaxşı töhfə verir. Dövlət də sizi dəstəkləyir. İqtisadiyyat Nazirliyinə göstəriş verilib ki, bundan sonra da lazımi dəstəyi versin. Təki siz daha da yaxşı işləyəsiniz, insanlar daha da yaxşı maaş alsınlar, xalqımız daha da yaxşı yaşasın. Təbrik edirəm sizi.

**İşçilər:** Çox sağ olun, Allah Sizi qorusun.

*Dövlətimizin başçısı zavodun fəaliyyəti ilə tanış oldu. Məlumat verildi ki, burada gips əsaslı suvaq, astar və üzlük yaxı materialları, inşaat və dekorativ məmulatların hazırlanması üçün gips, aralıq doldurucuları, gips blok yapışdırıcıları, gips hörgü blokları və digər məhsullar istehsal olunacaq. Burada 300 yeni iş yeri yaradılacaq. Müəssisənin istehsal prosesində ekoloji təmiz məhsul əldə etməyə və enerjiyə qənaətə xüsusi diqqət yetirilir. Bu isə öz növbəsində,*

*məhsulun* maya *dəyərini aşağı salır. Nəticədə istehlakçılara* daha *münasib qiymətlərlə* onların *tələbatına uyğun yüksəkkeyfiyyətli* gips *əsaslı məhsullar təqdim ediləcək.* Bunun *sayəsində ölkəmizin* ixrac potensialının daha da *artırılması mümkün* olacaq. Zavod *dünyanın aparıcı şirkətlərinin müasir avadanlıqları əsasında* qurulub.

*Dövlətimizin başçısının müəyyən* etdiyi *sənayeləşmə siyasətinə uyğun* olaraq, *həyata keçirilən tədbirlər nəticəsində* son *illər* yeni *inkişaf mərhələsinə qədəm* qoymuş *ölkəmizin sənayesində ənənəvi sahələr genişləndirilməklə yanaşı, digər* yeni *sənaye sahələri* yaradılıb. *Hazırda ölkədə fəaliyyət göstərən sənaye müəssisələrində müxtəlif* tikinti materialları istehsal olunur *və* bu da *Azərbaycanın* ixrac potensialını *artırır.* Prezident *İlham Əliyevin* tapşırığına *uyğun* olaraq, *güzəştli* kreditlər *hesabına* tikinti materiallarının istehsalının *ən müasir* texnologiya *və avadanlıqlar əsasında yaradılması məqsədilə İqtisadiyyat* Nazirliyinin Sahibkarlığa *Kömək* Milli Fondu *tərəfindən* son *illər ümumi dəyəri* 208,5 milyon manat olan 22 tikinti materialları *istehsalı müəssisəsinin yaradılmasına* 73 milyon manat *güzəştli* kredit *ödənilib. Artıq* 19 *müasir müəssisə fəaliyyət göstərir.*

Zavodla *tanışlıqdan* sonra prezident *İlham Əliyev* kollektivə *uğurlar arzuladı.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYTRİPALA İRİSENAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2016-cı il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ RƏSMİ SƏFƏR

*1 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Əbu-Dabi Prezident Aeroportunda dövlətimizin başçısını Əbu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyan və digər rəsmi şəxslər qarşıladılar.*

*Sonra Əbu-Dabi Prezident Aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi oldu.*

*Azərbaycan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Əbu-Dabi*

*1 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 1-də rəsmi qarşılanma mərasimindən sonra Əbu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyan ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdən əvvəl Azərbaycan nümayəndə heyətinin üzvləri Əbu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyana, Birləşmiş Ərəb Əmirliklərinin dövlət və hökumət nümayəndələri isə prezident İlham Əliyevə təqdim olundu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə səfərə dəvətə görə Əbu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyana minnətdarlığını bildirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi. Siyasi, iqtisadi, ticarət, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə edildi. Turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Prezident İlham Əliyev Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə və bu ölkədən Azərbaycana gələn turistlərin sayının artmasından məmnunluğunu ifadə etdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirə aparıldı. Dövlətimizin başçısı məlumat verdi ki, uzun illərdir Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, bunun da nəticəsində 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə*

*düşüb. Prezident İlham Əliyev bu münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğuladı.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə BMT Baş Məclisində münaqişə ilə bağlı qətnamənin qəbul edilməsində dəstəyə görə minnətdarlığını bildirdi, Azərbaycanın da öz növbəsində, BMT və digər beynəlxalq təşkilatlarda Birləşmiş Ərəb Əmirliklərinin mövqeyini dəstəklədiyini qeyd etdi.*

*Görüşdə regional təhlükəsizlik məsələləri müzakirə edildi, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı Əbu-Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyanı Azərbaycana rəsmi səfərə dəvət etdi.*

## ŞEYX ZAİD MƏSCİDİ KOMPLEKSİNİ ZİYARƏT

*Əbu-Dabi*

*1 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Əbu-Dabidə Şeyx Zaid məscidi kompleksini ziyarət etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məscid Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zaid bin Sultan əl-Nəhəyyanın təşəbbüsü ilə inşa edilib. Onun məzarı da buradadır.*

*Prezident İlham Əliyev Şeyx Zaid bin Sultan əl-Nəhəyyanın məzarını ziyarət etdi.*

*Şeyx Zaid məscidi ölkənin ən böyük məscidi hesab edilir. Cümə və bayram namazlarında buraya gələnlərin sayının 40 min nəfərə çatdığı bildirilir. Məscidin nadir elementlərindən biri də əsas ibadət otağının xalçasıdır. Bu xalça dünyanın ən böyük xalçası sayılır. Ümumi sahəsi 5627 kvadratmetr olan xalçanın çəkisi 35 tondur. Məscid kompleksinin kitabxanasında islam dininə aid bir sıra klassik nəşrlər, 200 ildən çox yaşı olan sikkələr, xəttatlıq nümunələri vardır.*

*Məscidlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.*

*Prezident İlham Əliyev məscidin Xatirə kitabına ürək sözlərini yazdı.*

## «BÜRC-XƏLİFƏ» İLƏ TANIŞLIQ

*Dubay*

*1 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Əbu-Dabidən Dubaya gəlmişdir.*

*Prezident İlham Əliyev Dubaydakı məşhur «Bürc-Xəlifə» binası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dünyanın ən böyük göydələni olan «Bürc-Xəlifə»nin tikintisi 2004–2009-cu illərdə həyata keçirilib. 2010-cu ildə binanın möhtəşəm açılışı olub. Əvvəllər «Bürc-Dubay» adlandırılan 165 mərtəbəli bu möhtəşəm tikilinin hündürlüyü 828 metrdir. Binanın 150-ci mərtəbəsindən sonrakı hissələrinin tikintisində polad konstruksiyalardan istifadə olunub. Bununla da «Bürc-Xəlifə» dünyada ilk dəfə beton kütlə üzərində polad konstruksiyalardan istifadə olunan tikili kimi tarixə düşüb.*

*Dünya memarlığının nadir incilərindən olan «Bürc-Xəlifə»nin özəllikləri bununla bitmir. Əsas diqqət tikinti zamanı küləkdən qorunmaya yönəldilib. Dünyada ən hündürə qalxan və ən sürətli liftlər də bu binada işləyir. «Bürc-Xəlifə»nin 158-ci mərtəbəsində dünyanın ən yüksəklikdə yerləşən məscidi, 76-cı mərtəbəsində ən hündür üzgüçülük hovuzu və 122-ci mərtəbəsində restoran fəaliyyət göstərir. Kompleksin daxilində hotellər, evlər, ofislər və ticarət mərkəzləri yerləşir. Binanın daxili məxsusi olaraq «Bürc-Xəlifə» üçün hazırlanmış ətirlərlə təravətləndirilir. Göydələnin şüşələri günəş şüalarının qarşısını alaraq, daxildə optimal temperatur rejiminin saxlanılmasına şərait yaradır. «Bürc-Xəlifə» öz möhtəşəmliyi ilə Dubayın yeni işgüzar hissəsinin rəmzi sayılır.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMLA GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Dubay*

*2 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Rəşid əl-Məktumla geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun Azərbaycana səfərinin uğurla keçdiyi bir daha vurğulandı.*

*Şeyx Məhəmməd bin Rəşid əl-Məktum ölkəmizə səfərini xatırlatdı. Azərbaycanda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi doğurduğunu bildirən Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi dedi ki, «Sizin gözəl ölkəniz, gözəl insanlarınız var. Azərbaycana səfərim zamanı mən bunun şahidi oldum». O, Azərbaycanda ilk Avropa oyunlarının yüksək səviyyədə keçirildiyini bir daha vurğuladı.*

*Prezident İlham Əliyev xoş sözlərə görə Şeyx Məhəmməd bin Rəşid əl-Məktuma minnətdarlığını bildirdi. Azərbaycanın beynəlxalq tədbirlərin təşkil olunduğu bir məkana çevrildiyini söyləyən dövlətimizin başçısı gələn il ölkəmizdə keçiriləcək İslam Həmrəyliyi oyunlarının da beynəlxalq əməkdaşlıq işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin, o cümlədən Dubayın iqtisadi inkişafı ilə əlaqədar təbriklərini çatdırdı və indiki səfəri zamanı bu ölkədə böyük uğurların şahidi olduğunu bildirdi.*

Dünyada yaşanan iqtisadi böhrana və neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə toxunan Şeyx Məhəmməd bin Rəşid əl-Məktum bununla bağlı ölkəsində həyata keçirilən məsələlərdən danışdı.

Prezident İlham Əliyev dünyada baş verən bu proseslərlə əlaqədar Azərbaycanda da genişmiqyaslı tədbirlərin həyata keçirildiyini diqqətə çatdıraraq bildirdi ki, hazırda ölkəmizdə yeni iqtisadi modelin müəyyənləşdirilməsi üzərində əsaslı iş aparılır və bu model iqtisadiyyatın geniş sahələrini əhatə edəcək. Hökumətlərarası birgə İqtisadi Komissiyanın fəaliyyətinə toxunan dövlətimizin başçısı bu Komissiyanın qarşılıqlı fəaliyyəti əsasında əməkdaşlığımızın daha da genişləndirilməsi, o cümlədən investisiya qoyuluşu sahəsində işlərin həyata keçirilməsindən razılığını ifadə etdi. Turizm sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu deyən prezident İlham Əliyev turizmin inkişafını Azərbaycanın prioritet sahəsi kimi səciyyələndirdi, ölkəmizin regionlarında yüksək standartlara cavab verən aeroportların, turizm infrastrukturunun yaranmasının Azərbaycana turist axınının genişlənməsinə əlverişli şərait yaratdığını bildirdi.

Şeyx Məhəmməd bin Rəşid əl-Məktum Azərbaycanın kənd təsərrüfatı məhsullarının yüksək keyfiyyətə malik olduğunu dedi və ölkəmizin meyvətərəvəz məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə ixracının artırılmasının önəmini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın infrastruktur, su təchizatı layihələrində, inşa olunan dəniz limanının və azad ticarət zonasının yaradılması işində, eləcə də investisiya qoyuluşunda Birləşmiş Ərəb Əmirlikləri şirkətlərinin iştirak etməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Görüşdə xalqlarımız arasında dostluq əlaqələrinin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyi vurğulandı. Söhbət zamanı istehsal, sənaye, logistika, hava nəqliyyatı sahələrində əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Dubay*

*2 fevral 2016-cı il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra fevralın 2-də Dubayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hakimi Şeyx Məhəmməd bin Rəşid əl-Məktumun iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair Saziş»i və «Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Telekommunikasiya Sektorunun Tənzimlənməsi üzrə Baş Departamenti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan tərəfindən İqtisadiyyat naziri Şahin Mustafayev, Birləşmiş Ərəb Əmirlikləri tərəfindən Nazirlər Kabinetinin işləri üzrə Dövlət naziri Məhəmməd Abdulla əl-Qirqavi imzaladılar.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri fevralın 2-də başa çatmışdır.*

*Dubay Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Birləşmiş Ərəb Əmirliklərinin yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

## AKADEMİK CƏLAL ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*2 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də görkəmli alim, tanınmış ictimai xadim akademik Cəlal Əliyevin məzarını ziyarət etmişdir.*

*Sonra dövlətimizin başçısı Heydər məscidinə gəldi.*

*Prezident İlham Əliyev görkəmli alim, akademik Cəlal Əliyevin hüzr mərasimində iştirak etdi.*

*Mərasimdə mərhumun ruhuna Quran ayəsi oxundu.*

## YUNANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ NİKOS KOTZİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Yunanıstan Respublikasının Xarici İşlər naziri Nikos Kotziasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Yunanıstanın Xarici İşlər naziri Nikos Kotziasın Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini bildirdi. Azərbaycan ilə Yunanıstan arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı səfər zamanı əməkdaşlığımızın bir çox sahələrdə daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirə ediləcəyini bildirdi. Yunanıstanın iki prezidentinin Azərbaycana rəsmi səfərə gəldiklərini, özünün də 2 dəfə Yunanıstanda rəsmi səfərdə olduğunu xatırladan prezident İlham Əliyev bunu əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd etdi.*

*Ölkələrimizin qədim tarixə və özünəməxsus mədəniyyətə malik olduqlarını qeyd edən Yunanıstanın Xarici İşlər naziri Nikos Kotzias xalqlarımızın bir çox ümumi dəyərlərə sahib olduğunu və əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün bu potensialdan səmərəli surətdə istifadə etməyin vacibliyini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BMT BAŞ KATİBİNİN MÜAVİNİ ŞAMŞAD AXTAR İLƏ GÖRÜŞ

*2 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT Baş katibinin müavini və BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibi xanım Şamşad Axtarı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə BMT arasında əlaqələrin inkişafından məmnunluq ifadə edildi, xanım Şamşad Axtarın ölkəmizə bu səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu. Söhbət zamanı regional əməkdaşlığın genişləndirilməsinin önəmi vurğulandı, dünyada mövcud olan maliyyə böhranı şəraitində iqtisadiyyatın şaxələndirilməsinin əhəmiyyətindən danışıldı, Azərbaycanda bu istiqamətdə işlərin uğurla həyata keçirildiyi bildirildi.*

*Görüşdə Azərbaycan–BMT əməkdaşlığının perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA SƏFƏR

*London*

*3 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda keçirilən «Suriyaya və regiona dəstək» konfransında iştirak etmək üçün fevralın 3-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına səfərə gəlmişdir.*

## «SURİYAYA VƏ REGİONA DƏSTƏK» KONFRANSINDA İŞTİRAK

*London*

*4 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də BMT-nin Baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda keçirilən «Suriyaya və regiona dəstək» konfransında iştirak etmişdir.*

*Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və Birləşmiş Millətlər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransda Suriyaya təcili və uzunmüddətli yardımın təmin edilməsi, regionda humanitar və təhsil layihələrinin reallaşdırılması, böhrandan əziyyət çəkən qaçqınların sosial problemlərinin həll olunması, onları qəbul edən ölkələrə dəstək göstərilməsi məsələləri müzakirə edildi.*

*Dövlətimizin başçısı konfrans çərçivəsində keçirilən «Təhsil» mövzusunda sessiyada çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Zati-aliləri, xanımlar və cənablar!

Biz Suriya qaçqınlarının halına çox acıyırıq. Müstəqillik illərində – keçən əsrin 90-cı illərinin əvvəllərində qonşu Ermənistan Azərbaycana qarşı təcavüz edəndə Azərbaycan özü humanitar fəlakət və böhrandan əziyyət çəkib. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunub. Biz etnik təmizləməyə məruz qaldıq. 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Bu həqiqətən də humanitar fəlakət idi. O zaman ölkəmiz çox gənc və kasıb idi. Həmin vaxt adambaşına düşən qaçqın sayına görə ən yüksək göstərici olan 8 milyon əhalidən 1 milyonu evsiz və işsiz qalaraq, yaşayış imkanlarından məhrum olmuşdu. Biz beynəlxalq humanitar təşkilatlara, xüsusilə tariximizin çətin məqamında bizə dəstək olan BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına minnətdarıq.

Bu gün Azərbaycan özü donor ölkədir. Biz, Suriya qaçqınları da daxil olmaqla, maliyyə yardımını təmin edirik. 1994-cü ildə Azərbaycan ilə Ermənistan arasında atəşkəs rejimi müəyyən edilmişdir. Əfsuslar ki, o vaxtdan bəri danışıqlar masası ətrafında bu münaqişənin həlli ilə bağlı ciddi irəliləyişə nail olunmamışdır. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul etməsinə baxmayaraq, 20 ildən artıqdır ki, Ermənistan tərəfindən bu qətnamələrə məhəl qoyulmur.

Lakin 1994-cü ildə atəşkəs razılığının əldə olunması bizə inkişaf etmək imkanını verdi. O vaxtdan bəri Azərbaycanın inkişafı çox sürətli olub. Biz, demək olar ki, 250 min qaçqını lazımi ev şəraiti ilə təmin edə bildik. Bizdə qaçqınlar da daxil olmaqla, 100 faiz savadlılıq səviyyəsi var. 10 il bundan əvvəl qaçqınların təxminən 70 faizi yoxsulluq şəraitində yaşayırdı. İndi isə qaçqınlar arasında yoxsulluq səviyyəsi yalnız 12 faiz təşkil edir. Ümumilikdə, işsizlik və yoxsulluq 5 faizdir. Mən bu göstəriciləri nəyə görə sizin diqqətinizə çatdırıram?! Çünki ölkə yalnız sabitlik və sülh şəraitində inkişaf edə və böyük çətinliklərin öhdəsindən gələ bilər.

Bu gün biz bir çox çıxışları və yardım çağırışlarını dinlədik. Azərbaycan Suriyada humanitar inkişafa artıq töhfə vermiş və verəcək ölkələr sırasındadır. Lakin ən əsası sülh, atəşkəs, siyasi həllin tapılmasıdır. Yalnız bundan sonra iş yerləri açılacaq, təhsil istənilən səviyyədə olacaq və insanlar öz gələcəklərinə inanmağa başlayacaqlar. Biz bu böyük iqtisadi və sosial çətinliklərdən əziyyət çəkmiş bir ölkə kimi, buna necə nail olmağın yolunu bilirik. Biz iş yerlərinin yaradılmasında təcrübəmizi paylaşa bilərik. Son onillikdə Azərbaycanda 1,5 milyon iş yeri yaradılıb. Biz təhsil sahəsindəki təcrübəmizi paylaşa bilərik. Ölkəmizdə 3 mindən çox məktəb inşa edilib və dediyim kimi, Azərbaycanda 100 faizlik savadlılıq səviyyəsinə nail olunub.

Humanitar böhranın idarə olunması üzrə təcrübəmizi də paylaşa bilərik və biz bunu edəcəyik.

Lakin ən önəmlisi sülhdür. Buna görə də Suriya böhranı üzrə siyasi həllin mümkün qədər tez tapılması bizim gündəliyimizdə duran bir nömrəli məsələdir. Əminəm ki, bu gün apardığımız müzakirələr həmin siyasi həllin tapılmasında öz vacib rolunu oynayacaqdır. Bu gün Azərbaycan əsaslı maliyyə və iqtisadi potensialı olan bir ölkə kimi, buna sülh deyil, yalnız atəşkəs şəraitində nail ola bilmişdir.

Əlbəttə ki, biz Suriyadakı bacı və qardaşlarımıza dəstək olmaqda davam edəcəyik. Biz Suriya qaçqınlarını qəbul etmək üçün üzərinə belə böyük bir yükü götürən ölkələrə minnətdarıq. Bir daha qeyd etmək istəyirəm, biz buraya sülhü və bu cür dəyərləri təşviq etmək üçün gəlmişik. Bu baxımdan Azərbaycan öz vacib rolunu oynamağa davam edəcəkdir. Çox sağ olun.

## XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*London*

*4 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Londonda «Suriyaya və regiona dəstək» konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi. İqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində, enerji, nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində qarşılıqlı maraq ifadə olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev böyük İpək yolu və «Cənub Qaz Dəhlizi» layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı.*

*Söhbət zamanı birgə layihələrin reallaşdırılması ilə bağlı qarşılıqlı razılığın əldə edilməsinə dair fikir mübadiləsi aparıldı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabının Qələbəsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Əminəm ki, tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsinə uyğun olaraq qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz, ikitərəfli, regional və beynəlxalq çərçivədə əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş İran xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2016-cı il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMİSLAV NİKOLİÇƏ**

Hörmətli cənab Prezident!

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Serbiya arasında qarşılıqlı etimada və dəstəyə əsaslanan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2016-cı il*

**LİTVA RESPUBLİKASININ
PREZİDENTİ
XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Litva Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin, siyasi, iqtisadi və mədəni əlaqələrimizin, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Litva xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 fevral 2016-cı il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 53-cü Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün fevralın 12-də Almaniya Federativ Respublikasına işgüzar səfərə gəlmişlər.*

*Münhen Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rəsmi şəxslər qarşıladılar.*

## ABŞ MÜDAFİƏ KATİBİNİN KƏŞFİYYAT ÜZRƏ MÜAVİNİ MARSEL LETTRE İLƏ GÖRÜŞ

*Münhen*

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münhendə ABŞ Müdafiə katibinin kəşfiyyat üzrə müavini Marsel Lettre ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi. Münasibətlərimizin bir sıra sahələrdə tərəfdaşlıq səviyyəsində olduğu vurğulandı. Terrorizmlə mübarizə sahəsində əməkdaşlıq baxımından yaxşı perspektivlərin olduğu qeyd edildi.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## ALMANİYA İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ VOLFQANQ BÜXELE İLƏ GÖRÜŞ

*Münhen*

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münhendə Almaniya İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxele ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli iqtisadi əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Ölkəmizdə sərmayə qoyuluşu baxımından münbit şəraitin olduğu bildirildi.*

*Söhbət zamanı Azərbaycanın və Almaniyanın iş adamları arasında qarşılıqlı biznes səfərlərinin təşkilinin əhəmiyyəti vurğulandı, əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## «GOETZPARTNERS» ŞİRKƏTİNİN SAHİBİ VƏ İCRAÇI DİREKTORU STEFAN QÖTZ İLƏ GÖRÜŞ

*Münhen*

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münhendə «Goetzpartners» şirkətinin sahibi və icraçı direktoru Stefan Qötz ilə görüşmüşdür.*

*Almaniyada 10 ən böyük konsaltinq şirkətindən biri olan və 9 ölkədə 12 ofisi yerləşən «Goetzpartners» şirkətinin icraçı direktoru Azərbaycanda fəaliyyət göstərməkdə maraqlı olduqlarını bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanda xarici şirkətlər üçün əlverişli sərmayə mühitinin olduğunu, onların uğurlu fəaliyyətinə hər cür şəraitin yaradıldığını söylədi. Prezident İlham Əliyev «Goetzpartners» şirkətini Azərbaycanda fəaliyyətə dəvət etdi.*

*Stefan Qötz dəvətə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

# TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR «DƏYİRMİ MASA»DA İŞTİRAK

*Münhen*

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində «Neftin qiymətinin aşağı düşməsi geosiyasi məsələləri üzrə enerji təhlükəsizliyi» mövzusunda «dəyirmi masa»da iştirak etmişdir.*

*«Dəyirmi masa»nın aparıcısı, «The New York Times» qəzetinin baş müxbiri Deyvid Sanger tədbirdə neftin qiymətinin səviyyəsi və bunun istehsalçı ölkələrə nə dərəcədə təsir etməsi ilə bağlı müzakirələrin aparılacağını bildirdi. O qeyd etdi ki, tədbirdə Azərbaycan prezidenti İlham Əliyev və müxtəlif ölkələrdən olan qonaqlar iştirak edirlər. Onlar neft bazarında indiki vəziyyət və perspektivlərlə bağlı öz mövqelərini bildirəcəklər.*

*Sonra tədbirin aparıcısı prezident İlham Əliyevə sualla müraciət etdi.*

**S u a l: Sizin regionun iqtisadiyyatı neftdən əhəmiyyətli dərəcədə asılıdır. Son 10–15 il ərzində Rusiyadan başlayaraq, digər ölkələr də nəzərə alınmaqla, bütün regionun iqtisadiyyatının şaxələndirilməsi ilə bağlı bir neçə çağırış edilmişdir. Sualım ondan ibarətdir ki, əgər neftin qiyməti bu səviyyədə müəyyən müddət ərzində qalarsa, Sizcə, bunun siyasi təsirləri nədən ibarət olacaq?**

**İ l h a m Ə l i y e v**: Çox sağ olun, siz tamamilə doğru buyurursunuz. Regionumuzun ölkələri neft istehsalçılarıdır. Azərbaycana gəlincə, müstəqil ölkə kimi, bizim üçün neft sektorunun inkişafı və neft-qaz sahəsinə sərmayənin yatırılması müstəqilliyimizin ilk illərində çox böyük əhəmiyyət daşıyırdı. Çünki Azərbaycan müstəqilliyini əldə etdiyi vaxt iqtisadiyyatımız, demək olar ki,

durğunluq, iqtisadi və maliyyə böhranı səbəbindən tamamilə məhv edilmişdi. Buna görə də Azərbaycanın neft və qaz sektoruna əsas neft şirkətlərinin sərmayə yatırmağa dəvət edilməsi bizim üçün təkcə investisiyaların cəlb olunması mənasını daşımırdı. Bizim üçün bu, müstəqilliyimizin gücləndirilməsi və ölkəmizin müvəffəqiyyət qazanması yollarının tapılması mənasını daşıyırdı. O vaxtdan bəri 20 il ötüb və biz nəinki neft-qaz sahəsinə böyük investisiyaları cəlb etməyi və önəmli neft və tezliklə təbii qaz istehsalçısına və ixracatçısına çevrilməyi bacardıq, eyni zamanda, neft-qaz sahəsindən əldə etdiyimiz gəlirləri əsasən qeyri-neft sektoruna, xüsusilə infrastruktura yatıra bildik. Buna görə də bizim neft amilindən asılılığımız ötən 5–10 il ərzində əhəmiyyətli dərəcədə azalmışdır. Neft ümumi daxili məhsulumuzun yalnız 30 faizini təşkil edir. Biz eyni mənzərəni ixrac əməliyyatlarımızda görmək istəyirik. Hələ ki, buna nail ola bilməmişik. İxracımızın 90 faizini neft və qaz təşkil edir. Buna görə növbəti illər üçün vəzifə ixrac potensialımızı şaxələndirməkdir və bu məqamda biz, əlbəttə ki, iqtisadi islahatların davam etdirilməsi, özəl sektor üçün daha da yaxşı şəraitin yaradılması, daha çox investisiyaların cəlb edilməsi və irimiqyaslı özəlləşdirmə proqramına başlanılması zərurətinə gəlirik. Bütün bu elementlər dövlət siyasətimiz kimi, artıq bəyan olunub və mən əminəm ki, biz uğur qazanacağıq. Sizin danışdığınız siyasi risklərə gəlincə isə bu, ölkələrdən asılı olan məsələdir. Hər bir ölkənin özünəməxsus siyasi vəziyyəti və çətinlikləri var. Əlbəttə ki, iqtisadi vəziyyət və insanların gündəlik həyatı siyasi sabitlik və inkişafa təsir edir. Lakin hesab edirəm ki, neftin qiymətinin mütəmadi olaraq dəyişkən xarakter daşımasının dərk edilməsi ən vacib məqamdır. Biz neftin qiymətinin yüksək olduğu dövrdə yaşamışıq, indi isə neftin qiymətinin aşağı olduğu bir dövrdə yaşayırıq. Bizim üçün ən əhəmiyyətlisi isə neftin qiyməti yenidən yuxarı qalxdıqda, bu islahatları davam etdirmək və bacardığımız qədər neft və qazdan asılılığımızı azaltmaqdır.

**D e y v i d  S a n g e r: Özəlləşdirmə proqramına doğru irəlilədiyiniz bir dövrdə belə bir addımın neftin 30 dollarla müqayisədə 100 dollara satılması zamanı atılması daha asan və cəlbedici deyildimi? Xahiş edirəm, bizə bunun investisiya**

**maraqlarına təsir edib-etmədiyini və digər islahatları ləngidib-ləngitmədiyini söyləyin.**

**İ l h a m Ə l i y e v:** Əslində neftin qiyməti yüksək olduqda hökumət, əlbəttə ki, iqtisadiyyatın ən önəmli və cəlbedici sektorlarını öz əlində saxlamaq üçün əlindən gələni edəcək. Lakin neftin qiyməti 30 dollar olduqda, hökumət genişmiqyaslı özəlləşdirmə proqramına başlamağa daha çox hazırdır. Buna görə də düşünürəm ki, xarici investorlar üçün neftin bugünkü qiyməti ilə bağlı olan vəziyyət ən cəlbedicidir. Çünki bu gün aktivlərimizin özəlləşdirilməsi investorlardan daha çox bizim özümüzə lazımdır. Biz bu sahədə bir balans tapmalıyıq ki, hökumət və investorlar da öz payını ala bilsin. Burada biz vacib olan iqtisadi islahatlara, biznes mühitinin yaxşılaşdırılmasına, özəlləşdirmə yolunun davam etdirilməsinə və neftdən asılılığın azalması məsələsinə gəlirik.

Səmimi desəm, biz indi yaşadığımız vəziyyəti neft hasilatının azalmağa başladığı bir dövrdə – ola bilsin, 15–20 il bundan sonra proqnozlaşdırmağa çalışırdıq. Biz bu dövrə hazır deyildik. Əslində biz postneft dövrünə 2030-cu ildən sonra hazırlaşmağı planlaşdırırdıq. Lakin bu yaxınlarda Nazirlər Kabinetinin iclasında söylədiyim kimi, neftdən sonrakı dövr artıq bizim üçün başlanmışdır və bu, gözlənilməz idi. Səmimi söyləsəm, neftin qiymətinin 4 dəfə aşağı düşəcəyini heç kim təsəvvürünə gətirə bilməzdi. Biz hazır deyildik, heç kim hazır deyildi. Ona görə çox qısa vaxt çərçivəsində biz büdcənin necə tarazlaşdırılması, sosial proqramların necə davam etdirilməsi və hansı investisiya layihələrinə maliyyələşdirmənin dayandırılması yolunu tapmalı idik. Bu, asan deyildi. Çünki biz 100 dollardan baha olan qiymətə öyrəşmişdik. Əlbəttə ki, bizim uzun illər üçün nəzərdə tutulmuş inkişaf planımız var idi. Bizim daha yüksək neft qiymətinə əsaslanan «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyamız var idi. İndi isə neftin qiyməti aşağıdır.

Beləliklə, bu, real bir çağırış idi. Lakin yenə də qeyd etmək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi və infrastruktura sərmayə qoyuluşu siyasəti sayəsində, hesab edirəm ki, bu vəziyyətdən minimum itkilərlə çıxmağı bacardıq.

## «KASPERSKY LAB» ŞİRKƏTİNİN SAHİBİ VƏ İCRAÇI DİREKTORU YEVGENİ KASPERSKİ İLƏ GÖRÜŞ

*Münhen*

*12 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Münhendə «Kaspersky Lab» şirkətinin sahibi və icraçı direktoru Yevgeni Kasperski ilə görüşmüşdür.*

*Görüşdə «Kaspersky Lab» şirkətinin Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlığından məmnunluq ifadə olundu. Əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu qeyd edildi. Kibercinayətkarlığa qarşı mübarizə sahəsində və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

# AVROPA İTTİFAQININ KOMİSSARI YOHANNES HAHN İLƏ GÖRÜŞ

*Münhen*

*13 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münhendə Avropa İttifaqının Avropa qonşuluq siyasəti və genişlənmə məsələləri üzrə komissarı Yohannes Hahn ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrin intensivliyi baxımından görüşlərin və qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi, səylərin bu istiqamətə yönəldilməsinin vacibliyi vurğulandı və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*Münhen*

*13 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münhendə Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Frank-Valter Ştaynmayer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli əlaqələrin uğurla inkişafından məmnunluq ifadə edildi. Münasibətlərimizin daha da inkişaf etdirilməsi baxımından belə görüşlərin və səfərlərin əhəmiyyəti qeyd olundu. Beynəlxalq böhranın davam etdiyi və neftin qiymətinin aşağı düşdüyü bir dövrdə Azərbaycanda iqtisadi inkişafın, xüsusilə də qeyri-neft sektorunun daha da inkişafına diqqət yetirilməsinin, sosial proqramların icrasının təmin olunmasının əhəmiyyəti vurğulandı.*

*Almaniyanın bu ildən ATƏT-ə sədrliyi dövründə Azərbaycan ilə bu təşkilat arasında əməkdaşlıq məsələlərinin müzakirə olunduğu görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair hazırkı vəziyyətlə bağlı fikir mübadiləsi aparıldı.*

## MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ İQLİM VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MÖVZUSUNDA PANEL-MÜZAKİRƏDƏ İŞTİRAK

*Münhen*

*13 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində «İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?» mövzusunda keçirilən panel-müzakirədə iştirak etmişdir.*

*Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da iştirak etmişlər.*

*Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirin mövzusunun dünyada iqlim və enerji təhlükəsizliyinə həsr olunduğunu dedi. Daha sonra o bu tədbirdə Azərbaycan prezidenti İlham Əliyevin, bir çox mötəbər qonaqların iştirak etdiyini bildirdi və sözü dövlətimizin başçısına verdi.*

**M e l i n d a K r e y n: Cənab Prezident, sualıma Sizdən başlamaq istəyirəm. Azərbaycanda səhralaşma, daşqınlar, quraqlıq müşahidə edilir. Uzun müddətdir sərhədyanı münaqişəniz olan Ermənistan ilə əhəmiyyətli su resurslarını paylaşırsınız. Sizcə, iqlim təzyiqi Qafqazda geosiyasi gərginlikləri daha da kəskinləşdirəcəkmi?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, bu hamımızın üzləşdiyi bir təhlükədir. Azərbaycana gəlincə, müstəqilliyimizin son 25 ilində atmosferə qaz tullantılarını azalda bilmişik. 1990-cı ildə tullantılar 70 milyon tondan çox təşkil edirdi, indi isə təqribən 50 milyon tondan çoxdur və bu, iqtisadiyyatımızın həmin müddətdə kəskin şəkildə artmasına baxmayaraq baş verirdi.

Lakin çağırışlar və təhlükələr mövcuddur. Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini

qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir. Sizin də qeyd etdiyiniz kimi, biz 20 ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkirik. Ərazilərimizin 20 faizi işğal altındadır. İnsanların əziyyət çəkməsindən savayı, təbiətimiz də əziyyət çəkir. Çünki hər hansı beynəlxalq nəzarət altında olmayan bu ərazilərdə çoxlu qeyri-qanuni fəaliyyətlər, xüsusilə meşələrin qırılması baş verir. Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir.

Biz hər il milyonlarla ağac əkirik. Biz qazlaşdırma siyasətini davam etdiririk. Bu gün elektrik enerjisinin generasiyası üçün əsasən sudan və qazdan istifadə edirik. Baxmayaraq ki, Azərbaycanın Kioto protokoluna əsasən heç bir öhdəliyi yoxdur, bu bizim bu işə töhfəmizdir. Biz bu məsələyə çox sadiqiq və müstəqillik illərində fəaliyyətimiz də bu prosesdə etibarlı tərəfdaş olduğumuzu nümayiş etdirir.

**M e l i n d a K r e y n: Sualımı qısaca davam etdirmək istəyirəm. Vacib sayılan Kür–Araz hövzəsində su çatışmazlığı perspektivi ilə üzləşmə Azərbaycanı Ermənistan ilə bu resursların müştərək paylaşmasının idarə olunmasında daha da sıx əməkdaşlığa vadar edirmi?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, biz işğalı davam etdirən ölkə ilə daha da böyük anlaşmaya malik olmaq istəyirik. Sizə deyə bilərəm ki, bu yaxınlarda –yanvar ayında Avropa Şurasının Parlament Assambleyası qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul etmişdir. Parlament Assambleyasında əksəriyyət tərəfindən qəbul edilmiş bu qətnamədə əziyyət çəkən insanlara iztirab verməyə son qoymağa çağırış edilir. Əfsuslar ki, onlar Dağlıq Qarabağ Azərbaycanın hələ de-fakto hissəsi olanda tikilmiş su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edirlər.

Əlbəttə ki, Kür və Araz çaylarından götürülən su bizim üçün çox vacibdir. Biz dağlarımızdan Bakı şəhərinə su nəql edən boru kəməri

tikmişik və regiondan nisbətən az asılıyıq. Lakin yenə də bu bizim üçün ciddi problemdir. Bizim Xəzər dənizi kimi böyük su hövzəmiz var. Biz dəniz suyunun irriqasiya məqsədləri və sonradan içməli su kimi istifadə edilməsi üçün onun duzsuzlaşdırılması prosesinə başlamışıq.

**M e l i n d a K r e y n: Cənab Prezident, Paris razılaşmasında qeyd edildiyi kimi, Sizin üzərinizə götürdüyünüz iqlim öhdəliklərində enerji sektorunun müasirləşdirilməsi üçün bir neçə amil var. Əgər ölkəniz Paris razılaşmasının öhdəliklərini həqiqətən də ciddi qəbul edirsə, onda enerji əsaslı iqtisadiyyatı şaxələndirmək üçün hazırda etdiyinizdən daha da çox səylər göstərilməməlidirmi? Zənnimcə, enerji ölkənizin gəlirinin 70 faizini təşkil edir.**

**İ l h a m Ə l i y e v:** Biz bu məsələnin üzərində işləyirik. Lakin bir məsələni unutmamalıyıq, Azərbaycan müstəqilliyini bərpa edəndə iqtisadiyyat tamamilə məhv edilmişdi, yoxsulluq və durğunluq geniş vüsət almışdı. Odur ki, dünya xəritəsində yerimizi müəyyənləşdirməyin yeganə yolu ölkəmizin inkişafı üçün enerji ehtiyatlarımızdan istifadə etmək idi. Buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra 3 ildən daha da az müddətdə – 1994-cü ildə biz dünyanın əsas enerji şirkətlərini Azərbaycana gəlməyə və sərmayə yatırmağa dəvət etdik. O zaman Xəzər dənizi ilk dəfə Amerika və Avropa neft şirkətlərinin birbaşa cəlb edildiyi ərazi olmuşdu. O zaman bizim üçün enerji təhlükəsizliyi və enerji siyasəti müasirləşmək, şaxələnmək və infrastruktura sərmayə yatırmaq yolu idi. Çünki neft satışından əldə etdiyimiz vəsait suveren rifah fondunda saxlanılırdı və eyni zamanda, neftdən asılılığı azaltmaq üçün infrastruktura sərmayə kimi yatırılırdı.

Bu şaxələndirmə siyasətinin nəticəsində indi ümumi daxili məhsulumuzun 70 faizindən çoxu artıq qeyri-neft sektorunun payına düşür. Əlbəttə ki, biz ixrac əməliyyatlarında neft qiymətlərindən asılıyıq. İxracımızın 90 faizini neft və qaz təşkil edir.

İndi isə biz özəlləşdirmə, iqtisadiyyatımızın şaxələndirilməsi və biznes mühitinin yaxşılaşdırılması da daxil olmaqla, neft və qazdan asılılığı azaltmaq üçün irimiqyaslı islahatlar həyata keçiririk. Yeri

gəlmişkən, neftin qiymətinin kəskin şəkildə – 4 dəfə ucuzlaşması bizim üçün daha çox texnologiyaya, qeyri-neft iqtisadiyyatına, kənd təsərrüfatına, informasiya-kommunikasiya texnologiyalarına sərmayə yatırmaq baxımından fürsət idi. Növbəti illərdə bütün planlarımızı uğurla həyata keçirə bilsək, qəti əminəm ki, Azərbaycan neftdən asılılığı tamamilə aradan götürəcək.

Qeyd etdiyim kimi, bu yaxınlarda neftin qiymətinin aşağı düşməsi səbəbindən Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlanmışdır və biz dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi, yerimizi tapmalıyıq.

**M e l i n d a K r e y n: Maraqlısı odur ki, Sizin iqlim öhdəliklərinizdə tərəfinizdən bəyan olunan məqsədlərə çatmaq üçün əngəl törədəcək əsas potensial məhdudiyyət kimi, neftin qiymətinin ucuzlaşması göstərilir.**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, gəlirlərimizə təsir edəcək. Lakin düşünürəm ki, bu bizi islahatların aparılmasına daha da ciddi sövq edəcək və Azərbaycanın gələcək inkişafı neftin qiymətindən, yaxud da hasilatın həcmindən asılı olmayacaq. Biz minlərlə, on minlərlə iş yeri yaradacaq və Avropaya şaxələnmək imkanını verəcək «Cənub Qaz Dəhlizi» layihəsini həyata keçiririk. Yeri gəlmişkən, Avropa əlavə həcmdə təbii qaz əldə edəcək və həm də istixana effektini yaradan karbon qazının atmosferə tullantısını azaldacaq. Bu enerji təhlükəsizliyi təkcə marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsi layihəsidir və biz istehsalçılara, tranzit və istehlakçı ölkələrə fayda verəcək bir layihədir.

**M e l i n d a K r e y n: Uyğunlaşma üzərinə əsas diqqəti cəmləyərək, yenə də sualımı prezident Əliyevə vermək istəyirəm. Ekologiyaya mənfi təsirin aradan qaldırılmasına böyük vəsait yönəldilir. Lakin Azərbaycan kimi ölkələrə kömək etmək üçün uyğunlaşmaya kifayət qədər vəsait ayrılırmı? Fikrimcə, ölkəniz uyğunlaşma üçün tələb olunan xərclərin ən azı 3 milyard avro təşkil etdiyini təxmin edir. Əgər bu rəqəm bundan da artıq deyilsə, sizə lazım olan köməyi əldə edirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Əslində Azərbaycanın, ümumiyyətlə, siyasəti ondan ibarətdir ki, biz qazandığımızdan daha az xərcləməliyik. Əsas

investisiya layihələri, o cümlədən enerji sahəsinə sərmayələr əsasən özümüzün və tərəfdaşlarımızın maliyyə resurslarından qaynaqlanırdı. Buna görə də biz heç bir əsaslı maliyyə dəstəyini gözləmirik.

Son zamanlar Azərbaycanın əsaslı dərəcədə maliyyə resurslarını topladığını nəzərə alaraq, hətta neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim iqtisadi inkişafımıza təsir edə bilməmişdi. Ötən il ümumi daxili məhsulumuz 1 faizdən çox artmışdı və qeyri-neft sektorunda 8 faizdən çox artım qeydə alınmışdı. Bu da əsasən şaxələndirmə və qeyri-neft infrastrukturuna investisiyaların yatırılması siyasəti sayəsində mümkün olmuşdur. Ona görə də bu bizim üçün, əlbəttə ki, regionda ümumi vəziyyət üçün çox vacibdir. Dayanıqlı inkişaf bizim məqsədimiz və hədəfimizdir. İqlim dəyişikliyi məsələsinə gəldikdə isə, əvvəldə dediyim kimi, Kioto protokoluna əsasən heç bir öhdəliyimizin olmamasına baxmayaraq, bizim iqtisadi siyasətimiz, bərpa olunan enerji mənbələrinə yatırdığımız investisiyalar, 10-dan çox su-elektrik stansiyasının tikilməsi – bütün bunlar bizim verdiyimiz töhfələrdir.

Yenə də qeyd edirəm ki, əgər tərəfdaşlarımızla birlikdə, məsələn, neft-qaz sahəsinə sərmayə yatırmasaydıq, bu gün bizim elektrik stansiyalarımız Sovet İttifaqı vaxtındakı kimi istismar edilərək, maye yanacaqla işləyərdi. Bu gün bütün elektrik stansiyalarımız ya təbii qazla, ya da su ilə işləyir. Beləliklə, bunlar enerji sektoruna yatırılan investisiyalardır və onlar da öz növbəsində, atmosferə karbon tullantılarının azalmasına müsbət təsir edir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əlbəttə ki, biz bu risklərin idarə edilməsində vacib rol oynamaqda davam edəcəyik.

* * *

*Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şefçoviç, ABŞ Senatının Ətraf Mühit və İctimai İşlər Komitəsinin üzvü Şeldon Uaythaus, «Allianze SE» şirkətinin baş icraçı direktoru, Münhen Təhlükəsizlik Konfransının Məşvərət Şurasının üzvü Oliver Bate, «Green Peace International» təşkilatının sabiq icraçı direktoru Kumi Naydoo iqlim dəyişikliyi ilə bağlı ictimai rəyin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyini bildirdilər. Qeyd olundu ki, iqlim dəyişikliyi təbii sərvətlərə, insanların həyat tərzinə təsir*

*göstərir, belə olan halda, insanlar iqlim mühacirlərinə çevrilirlər. Bundan əlavə, dünyada suyun səviyyəsinin artması baxımından insanların təhlükəli ərazilərdə məskunlaşmasının qarşısının alınması ilə bağlı daha çox işlər görülməlidir.*

*Çıxış edənlər enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bölüşdülər. Sonra müzakirələr aparıldı.*

**Ermənistan Xarici İşlər Nazirliyinin əməkdaşı: Mən Ermənistan Xarici İşlər Nazirliyindənəm və sualım prezident Əliyevədir. Cənab Prezident, Siz Ermənistanı suyun çirkləndirilməsinə və digər ciddi siyasi məsələlərə görə günahlandırırsınız və bununla bağlı bizim Ermənistanda fərqli mövqemiz var. Azərbaycanda baş verən hər bir mənfi hala görə Azərbaycanın Ermənistanı günahlandırmasını necə izah edə bilərsiniz? Məsələn, beynəlxalq ictimaiyyət Azərbaycanı insan hüquqları sahəsində vəziyyətə görə tənqid etdikdə, Azərbaycan Ermənistanı günahlandırır. Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti Azərbaycanla bağlı ciddi qətnamələr qəbul etdikdə, Azərbaycan yenə də Ermənistanı və erməni lobbisini tənqid edir. Hətta Azərbaycanda neft istehsalı azaldıqda "British Petroleum" şirkəti Ermənistanla əlbir olmasına görə tənqid edilmişdi. Cənab Prezident, bütün bu çətin suallara bir cavabın verilməsi daha asan deyilmi?**

**İlham Əliyev:** Əvvəla, qeyd etmək istəyirəm ki, sizin sualınızda ifadə olunan fikirlər tamamilə səhvdir. Biz Ermənistanı sizin qeyd etdiyiniz səbəblər üzündən günahlandırmırıq. Əvvəla, təkcə Azərbaycan deyil, Ermənistan da Avropa Şurası, Avropa Parlamenti tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasına, prezident və parlament seçkilərinin saxtalaşdırılmasına və hökumətinizin törətdiyi bir çox digər işlərə görə tənqid edilir.

Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan

artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş 1 milyondan çox qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq. Onların 40 mini Dağlıq Qarabağdandır, 750 mini Azərbaycanın digər işğal olunmuş rayonlarındandır, 200 mini isə Ermənistandan qovulmuşdur və etnik təmizləməyə məruz qalmışdır.

Bütün bunlar sizin işğalınızın nəticəsidir. Bu sizin qonşu ölkəyə qarşı yürütdüyünüz siyasətin nəticəsidir və işğala son qoyulmalıdır. Regionda sülhə nail olmaq üçün birinci şərt Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

**M e l i n d a  K r e y n: Prezident Əliyev, icazə verin, müzakirəmizin əvvəlində verdiyim sualın digər tərəfini Sizə ünvanlayım. Bəziləri hesab edir ki, su sahəsində konkret əməkdaşlıq üzərində işin aparılması tərəflərin bir-birinə qarşı etimadını artıra bilər və bəzi digər məsələlərdə daha böyük əməkdaşlığın aparılması istiqamətində atılmış bir addım ola bilər. Sizcə, bu doğrudurmu?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, 1 aydan da az müddət öncə Strasburqda Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən qətnamədə bu məsələ üzrə çox vacib elementə diqqət yönəldilib və xüsusilə su resurslarının idarə edilməsi ilə bağlı törətdiyi problemlərə görə Ermənistanın üzərinə məsuliyyət qoyulub. Buna görə Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün, etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq.

## TOVUZ RAYONUNA SƏFƏR

*16 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuz rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Tovuz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov dövlətimizin başçısına məlumat verdi ki, ulu öndərin abidəsinin ucaldığı Heydər Əliyev parkında geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Park rayon sakinlərinin sevimli istirahət mərkəzidir. Burada əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.*

### Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuz şəhərindəki Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi ilə müşayiət olunur. Ölkəmizin şəhər və rayonlarında aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların yenidən qurulması da diqqətdən kənarda qalmır. Bu sahədə həyata keçirilən işlər çərçivəsində Tovuz şəhərindəki Heydər Əliyev parkının yenidən qurulması da xüsusi əhəmiyyət kəsb edir.*

*Şəhərin girişində yerləşən bu parkda yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Prezident İlham Əliyevin park və xiyabanların əsaslı təmiri və abadlaşdırılması ilə bağlı tapşırığına əsasən yenilənən bu park ilk növbədə, rayon sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edir.*

Dövlətimizin başçısına məlumat verildi ki, 2011-ci ildən fəaliyyət göstərən bu parkda kafe, restoran, uşaq əyləncə mərkəzi var. Ərazisi 10 hektar olan Heydər Əliyev parkında ardıcıl olaraq yenidənqurma və tikinti-quraşdırma işləri aparılır. Ötən dövrdə bu parkda aparılan yenidənqurma işləri zamanı milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb. Yenidənqurma işlərindən sonra Heydər Əliyev parkı özünəməxsus elementlər və formalarla zənginləşdirilib. 2014–2015-ci illərdə parkın ərazisi genişləndirilib, yeni park-bulvar salınıb. Burada yaradılan və sahəsi 4 min kvadratmetr olan yeni göl parkın gözəlliyini daha da artırır. Ətrafında səkilər, yaşıllıqlar salınan, ağac və dekorativ gül kolları əkilən, idman qurğuları quraşdırılan gölün ərazisində buta şəklində ada yaradılıb.

Sonra prezident İlham Əliyev parkdakı əyləncə mərkəzində yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

## Qovlar qəsəbəsindəki Gənclər evinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Qovlar qəsəbəsindəki Gənclər evinin açılışında iştirak etmişdir.*

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq Azərbaycanda uğurlu nəticələrlə yadda qalıb. 2005–2009-cu illəri əhatə edən «Azərbaycan gəncliyi Dövlət Proqramı» bu proseslərdə çox mühüm rol oynayıb. Daha sonra həyata keçirilən «Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı» bu tədbirlərin məntiqi davamıdır. Bu gün ölkəmizdə gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli-mənəvi dəyərlərimizə rəğbət ruhunda tərbiyə olunması prioritet istiqamətlərdəndir. Məqsəd gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakına stimul yaratmaqdır.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, xüsusilə

regionlarda yaşayan gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Ölkəmizin bölgələrində müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri və Gənclər mərkəzləri, o cümlədən Tovuz rayonunun Qovlar qəsəbəsində Gənclər evinin yaradılması da bu məqsədə xidmət edir.

Dövlətimizin başçısına Qovlar qəsəbə parkında görülən işlər barədə ətraflı məlumat verildi.

Gənclər və İdman naziri Azad Rəhimov Azərbaycan Prezidentinə məlumat verdi ki, Gənclər evinin binası zirzəmi ilə birgə 4 mərtəbədən ibarətdir. Ərazisi 4400 kvadratmetr olan Gənclər evinin binası respublikada ən böyük Gənclər mərkəzlərindən biridir. Gənclər evinin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinin müxtəlif məqamlarını, Tovuz rayonuna səfərlərini, həmçinin gənclərlə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Gənclər evində istedadlar, ünsiyyət və gənclərin intellektual klubları fəaliyyət göstərəcək. Bu layihələr Dövlət Proqramı çərçivəsində Gənclər və İdman Nazirliyinin dəstəyi ilə həyata keçirilir. Əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.

Burada gənclərin intellektual klubu, gənc iqtisadçılar klubu, kompüter dərnəyi, peşəyönümü mərkəzi, istedadların hazırlıq laboratoriyası, elektron kitabxana, karyera mərkəzi, rəqs zalı, toxuculuq və tikiş dərnəkləri, vətənpərvərlik klubu fəaliyyət göstərəcək. Gənclər evindəki 120 yerlik akt, 36 yerlik toplantı zallarında rayon və respublika əhəmiyyətli tədbirlər keçirmək mümkündür.

Azərbaycanda gəncliyə dövlət qayğısı gələcək uğurlara hesablanan siyasətdir. Bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bu da Azərbaycan gəncliyinin sabahına inamla baxmağa əsas verir. Gənclər evlərinin yaradılması isə bu siyasətin uğurla həyata keçirilməsində mühüm rol oynayacaq.

## TOVUZÇAY SU ANBARININ AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuzçay su anbarının açılışında iştirak etmişdir.*

*Ölkəmizdə meliorasiya sahəsində də mühüm layihələr reallaşdırılır, yeni infrastruktur obyektləri tikilib istifadəyə verilir. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu bu siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkənin su və meliorasiya təsərrüfatının daha da möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Bu da ondan irəli gəlir ki, meliorasiya və su təsərrüfatı həmişə olduğu kimi, bu gün də ölkəmizin iqtisadiyyatında aparıcı rolunu qoruyub saxlayır və bu sahə regionların sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Meliorasiya və su təsərrüfatının daha da təkmilləşməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında da həlledici rol oynayır. Prezident İlham Əliyevin bu sahənin inkişafına yetirdiyi diqqətin nəticəsidir ki, Azərbaycanda nəhəng Şəmkir, Taxtakörpü su anbarları, Samur–Abşeron kanalı tikilib istismara verilib və digər iri layihələr icra edilib. Bu layihələrin tam icrası nəticəsində on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq və minlərlə fermer bundan bəhrələnəcək. Həmçinin regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində də ölkədə meliorasiya və su təsərrüfatının yenilənməsi sahəsində ciddi nailiyyətlər qazanılıb. Tovuzçay su anbarının istifadəyə verilməsi də bu sahənin inkişafına dövlət qayğısının göstəricisidir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına həyata keçirilən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, Tovuzçay su anbarı respublikanın qərbində, Tovuzçay və Axıncaçay çaylarının birləşdiyi ərazidə, Tovuz şəhərinin yaxınlığında yerləşir. Anbarın tikintisinə 1982-ci ildə «Azərdövlətsulayihə» İnstitutu tərəfindən hazırlanan layihə əsasında 1986-cı ildə başlanılıb. Layihəyə uyğun olaraq, bəndin nüvəsinə gil, onun sol*

sahilinin bir hissəsinə torpaq tökülüb, qülləli suburaxıcı tikilib. Lakin vəsait çatışmazlığı üzündən tikinti işləri 1992-ci ildən dayandırılıb. İnşası yarımçıq qalan Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi Azərbaycan Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilən və 2004–2008-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına və 2005-ci il 14 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunan «Tədbirlər Planı»na daxil edilib. 2006-cı ildə isə tikinti işlərinə başlanılıb. Ümumi su tutumu 20 milyon kubmetr, faydalı həcmi 18 milyon kubmetr olan Tovuzçay su anbarının gil nüvəli torpaq bəndinin hündürlüyü 45 metr, üstdən eni 10 metr, uzunluğu isə 1340 metrdir. Anbarın su hövzəsinin sahəsi 160 hektar, uzunluğu 2,6 kilometrdir. Layihəyə uyğun olaraq, anbarda suburaxma qabiliyyəti saniyədə 250 kubmetr və uzunluğu 731 metr olan qəza sutullayıcısı, maksimum suburaxma qabiliyyəti saniyədə 125 kubmetr olan dəmir-beton borulu qülləli suburaxıcı, saniyədə 6 kubmetr suvarma suyunun verilməsi üçün uzunluğu 468,8 metr olan nov-kanal inşa olunub. Su anbarının inşası zamanı tarixi abidələrin mühafizəsi, köçürülməsi, avtomobil yolunun və körpülərin tikintisi, eləcə də digər tədbirlər həyata keçirilib. Belə ki, Qazqulu qəbiristanlığı, Şərif Sultan və Məhəmməd-Hüseyn Sultan türbələri köçürülüb. XVII əsr memarlıq abidəsi olan Sultan körpüsünün mühafizəsi üçün uzunluğu 344 metr olan torpaq damba tikilib. Həmçinin Vahidli kənd qəbiristanlığının mühafizəsi məqsədilə suyığıcı kanalın və mühafizə dambasının tikintisi həyata keçirilib. Bundan başqa, layihənin icrası zamanı Tovuzçay çayı üzərində 8 aşırımlı avtomobil körpüsü tikilib, bəndə və ətraf kəndlərə gedən, ümumi uzunluğu 6800 metr olan avtomobil yolu yenidən qurulub. Uzunluğu 86 metrdən çox olan Axıncaçay çayı üzərində körpünün tikintisi də başa çatdırılıb.

Görülən mühüm işlərdən biri də Tovuz və Şəmkir rayonlarının mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına əlavə su verilməsi üçün sərfi saniyədə 1,5 kubmetr, uzunluğu 7004 metr olan polad boru kəmərinin tikintisidir.

Sonra dövlətimizin başçısı Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Tovuz rayonunda yenidən olmağımdan çox məmnunam. Artıq neçə dəfədir ki, Tovuza səfər edirəm. Hər səfər zamanı biz önəmli açılışlarda görüşürük, açılışları qeyd edirik.

Tovuz rayonu uğurla inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı çox sürətlidir. Bir çox sosial obyektlər istismara verilibdir – Olimpiya Kompleksi, Diaqnostika Mərkəzi, Mərkəzi Xəstəxana. Gözəl parklar, istirahət zonaları salınır, hotellər tikilir, şəhər gözəlləşir, abadlaşır.

Tovuz rayonunda kənd təsərrüfatının inkişafı da bizi sevindirir. Kənd təsərrüfatının inkişafı üçün bugünkü mərasim xüsusi əhəmiyyət kəsb edir. Çünki Tovuzçay su anbarının istismara verilməsindən sonra əminəm ki, kənd təsərrüfatının inkişafı daha da sürətlə gedəcək.

Bildiyiniz kimi, bu su anbarının layihəsi hələ sovet dövründə işlənmiş, ancaq müəyyən səbəblərə görə icra edilməmişdi. 1992-ci ildə layihənin icrası dayandırılmışdı. Ancaq indiki dövrdə biz bu layihəni icra edə bildik. Layihənin icrası üçün xüsusi sərəncam imzalandı, dövlət büdcəsindən vəsait ayrıldı. Artıq bu layihə istifadəyə verilir. Beləliklə, 20 min hektar torpaq sahəsində suvarma yaxşılaşacaq və 300 hektar yeni suvarılan torpaqlar dövriyyəyə buraxılacaqdır.

Əlbəttə, su olan yerdə kənd təsərrüfatı da inkişaf edəcək. Bizim əsas arzumuz ondan ibarətdir ki, bütün bölgələrdə kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Çünki kənd təsərrüfatının inkişafı iş yerlərinin açılması, yerli istehsalın yaradılması deməkdir. Eyni zamanda, hesab edirəm ki, kənd təsərrüfatı neft və qazdan sonra bizim əsas ixrac məhsulumuz olmalıdır və olacaqdır.

Kənd təsərrüfatının inkişafı üçün buna oxşar 2 layihə icra edilib – Taxtakörpü və Şəmkirçay su anbarları. Şəmkirçay su anbarı yaxınlıqda yerləşir. Artıq həmin layihələrin ətrafında yeni inkişaf layihələri icra edilir. Şəmkir Aqroparkı, Şabran, Xızı, Siyəzən rayonlarında yeni kənd təsərrüfatı layihələrinin icrası gözlənilir və tezliklə icra ediləcək. Beləliklə, dövlət bu sahəyə investisiya qoymaqla, bir neçə məqsədi güdür. İlk növbədə, bunlar su ehtiyatlarımızdan səmərəli istifadə etmək üçün çox önəmli layihələrdir. Su təhlükəsizliyi məsələləri burada öz həllini tapır. Bu da Azərbaycan kimi, xarici su mənbələrindən daha çox asılı olan ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz su ehtiyatlarımızdan

maksimum səmərə ilə istifadə etməliyik. Kənd təsərrüfatının sürətli inkişafı bundan sonra da təmin olunacaqdır.

Keçən il kənd təsərrüfatı 6 faizdən çox artıb və ümid edirəm ki, bu il də sürətlə artacaq. Bütün bölgələrdə ixtisaslaşma aparılmalıdır. Tovuz rayonunun ənənəvi kənd təsərrüfatı məhsulları vardır. Onların inkişafı, yeni əkin sahələrinin yaradılması, xüsusilə üzümçülüyün inkişafı mühüm əhəmiyyət daşıyır. İnsanların yaşayış səviyyəsi yaxşılaşacaq. Biz öz ərzaq təhlükəsizliyimizi təmin edəcəyik. Bizim əsas vəzifəmiz nəinki özümüzü bütün ərzaq məhsulları ilə təmin etməkdir, eləcə də xarici bazarlara keyfiyyətli məhsulla çıxmaqdır. Bu istiqamətdə önəmli addımlar atılır. Tovuzçay su anbarının istismara verilməsi onların arasında xüsusi yer tutur.

Əminəm ki, 2016-cı il Azərbaycanda sosial-iqtisadi inkişaf baxımından uğurlu il olacaqdır. Dünya iqtisadiyyatı böhran içindədir, böhran davam edir. Bu ilin əvvəlində iştirak etdiyim beynəlxalq iqtisadi və təhlükəsizlik forumlarında mənim əldə etdiyim nəticə ondan ibarətdir ki, bu böhranın sonu hələ görünmür. Bölgəmizdə iqtisadi böhran, bəzi hallarda hərbi və siyasi böhran yaşanır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf ölkəsidir. Baxmayaraq ki, gəlirlərimiz əhəmiyyətli dərəcədə azalıb, ancaq biz daha da səmərəli işləməliyik. Əminəm ki, biz xüsusilə aqrar, emal, sənaye sektorlarının inkişafı hesabına iqtisadi yüksəlişə nail olacağıq. Əminəm ki, 2016-cı il ölkəmiz üçün uğurlu olacaq. Büdcəyə dəyişiklik olunacaq və biz neftin qiymətinin minimum səviyyəsi – 25 dollar səviyyəsi ilə lazım olan bütün sosial və investisiya layihələrini icra edəcəyik.

Neftin qiyməti 4 dəfə düşüb. Bu, neft hasil edən ölkələr üçün böyük sınaqdır. Ancaq təbii resurslara malik olmayan ölkələr də çətinlik çəkir. Çünki onlar üçün ənənəvi bazarlar indi onların məhsulunu əvvəlki illərdəki kimi ala bilmir. Əlbəttə ki, neftin qiymətinin düşməsi təbii resurslarla zəngin olmayan ölkələri də narahat edir. Ona görə mən hesab edirəm ki, biz artıq öz iqtisadi inkişafımızı ancaq qeyri-neft sektorunun əsasında qurmalıyıq və qururuq.

Belə olan halda, biz istənilən böhrandan üzüağ çıxacağıq və ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin ediləcəkdir. Ona görə indiki dövrdə xüsusilə sahibkarlığın inkişafı, əsaslı islahatların dərinləşməsi prioritet

məsələlərdir. Keçən ilin sonundan və bu ilin əvvəlindən müəyyən edilmiş yeni islahatlar əminəm ki, yaxın zamanlarda öz sözünü deyəcək.

Azərbaycanda bütün maliyyə, iqtisadi mexanizmlər dünyanın aparıcı ölkələrinin təcrübəsinə əsaslanmalıdır. Maliyyə və iqtisadi sektorun inkişafı imkan verəcək ki, biz neftin qiymətindən asılı olmayaq. Bizim əsas vəzifəmiz bundan ibarətdir.

Regionların inkişafı, əlbəttə ki, burada əsas rol oynayır. 2004-cü ildə birinci regional inkişaf proqramı qəbul olunanda mən demişdim ki, ölkəmizin inkişafı qeyri-neft sektorundan asılı olmalıdır. Həmin vaxtdan bu günədək bütün bölgələrdə, o cümlədən qərb bölgəsində bir çox önəmli layihələr icra edilib. Əgər biz regional inkişaf proqramlarını qəbul etməsəydik, bu gün vəziyyətimiz çox ağır ola bilərdi. Ona görə mən əminəm ki, 2016-cı ili biz uğurla başa vurmalıyıq. Buna nail olmaq üçün bütün imkanlar var. Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xalq–iqtidar birliyi, düşünülmüş iqtisadi siyasət və dərinləşən islahatlar əminəm, imkan verəcək ki, biz bu ili də uğurla başa vuraq.

Qarşıya vəzifə qoyulub ki, biz bir neçə ildən sonra neft amilindən asılılığı tamamilə aradan qaldırmalıyıq. Əminəm ki, buna nail olacağıq.

Mən Tovuz ictimaiyyətini bir daha salamlayıram, əldə olunmuş bütün uğurlara görə təbrik edirəm. Şadam ki, rayon uğurla inkişaf edir, gözəl layihələr icra edilir. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

**Z i r ə d d i n  Ə h m ə d o v** (*Tovuz rayon ictimaiyyətinin nümayəndəsi*): Möhtərəm cənab Prezident, Tovuza xoş gəlmisiniz!

Siz tovuzluları həmişə diqqətdə saxlamısınız, onlara qayğı göstərmisiniz. Bu gün Tovuz rayonu abadlaşıb, gözəlləşib, iqtisadi cəhətdən daha da möhkəmlənib. Bu gün açılışını etdiyiniz Tovuzçay su anbarı tovuzlular üçün böyük töhfədir. Bu ruzidir, bərəkətdir, bolluqdur. Hesab edirəm ki, tovuzlular bu fürsətdən tam yararlanacaqlar. Onlar Tovuzda ərzaq istehsalını daha da artıracaqlar, öz maddi imkanlarını gücləndirəcəklər, eyni zamanda, respublikamızın ərzaq təminatına öz töhfələrini verəcəklər. Siz buna tam əmin ola bilərsiniz.

Cənab Prezident, biz çox xoşbəxt insanlarıq. Bizim xalq xoşbəxt xalqdır. Biz dünyada gedən qlobal məsələləri çox gözəl görürük. Bizim respublikada isə sabitlikdir, əmin-amanlıqdır. İnsanlar özlərini çox rahat

hiss edirlər. Çünki onların xalqa daim qayğı göstərən, onları diqqət mərkəzində saxlayan Sizin kimi prezidenti var. Çox sağ olun. Sizə öz minnətdarlığımızı bildiririk. İnanırıq ki, bundan sonra da Azərbaycan xalqı naminə, ölkəmiz naminə əlinizdən gələn bütün işləri görəcəksiniz. Biz Sizin arxanızda möhkəm dayanmışıq. Sağ olun. Sizə uğurlar olsun.

**İlham Əliyev:** Sağ olun.

**Əhməd Muradov** (*gənc sahibkar*): Cənab Prezident, mən də Sizi rayonumuzun gənc sahibkarları adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz!

Siz sahibkarlara elə diqqətlə yanaşırsınız ki, biz yeni ruhla, həvəslə işləməyə başlamışıq. Hər yerə yolumuz açıqdır. Bunun üçün rayon sahibkarları adından Sizə minnətdarlığımızı bildirirəm.

Biz kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğuluq. Təsərrüfatımız – 3,5 hektar sahədə istixanamız var, 4 hektar meyvə bağı salmışıq. Burada 35 daimi işçi çalışır. Orta aylıq əməkhaqqı 300 manatdan yuxarıdır. Biz daxili bazarla yanaşı, xarici bazara da məhsul çıxara bilirik. Keçən il Rusiya bazarlarına 300 tona yaxın xiyar, 500 ton pomidor göndərmişik.

Möhtərəm cənab Prezident, Sizi rayon sahibkarları adından əmin edirəm ki, biz yaradılan çox əlverişli imkanlardan səmərəli istifadə edəcəyik. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Sağ olun. Mən fikir verdim ki, yol boyunca çoxlu istixanalar var. Hamısı da son vaxtlar yaradılıb. Bəlkə də yüzlərlə istixana. Bu onu göstərir ki, sürətli inkişaf var. Şəmkir rayonundan başlayaraq Tovuz rayonuna qədər yolun sağı, solu da istixanalardır. Çox yaxşı, sevindirici haldır. Çünki bu onu göstərir ki, insanlar işləyir, iş yerləri açılır, məhsul yetişdirilir. Əlbəttə, biz məhsulu həm daxili, həm də xarici bazarlara çıxarmalıyıq. Mən sahibkarları həmişə dəstəkləmişəm. Şadam ki, gənclər də sahibkarlığa həvəslə qoşulurlar. Sahibkarlığın inkişafı üçün Azərbaycanda bütün şərait var. Dövlət isə öz tərəfindən əlavə tədbirlər görəcəkdir. Xüsusilə xaricə ixrac edilən məhsullara təşviq sistemi tətbiq olunacaq. Məhsulu xaricə satan sahibkar dövlət tərəfindən vəsait alacaqdır ki, bu işə daha da həvəs göstərsin, daha da keyfiyyətli məhsul yetişdirsin və ölkəmizə valyuta gəlsin. Çünki bizim əsas valyuta mənbəmiz neft və qazdır, bu da azalıbdır. Ona görə biz gərək qeyri-neft sektoru hesabına ölkəmizə valyuta

axınını təmin edək və bu sahədə, əlbəttə ki, kənd təsərrüfatı birinci yerdədir. Mən sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Dövlətimizin başçısı su anbarını işə saldı.*

*Bildirildi ki, «Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi» layihəsində nəzərdə tutulan tədbirlərin tam başa çatdırılması nəticəsində Tovuzda 16886 hektar, Şəmkirdə isə 2939 hektar olmaqla, ümumilikdə 19825 hektar mövcud torpaq sahələrinin su təminatı yaxşılaşdırılacaq. Eyni zamanda, Tovuz rayonunda 300 hektar yeni suvarılan torpaq suvarma suyu ilə təmin olunacaq. Bu da həmin ərazidə becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasına müsbət təsir göstərəcək. Qeyd olundu ki, sululuğunun əsas hissəsi yaz dövrünə düşən Tovuzçay çayının axını tənzimlənmədiyindən bu sulardan səmərəli istifadə etmək mümkün olmur və Kür çayına axır. Kənd təsərrüfatı bitkilərinin suya ehtiyacı çox olan ilin isti aylarında isə Tovuzçay çayının su ehtiyatları kəskin azalır və tamamilə quruyur. Su anbarının tikintisi isə Tovuzçay çayının su ehtiyatlarının nizamlanması nəticəsində onun ehtiyatlarından səmərəli istifadə etməklə, Tovuz və Şəmkir rayonlarının əkin sahələrinin su təminatının yaxşılaşdırılması mümkün olacaq. Layihədə anbarda yığılan suyun, Tovuz və Şəmkir rayonlarının əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına öz axını ilə və Xunamarx kanalına isə su verilməsi nəzərdə tutulub ki, bu işlər də tam başa çatdırılıb.*

## 7 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Tovuz şəhər 7 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması dövlətimizin daim diqqət mərkəzindədir. Bu istiqamətdə Heydər Əliyev Fondu mühüm layihələr həyata keçirir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı icrasına başladığı layihələr mühüm əhəmiyyətə malikdir. Azərbaycanın*

birinci xanımı Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı» bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb.

Dövlətimizin başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, Körpələr evi-uşaq bağçasının inşasına 2014-cü ilin sonlarında başlanılıb və tikinti işləri yüksək səviyyədə icra olunub. Bağça 100 yerlikdir. Burada ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin gələcəyi olan uşaqlara göstərdikləri qayğıdan bəhs edən fotolardan ibarət guşələr yaradılıb.

Prezident İlham Əliyevə məlumat verildi ki, ikimərtəbəli binada uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşları kimi yetişmələri üçün hər cür şərait yaradılıb. Burada müasir təlim-tərbiyə qaydalarına riayət olunmaqla, 5 qrup fəaliyyət göstərəcək. Bağçada uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar var. Balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılacaq. Bu məqsədlə müasir otaqlar yaradılıb, bütün zəruri ləvazimat və təlim avadanlığı ilə təchiz olunub. Uşaqların qidalanması da diqqətdə saxlanılacaq. Burada 35 nəfərin işlə təmin edilməsi nəzərdə tutulub. Bağçanın ərazisində əyləncə meydançaları yaradılıb, attraksionlar quraşdırılıb.

## Yenidən qurulan Tovuz–Hunanlar–Qaraxanlı–Düz Cırdaxan avtomobil yolunun açılışı mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da yenidən qurulan Tovuz–Hunanlar–Qaraxanlı–Düz Cırdaxan avtomobil yolunun açılışında iştirak etmişdir.

Regionların 2009–2013-cü və 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata

*keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə qurumlarının əsaslı vəsait qoyuluşları ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına da irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə, Azərbaycan iqtisadiyyatının gücünü göstərməklə yanaşı, vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir. Bu həm də regionlarda hərtərəfli iqtisadi və sosial inkişafa təkan verir.*

*Dövlətimizin başçısı görülmüş işləri əks etdirən stendlərə baxdı.*

*Azərbaycan Prezidentinə avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə məlumat verildi. Bildirildi ki, dövlətimizin başçısının 2014-cü il 20 avqust tarixli Sərəncamı ilə Tovuz–Hunanlar–Qaraxanlı–Düz Cırdaxan avtomobil yolunun inşasına Prezidentin ehtiyat fondundan Tovuz Rayon İcra Hakimiyyətinə tikintinin başlanılması üçün ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Ümumi uzunluğu 33,8 kilometr olan avtomobil yolunun tikintisinə 2014-cü ilin oktyabrında başlanılıb. Yolun tikintisini davam etdirmək məqsədilə Prezidentin 2015-ci il 1 iyul tarixli Sərəncamına əsasən dövlət büdcəsindən yenidən müvafiq maliyyə vəsaiti ayrılıb. Tikinti işləri yüksək standartlar səviyyəsində həyata keçirilib.*

*Məlumat verildi ki, üçüncü dərəcəli avtomobil yolunun eni 7, yol çiyinlərinin eni isə 2,5 metrdir. Yolun ərazisində 5 su keçidi quraşdırılıb, 2 körpü əsaslı təmir edilib. Yolun yenidən qurulması layihəsi ilə yanaşı, yolboyu yaşayış məntəqələrinin giriş və daxili yollarında da xeyli iş görülüb.*

*Qeyd olundu ki, Tovuz–Hunanlar–Qaraxanlı–Düz Cırdaxan avtomobil yolu 32 min əhalinin yaşadığı 13 məntəqəni əhatə edir. Avtomobil yolu rayon mərkəzinin kəndlərlə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasına, həmçinin iqtisadiyyatın və turizmin inkişafına mühüm töhfə verəcək.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## NATO BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*16 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul etmişdir.*

*NATO-nun baş katibi Yens Stoltenberqin salamlarını dövlətimizin başçısına çatdıran xüsusi nümayəndə Ceyms Appaturay prezident İlham Əliyevin NATO-nun mənzil-qərargahına son səfərini və keçirdiyi görüşləri xatırlatdı.*

*Dövlətimizin başçısı NATO-nun baş katibi Yens Stoltenberqlə Davosda keçirdiyi müzakirələr zamanı görüşdüyünü məmnunluqla qeyd etdi.*

*Söhbət zamanı Azərbaycan ilə NATO arasında uğurlu əməkdaşlıq əlaqələrinin mövcud olmasının razılıq doğurduğu vurğulandı, Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq təhlükəsizliyə verdiyi töhfə yüksək qiymətləndirildi. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyətinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı, NATO-nun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün daim dəstəklənməsindən məmnunluq ifadə olundu.*

*Prezident İlham Əliyev NATO-nun baş katibi Yens Stoltenberqin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını NATO-nun baş katibinə çatdırmağı xahiş etdi.*

## GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*17 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncə şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Ərazidə aparılan yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat verildi.*

### «İmamzadə» dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə «İmamzadə» dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanın müxtəlif bölgələrində Məhəmməd peyğəmbərin nəslindən olan insanların məzarları var. Bu insanlar imamların övladları olduğu üçün həmin yerlər «İmamzadə» adlandırılıb. Hazırda Azərbaycan ərazisində Naxçıvan, Şamaxı, Bərdə və Masallıda İmamzadə adlı ziyarətgahlar mövcuddur. Bu sahədə araşdırma aparmış bəzi tədqiqatçılara görə, Səudiyyə Ərəbistanı və İraqdan sonra peyğəmbər nəslinin ən çox nümayəndələrinin məzarları Azərbaycandadır. Belə ziyarətgahlardan biri də Gəncədəki VIII əsrə aid tarixi memarlıq abidəsi – xalq arasında «Göy günbəz», «Göy məscid» yaxud «Göy imam» kimi tanınan «İmamzadə» dini mədəniyyət kompleksi şəhərin və bütövlükdə ölkəmizin ən dəyərli memarlıq abidələrindən biri hesab edilir. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub.*

*Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar*

*inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan «İmamzadə» piri Şərqin qədim karvan ticarət yolunun üzərində yerləşib. «İmamzadə» əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olub.*

*Müxtəlif vaxtlarda dağıntılara məruz qalan «İmamzadə» ziyarətgahı 1946-cı ildən «İmamzadə» piri kimi fəaliyyət göstərib. Keçən əsrin 70-ci illərində «İmamzadə»nin idarə olunması Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin tabeliyinə verilib. Müxtəlif vaxtlarda, hətta sovet dövründə, xüsusilə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə «İmamzadə»də tarixi abidə kimi, təmir-bərpa işləri aparılıb. Eyni zamanda, bu, sovet dövründə rəsmi dövlət qeydiyyatından keçmiş yeganə ziyarətgah olub. Bu dini abidə Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin islam aləmindəki yerini və nüfuzunu da göstərir. Kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşir. Ölkənin dini tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan prezident İlham Əliyev bu kompleksin də təmiri və bərpasına xüsusi diqqət göstərib. İnsanların inam və inanc yeri kimi üz tutduğu bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə respublika ictimaiyyətinin nümayəndələri və din xadimləri ilə görüşdü.*

*Mərasim müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyx həzrətləri, hörmətli din xadimləri, mərasim iştirakçıları!

«İmamzadə» dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılışı münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bugünkü mərasimdə ölkəmizin hər bir bölgəsindən din xadimləri, nümayəndələr iştirak edirlər. Onları mən dəvət etmişəm. Çünki «İmamzadə» abidəsi bizim ümumxalq sərvətimizdir. «İmamzadə» bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Azərbaycan xalqı əsrlərboyu ictimai-

siyasi quruluşdan asılı olmayaraq bu abidəni qorumuşdur, qoruyur və bundan sonra da qoruyacaqdır. «İmamzadə» bizim milli sərvətimizdir. Bir neçə il bundan əvvəl dini mədəniyyət abidəsinin yenidən qurulması və əsaslı təmiri üçün mənim tərəfimdən müvafiq sərəncam imzalanmışdır, işlər başlanmışdır və bu işlər bu gün göz qabağındadır. Yeni məscid, mərasim zalı, inzibati binalar tikilib, ərazi genişləndirilib. Bu, Azərbaycan dövlətinin öz milli, dini dəyərlərinə göstərdiyi münasibətdir. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Müstəqillik dövründə 2000-ə yaxın məscid, digər dinlərin məbədləri tikilibdir. Pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri həyata keçirilibdir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. 2014-cü ildə ölkəmizin ən böyük məscidi – Heydər məscidi tikilibdir ki, bu da müsəlman aləminin mühüm tarixi, memarlıq və dini abidəsidir.

Azərbaycanda dövlət–din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur. Cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət–din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq edib. Biz öz milli-mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik. Əfsuslar olsun ki, müsəlman aləmində son vaxtlar vəziyyət o qədər də ürəkaçan deyil. Ənənəvi ziddiyyətlərə yeni ziddiyyətlər, yeni qarşıdurmalar əlavə olunur. Bu bizi çox narahat edir.

Azərbaycan müstəqillik dövründə həmişə çalışıb ki, müsəlman aləmində birlik, həmrəylik daha da möhkəm olsun. Bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlər keçirilib. İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun xətti ilə onlarla tədbir keçirilibdir. Deyə bilərəm ki, bu gün müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində Azərbaycan və onun siyasəti çox böyük rəğbətlə qarşılanır. Biz bundan sonra da çalışacağıq ki, öz siyasətimizlə, o cümlədən diplomatik səylərlə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürək, gərginliyi azaldaq və bu bizim borcumuzdur. Biz bunu belə qəbul edirik. Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi

yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmayıb. Kiçik anlaşılmazlıq belə, olmayıb, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır.

Biz bu istiqamətdə səylərimizi göstərəcəyik. Bir daha demək istəyirəm ki, Azərbaycan müsəlman aləmində çox böyük nüfuza malik olan ölkədir. Biz bunu təkcə iqtisadi və sosial inkişafımıza görə əldə etməmişik. O cümlədən dinlərarası münasibətlərdə oynadığımız rol bütün müsəlman aləmi tərəfindən yüksək qiymətləndirilir. Mənim müsəlman ölkələrinə səfərlərim, müsəlman ölkələrinin rəhbərlərinin Azərbaycana səfərləri dediyimi bir daha təsdiq edir.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu bizim böyük sərvətimizdir. Qeyd etdiyim kimi, Azərbaycanda pravoslav, katolik, alban kilsələri, sinaqoqlar tikilir, təmir edilir. Azərbaycanda dinlərarası münasibətlər çox sağlam zəmində həllini tapır. Biz dünyada bu istiqamətdə də öz rolumuzu oynayırıq. Azərbaycanda dünya dinləri liderlərinin zirvə görüşü keçirilmişdir. Ənənəvi humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları keçirilir. Bu il isə Azərbaycanda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçiriləcəkdir ki, bu, dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün ən mötəbər forumdur. Bu il bu şərəfli missiyanı Azərbaycan öz üzərinə götürür.

Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə, ölkəmizin uğurlu inkişafı təmin edilsin, Azərbaycanda yaşayan bütün insanlar özlərini rahat hiss etsinlər, bölgədə təhlükəsizlik tədbirləri gücləndirilsin, dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın. Biz bunu görürük və eyni zamanda, mən tam əminəm ki, əgər dünyada bundan sonra da dini zəmində qarşıdurmalar davam edərsə, bu, böyük fəlakətə gətirib çıxaracaqdır. Biz artıq hər il yeni münaqişə ocaqlarını, yeni problemli yerləri görürük. Bu gün daha çox miqrantlar böhranından danışırlar. Mən dövlət başçısı kimi, bu məsələ ilə bağlı ölkəmizin mövqeyini dəfələrlə ifadə etmişəm və hesab edirəm ki, belə də olmalıdır. Biz bu məsələyə biganə qala bilmərik. Bu gün xarici müdaxilədən əziyyət çəkən insanlar öz canlarını, ailələrinin canlarını qurtarmaq üçün məcburi köçkün vəziyyətinə düşmüşlər. Onlar sadəcə

olaraq, ölməmək üçün bu əzablara qatlaşıb, böyük təhlükələrlə üzləşib Avropaya üz tuturlar. Yolda da onların çoxu ya dənizdə batır, ya başqa yerdə həlak olur. Biz görürük ki, bunlara qarşı münasibət heç də Avropanın bəyan etdiyi prinsiplərə uyğun gəlmir. Bu adamların heç bir günahı yoxdur. Əgər onların ölkələrinə xaricdən müdaxilə olunmasaydı, onlar öz ölkələrində yaşayardılar. Onlar – yaxınlarını itirmiş, qaçqın-köçkün vəziyyətinə düşmüş milyonlarla insan indi sadəcə olaraq, öz canını xilas etmək istəyir. Onlara qarşı bəzi hallarda çox nalayiq hərəkətlər edilir. Onların şəxsiyyəti alçaldılır. Onlar haqqında artıq dünya mediasında çox mənfi rəy formalaşır.

Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. O cümlədən bu yaxınlarda Suriya böhranı ilə bağlı Londonda keçirilmiş konfransda çıxış edərkən demişəm ki, Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərində humanitar fəlakətlə üzləşmişdi. 1 milyondan çox insan erməni işğalı nəticəsində öz yerindən didərgin düşmüşdür. O vaxt bizim nə imkanımız, nə pulumuz var idi, iqtisadiyyat tamamilə dağılmış vəziyyətdə idi. Biz, demək olar ki, təkbaşına o böhranın öhdəsindən gəldik. Düzdür, o vaxt – 2010-cu ilə qədər beynəlxalq donor təşkilatları bizə yardımlar edirdi. Amma təbii ki, o yardımlar 1 milyon insanın tələbatını ödəyə bilməzdi. Yəni biz bunu təkbaşına etmişik, bu sınaqdan çıxmışıq. Bu gün də köçkünlərin məşğulluğu, yaşayış şəraitinin yaxşılaşdırılması üçün çox böyük işlər görülür. 90-a yaxın qəsəbə salınıb, 250 minə yaxın köçkün yeni gözəl mənzillərə, evlərə köçüb. Ona görə bəzi hallarda Yaxın Şərqdən köç edən miqrantlara olan belə münasibət başadüşülən deyil.

Bunun digər tərəfi də var. Bu barədə də mən demişəm, bir daha demək istəyirəm. Belə vəziyyət və xüsusilə Qərb mediasında miqrantlarla bağlı gedən birtərəfli antitəbliğat ona gətirib çıxarır ki, Avropada radikal partiyaların gücü, onlara səs verən əhalinin sayı artır. Onlar getdikcə daha çox siyasi dəstək alırlar. Əgər bu belə davam edərsə, bir neçə ildən sonra onlar öz ölkələrində hakimiyyətə gələ bilərlər. Belə olan halda, necə olacaq? Belə olan halda, dinlərarası münasibətlər necə tənzimlənəcək? Bu gün Avropanın, demək olar, bütün ölkələrinin rəsmi mövqeyi təbii ki, müsbətdir. Avropa hökumətləri, onların bəziləri çalışır ki, miqrantlara layiqli münasibət göstərilsin. Biz bunu da görürük və təqdirlə qarşılayırıq.

Ancaq bir daha demək istəyirəm, əgər dini zəmində bu qarşıdurma və təbliğat davam edərsə, gələcəkdə biz çox böyük problemlərlə üzləşəcəyik.

Azərbaycan, əlbəttə ki, dünya miqyasında o qədər də böyük ölkə deyil. Ancaq bizim sözümüzün böyük mənası və çəkisi var. Ona görə şəxsən mən bütün bu məsələlərlə bağlı Azərbaycanın mövqeyini dünya birliyinə çatdıranda, eyni zamanda, bunun həll yollarını da göstəririrəm. Həll yolları da Azərbaycan nümunəsidir. Nə üçün bu gün bəzi ölkələrdə deyirlər ki, multikulturalizm iflasa uğrayıb, multikulturalizmin gələcəyi yoxdur? Bu, səhv bir fikirdir. Baxın, Azərbaycanda multikulturalizm yaşayır. Baxın, o qədər də böyük müstəqillik tarixi olmayan, böyük çətinliklərlə üzləşən və işğala məruz qalan, heç vaxt bu işğalçının dini mənsubiyyətinə işarə vurmayan ölkə görün bu məsələləri necə tənzimləyir. Nəyə görə? Çünki dövlət siyasəti aparılır. Bir daha demək istəyirəm, dövlət siyasəti əsas rol oynayır. Digər tərəfdən, bizim din xadimlərimiz bu istiqamətdə çox böyük rol oynayırlar. Xüsusilə şeyx həzrətlərinin fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. O həm ölkə daxilində, həm MDB məkanında, dünyada Azərbaycanı tolerant, bütün dinlərin birgə yaşadığı ölkə kimi təqdim edir. Bizim digər din xadimlərimiz – onlar burada əyləşiblər – bu gün çıxış edəcəklər. Mən onların fəaliyyətini yüksək qiymətləndirirəm. Onların da çoxsaylı xarici səfərləri olur. Bu səfərlərdə də onlar sadəcə olaraq, Azərbaycan reallıqları haqqında danışırlar. Yəni bu, əsas amildir. Eyni zamanda, Azərbaycanın bu modelinin təməlində, əlbəttə ki, ictimai fikir də dayanır. Azərbaycan ictimaiyyəti bu siyasəti tam dəstəkləyir.

Ona görə biz bütün dini bayramları bir yerdə qeyd edirik. Bütün mərasimlərdə bir yerdə iştirak edirik. Bu gün burada pravoslav, yəhudi, katolik icmalarının rəhbərləri öz sözlərini deyəcəklər. Bu təbiidir, bu belə də olmalıdır. Ancaq əfsuslar olsun ki, bəzi hallarda bəzi ölkələrdə biz bunu görmürük.

Biz öz yolumuzla gedəcəyik. Bu gün Azərbaycan istənilən istiqamət üzrə öz inkişaf modelini ortaya qoyur və gözəl nəticələr bu modelin nə qədər düzgün olduğunu sübut edir. Biz multikulturalizmlə bağlı əlavə tədbirlər də görəcəyik. Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Keçən il Azərbaycanda Avropa oyunları keçirilib, gələn il isə

İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu sadəcə olaraq, islam və Avropa ölkələri idmançılarının yarışı deyil, bu bizim ümumi, ümumbəşəri dəyərlərə verdiyimiz töhfədir. Biz öz məsuliyyətimizi belə qəbul edirik, belə başa düşürük. Biz bu məsuliyyəti ilk növbədə, dövlətimizin, xalqımızın mənafeyi, digər tərəfdən, bölgədə sabitliyin bərpası üçün daşıyacağıq. Əgər bölgədə sabitlik bərpa olunmasa, istər-istəməz bu bizə də təsir edə bilər. Siz də, indi mətbuatı izləyən insanlar, bizim ictimaiyyət də bilir ki, Azərbaycanı müxtəlif düşərgələrə, bizə aid olmayan işlərə cəlb etmək istəyirlər. Biz öz yolumuzla gedirik. Biz heç bir başqa ölkənin daxili işinə qarışmırıq və belə fikrimiz də yoxdur. Heç bir ölkəyə imkan vermirik və verməyəcəyik ki, daxili işimizə qarışsın. Nə qədər bizə təzyiqlər və təhdidlər olsa belə, biz bu yoldan dönməyəcəyik. Ona görə biz öz sözümüzü deyirik. Biz harada ki, vəziyyət ağırdır, bunu deyirik, yol göstəririk, öz nümunəmizi göstəririk. Sadəcə olaraq, kimisə tənqid etmək üçün hansısa fikirləri demirik. Deyirik ki, baxın, Azərbaycanda bu məsələlər necə həll olunur. Niyə Azərbaycanda bu mümkündür? Niyə Azərbaycanda xalq vahid amal, ideya uğrunda birləşə bilir, başqa ölkələrdə süni səbəblər üzündən bir-birini öldürür, qanını tökür, qırır? Heç başa düşmür nəyə görə! Yaxın Şərqdə vuruşanların böyük əksəriyyəti anlamır ki, onlar nəyə görə, kimin tərəfində vuruşurlar, kimin maraqlarını müdafiə edirlər. Qardaş qanı axıdırlar, şəhərləri dağıdırlar, elə günə salırlar ki, o şəhərlərin, o ölkələrin bərpası bundan sonra mümkün olmayacaq. Nəyə görə? Çünki təbliğat, xarici təsir və hakimiyyətlərin zəifliyi. Harada ki, hakimiyyət möhkəmdir, xalqla bir yerdədir, heç bir kənar qüvvə o hakimiyyətin iradəsinə təsir edə bilməz, o hakimiyyəti heç bir avantüraya çəkə bilməz.

Bir daha demək istəyirəm, Azərbaycan o ölkələrdəndir ki, öz sözünü deyir, öz siyasətini aparır. Bizim gücümüzün mənbəyi Azərbaycan xalqıdır. Əgər Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləməsə, biz müstəqil siyasət apara bilmərik. Bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər. Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur.

Bu gün burada bütün Azərbaycan toplaşıb. Azərbaycanın hər bir rayonundan nümayəndələr buradadır. Onları salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı yaşadıqları bölgələrin sakinlərinə çatdırsınlar. Gəncə

sakinlərini salamlayıram, təbrik edirəm ki, «İmamzadə» dini mədəniyyət mərkəzi yeni görkəm alıbdır. Sağ olun, sizə yeni uğurlar arzulayıram.

* * *

**Allahşükür Paşazadə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam*): Bismillahir-rəhmanir-rəhim!

Möhtərəm prezident İlham Əliyev həzrətləri!

Hörmətli məclis iştirakçıları!

Bu mübarək gündə Azərbaycanın müstəqillik dönəmində tikilərək, bərpa edilmiş növbəti ziyarətgahda – zati-aliləri, Sizinlə birlikdə Mədinə şəhərində peyğəmbər Məhəmməd Salavatullahın müqəddəs zərihi yaxınlığında ziyarət etdiyimiz Bəqi qəbiristanlığında İmam Hüseyn Əleyhissəlamın nəvəsi V İmam Məhəmməd Baqirin nuri-didəsi – sevimli oğlu şahzadə İbrahim Əleyhissəlamın Gəncə torpağında müqəddəs zərihinin açılışı mərasimindəyik. Hamınızı salamlayır, xüsusən iştirakı ilə bizi şərəfləndirən zati-aliləri İlham Əliyev həzrətlərinə Azərbaycan, Qafqaz müsəlmanları və şəxsən öz adımdan dərin təşəkkürümü bildirirəm.

Burada qeyri-islam dini liderləri bizimlə birgə iştirak edirlər. Biz tez-tez müsəlman məbədləri ilə yanaşı, xristian, yəhudi ibadətgahlarında görüşürük. Bu, Azərbaycanda dövlət–din münasibətlərinin, dinlərarası dialoqun, tolerantlığın, multikulturalizmin nümunəsidir. Bu bizim həyat tərzimizdir, dövlətimizin siyasəti, dünyaya örnək olan Azərbaycan reallığıdır. Mən dini liderləri də səmimi salamlayır, onlara «Xoş gəlmisiniz!» – deyirəm.

Milli-mənəvi dəyərlərimizə önəm verən İlham Əliyev həzrətlərinə dindarlar həmişə dualar edirlər. Dünyada baş verən hadisələr fonunda – islamofobiya, islam adından sui-istifadə edərək törədilən qırğınlar, Yaxın Şərqdə və qonşu ölkələrdə qanlı faciələr, iqtisadi, siyasi böhranlar, Azərbaycan torpaqlarının 20 faizinin erməni ekstremistləri tərəfindən işğal edildiyi halda, erməni lobbisinin bizə qarşı məqsədyönlü təxribatlar apardığı dönəmlərdə Azərbaycanı bu bəlalardan hifz etmək, ulu öndərin bizə əmanət etdiyi müstəqilliyimizin qorunub saxlanılması üçün gecə-gündüz zəhmət çəkən dövlətimizin başçısı İlham Əliyev həzrətlərinin, mədəni irsimizi dünyada təbliğ edən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın azərbaycançılıq naminə gələcək fəaliyyətlərində uca Allahdan

uğurlar diləyirəm. Vaxtının az olmasına baxmayaraq, Mehriban xanım tez-tez bu ziyarətgaha gəlib fikirlərini söyləyib.

Müqəddəs Kəbə evində Sizə dualar edən, hər zaman Sizin yanınızda olan, dəstəkləyən Azərbaycan dindarları adından doğma Vətənimizi canından artıq sevən, dövlətçiliyimizin, müstəqilliyimizin bünövrəsini qoyan Heydər Əliyev həzrətlərinə, onun həyat yoldaşı akademik Zərifə xanım Əliyevaya burada, müqəddəs «İmamzadə» ziyarətgahında uca Allahdan rəhmət diləyir, onların cənnətməkan olmaları üçün dualar edirəm.

Azərbaycan torpağı həmişə müqəddəslərə qucaq açmış, onlara sığınacaq olmuşdur. Buna misal olaraq, Qurani-Kərimdə xatırlanan Xızır peyğəmbərin Beşbarmaq dağında zühuru, xristianlığa qədərki tarixdə Dağyənusun zülmündən bir dəstə mömin gəncin Naxçıvanın Əshabi-Kəhf mağarasına sığınması, Cərciz peyğəmbərin zərihinin Beyləqanda olmasını və digərlərini qeyd etmək olar. İslamın gəlişindən sonra Əməvilər dövründə zülmə düçar olmuş müqəddəs Əhli-Beyt sülaləsinin Azərbaycana üz tutmuş nümayəndələrinin türbələri ölkəmizin müxtəlif bölgələrində mövcuddur. VIII imam Rza Əleyhissəlamın bacıları Həkimə xanımın Bibi-heybətdə, Rəhimə xanımın Nardaranda, Həzrəti Əlinin oğlu, imam Hüseynin qardaşı Əbülfəz Abbasın övladlarının Bərdə İmamzadəsində, imamzadə İbrahimin isə Gəncədə zərihinin olması Vətənimizi zinətləndirmişdir. Bütün bunlar sübut edir ki, Azərbaycan qədim, şərəfli tarixə malikdir, Nuh Əleyhissəlamdan bu yana müqəddəslərin üz tutduğu, əməlisalehlər üçün ikinci vətən olmuş mübarək məkandır və ta qədimdən mədəni-mənəvi dəyərləri ilə dünyada tanınmışdır.

Kərbəlada imam Hüseyni ziyarət edərkən, onun kölgəsində uyuyan imam aşiqi mütəfəkkir şairimiz Məhəmməd Füzulini də yad etdiyimiz kimi, Gəncədə də imamzadə İbrahimin məqbərəsi yaxınlığında dəfn olunmuş şeyx Nizamini yad etmək imkanından fərəh duyuruq. Bu, təsadüfi hal deyil və Gəncə əhalisinin Əhli-Beytə olan məhəbbətinin bariz nümunəsidir.

Xalqımızın tarixi yaddaşı üçün önəmli məqamlardan birini mən Sizin diqqətinizə ilk dəfə məhz burada – bu mübarək məkanda çatdırmaq istərdim. 1976–77-ci illərdə – ateist təbliğatının tüğyan etdiyi zamanlarda dəvət olunduğum Dini işlər üzrə müvəkkillikdə Gəncə, o zamankı Kirovabad kommunistlərinin Moskvadan, Siyasi Bürodan Suslovun

dərkənarı ilə daxil olmuş şikayət ərizəsi müzakirə olunurdu. Gəncədə kommunist təbliğatını apara bilmədiklərindən şikayətlənənlər şəhəri hədsiz mövhumat məkanı kimi təqdim edərək, «İmamzadə» ziyarətgahını sıradan çıxarmağı təklif edirdilər. Qərara alınmışdı ki, ziyarətgah təmir adı altında hasara alınaraq gizli surətdə məhv edilsin. Mənim o zaman gənc din xadimi olaraq, sovet dövlətinin qərarının qarşısını almaq səlahiyyətim yox idi, lakin bu xəbəri yasin oxutdurmaq üçün Təzəpir məscidinə göndərdiyi qohumu Validə xanımın vasitəsilə Zərifə xanıma, onun vasitəsilə isə Heydər Əliyev həzrətlərinə yetirməyi qərara aldım. Mənim üçün çox təhlükəli olsa da, bu addımı atdım. Şükürlər olsun ki, Zərifə xanım bu xəbərə yüksək diqqət göstərərək, Validə xanım vasitəsilə məndən İmamzadə haqqında, onun məqbərəsi ilə bağlı məlumatları yazılı şəkildə təqdim etməyimi istədi. Heydər Əliyevin məsələyə müdaxiləsi tezliklə öz müsbət nəticəsini verdi. Gəncə «İmamzadə»si SSRİ ərazisində ziyarətgah kimi qeydiyyatdan keçən və dövlət tərəfindən qorunan ilk məkan oldu. Bu nəinki Azərbaycan, bütün bölgə müsəlmanlarına Heydər Əliyevin böyük töhfəsi idi.

Bu zərihin üzərində ulu öndərin və Zərifə xanımın haqqı var. Odur ki, mən çıxışımın əvvəlində onların ruhlarına Allah-Taaladan rəhmət dilədim. Əlhəmdülillah, Heydər Əliyev imamlarımızın əmanəti olan bu məkanı bizim üçün qorudu, İlham Əliyev həzrətləri Azərbaycan və bütün bölgə müsəlmanlarına burada möhtəşəm kompleks hədiyyə etdi. Müstəqil Azərbaycan var olduqca, bu müqəddəs məkan da yaşayacaqdır.

Bu gün Azərbaycanda dövlət mədəniyyətlər, dinlər, sivilizasiyalararası dialoqa dair nüfuzlu beynəlxalq tədbirlər keçirir, milli- mənəvi irsimizlə yanaşı, bəşəri dəyərlərə sahib çıxır, dini məbədləri rövnəqləndirir, dini icmalara yardım və himayəsini əsirgəmir. Dindarlar buna görə dövlətimizə və dövlətimizin başçısına minnətdardırlar və bu siyasətə sadiqdirlər.

Zati-aliləri! Həzrət imamzadə İbrahim Əleyhissəlam, Əhli-Beyt xatirinə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarına Allahdan rəhmət diləyirəm. Bu müqəddəs yerdə dua edirəm ki, uca Allah bizlərə nəsib etdiyi müstəqillik, sabitlik və əmniyyəti daimi etsin. Amin!

Bu kompleksdə görülmüş işlərin mənəvi dəyəri heç bir söz və tərifl ə ölçülə bilməz. Bu işdə zəhməti olan hər kəsə, xüsusən dövlətimizin başçısı İlham Əliyev həzrətlərinə, həmçinin Gəncə şəhər rəhbərliyinə dərin min-

nətdarlığımızı bildirmək istərdim. Bütün müsəlmanlar kimi, mən də dinimiz üçün etdiklərinizin qarşılığında dua edirəm ki, bu böyük əməlin savabını Allah-Taala Əliyevlər ocağına, bütün Azərbaycan xalqına versin, İlham Əliyev həzrətlərini uca Allah bütün bəlalardan qorusun!

Möhtərəm cənab Prezident, uca Allah Sizi və ailənizi xoşbəxt etsin, Sizə övladlarınızın və nəvələrinizin sevincini nəsib etsin!

Allah-Taala namazlarımızı qəbul, dualarımızı müstəcab etsin. Amin!

*Şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısına Qurani-Kərim hədiyyə etdi.*

**Aleksandr İşein** (*Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu)* : Möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Hörmətli xanımlar və cənablar!

Müqəddəs dini ziyarətgahlara, tarix və mədəniyyət abidələrinə qayğıkeş münasibət milli mənlik şüuru hissinin parlaq təzahürüdür. Əlbəttə, müasir dövrdə urbanistika və memarlıq misli görünməmiş dərəcədə tərəqqi edib, lakin milli dühanın, milli memarlığın nailiyyətlərini unutmaq ağılsızlıq olardı. Bakıdakı Heydər məscidi, Şamaxı Cümə məscidi, Gəncədə «İmamzadə» kompleksi kimi binalar Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələridir. Əlbəttə, ziyarətgahlar insanların ibadət və dua etmələrinə imkan yaradır, lakin onlar həm də insanların öz dini biliklərini ümumiləşdirməsinə, dərinləşdirməsinə, öz xalqının tarixi və mədəniyyəti ilə təmasda olmasına imkan verir. Məncə, burada belə ünsiyyət üçün hər cür imkan yaradılıb. Ona görə ki, burada bütün bunların həyata keçirilməsi üçün zəruri infrastruktur çox inkişaf edib. Gənc nəsil üçün xüsusi əhəmiyyət kəsb edən məqam ondan ibarətdir ki, burada gənclərin öz milli identikliyini dərk etmələrinə imkan yaradılıb. Mənim fikrimcə, gənclər burada olarkən öz ölkələrinə görə qürur duyacaq və ən başlıcası, Azərbaycanın gələcək taleyi üçün məsuliyyət hissini öyrənəcəklər.

Cənab Prezident, 40 ildir ki, mən vaxtaşırı Gəncədə səfərdə oluram. Bir müddət burada daimi yaşamışam. Bu şəhərə ayırdığınız diqqətə görə Sizə dərin təşəkkürümü bildirmək istərdim. Dünən və bu gün mən Gəncəni gəzdim və bu şəhərə görə qürur hissi keçirdim. Əlbəttə, Sizə təşəkkür

edirəm ki, Gəncəyə bu qədər böyük diqqət yetirirsiniz. Ulu Tanrı köməyiniz olsun, hamımıza uğurlar diləyirəm və arzum budur ki, hər dəfə Gəncəyə gəlməkdən məmnunluq və sevinc duyaq.

Təşəkkür edirəm.

**Milix Yevdayev** (*Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri):* Möhtərəm Prezident!

Möhtərəm şeyx həzrətləri, məclis iştirakçıları!

Bugünkü təntənəli bayram münasibətilə mən dahi Nizaminin bu qədim vətənində hamınızı təbrik edirəm. O cümlədən qoy Allah-Taalanın qismətindən Azərbaycan xalqına bundan sonra da xoş günlər, xoş anlar nəsib olsun.

Hərdən yuxu kimi gördüyüm dünya,
Yuxuma girəndə həqiqət olur.

Bəli, bugünkü inkişaf Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür.

Möhtərəm Prezident, bugünkü təntənəli açılış ulu öndərin Azərbaycan xalqına olan arzularıdır. Ulu öndər nəinki övladlarının, bütöv bir xalqın, bütöv bir məmləkətin, Azərbaycan xalqının hiss və arzuları ilə yaşayırdı. Siz, möhtərəm Prezident, onun davamçısı olaraq, o arzuları bu gün çin edirsiniz.

Möhtərəm Prezident, qoy Azərbaycan xalqının bütün arzuları Sizin əlinizlə böyük və kiçik çilələrdən keçərək, çin olsun!

Ümumiyyətlə, zirvənin məğrurluğu, möhtəşəmliyi zirvədən uzaqlaşdıqca daha aydın görünür. İllər bizi ulu öndər dühasından uzaqlaşdırsa da, biz ulu öndərin necə bir məğrur, möhtəşəm zirvə olduğunu həmişə görür və hiss edirik. Ona görə də Nizami dühası bütün dünya mədəniyyətinə necə bir günəş kimi şəfəq saçırsa, ulu öndər dühası da illər keçdikcə Azərbaycanı xoşbəxtliyə aparan yola bir günəş kimi işıq saçacaq.

Möhtərəm Prezident, Siz bu il Azərbaycandan dünyaya «Multikulturalizm ili» kimi bir çağırış vermisiniz. O çağırışla bütün dünya xalqlarına, bütün dünya dövlətlərinə Azərbaycanın bugünkü həqiqətlərini bəyan etmək istəyirsiniz. Bəli, bayaq qeyd olundu, biz Fransada sinaqoqa girmək üçün avtomatlıların dəhlizindən keçməli olduq. Onlar isə bizdə olanda ağızları açıq qaldı ki, sinaqoqun qapıları 24 saat taybatay açıqdır. Biz İsveçrədə olanda qaçqınlardan şikayət edildi. Onda biz hamımız bir ağızdan dedik ki,

Azərbaycan kiçik ölkədir. Azərbaycanın 1 milyondan çox qaçqın və köçkünü olanda böyük bir qitə ağzını açmadı. İndi isə siz həmin qaçqınlardan dad edirsiniz. Bəs nə istəyirdiniz? Bizim təqsirimiz nədir ki, qapılarımızın hər birindən, Allaha şükür, 3-4 övladımız çıxır. Amma sizin qapılardan kim çıxır? Övladdan başqa hər şey. Ona görə də buna təəccüblənmək lazım deyil. Bunlar onsuz da 1-2 ildən sonra sizə lazım olacaq. Çünki işçi qüvvəniz də yoxdur.

Əziz dostlar, mən hamınızdan xahiş edirəm, gəlin Azərbaycanın bugünkü həqiqətlərini qoruyub saxlayaq, möhkəmləndirək. Möhtərəm Prezidentimizin ətrafında sıx birləşək.

Bundan sonra da həmişə, hər şabat günü ayaq üstə Allah-Taaladan diləyək ki, qoy Prezidentimizə, xalqımıza, hökumətimizə xoş günlər, xoş anlar qismət etsin. Biz də Azərbaycan xalqı ilə şad və xürrəm yaşayaq.

Ona görə də dostlar, qardaşlar, hamınızı bir daha bu möhtəşəm bayram münasibətilə təbik edir, hamınıza İbrahim peyğəmbər ömrü, Süleyman peyğəmbər müdrikliyi arzulayıram. Allah amanında.

**V l a d i m i r F e k e t e** (*Azərbaycan Katolik kilsəsinin rəhbəri):* Çox hörmətli cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Hörmətli ictimai xadimlər, əziz dostlar!

Təkcə Gəncə şəhəri üçün deyil, bütün Azərbaycan üçün əlamətdar olan bu gündə mən özümdən əvvəl çıxış edənlərin hamısının fikrinə şərik olduğumu, minnətdarlıq və sevinc hisslərimi bildirmək istəyirəm. Azərbaycan katolikləri adından Gəncə şəhərinin sakinlərini və xüsusən Allahın köməyi ilə bu qədim və məşhur ziyarətgahın bərpasını başa çatdırmış müsəlman qardaşlarımızı təbrik edirəm. Təntənəli şəkildə açılan bu gözəl kompleks Gəncə şəhərinin görməli yeri olmaqla bərabər, həm də onun incisidir.

Əminəm ki, vaxt gələcək, bu kompleks Gəncə şəhəri, bütün Azərbaycan üçün əsl mənəvi mərkəz, birləşmə yeri olacaq. Müqəddəs kitabda yazıldığı kimi, insan təkcə yemək üçün deyil, həm də Allah kəlamı üçün yaşayır. Bəli, insan təkcə fiziki varlıq deyil. Onun mənəvi, dini, ictimai ehtiyacları da var. Əgər insan bunu dərk edirsə, onun öz mənəvi ehtiyaclarını düzgün yolla təmin etməyə imkanı olur. Bu həmişə insan şəxsiyyətinin, ölkənin, dövlətin inkişafının xeyrinədir.

İslam dini lap əvvəldən ictimai həyatın vacibliyini vurğulayır və məscid ümmət üçün təkcə dua yeri, Allaha ibadət mərkəzi deyil, həm də ictimai həyat mərkəzi olub. Azərbaycan dünyəvi dövlətdir. Buna baxmayaraq, Azərbaycan hökuməti və xüsusən cənab Prezident əhalinin mənəvi ehtiyaclarına xüsusi diqqət yetirir və onu dəstəkləyir.

Hörmətli cənab Prezident, məscidlərin, habelə məbəd və sinaqoqların tikintisinin, bərpasının qeydinə qaldığınıza, buna şəxsən mənəvi və maliyyə dəstəyi göstərdiyinizə görə Sizə dərin minnətdarlığımı və böyük ehtiramımı bildirmək istərdim. Bu çox böyük nailiyyətdir. Artıq qeyd edildiyi kimi, ənənəvi din liderlərinin bu tədbirdə iştirak etməsi Azərbaycanda tolerantlığın, dinlərarası münasibətlərin yüksək səviyyəsinin bütün dünya üçün təsdiqi və parlaq nümunəsidir.

Ulu Tanrıdan arzum budur ki, bu kompleksin bərpasında zəhməti olan hər kəsin işi avand olsun, Tanrı bu zəhmətin əvəzini versin. Qoy ulu Tanrı Azərbaycanı bu gün də, sabah da firavanlaşdırsın, çətinliklərə baxmayaraq, Azərbaycan sülh və əmin-amanlıq şəraitində inkişaf edə bilsin. Qoy bu gözəl və firavan ölkədə həyat həmişə bütün əhalinin qonaqpərvərliyi və mehriban münasibətlərinin yüksək səviyyəsi ilə fərqlənsin.

Çox sağ olun!

**Mübariz Yusifov** (*Gəncə Dövlət Universitetinin dekanı):* Möhtərəm cənab Prezident!

Mən Sizi bütün Gəncə ziyalıları adından salamlayıram. Sizə uzun ömür, möhkəm cansağlığı, xalqımızın rifahı naminə yeni-yeni uğurlar, böyük nailiyyətlər və sonsuz səadət arzulayıram.

Sizin şəhərimizə hər bir gəlişiniz Gəncə əhalisi üçün böyük bayram sevinci kimi qarşılanır. İndi – Azərbaycan xalqının əziz milli bayramı olan Novruz çərşənbələri ərəfəsində Gəncə şəhərinə gəlişiniz isə bu bayramın sevincini qat-qat artırır.

Bu gün tariximizə Gəncə əhalisinin çoxdan gözlədiyi müqəddəs dini ocağımız sayılan «İmamzadə» kompleksinin açılışı mərasimi kimi daxil olur. Bu müqəddəs məkan hələ ilkin orta əsrlər dövründə – 739-cu ildə imam Məhəmməd Baqirin oğlu Mövlanə İbrahimin məzarı üzərində türbə qoyulduqdan sonra ziyarətgaha çevrilib. Mövlanə İbrahimin məzarı üzərində hələ ilkin orta əsrlər dövründə türbə qoyulması bir tərəfdən, Gəncə şəhərinin qədim mədəniyyətə malik olduğunu göstərirsə, digər tərəfdən,

əhalinin islam dininə rəğbətinin təzahürü hesab edilir. Bu müqəddəs məkana üz tutanlar özlərinin daxili hisslərini imam övladının mənəvi dünyası ilə qovuşduraraq, uca Yaradandan pənah istəyirlər. Sidq ürəklə bu ziyarətgaha üz tutanda öz arzu və diləklərinin həyata keçməsində heç vaxt naümid olmayıblar. «İmamzadə» ziyarətgahı zaman-zaman insanlarda mənəvi kamillik, ictimai həmrəylik və vətənpərvərlik amalının formalaşmasında bir məbədgah olub. Ziyarətgah tarixin müəyyən məqamlarında dağıntılara məruz qalsa da, ayrı-ayrı xeyriyyəçilərin şəxsi vəsaiti və ya vətənpərvər insanların ianəsi hesabına təmir olunub.

Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra isə Azərbaycanda dini abidələrin, müqəddəs ziyarətgahların yeni həyatı başlanıb. Ulu öndərin respublikaya rəhbərlik etdiyi dövrdə ölkədə dövlət hesabına 517 məscid yenidən qurulub. Cənab Prezident, ulu öndərin müqəddəs məkanlara diqqəti, qayğıkeşliyi, təəssübkeşliyi bu gün Sizin tərəfinizdən yüksək səviyyədə davam etdirilir. Sizin tapşırığınız və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın təşəbbüsü ilə ölkədə 2000-dən artıq məscid, dini abidə bərpa edilib və xalqın istifadəsinə verilib.

Müqəddəs ocaqlarımıza rəğbət və qayğıkeşliyiniz Sizin ailənizdə formalaşmış əqidə saflığının bariz təcəssümüdür. Vaxt gələcək, zaman keçəcək və tarixdə yeni görkəm almış bu müqəddəs abidə, bu müqəddəs məkan Sizin adınızla yaşayacaq və tanınacaq.

Cənab Prezident, Sizin böyük qayğıkeşliyiniz sayəsində Gəncə şəhəri gündən-günə gözəlləşir, öz tarixi qədimliyini saxlamaqla, müasirləşir. Bu gün Gəncədə baş verən tikinti, quruculuq, abadlıq işləri ölkəmizdəki sosial-iqtisadi tərəqqinin bir nümunəsinə çevrilib.

Sizin bu böyük məbədgaha diqqət və qayğınızın nəticəsində Gəncə «İmamzadə» ziyarətgahı bütün Şərq ölkələrindəki dini mədəniyyət abidələri sırasında ən möhtəşəm yerlərdən birini tutur. Möhtərəm cənab Prezident, biz, Gəncə ziyalıları Sizin bu diqqətinizə cavab olaraq, «Gəncə İmamzadə ziyarətgahı» adlı bir kitab hazırlamağı qərara aldıq. İcazə versəydiniz, mən bu kitabı bu müqəddəs, bu əziz, bu unudulmaz gündə Sizə təqdim edərdim.

Allah Sizə uzun ömür, möhkəm cansağlığı versin. Allah Sizi qorusun. Azərbaycan xalqının rifahı, daha parlaq gələcəyi naminə Sizə bir daha uzun ömür, cansağlığı və əbədi səadət arzulayıram.

*Mübariz Yusifov «Gəncə İmamzadə ziyarətgahı» kitabını Azərbaycan Prezidentinə təqdim etdi.*

*Mərasimdən sonra dövlətimizin başçısı «İmamzadə» kompleksində yaradılan şəraitlə tanış oldu.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə prezident İlham Əliyevə «İmamzadə» dini kompleksinin təmiri, bərpası və ətrafında aparılan abadlaşdırma işləri barədə məlumat verdi. Bildirildi ki, ümumi sahəsi 1000 kvadratmetr olan digər korpusda Hüseyniyyə və Zeynəbiyyə namazgahları yerləşir. Burada müxtəlif diametrli 46 günbəz ucaldılıb. Xüsusi qurbangahda və 850 nəfərlik ehsan zalında zəvvarların ziyarəti üçün hər cür şərait yaradılıb.*

*Dövlətimizin başçısı beşinci imam Məhəmməd Baqirin oğlu İbrahimin məzarının yerləşdiyi türbədə oldu.*

*Azərbaycan Prezidentinin din xadimləri ilə söhbəti zamanı Qafqaz Müsəlmanları İdarəsi sədrinin qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov dinimizə göstərdiyi qayğıya, bu dəyərli sənət əsərini Gəncəyə hədiyyə etdiyinə görə dövlətimizin başçısına şəhər sakinləri və dindarlar adından dərin minnətdarlığını bildirdi.*

**T a h i r A b b a s o v:** Cənab Prezident, Allah ulu öndərimizin ruhunu şad etsin. Allah onun qəbrini nurla doldursun. Çünki bu gün Azərbaycan ulu öndərimizin müəyyənləşdirdiyi siyasət yolu ilə gedir. Bu məscidlərin tikintisi dinimizə, imanımıza, milli mentalitetimizə, xalqımıza olan qayğısının, sayğısının nəticələridir. Siz ulu öndərimizin siyasətini uğurla davam etdirirsiniz. Xalqımız Sizə inanır və güvənir. Mən Sizə bütün gəncəlilər, bütün dindarlar adından təşəkkür edirəm.

Siz ilk dəfə prezident seçiləndən sonra şəhərimizə gəldiniz, bu ziyarətgahı ziyarət etdiniz. Hələ o zaman bu ziyarətgahın bərpasına qayğı göstərəcəyinizi dediniz və tez bir zamanda vədinizə əməl etdiniz. «İmamzadə»də çox böyük iş görülmüşdür.

Cənab Prezident, bu ibadətgahın əvəzi yoxdur. Şeyx həzrətləri bilir, bütün dünyada ziyarətgahlar var. O ziyarətgahları kimsə tikib. Ətrafdakı binaları isə xeyriyyəçilər inşa ediblər. Amma burada bu işi dövlətimiz görüb. Bu, dövlətimizin dinə olan məhəbbətidir, Sizin dinimizə olan məhəbbətinizdir. Burada bir hərəmin, sağ-sol məscidin, Zeynəbiyyənin,

Hüseyniyyənin tikilməsi, yol çəkilməsi, yaşıllıq salınması, fəvvarələrin qurulması, inzibati binanın, mərasim zalının inşası və s. üçün Sizə Gəncə camaatı adından təşəkkür edirəm. Allah Sizi qorusun. Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun.

*Ziyarətgahın müsəlman aləmi üçün əhəmiyyətini və yaxın-uzaq xaricdən gələn zəvvarların sayının ildən-ilə artmasını nəzərə alaraq, tikilmiş mehmanxanada 33 müsafir otağı var. Burada da ayrı-ayrılıqda qadınlar və kişilər üçün dəstəmazgah, yeməkxanalar, konfrans zalı, dini kitabxana, muzey fəaliyyət göstərəcək.*

*Prezident İlham Əliyev «İmamzadə» kompleksində təmir və yenidənqurma işlərini hər zaman diqqətdə saxlayıb, 3 dəfə bu kompleksə gələrək, tapşırıq və tövsiyələrini verib. Dövlətimizin başçısının sərəncamı ilə müxtəlif illərdə Prezidentin ehtiyat fondundan kompleksin təmir-bərpa işlərinə ümumilikdə 26 milyon manat vəsait ayrılıb. Təmir-bərpa işlərinin layihələndirilməsi və icrası yerli qurumlar tərəfindən aparılıb. Belə ki, Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin «Azərdövlətlayihə» Dövlət Baş Layihə İnstitutunun Gəncə filialı tərəfindən hazırlanmış yenidənqurma və bərpa layihəsini «Gəncəkörpütikinti-2» Səhmdar Cəmiyyətinin inşaatçıları icra ediblər. Ziyarətgahda təmir-bərpa və tikinti işləri zamanı qədim memarlıq üslubunu saxlamağa xüsusi diqqət yetirilib. Yenidənqurma zamanı kompleksin ərazisi abadlaşdırılıb, geniş yaşıllıq zolağı salınıb, avtomobil dayanacağı tikilib.*

*Tədbirin sonunda xatirə şəkli çəkdirildi və prezident İlham Əliyevin adından «İmamzadə» dini kompleksində ehsan süfrəsi açıldı.*

## Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Azərbaycanda səhiyyənin inkişafı sosial siyasətin başlıca istiqamətlərindən biridir. Bu sahənin keyfiyyət və kəmiyyət göstəriciləri ilə zənginləşməsində prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət*

əsas rol oynayır. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunmasında müstəsna əhəmiyyətə malikdir. Azərbaycan vətəndaşlarının ən yüksək səviyyədə tibbi xidmətlərlə əhatə olunması üçün səhiyyə müəssisələrinin təmiri və bərpası, yeni tibb ocaqlarının tikintisi və onların ən müasir avadanlıqlarla təminatı, vətəndaşların müalicəsi, uşaqların bütün növ tibbi xidmətlərlə yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsasını təşkil edir.

Bu gün əminliklə demək olar ki, ölkəmizin hər yerində əhalinin tibbi xidmətlərlə lazımınca təmin olunması üçün bütün növ müayinə və müalicəni, əməliyyatları uğurla həyata keçirməyə imkan verən yeni müəssisələr yaradılıb. Ölkəmizin digər bölgələrində olduğu kimi, Gəncədəki Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasının əsaslı təmiri səhiyyə sahəsində görülən tədbirlərin bir hissəsidir. Bu xəstəxananın yenidənqurmadan sonra istifadəyə verilməsi sakinlərin yüksək səviyyəli səhiyyə xidmətindən istifadəsinə geniş imkanlar yaradır.

Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, 245 çarpayılıq xəstəxana binasında cərrahiyyə, travmatologiya, urologiya, terapiya, hemodializ, nevrologiya, ginekologiya, dəri-zöhrəvi şöbələri fəaliyyət göstərəcək. Bundan başqa, tibb müəssisəsində rentgen, fizioterapiya, laboratoriya, ultrasəs müayinə, EKO bölmə və kabinetləri də yaradılıb. Xəstəxanada nüvə maqnit rezonans tomoqrafiya, rəqəmsal rentgen cihazı, immunoferment analizatoru, biokimyəvi analizator və tibbin ən son nailiyyətləri olan digər avadanlıq və cihazlar var. Burada quraşdırılan avadanlıq hesabına ən dəqiq laborator analizlər aparmaq, diaqnoz qoymaq mümkündür.

Tibb ocağında müalicə işini də ən yüksək səviyyədə həyata keçirmək üçün hərtərəfli imkan var. Buradakı avadanlıqlar dünyanın aparıcı ölkələrinin nüfuzlu tibb cihazları istehsalı ilə məşğul olan şirkətlərinin məhsullarıdır. Xəstəxanada 370 tibb işçisi çalışır ki, onların 56-sı həkimdir. Tibb müəssisəsinin xidmətindən nəinki şəhər, eləcə də ətraf rayonların əhalisi istifadə edə biləcək.

Bütün bunlar onu göstərir ki, müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində səhiyyə müəs-

*sisələri ən müasir tələblərə cavab verir. Yaradılan bu şərait ilk növbədə, Azərbaycan əhalisinin sağlamlığını qorumaq kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

## Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəb binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə Mir Cəlal Paşayev adına 39 saylı tam orta məktəb binasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda həyata keçirilən dövlət siyasətində təhsil sahəsinə xüsusi diqqət göstərilir. Mövcud məktəb binalarının yüksək səviyyədə yenidən qurulması, müasir təhsil ocaqlarının inşası bu sahəyə göstərilən dövlət qayğısının daha bir təzahürüdür. Gəncə şəhərində 39 saylı tam orta məktəbin əsaslı təmiri və yeni tədris korpusunun tikintisi bu qəbildən olan layihələrdəndir.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məktəbin əsaslı təmiri və yeni tədris korpusunun tikintisi barədə məlumat verildi. Bildirildi ki, bu məktəb 1962-ci ildə istifadəyə verilib və ilk dövrlərdə 39 saylı beynəlmiləl orta məktəb adlanıb. 1978-ci ildə görkəmli ədəbiyyatşünas alim və yazıçı Mir Cəlal Paşayevin vəfatından sonra onun adını əbədiləşdirmək üçün pedaqoji kollektivin xahişinə əsasən məktəbə Mir Cəlal Paşayevin adı verilib. Bu təhsil ocağı nəinki Gəncənin, ümumilikdə Azərbaycanın ən nüfuzlu məktəblərindən biridir. Məktəbin müəllim kollektivi arasında «Tərəqqi» medalına, «Əməkdar müəllim», «Qabaqcıl təhsil işçisi», «İlin ən yaxşı müəllimi» fəxri adlarına layiq görülmüş pedaqoqlar var. Hər il məzunların əksəriyyəti yüksək balla ölkəmizin və dünyanın nüfuzlu ali təhsil ocaqlarına qəbul olur, Prezident təqaüdünə layiq görülür.*

*Prezident İlham Əliyevin 2010-cu ildə imzaladığı sərəncama əsasən bu məktəb 2009–2010-cu dərs ilində keçirilən «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi olub. Hazırda məktəbdə 2138 şagird təhsil alır.*

*Qeyd olundu ki, məktəbin 930 şagird yerlik mövcud binası Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilib. Təhsil müəssisəsinin ümumi ərazisi 12 min kvadratmetrdir. Ətrafda yaşıllıq zolağı yaradılıb, 3,2 min kvadratmetr sahə asfaltlanıb.*

*Dördmərtəbəli binanın foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Burada eyni zamanda, smart sinif, informatika, psixoloq otaqları, inzibati bölmə, fizika, kimya, biologiya kabinetləri də zəruri ləvazimatlarla təchiz edilib.*

*Bildirildi ki, məktəbin 1200 şagird yerlik yeni korpusu Gəncə Şəhər İcra Hakimiyyətinin sifarişi ilə dövlət büdcəsi vəsaiti hesabına tikilib. Yeni korpus üçün transformator yarımstansiyası quraşdırılıb, su və kanalizasiya şəbəkəsi yaradılıb, su və yanğın hovuzları inşa edilib, müasir qazanxana quraşdırılıb. Həyətyanı sahədə açıq idman meydançası yaradılıb, qurğular quraşdırılıb.*

*Binada sinif otaqları, 3 emalatxana, qapalı idman zalları, zəngin kitabxana, kimya, fizika kabinetləri və laboratoriyaları, tibb otağı, yeməkxana, müəllimlər otağı, hərbi kabinet, arxiv, 150 yerlik akt zalı, dərnək kabinetləri var.*

*Bu tədris ocağında yaradılan şərait bir daha sübut edir ki, ölkəmizdə təhsilə yüksək diqqət və qayğı göstərilir, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Təqdirəlayiq haldır ki, bu layihələr Azərbaycanın hər bir şəhərini, rayonunu, qəsəbəsini əhatə edib. Belə müasir məktəblərin yaradılması həm də ölkəmizin gələcəyinə qoyulan sərmayə kimi, böyük əhəmiyyət daşıyır.*

## «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin istehsal sahələri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin istehsal sahələri ilə tanış olmuşdur.*

*Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni sənaye və istehsal müəssisələri yaradılır. Ölkədə gedən*

*sənayeləşmə prosesinə «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyi də mühüm töhfələr verir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan zavod 2004-cü ilin dekabrında fəaliyyətə başlayıb. İnkişaf tempini sürətlə artıran zavod ötən illərdə istehsal sahələrini genişləndirməkdə davam edib. Fəaliyyətinə OKA, UAZ, ÇAN-QAN avtomobillərinin yığımı ilə başlayan müəssisə hazırda 35 çeşiddə texnika istehsal edir. 2007-ci ilin mart ayından burada «Belarus» markalı traktorların yığımına başlanılıb. Traktorların yerüstü yığım xətti 8 postdan ibarətdir. Burada 3 minədək dəstləşdiricinin yığımı aparılır. 2007-ci ildən bəri zavodda 7 modeldə 6300 «Belarus» markalı traktor istehsal edilib.*

*«Aqrolizinq» ASC-yə 5737 traktor təhvil verilib. Zavodda Almaniyanın MAHA şirkətinin müasir standartlara cavab verən əyləc sisteminin sınaq stendi quraşdırılıb. Burada istehsal edilən bütün texnika – traktor və avtomobillər tam şəkildə sınaqdan keçirilir. 2015-ci ildə zavod fəaliyyəti dövründə ən yüksək göstəricisinə nail olub. Ötən il müəssisə 86 milyon 583 min manatlıq məhsul istehsal edib. Qonşu Gürcüstana 358 min manat dəyərində texnika ixrac olunub. Keçən ildən zavodda KaMAZ və URAL markalı avtomobillərin də yığımına başlanılıb.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işlərində, həmçinin kənd təsərrüfatında istifadə edilən maşın və texnikalara olan ehtiyacın ödənilməsində bu müəssisənin fəaliyyəti önəmli rol oynayır. Xarici tərəfdaşlarla səmərəli əlaqələr qurulması nəticəsində zavod istehsal olunan maşın və texnikaların çeşidini ildən-ilə artırır. İndi müəssisə Minsk təkərli dartıcılar zavodu ilə əməkdaşlıq çərçivəsində ağır yük daşıyan qoşqu istehsal edir. Daha çox istifadə olunan MAZ markalı avtomobillərin istehsalı ildən-ilə artır. Son 8 ildə 20 modeldə MAZ markalı avtomobil yığılıb. Bu avtomobillərin yığımının 40–50 faizini yerli istehsal təşkil edir. Zavodda müasir tələblərə cavab verən qaynaq və boyama, sudaşıyan avtomobillər üçün çənlər hazırlayan sahələr fəaliyyət göstərir. Avtomobil qoşquları əsasən yerli istehsaldır.*

*Bildirildi ki, istehsal xətlərinin sıxlığı nəzərə alınaraq, 30 min kvadratmetr sahəsi olan yeni istehsalat sahəsi yaradılır. Burada ən*

*müasir avadanlıqlarla təchiz olunan texnoloji xətlər quraşdırılacaq. Yeni istehsal sahəsində MAZ markalı avtobusların quraşdırılması nəzərdə tutulur. Bu həm də 120–150 əlavə iş yerinin açılmasına imkan verəcək. Hazırda müəssisədə 600-dən artıq işçi çalışır. Zavodda işçilər pulsuz yemək və nəqliyyatla təmin olunublar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Belarusdan nümayiş üçün gətirilən CNG qaz mühərrikli avtobus Bakıda istismar üçün münasibdir. Avtobusun Bakıda sınaqdan keçirilməsi üçün «BakuBus» MMC ilə razılığa gəlinib. İkinci model avtobusun Gəncə, Sumqayıt və digər şəhərlərdə istismarı əlverişlidir. Ekoloji cəhətdən təmiz «Avro-5» standartına cavab verən avtobus şəhərdaxili istifadə üçün uyğundur. Belarus mütəxəssisləri ilə birgə avtobusların istehsalının təşkili istiqamətində işlər aparılır.*

*Bundan əlavə, gələcəkdə İtaliya və Almaniyadan gətirilən şassi üzərində müxtəlif markalı avtobusların karkas və salonunun istehsalını təşkil etmək mümkündür. Yerli istehsal avtobusların maya dəyərinin 25–30 faizədək aşağı düşməsinə təsir göstərəcək. Zavodun mütəxəssisləri Almaniyanın HALLER kommunal avadanlığının MAZ şassinin üzərində quraşdırılması üçün konstruktiv dəyişiklik ediblər.*

*Diqqətə çatdırıldı ki, müəssisənin Gürcüstanda nümayəndəliyi fəaliyyət göstərir. Müəssisə istehsal etdiyi texnika ilə bağlı tenderlərdə iştirak edir. Hazırda zavod belaruslu tərəfdaşlarla birgə Gürcüstanda xüsusi təyinatlı texnika və avtobuslarla bağlı tenderdə iştirak edir. Paralel olaraq, Türkiyə və Qazaxıstan bazarına çıxmaq üçün ciddi işlər görülür.*

*Bildirildi ki, «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyi dövlətimizin başçısının diqqət və qayğısını daim hiss edir. Təsadüfi deyil ki, 2014-cü ildə Azərbaycanda maşınqayırma sənayesinin inkişafında xidmətlərinə görə birliyin bir sıra əməkdaşı yüksək mükafatlar – orden, medal və fəxri adlarla təltif edilib.*

## «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin balansında olan 240 yerlik Körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin balansında olan 240 yerlik Körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Uşaqların təlim-tərbiyəsinin təşkili, onların sağlamlığının qorunması həyata keçirilən dövlət siyasətində əsas yerlərdən birini tutur. Bu istiqamətdə görülən mühüm tədbirlər sırasında mövcud körpələr evləri və uşaq bağçalarının əsaslı təmiri, yenilərinin inşası xüsusi yer tutur. Bununla bağlı görülən genişmiqyaslı işlər ölkənin gələcəyi olan uşaqlara diqqət və qayğıdan irəli gəlir. Gəncədəki 240 yerlik körpələr evi-uşaq bağçasının əsaslı təmiri bu diqqətin daha bir nümunəsidir.*

*Binada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli imkanlar var. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılır.*

*Azərbaycan Prezidenti Körpələr evi-uşaq bağçasının binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işləri zamanı bağçanın ərazisi hasarlanıb, yaşıllıq zolağı yaradılıb, uşaqların istirahətini mənalı təşkil etmək üçün yay çardaqları, əyləncə və oyun avadanlıqları quraşdırılıb. Bina üçün su anbarı, qazanxana tikilib.*

*İkimərtəbəli bağça binasının idman zalı, üzgüçülük hovuzu müasir səviyyədə təmir olunub. Burada qrup, yataq və soyunub-geyinmə, şahmat və tibb otaqları, oyun zalı, metodik kabinet təşkil olunub.*

*Diqqətə çatdırıldı ki, bağçada 9 qrupda hazırda 164 körpə var. Onlardan 64-ü «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyində çalışan işçilərin övladıdır. Körpələr evi-uşaq bağçasında ingilis dilini və şahmatı dərindən öyrənmək məqsədilə əlavə dərslər tədris olunur. Bağçada tərbiyə alan uşaqların daşınması xüsusi avtobusla mühafizəçilərin nəzarəti altında həyata keçirilir. Körpələr evi-uşaq bağçasında uşaqların təlim-tərbiyəsi ilə 19 nəfər məşğul olur.*

## «Gəncə – 2016-cı il Avropa gənclər paytaxtı» parkında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də «Gəncə – 2016-cı il Avropa gənclər paytaxtı» parkında yaradılan şəraitlə tanış olmuşdur.*

*Gəncə artıq qitə əhəmiyyətli şəhərlərdən birinə çevrilib. Bu baxımdan şəhərin «2016-cı il Avropa gənclər paytaxtı» elan olunması təsadüfi deyil. Bununla bağlı həyata keçirilən tədbirlər sırasında «Gəncə – 2016-cı il Avropa gənclər paytaxtı» parkının inşası mühüm yer tutur.*

*Məlumat verildi ki, parkın inşasına 2015-ci ildə başlanılıb. Tikinti işləri ilin sonunda başa çatdırılıb. Park şəhərin daxili imkanları hesabına inşa olunub. Ümumi sahəsi 1,8 hektar olan parkda geniş tikinti-quruculuq və abadlıq işləri aparılıb, yaşıllıq zolaqları salınıb. Parkın mərkəzində hündürlüyü 5 metr olan «Gəncliyin qanadları» abidəsi ucaldılıb.*

*Gəncənin 2016-cı ildə «Avropanın gənclər paytaxtı» olması ilə bağlı burada xüsusi kompozisiya da quraşdırılıb.*

## «Gəncəçay» park-bulvar kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncəçay çayı boyunca yaradılan park-bulvar kompleksi ilə tanış olmuşdur.*

*Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlərin, bulvar, park və xiyabanların yaradılması işləri sürətlə davam etdirilir. Bu proses Gəncədə də geniş vüsət alıb. Gəncəçay çayı boyunca yeni yaradılan bulvar-kompleksində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, oturacaqlar qoyulub. Burada quraşdırılan fəvvarələr ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni park, istirahət məkanı və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin*

*daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bulvar-kompleksin uzunluğu 1,2 kilometrdir. Ümumi sahəsi 34 hektar olan bu kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, «Əli və Nino» kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli 3 yaşayış binası, 3 kafe, restoran və kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilib. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və 2 velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb.*

*Bulvarın yuxarı hissəsindən keçən Azərbaycan Bayrağı küçəsi abadlaşdırılıb, 1,5 hektar ərazidə avtomobillər üçün dayanacaq inşa edilib. Bundan əlavə, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub.*

## «Nizami» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də 35/6 kV-luq «Nizami» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» ASC yaradıldıqdan sonra regionlardakı elektrik şəbəkələrinin mövcud vəziyyətinin qısa müddətdə hərtərəfli təhlili aparılaraq, ölkənin sosial-iqtisadi inkişaf strategiyasına və müxtəlif vaxtlarda qəbul edilmiş dövlət proqramlarına uyğun olaraq, istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz edilməsi üçün bütün regionları əhatə edən 4 hissədən ibarət «İnkişaf və Yenidənqurma Proqramı» hazırlanaraq, icrası uğurla həyata keçirilir. Hazırda bütün şəhərlərdə, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə yararsız, istismar müddəti başa çatmış transformatorların yenilənməsi, müasir tipli avadanlıqlarla təchiz edilməsi prosesi gedir. İlkin olaraq, ölkə üzrə komplekt transformator məntəqələri quraşdırılır ki, onlar da həm görünüşünə, həm də tex-*

niki göstəricilərinə görə əvvəlkilərdən tamamilə fərqlənir. Gəncədə 35/6 kV-luq «Nizami» yarımstansiyasının inşası da son illərdə ölkəmizin regionlarının elektrik enerjisi ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlı olduğunu nümayiş etdirir.

«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev məlumat verdi ki, Gəncənin böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 35 kV-luq elektrik şəbəkələri ilə əlaqələndirilməsi məqsədilə 35/6 kV-luq «Üzgüçülük» yarımstansiyasının yerində müasir tipli tam qapalı 35/6 kV-luq yeni «Nizami» yarımstansiyası tikilib. Yarımstansiyanın tikintisinə 2015-ci ilin aprelində başlanılıb. Yeni yarımstansiya 6000-dən çox abonentin elektrik enerjisi ilə təminatını daha da yaxşılaşdıracaq. Ümumi sahəsi 1700 kvadratmetr olan yarımstansiyada 35/6 kV-luq 2 transformator və 35/6 kV-luq qapalı paylayıcı avadanlıq quraşdırılıb.

Burada həm də Gəncə Şəhər Elektrik Şəbəkəsinin inzibati binası yerləşir. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Yarımstansiyada və inzibati binada 80-ə yaxın işçi çalışacaq.

Qeyd olundu ki, yeni yarımstansiya şəhərin mərkəzi hissəsində mövcud elektrik yüklərinin, eləcə də perspektivdə 10 il ərzində yaranacaq yüklərin qarşılanmasını təmin edəcək. Yeni yarımstansiya şəhərin ən mühüm obyektlərini və 6000-dən çox olan əhali sektorunu elektrik enerjisi ilə təmin edəcək. Yarımstansiyanın tikintisi və Gəncə şəhərində 3 ədəd 110 kV-luq «Az.KTA», «Gəncə-1» və «Bağmanlar» yarımstansiyalararası 35 kV-luq elektrik şəbəkələri vasitəsilə əlaqələndirilməsi 35 kV-luq dairəvi elektrik təchizat sxeminin yaradılmasına səbəb olub. Bu da öz növbəsində, şəhərin mərkəzi hissəsinin elektrik təchizatının dayanıqlılığını və etibarlılığını təmin edəcək. Yarımstansiya müasir standartlara cavab verən avadanlıq, eleqaz və vakuum tipli açarlarla təchiz edilməsi ilə yanaşı, məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub. Yarımstansiyada xaricdə və yerli müəssisələrdə istehsal olunan elektrik avadanlığı, müasir elektron tipli rele mühafizəsi və avtomatika sistemi, respublikada istehsal olunmuş güc transformatorları quraşdırılıb. Burada şəbəkə işçiləri və növbətçi heyət

*üçün müvafiq otaqlar inşa edilib, yanğına qarşı xəbərdarlıq sistemi, yanğından mühafizə hovuzları yaradılıb. Gəncənin qədim şəhərsalma ənənəsinə uyğun olaraq, tikilən yarımstansiyanın birinci mərtəbəsi kərpicdən olmaqla, xüsusi memarlıq üslubunda inşa edilib. İnşaat işləri zamanı 900 metr uzunluğunda asfalt yol salınıb, ətraf abadlaşdırılıb, yaşıllıq zolaqları yaradılıb.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*Diqqətə çatdırıldı ki, regionda gedən yenidənqurma işlərinə uyğun olaraq, müvafiq şəbəkədə çalışan kadrların təkmilləşdirilməsi, onların ixtisasının artırılması və yenidən hazırlanması üzrə fəaliyyəti təmin etmək məqsədilə Gəncədə yeni tikilmiş «Nizami» yarımstansiyasında «Azərişıq» ASC-nin Qərb Regional Tədris Mərkəzi yaradılıb. Mərkəzdə 6/0,4 kV-luq paylayıcı sistem, rele mühafizəsi və avtomatika, əməyin mühafizəsi və təhlükəsizlik texnikası, uçota nəzarət sayğaclarının test və idarəetmə sistemləri, kabel armaturlarının quraşdırılması, istismarı və təmiri, elektrik avadanlığının sınağı və diaqnostikası, digər təcrübə bölmələri var. Tədris Mərkəzi elektroenergetikanın müxtəlif ixtisas sahələrini əhatə edən yeni dərs vəsaitləri, eləcə də şəbəkəyə tətbiq olunan müasir avadanlığın xarakteristikası və iş prinsipi üzrə metodik praktikumlarla təmin olunub. Yeni yaradılan Tədris Mərkəzindən qərb regionu ilə yanaşı, şimal-qərb və Mərkəzi Aran regionlarının əməkdaşları da yararlana biləcəklər.*

## Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışında iştirak etmişdir.*

*Ölkəmizdə qeyri-neft sektorunun prioritet sahələrindən biri də kənd təsərrüfatıdır. Bu sahədə peşəkar kadrların hazırlanmasında, uğurlu layihələrin həyata keçirilməsində Azərbaycan Dövlət Aqrar Universiteti mühüm yer tutur. İndiyədək bu ali təhsil ocağı Azərbaycan, eləcə də dünya aqrar elmi üçün yüzlərlə alim və mütəxəssis yetişdirib. Bu ali təhsil ocağı həm də ölkəmizin kənd təsərrüfatının*

daha da inkişaf etdirilməsində elmi tədqiqatların mühüm mərkəzi hesab olunur. Azərbaycan dövləti bu ali təhsil ocağının professor, müəllim və tələbə heyətinə daim diqqətlə yanaşıb, onların elmi fəaliyyətlə səmərəli məşğul olmalarına, yüksək səviyyədə təhsil almalarına və sosial məsələlərinin həllinə həssaslıqla yanaşır. Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının inşası bu istiqamətdə görülən işlərin tərkib hissəsidir. Yüksək zövqlə və keyfiyyətlə tikilmiş bina tələbələrin sosial məsələlərinin həlli baxımından mühüm əhəmiyyətə malikdir. Burada təhsil müddətində tələbələrin yaşaması və dərsdən sonra istirahətləri üçün bütün imkanlar var. Bu ali təhsil ocağının tələbələri də onlara göstərilən etimadı doğrultmağa çalışırlar. Onlar istər respublika, istərsə də dünya əhəmiyyətli bilik yarışmalarında ölkəmizi və təhsil aldıqları universiteti layiqincə təmsil edirlər.

Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının rəmzi açılışını bildirən lenti kəsdi.

Kompleks 4 korpusu yeddimərtəbəli, 1 korpusu isə altımərtəbəli binalardan ibarətdir. Əsas korpusun foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilin inkişafına göstərdikləri qayğını, həmçinin Gəncəyə səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb.

Binada qeydiyyat şöbəsi, zəngin kitabxana, stomatoloji kabinet, müayinə otağı, fotoatelye fəaliyyət göstərir. Binalarda akt və fitnes zalları, ticarət, iaşə və məişət xidməti obyektləri də var. Yataqxanadakı 257 otağın 251-i ikinəfərlik, altısı isə üçnəfərlikdir. Bütün mərtəbələrdə istirahət guşəsi və mətbəx var. Dam örtüyünün 2000 kvadratmetr sahəsi yataqxanada yaşayanların gəzintisi üçün nəzərdə tutulub. Yataqxananın elektrik enerjisi ilə təminatı üçün 1000 kilovoltluq güc transformatoru, isti və soyuq su ilə təminatı üçün qazanxana quraşdırılıb, su və yanğın hovuzları inşa edilib.

Yataqxana istiqamətində Ozan və İsmət Qayıbov küçələrində abadlıq-quruculuq işləri aparılıb, asfalt salınıb və işıqlanma ilə təchiz edilib. Yolboyu hasarlar Gəncəyə xas memarlıq üslubunda kərpiclə üzlənib.

*Kompleksdə yaradılan şərait müxtəlif şəhər və rayonlardan olan tələbələrə özlərini evdəki kimi hiss etməyə imkan verəcək.*

## Hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak etmişdir.*

*Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan nizami ordu quruculuğu siyasətini prezident İlham Əliyev uğurla davam etdirir. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən peşəkar və güclü ordularından birinə çevrilib. Milli Ordumuzun şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır, bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə daha bir mühüm addım atılıb. Gəncə şəhərində hərbi qulluqçular üçün şəhərcik inşa olunub. Bütün lazımi şəraitlə təchiz edilmiş belə müasir şəhərciyin salınması hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlməklə yanaşı, ordumuzun qüdrətinin artmasına da mühüm təsir göstərir.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yaşayış kompleksi 14 çoxmənzilli binadan ibarətdir. Kompleks şəhərin Yeni Gəncə yaşayış massivində 2-ci mikrorayonda yaradılıb. Doqquzmərtəbəli binalardan ibarət kompleksdə ümumilikdə 696 mənzil var. Onların 48-i birotaqlı, 224-ü ikiotaqlı, 312-si üçotaqlı, 112-si isə dördotaqlıdır. Mənzillər su, işıq, qaz və «kombi» istilik sistemi ilə təmin olunub. Kompleksin ərazisində yaşıllaşdırma və abadlıq işləri ilə yanaşı, sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılıb. Uşaq əyləncə və idman meydançası salınıb. Yaşayış kompleksinə gedən «28 May» prospekti yenidən qurulub, işıq dirəkləri təzələnib.*

*Prezident İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə tanış oldu.*

*Azərbaycan Prezidenti əvvəlcə polkovnik-leytenant Həziyevin mənzilinə baxdı, ailə üzvlərini təbrik etdi.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Böyük şəhərcik yaradılıb. İndi hərbçilər öz ailələri ilə bu şəhərcikdə yaşayacaqlar. Dövlət hərbçilərə belə gözəl qayğı göstərir. Gözəl evlər tikilir. İndi orduda 20 il qüsursuz xidmət etmiş 750 hərbçi artıq dövlət tərəfindən pulsuz mənzillə təmin olunub.

Bu proses davam etdirilir. Hər il hərbçilərə dövlət tərəfindən mənzillər veriləcək ki, onlar özlərini yaxşı hiss etsinlər, ailələri yaxşı şəraitdə yaşasın, gözəl övladlar böyütsünlər və ordumuz üçün yeni kadrlar yetişdirsinlər. Gənclər də görəndə ki, hərbçilərə, xüsusilə hərbi xidmətdə fərqlənmiş insanlara dövlət tərəfindən belə yüksək qiymət verilir, onlar da bu işlərə daha böyük həvəslə qoşulacaqlar. Beləliklə, bizim çox gözəl gənc kadrlarımız yetişəcək. Sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**Polkovnik-leytenant Həziyev:** Çox sağ olun, cənab Ali Baş Komandan. Biz də öz ailəmiz adından, bütün hərbi qulluqçularımız adından Sizə minnətdarlığımızı bildiririk. Bu gün bizim sevincimizə Siz də şərik oldunuz, gəldiniz. Bizim üçün bundan böyük xoşbəxtlik ola bilməz.

**İlham Əliyev:** Sağ olun.

* * *

*Sonra dövlətimizin başçısı polkovnik-leytenant Hüseynovun mənzilində oldu, onu və ailə üzvlərini təbrik etdi.*

*Sonda xatirə şəkilləri çəkdirildi.*

## Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Gəncədə mədəniyyət və incəsənət müəssisələrinin tikintisi və müasirləşməsi prosesi uğurla davam etdirilir. Onların sırasında Gəncə Dövlət Filarmoniyası xüsusi yer tutur. Dövlətimizin başçısı 2012-ci il yanvarın 21-də Gəncədə olarkən Dövlət*

*Filarmoniyası binasının təməlini qoymuşdu. Hazırda bu obyektdə işlərin əsas hissəsi görülüb.*

*Məlumat verildi ki, bu tikili qəzalı vəziyyətə düşmüş köhnə filarmoniya binası, «Bakı» kinoteatrı və Uşaq Yaradıcılıq Mərkəzinin yerində ucaldılır. Bir hektardan çox ərazidə tikilən altımərtəbəli yeni binada layihə üzrə 1200 tamaşaçı yeri olan konsert zalı, 2 kinozal, açıq havada yay estradası meydanı, şəkil qalereyası, baxış qülləsi yaradılır. Binada restoran və kafelər, o cümlədən 800 kvadratmetrlik yeraltı qaraj tikilir.*

*Dövlətimizin başçısı tikinti işlərinin uğurla yekunlaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!
Əziz qardaşım!

Ankara şəhərində törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bəşəriyyət üçün dəhşətli bəlaya çevrilmiş terrorizmi qətiyyətlə pisləyir, ona qarşı mübarizəni hər cür dəstəkləyirik. Bu amansız hadisə terrorizmə qarşı hamılıqla mübarizənin zəruriliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 fevral 2016-cı il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Birləşmiş Millətlər Təşkilatının 6-cı Baş katibi, görkəmli siyasi xadim Butros Butros-Qalinin vəfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2016-cı il*

**PORTUQALİYA RESPUBLİKASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
MARSELO REBELO DE SUSAYA**

Hörmətli cənab Rebelo de Susa!

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı və genişlənməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 fevral 2016-cı il*

# TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*18 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etmişdir.*

*Fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı Mövlud Çavuşoğluna və türk xalqına başsağlığı verən dövlətimizin başçısı bu terrorun Azərbaycanı da sarsıtdığını vurğulayaraq hadisənin ölkəmizdə qətiyyətlə pislənildiyini və qınanıldığını dedi. Prezident İlham Əliyev həmişə olduğu kimi, bu ağır günlərdə də Azərbaycan xalqının türk xalqının yanında olduğunu qeyd etdi. Dövlətimizin başçısı dedi: «Fevralın 17-də qardaşım, hörmətli prezident Rəcəb Tayyib Ərdoğan axşam saatlarında mənə telefonla zəng etdi və bildirdi ki, bu hadisə ilə əlaqədar Bakıya gələ bilməyəcək. Təbii ki, biz bunu anlayırıq. Mən ona da Azərbaycan xalqının başsağlığını ifadə etdim, şəhid olanlara Allahdan rəhmət, yaxınlarına səbir və yaralı qardaşlarımıza şəfa dilədim».*

*Prezident İlham Əliyev Türkiyə Prezidenti üçün münasib olan bir vaxtda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ölkəmizdə keçiriləcəyi ilə bağlı razılaşdıqlarını qeyd etdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının əhəmiyyətindən danışan dövlətimizin başçısı bunu birliyimizin ifadəsi kimi dəyərləndirdi. Şuranın iclasının gündəliyinin geniş olduğunu və burada bir çox məsələlərin müzakirə ediləcəyini deyən dövlətimizin başçısı iclasın yaxın vaxtlarda keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı verdiyi başsağlığına, qardaş Azərbaycan xalqının və şəxsən prezident İlham Əliyevin hər zaman olduğu kimi, bu*

*ağır günlərdə də Türkiyənin və türk xalqının yanında olmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Terrorun bütün formalarına qarşı mübarizənin vacibliyini vurğulayan Mövlud Çavuşoğlu terrora qarşı mübarizənin bundan sonra da davam etdiriləcəyini qeyd etdi. O, Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının yaxın vaxtlarda gerçəkləşəcəyinə və dövlət başçılarının liderliyi ilə ölkələrimiz arasında münasibətlərin daha da irəliyə aparılacağına əminliyini ifadə etdi.*

*Mövlud Çavuşoğlu son zamanlar Azərbaycanda iqtisadi, o cümlədən ölkə həyatının bütün sahələrinin inkişafı ilə bağlı qəbul olunan qərarların ölkəsində rəğbətlə qarşılandığını dedi və qardaş Azərbaycanın gələcəyi ilə bağlı prezident İlham Əliyevin liderliyi ilə görülən bütün işlərdə uğurlar arzuladı.*

## XALQ ŞAİRİ NƏRİMAN HƏSƏNZADƏYƏ

Hörmətli Nəriman Həsənzadə!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 85 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Ədəbiyyat aləminə gəldiyiniz ilk günlərdən Siz Azərbaycan poeziyasının çoxəsrlik ənənələrini davam etdirərək, xalqımızın şeir xəzinəsinə layiqli töhfələr verən lirik şair kimi tanınmısınız. Sizin özünəməxsus üslubu və dəstxətti ilə seçilən və klassik ədəbiyyatımızın, folklorun zəngin imkanlarından faydalanan yaradıcılığınız dərin səmimiyyəti, xəlqiliyi və bədii-estetik kamilliyi ilə səciyyələnir. Doğma təbiətin gözəlliklərini tərənnüm edən şeirlərinizin vətənpərvərlik hisslərinin təlqin edilməsində və Vətənin yaddaşlara həkk olunan parlaq obrazının yaradılmasında xüsusi rolu vardır. Dramaturgiya və nəsr sahəsində fəaliyyətiniz tarixi mövzuları ehtiva etməklə yanaşı, cəmiyyət üçün olduqca böyük əhəmiyyətə malik insan münasibətlərini, milli-mənəvi dəyərləri və yüksək humanizmi özündə əks etdirir.

Sizin elmi-publisistik məqalələriniz də ədəbi ictimaiyyət tərəfindən daim böyük rəğbətlə qarşılanmışdır. Şeirlərinizə bəstələnən çoxsaylı nəğmələr isə şöhrətinizi artıraraq Azərbaycanın musiqi mədəniyyətini daha da zənginləşdirmişdir. Əminəm ki, Siz bundan sonra da yeni əsərlərinizlə sənətsevərlərə sevinc və töhfələr bəxş edəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 fevral 2016-cı il*

**BRUNEY-DARÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasındakı dostluq münasibətlərinin, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *19 fevral 2016-cı il*

## FRANSA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Fransa Senatının Yuxarı Reyn Departamentindən olan senatoru, Fransa–Qafqaz dostluq qrupunun üzvü, sabiq nazir Jan-Mari Bokelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Fransa parlamenti üzvlərinin ölkəmizə səfərlərinin ənənəvi xarakter daşıdığını vurğulayaraq nümayəndə heyətinin hər dəfə yeni tərkibdə Azərbaycana səfər etmələrini müsbət hal kimi dəyərləndirdi və səfərin Azərbaycanla yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağını bildirdi. Fransa parlamenti üzvlərinin Azərbaycana mütəmadi səfərlərinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev belə səfərlərin ölkələrimiz arasında dostluğun daha da gücləndirilməsi baxımından rolunu qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində siyasi və iqtisadi əlaqələrlə yanaşı, parlamentlərarası əməkdaşlığın da mühüm əhəmiyyət daşıdığını dedi.*

*Jan-Mari Bokel Fransa parlamenti üzvlərinin ölkəmizə ənənəvi səfərlərinin əhəmiyyətini qeyd etdi. O, nümayəndə heyəti üzvlərinin Azərbaycanın dostları olduğunu bildirdi. Xocalı soyqırımının ildönümü ərəfəsində ölkəmizə səfər etdiklərini vurğulayan fransalı qonaq xalqımızın üzləşdiyi bu ağır fəlakətlə bağlı kədərini ifadə etdi.*

*Görüşdə dövlət başçıları arasında xüsusi münasibətlərin olduğu qeyd edildi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və həlli yollarından danışıldı, münaqişənin sülh və danışıqlar yolu ilə beynəlxalq hüquq çərçivəsində nizama salınmasının vacibliyi vurğulandı, Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

# İNDONEZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*19 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İndoneziya parlamenti Nümayəndələr Palatasının sədr müavini Fahri Hamzahın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–İndoneziya ikitərəfli əlaqələrinin yüksək səviyyəsindən məmnunluğunu bildirdi, ölkələrimiz arasında qarşılıqlı anlaşmanın və dəstəyin olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın İndoneziya ilə əlaqələri siyasi, iqtisadi, sərmayə qoyuluşu, mədəniyyət, turizm, təhsil, o cümlədən parlamentlərarası əməkdaşlıq və digər sahələrdə daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Ölkələrimiz arasında əməkdaşlığın daha güclü formatının yaradılmasının zəruriliyini qeyd edən dövlətimizin başçısı İndoneziya parlamenti Nümayəndələr Palatası üzvlərinin Azərbaycana səfərinin uğurlu olacağına və əlaqələrimizin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyacağına ümidvar olduğunu dedi.*

*İndoneziya parlamenti Nümayəndələr Palatasının sədr müavini Fahri Hamzah təmsil etdiyi qurumun Azərbaycan parlamenti ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu dedi. Artıq Bakıda Azərbaycan–İndoneziya parlamentlərarası dostluq qrupunun yaradıldığını vurğulayan qonaq belə bir qurumun Cakartada da yaradılacağını dedi. Fahri Hamzah parlamentlərarası dostluq qruplarının fəaliyyətinin ölkələrimizin əməkdaşlıq əlaqələrinin genişləndirilməsi işinə xidmət edəcəyini bildirdi.*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2016-cı il*

## KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-ƏHMƏD ƏS-SABAHA

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2016-cı il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT**
**ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS- SABAH A**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2016-cı il*

# İRAN İSLAM RESPUBLİKASININ RADİO-TELEVİZİYA ŞİRKƏTİNƏ MÜSAHİBƏ

*Bakı*

*22 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də İran İslam Respublikasının Radio-Televiziya Şirkətinə müsahibə vermişdir.*

**S u a l: Zati-alinizin İran İslam Respublikasına səfərinin məqsədi nədir və İran ilə əlaqələri genişləndirmək üçün hansı proqramlarınız vardır?**

**C a v a b:** Mənim İrana rəsmi səfərim İran İslam Respublikasının Prezidenti cənab Həsən Ruhaninin dəvəti əsasında baş tutacaqdır. Qeyd etmək istərdim ki, biz İran Prezidenti ilə bundan əvvəl artıq 4 dəfə görüşmüşük. Həm mənim 2014-cü ilin aprelində İran İslam Respublikasına, həm də cənab Həsən Ruhaninin həmin ilin noyabrında Azərbaycan Respublikasına rəsmi səfərlərimiz zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün aspektləri üzrə səmimi müzakirələr aparılmış, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin inkişafına xidmət edən bir çox sənədlər imzalanmışdır.

İndiki səfər çərçivəsində də regionda və dünyada baş verən hadisələr, cərəyan edən proseslər, ikitərəfli siyasi, iqtisadi, sosial, mədəni əlaqələrin geniş spektri üzrə müzakirələr aparılacaq və bir sıra sənədlər imzalanacaq. Əminəm ki, bu səfər dost və qonşu İran dövləti ilə Azərbaycan arasındakı mövcud əlaqələrin inkişafı və yeni keyfiyyət pilləsinə yüksəlməsi üçün etibarlı zəmin yaradacaqdır.

**S u a l: İran ilə Azərbaycan həm də iqtisadi sahədə sıx əməkdaşlıq edirlər. Lakin ölkələrimiz arasında uzun sərhədlər, çoxlu müştərəkliklər və yaxşı iqtisadi potensial olmasına baxmayaraq, ticarət dövriyyəsi bir o qədər də böyük deyil. Belə olan halda, ticarət dövriyyəsinin artırılması üçün hansı proqramlarınız vardır?**

**C a v a b:** Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən iqtisadi-ticarət sahəsində əlaqələr yüksələn xətt üzrə inkişaf etmişdir. Bununla yanaşı, hazırkı ticarət dövriyyəsi bizim mövcud potensialımızdan qat-qat aşağı səviyyədədir. Əlbəttə, ticarət əlaqələrindəki bu vəziyyəti aradan qaldırmaq, ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirmək istiqamətində tədbirlər görüləcək.

Qlobal iqtisadiyyatda müşahidə olunan mənfi meyillərin təsirini azaltmaq və dinamik inkişaf meylini qoruyub saxlamaq üçün Azərbaycanda geniş iqtisadi islahatlar daha sürətlə davam etdirilir. Hazırda geniş investisiya və özəlləşdirmə proqramları üzərində iş aparılır, həm yerli, həm də xarici iş adamları üçün biznes mühiti daha da yaxşılaşdırılır. Hesab edirik ki, bu, iranlı iş adamlarının Azərbaycanda fəaliyyəti üçün də yeni imkanlar yaradacaqdır. Eyni zamanda, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticari və humanitar sahələrdə əməkdaşlıq üzrə müştərək Dövlət Komissiyası fəal işləyir və onlar bir sıra yeni təkliflərlə çıxış ediblər. Hazırda həmin təkliflər nəzərdən keçirilir.

Son illər Azərbaycan və İran Şimal–Cənub nəqliyyat dəhlizinin çox önəmli tərəfdaşına çevriliblər. Biz respublikamızın tranzit imkanlarının genişləndirilməsi üçün zəruri tədbirlər həyata keçirərək, nəqliyyat infrastrukturumuzu ən müasir standartlara uyğun yenidən qurmuşuq. Əminik ki, İran və Azərbaycan Astarası arasında dəmir yolunun istifadəyə verilməsi Şimal–Cənub nəqliyyat dəhlizini önəmli dərəcədə canlandıracaqdır. Ümumiyyətlə, nəqliyyat-kommunikasiya dəhlizləri bütün iştirakçı ölkələr, o cümlədən bizim üçün böyük iqtisadi və geosiyasi əhəmiyyət kəsb edir. Həmin dəhlizlər bir tərəfdən, beynəlxalq yükdaşımalarında dövlətlərimizin çəkisini xeyli artıracaq, digər tərəfdən isə iqtisadi sahədə ikitərəfli əməkdaşlıq əlaqələrimizi gücləndirəcəkdir.

**S u a l: Regionda təkfirçi qrupların terrorizmi genişləndirməyə çalışdıqlarını nəzərə alaraq, Siz bu məşum fenomen ilə mübarizədə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığı necə dəyərləndirirsiniz?**

**C a v a b:** Terrorizm hazırda sivil beynəlxalq münasibətlər sistemini, regional təhlükəsizliyi və ayrı-ayrı ölkələrin sabitliyini təhdid edən ən ciddi problemlərdən biridir. Beynəlxalq terrorizmin coğrafiyasının genişlənməsi

bütün dünya dövlətlərini, o cümlədən bizim regionu və ayrı-ayrılıqda hər bir dövləti ciddi narahat edir və etməlidir. Afrika qitəsində, postsovet məkanında, Yaxın Şərqdə müharibə və lokal silahlı insidentlər nəticəsində milyonlarla insan öz torpaqlarından didərgin salınmış, milli iqtisadi sistemlər faktiki olaraq sıradan çıxmış, humanitar fəlakət günümüzün acı reallığına çevrilmişdir.

Qeyd edim ki, keçən əsrin 90-cı illərinin əvvəllərində yenicə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan qonşu Ermənistanın işğalçılıq siyasətindən və bundan irəli gələn humanitar fəlakətdən, erməni terror dalğasından ciddi əziyyət çəkmişdir. Erməni terrorçu təşkilatları Azərbaycanda 300-dən artıq terror aktı törətmiş, Dağlıq Qarabağdakı və ətrafdakı şəhər və kəndlərimiz yerlə yeksan edilmiş, nəticədə minlərlə vətəndaşımız qətlə yetirilmiş, yaralanmış və itkin düşmüşdür. İşğalçılıq, dini və milli ayrı-seçkilik, terror Ermənistanın dövlət siyasəti olmuş və təəssüf ki, bu gün də davam etdirilir. Buna görə də biz terrorla üzləşmiş ölkələri və xalqları çox yaxşı anlayırıq.

Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində real təşəbbüslərin və tədbirlərin tərəfdarıdır. Biz istər beynəlxalq təşkilatlar çərçivəsində, istərsə də ikitərəfli münasibətlərimizdə təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıq məsələlərinə önəm veririk. Çünki hər bir ölkə yalnız sabitlik, təhlükəsizlik və sülh şəraitində çətinlikləri aradan qaldıra və inkişaf edə bilər. Azərbaycanın nümunəsi bir daha bunu əyani şəkildə təsdiq edir.

Azərbaycan İran və digər dövlətlər ilə birlikdə beynəlxalq terrorizm probleminin həllinə öz dəstəyini davam etdirməyə hazırdır.

**S u a l: Dağlıq Qarabağ münaqişəsinin həllində Minsk qrupunun vasitəçilik fəaliyyətini necə dəyərləndirirsiniz? Münaqişənin həlli üçün islam və region ölkələrinin imkanlarından istifadə etmək barədə fikriniz nədir?**

**C a v a b:** Keçən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunub, xalqımız etnik təmizləməyə məruz qalıb, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. İşğal olunmuş torpaqlarda bütün iqtisadi və sosial infrastruktur, mədəniyyət abidələri, o cümlədən məscidlər dağıdılıb.

Ermənistan BMT başda olmaqla, dünyanın aparıcı təşkilatlarının işğal altında olan torpaqların azad olunmasını tələb edən qərar və qətnamələrini yerinə yetirməkdən boyun qaçırır. Təəssüf ki, dünya birliyi bu günədək problemin beynəlxalq hüquq norma və prinsipləri çərçivəsində həllinə nail olmaq üçün Ermənistana qarşı heç bir real təsir mexanizmi tətbiq etməyib. O cümlədən münaqişənin tənzimlənməsi məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti də bu günədək heç bir nəticə verməyib. Əminliklə demək olar ki, işğal faktının 20 ildən artıq davam etməsinə hazırda dünyada müşahidə olunan ikili standartlar siyasətinin də təsiri az deyildir. Faktlar sübut edir ki, beynəlxalq birlik dünyanın ayrı-ayrı nöqtələrində baş verən oxşar hadisələrə selektiv yanaşma nümayiş etdirir. Bəzi hallarda işğal faktı kəskin qınanmaqla yanaşı, həm də problemin həlli üçün ciddi təsir mexanizmləri işlənib hazırlanır və qısa zamanda tətbiq edilir. Təəssüf ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, passiv yanaşma müşahidə olunur və münaqişə tərəfləri – işğalçı ilə işğala məruz qalana eyni münasibət göstərilir. Bu ədalətsizlik həm də müsəlman dövləti olduğu üçün Azərbaycana qarşı nümayiş etdirilən fərqli yanaşmadan – dini ayrı-seçkilikdən qaynaqlanır. Biz beynəlxalq hüquqa bu qədər açıq hörmətsizliyi, işğalçılıq siyasətinə bu qədər aşkar bəraət qazandırmaq cəhdini anlaya bilmirik.

Qeyd etmək istərdim ki, islam ölkələri, o cümlədən də İran həm beynəlxalq təşkilatlar, həm də ikitərəfli çərçivədə davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə edirlər. Buna görə İran İslam Respublikasına minnətdarlığımızı bildirir və bunu həm ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin təzahürü, həm də İranın beynəlxalq hüququn aliliyinə münasibəti kimi qiymətləndiririk.

İslam Əməkdaşlıq Təşkilatının çoxsaylı qərar və qətnamələrində Ermənistanın işğalçılıq siyasəti pislənir və işğal faktına son qoyulması tələb olunur. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə yönəlmiş bütün səyləri, həmçinin islam və region dövlətlərinin təklif və təşəbbüslərini dəstəkləyir və yüksək qiymətləndiririk. Münaqişənin ədalətli həlli sahəsində bundan sonra daha fəal dəstəyin göstəriləcəyinə inanırıq.

**S u a l: Bəzi şayiələr gəzir ki, Azərbaycan Respublikasında müsəlmanlar, xüsusilə şiələr öz dini fəaliyyətlərinin icrasında məhdudiyyətlərlə üzləşirlər. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Sizin qeyd etdiyiniz kimi, bu tipli məlumatlar yalnız şayiə ola bilər. Azərbaycanda tarixboyu heç vaxt dini və milli zəmində ayrı-seçkilik olmayıb, fərqli millətlərin, konfessiyaların, dini cərəyanların nümayəndələri daim sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Ölkə Konstitusiyası və mövcud qanunvericilik vicdan və dini etiqad azadlığına tam təminat verir və gündəlik həyatda da dindarların fəaliyyətinə heç bir maneçilik törədilmir.

Sovet dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdi. Müstəqillik illərində dini məbədlərin, məscidlərin sayı xeyli dərəcədə artıb. Hazırda Bakıda və digər yaşayış məskənlərində 2000-dən artıq məscid mövcuddur. Ölkənin ən böyük məscidi olan Heydər məscidi mənim sərəncamımla dövlət vəsaiti hesabına inşa edilərək, dindarların ixtiyarına verilib.

Azərbaycan bütün dünyada islam mədəniyyətinin təbliğinə böyük diqqət göstərir və maliyyə vəsaiti ayırır. Buna misal kimi, ölkəmizin Avropada və dünyanın digər bölgələrində təşkil etdiyi aksiyaları, keçirilmiş sərgiləri göstərmək olar. Azərbaycanda milli və dini birgəyaşayışın ən sivil normaları mövcuddur, ölkədəki tolerantlıq mühiti, dövlət–din münasibətləri bütün dünyada nümunə kimi qəbul olunur. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda islam dininin vəziyyəti, dinlər və konfessiyalararası münasibətləri həmişə yüksək qiymətləndirib.

Bir sıra ölkələrdə sünni və şiələr arasında ziddiyyətlərin kəskinləşdiyi bir zamanda, bu ilin yanvarında Bakıdakı Heydər məscidində şiələrlə sünnilər birgə vəhdət namazı qılmışlar.

Dünyada islamofobiyanın genişləndiyi müasir dövrdə biz islam ölkələri arasında həmrəyliyin, birliyin güclənməsinə öz töhfəmizi veririk. Qarşılıqlı anlaşma, etimad mühitinin formalaşdırılması, ümumi maraqların aliliyi, islamofobiyaya və digər bu kimi mənfi meyillərə qarşı birgə mübarizə islam həmrəyliyinin təməl daşını təşkil etməlidir. Azərbaycan bu istiqamətdə öz səylərini gələcəkdə də davam etdirmək əzmindədir.

## İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı Tehranın «Mehrabad» Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidentini İranın yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 23-də Tehranda rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə «Sədabad» sarayına gəldi.*

*Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı «Sədabad» sarayının qarşısındakı meydanda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran prezidenti Həsən Ruhani Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Azərbaycanın və İranın dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*İranın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İran prezidenti Həsən Ruhaniyə təqdim olundu.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin fevralın 23-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin hazırkı vəziyyətindən məmnunluq ifadə olundu. Əlaqələrin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bütün sahələrdə, o cümlədən həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da inkişaf etdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin fevralın 23-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

Görüşdə prezident Həsən Ruhani bildirdi ki, dövlətimizin başçısı İlham Əliyevin İrana rəsmi səfəri çox böyük əhəmiyyət daşıyır və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcək. Bu gün əməkdaşlıq əlaqələrimiz sürətlə inkişaf edir və bütün sahələri əhatə edir.

İran Prezidenti səfər çərçivəsində imzalanacaq sənədlərin münasibətlərimizin inkişafına töhfə verəcəyini vurğuladı, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticari və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının fəaliyyətini yüksək qiymətləndirdi. İran dövlətinin başçısı dedi ki, əlaqələrimizin hazırkı inkişafı ölkələrimizin və xalqlarımızın tarixi yaxınlığına və dostluğuna əsaslanır. Prezident Həsən Ruhani qeyd etdi ki, əlaqələrimiz artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu, münasibətlərimizin bütün sahələrdə daha da irəliyə aparılmasını mühüm vəzifə kimi qarşıya qoyur.

İranın ölkələrin ərazi bütövlüyü prinsipindən çıxış etdiyini vurğulayan prezident Həsən Ruhani ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, beynəlxalq məsələlərdə dövlətlərin daxili işlərinə müdaxilə edilməsinin yolverilməzliyini vurğuladı. İran dövlətinin başçısı ölkələrimiz arasında təhlükəsizlik sahəsində də əməkdaşlığın əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev əlaqələrimizin böyük tarixi olduğunu və möhkəm təməllər üzərində qurulduğunu bildirdi. Dövlətimizin başçısı

İrana qarşı tətbiq olunan sanksiyaların ləğv edilməsi münasibətilə İran Prezidentini və xalqını təbrik etdi. Azərbaycanın və İranın mövqelərində bir çox məqamların üst-üstə düşdüyünü qeyd edən prezident İlham Əliyev regionda yaşanan gərginliyə baxmayaraq, hər iki ölkənin sabitlik nümunəsi olduğunu vurğuladı. Azərbaycan Prezidenti beynəlxalq və dövlətlərarası münasibətlərdə ədalətli yanaşmanın, sabitliyin, təhlükəsizliyin yaranmasının vacibliyini bildirdi, terrorizmə qarşı mübarizədə birgə əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd etdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi sahədə, o cümlədən enerji, sərmayə qoyuluşu, bank, ticarət, turizm, nəqliyyat, yüklərin daşınması, infrastruktur, mədəniyyət və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün səylərin gücləndirilməsinin zəruriliyi qeyd olundu. Görüşdə Xəzərin dostluq və əməkdaşlıq dənizi olduğu vurğulandı. Həmçinin Azərbaycanın və İranın birlikdə digər ölkələrlə də əməkdaşlıq imkanları müzakirə olundu.

İslamofobiya meyillərinin artmasından narahatlığın ifadə olunduğu görüşdə belə halların qarşısının alınması ilə bağlı müzakirələr aparıldı.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Tehran*

*23 fevral 2016-cı il*

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra fevralın 23-də Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş»i Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və İranın Maliyyə və İqtisadiyyat nazirinin müavini, Gömrük Administrasiyasının prezidenti Məsud Kərbasian imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və İranın Kənd Təsərrüfatı naziri Mahmud Höccəti imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi»ni Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələn-*

*dirilməsi haqqında Çərçivə Sazişi»ni Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və İranın Yol və Şəhərsalma naziri Abbas Axundi imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» QSC ilə İran İslam Respublikasının Dəmir Yolları arasında Azərbaycan–İran dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi haqqında Müqavilə»ni «Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov və İranın Yol və Şəhərsalma nazirinin müavini, Dəmir Yolları Şirkətinin baş direktoru Möhsün Purseyid Ağayi imzaladılar.*

*«Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İran Prezidentinin Ailə və Qadın Məsələləri üzrə müavini xanım Şəhindoxt Mövlaverdi imzaladılar.*

*«Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Səhiyyə naziri Oqtay Şirəliyev və İranın Səhiyyə və Tibbi Təhsil naziri Seyid Həsən Qazizadə Haşimi imzaladılar.*

*«Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İran İslam Respublikasının Kooperasiya, Əmək və Sosial Rifah Nazirliyi arasında Anlaşma Memorandumu»nu Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və İranın Kooperasiya, Əmək və Sosial Rifah naziri Əli Rəbii imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə İran Milli Neft Şirkəti arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və İran Milli Neft Şirkətinin prezidenti Rüknəddin Cavadi imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qədir İnvestisiya Şirkəti arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və İranın Qədir İnvestisiya Şirkətinin prezidenti Süleymani Əmiri imzaladılar.*

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani fevralın 23-də sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## İran prezidenti Həsən Ruhaninin bəyanatı

Mehriban və bağışlayan Allahın adı ilə!

Azərbaycan Respublikasının hörmətli Prezidenti, zati-aliləri cənab İlham Əliyevi İran İslam Respublikasında bir daha salamlayıram və mənim dəvətimi qəbul edərək, İrana gəldiyinə görə təşəkkürümü bildirirəm.

Ötən 2 il yarım ərzində bu bizim beşinci görüşümüzdür. Bu çox sevindirici haldır ki, bizim hər görüşümüz iki ölkə arasında münasibətlərimizin daha da inkişaf etməsinə xidmət edir. Həm də sevindirici haldır ki, bizim görüşlərimiz iki dost və qardaş ölkə olan İran ilə Azərbaycanın, onların xalqlarının mənafeyinə xidmət edir.

Biz həmçinin Azərbaycan Respublikasının möhtərəm Prezidentinin səfərinin bu həftə ərzində İran üçün çox mühüm iki hadisə ilə əlamətdar olduğu bir dövrə təsadüf etməsini də xoşhallıqla vurğulayırıq. Məlum olduğu kimi, bu həftə ərzində İran İslam Respublikasında həm İslam Şurası Məclisinə, həm də Xubriqan Məclisinə seçkilər keçiriləcəkdir. Bu seçkilər İran xalqının iradəsinin göstəricisi olacaqdır. Bu seçkilər İranda azadlığın, istiqlalın və xalqın iradəsinin bariz nümunəsi olacaqdır. Həmçinin sevindirici haldır ki,

Azərbaycan Prezidentinin səfəri hər iki dövlət və xalq üçün mühüm olan Novruz bayramı ərəfəsinə təsadüf edir. Novruz bayramını qeyd edən ölkələrin xalqlarını oxşar tarix, mədəniyyət və sivilizasiya birləşdirir.

Həmçinin sevindirici haldır ki, bu səfər İrana qarşı nüvə sanksiyalarının aradan qaldırılması və bu barədə razılaşmanın icra olunmasına başlanmasından sonraya təsadüf edir. Bu da iki ölkə arasında münasibətlərin daha geniş spektrdə inkişaf etməsinə səbəb olacaqdır. İki ölkə arasında müştərək iqtisadi komissiyanın son 2 ildəki fəaliyyəti bizi çox sevindirir. Onların gərgin əməyinin nəticəsidir ki, bu gün iki ölkə arasında 11 sənəd imzalanır. Bu sənədlərin imzalanması ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə xidmət edir.

Biz bu gün keçirdiyimiz həm təkbətək, həm də geniş tərkibdə görüşlərdə ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrə aid məsələləri bir daha nəzərdən keçirdik. Həmin görüşlərdə iki ölkə arasında tranzit daşımaları, o cümlədən Şimal–Cənub nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq sahəsində fikir mübadiləsi apardıq. Biz 2016-cı ilin sonunadək Astara–Astara dəmir yolu xəttinin birləşdirilməsi barədə razılığa gəldik ki, bu da iki ölkənin iqtisadi münasibətlərində yeni bir səhifənin açılmasına səbəb olacaqdır.

Biz ölkələrimiz arasında energetika və neft-qaz sahələrində əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi apardıq. Biz Xəzər dənizinin enerji ehtiyatlarından birgə istifadə barədə fikir mübadiləsi etdik. Biz həmçinin iki ölkə arasında bank və sığorta sahəsində əməkdaşlıq məsələlərini nəzərdən keçirdik. Eyni zamanda, Araz, Ənzəli və Maku azad iqtisadi-ticarət zonalarında birgə fəaliyyət ilə bağlı fikir mübadiləsi apardıq. Biz iki ölkə arasında siyasi, iqtisadi münasibətlərin inkişafı ilə yanaşı, xalqlarımızın gediş-gəlişinin asanlaşdırılması, ölkələrimizin elmi mərkəzləri arasında əməkdaşlığın genişləndirilməsi, o cümlədən mədəniyyət sahəsində əlaqələrin daha da dərinləşdirilməsi məsələlərini müzakirə etdik. Biz xalqlarımızın gediş-gəlişinin asanlaşdırılması istiqamətində fikir mübadiləsi çərçivəsində, o cümlədən dəniz nəqliyyatı ilə də get-gəlin artırılması barədə ətraflı söhbət etdik.

Biz dini və məzhəb sahəsində əməkdaşlıq barədə ətraflı danışdıq. Hazırda dünyada və regionda baş qaldırmış islamofobiyaya qarşı birgə əməkdaşlıq haqqında fikirlərimizi paylaşdıq, o cümlədən bu sahədə birgə fəaliyyət planı qurmağı razılaşdırdıq. İslam dininin rəhman və bağışlayan bir din olduğunu, ondan qorxmaq lazım olmadığını birlikdə bəyan etmək barədə düşüncələrimizi paylaşdıq.

Regionda baş verən məlum hadisələr və terrorizm təhlükəsi ilə bağlı iki ölkənin təhlükəsizlik və kəşfiyyat sahəsində bir-biri ilə əməkdaşlıq etməsi, informasiya mübadiləsi aparması barədə razılığa gəldik. Regionda baş verən məlum hadisələr, eyni zamanda, Suriya məsələsi ilə bağlı ortaq fikirləri paylaşdıq, o cümlədən aidiyyəti qurumların bu məsələlər ilə əlaqədar mütəmadi olaraq məsləhətləşmələr keçirmələrinə dair ortaq razılığa gəldik. Biz o cümlədən, belə bir ortaq fikrə gəldik ki, regiondakı məsələlərin həllinin yeganə yolu siyasi yoldur. Bu məsələlərin hərbi yolla həllinin perspektivi yoxdur.

Biz bugünkü görüşlərdə ikitərəfli münasibətlərlə yanaşı, iki ölkənin üçtərəfli formatda əməkdaşlıq məsələlərini də müzakirə etdik. Bu formatlara daxildir: İran–Türkmənistan–Azərbaycan, İran–Azərbaycan–Rusiya, İran–Azərbaycan–Gürcüstan və İran–Azərbaycan–Türkiyə.

Cənab prezident İlham Əliyevə və onu müşayiət edən nümayəndə heyətinə bir daha İrana «Xoş gəldiniz!» – deyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Prezident!

İlk növbədə, dəvətə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Fürsətdən istifadə edərək, İrana qarşı qoyulmuş sanksiyaların aradan qaldırılması münasibətilə bir daha Sizi və bütün İran xalqını ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan həmişə bu sanksiyaların əleyhinə olub və bütün yüksək kürsülərdən öz sözünü ifadə edib.

Cənab Prezident, Siz müzakirə etdiyimiz bütün məsələləri mətbuat nümayəndələrinə çox geniş şəkildə çatdırdınız. Doğrudan da bu gün bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı və fikir birliyi ifadə olundu. Biz çox şadıq ki, İran–Azərbaycan əlaqələri yüksələn xətlə, uğurla

və sürətlə inkişaf edir. Bizim əlaqələrimizin çox möhkəm təməli vardır. Əsrlərboyu xalqlarımız bir yerdə yaşamış, yaratmışlar. Bizi tarix, mədəniyyət, ortaq keçmişimiz, dinimiz birləşdirir. Bizim münasibətlərimiz bu möhkəm təməl üzərində qurulur və bu gün İran–Azərbaycan əlaqələri strateji əməkdaşlıq səviyyəsinə qalxıb. Biz üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Bizim aramızdakı ticarət əlaqələrinin çox gözəl perspektivləri vardır. Bu gün beynəlxalq aləmdə baş verən hadisələr, eyni zamanda, ikitərəfli münasibətlərimizə aid olan məsələlər geniş müzakirə edildi. Biz razılaşdıq ki, beynəlxalq terrorizmə qarşı birgə səylərimizi daha da gücləndirəcəyik. Beynəlxalq aləmdə bundan sonra da bir-birimizə dəstək göstərəcəyik.

Bu gün eyni zamanda, regional məsələlər müzakirə edildi. Dünən elan olundu ki, Amerika Birləşmiş Ştatları və Rusiya Suriyada müharibənin dayandırılması haqqında qərara gəlmişlər. Biz bu razılaşmanı alqışlayırıq. Biz dəfələrlə bəyan etmişdik ki, Suriyada vəziyyəti normallaşdırmaq üçün ilk növbədə, atəşkəs yaradılmalıdır, ondan sonra sülh bağlanmalıdır və Suriya xalqı gələcəyini, taleyini özü müəyyən etməlidir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün söhbət əsnasında bir çox məsələlərlə bağlı fikirlərimiz üst-üstə düşdü. Bütün ölkələr bir-birinə hörmətlə yanaşmalıdır, bir-birinin işinə qarışmamalıdır. Belə olan halda, müharibələr də dayanacaq, qarşıdurmalar da azalacaqdır.

Bu gün Siz də bunun şahidisiniz ki, bir çox sənədlər imzalandı. Bu sənədlərin icrası bizim əlaqələrimizi daha da gücləndirəcəkdir. Bir çox sahələr üzrə imzalanan sənədlər gələcək üçün yol göstərir.

Bu sənədlərin mahiyyəti çox müsbətdir və onların bir hissəsi ikitərəfli əlaqələrə, bir hissəsi isə çoxtərəfli və regional əməkdaşlığa xidmət göstərir.

Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması işində bu gün çox önəmli addımlar atıldı. Bu yolun istifadəyə verilməsi nəticəsində biz qitələri gözəl nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Azərbaycanın üzərinə düşən vəzifə bu ilin sonuna qədər icra ediləcək və biz dəmir yolumuzu İran sərhədinə qədər çəkəcəyik.

Neft-qaz sektorunda çox gözəl perspektivlər var. İran Azərbaycanın neft-qaz yataqlarına investisiyalar qoyur. Biz gələcək əməkdaşlıq haqqında çox gözəl fikir mübadiləsi apardıq. Xəzər dənizində yerləşən neft-qaz yataqlarının birgə işlənilməsi məsələsi də müzakirə olundu və yaxşı

nəticələr gözlənilir. Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi bundan sonra da əməkdaşlıq, təhlükəsizlik və sülh dənizi olmalıdır.

Energetika sahəsində çox gözəl işlər görülür və gözəl perspektivlər vardır. Bu sahədəki əməkdaşlıq ancaq İran–Azərbaycan əməkdaşlığı ilə məhdudlaşmır. Qonşu ölkələr də bu layihəyə qoşula bilərlər və belə olan halda, bu, gözəl transmilli, regional layihəyə çevriləcəkdir.

Qarşılıqlı sərmayə qoyuluşu üçün çox yaxşı imkanlar var. Hər iki ölkədə hazırda çox ciddi iqtisadi islahatlar aparılır, biznes mühiti yaxşılaşır. Belə olan halda, qarşılıqlı sərmayə qoyuluşu üçün yeni imkanlar yaranacaqdır. Maliyyə, bank, sığorta, turizm, əczaçılıq sektorlarında da gələcək fəaliyyət üçün gözəl imkanlar var.

Prezident Ruhani qeyd etdi ki, artıq biz üçtərəfli formatlarda da fəal iştirak edirik və getdikcə bu formatların coğrafiyası genişlənəcəkdir. Bu bizim regional əməkdaşlığa birgə verdiyimiz dəyərli töhfədir. Bu hər iki ölkənin niyyətini göstərir. Biz istəyirik ki, bölgədə və dünyada sülh, əmin-amanlıq, əməkdaşlıq olsun. Bu gün yaşadığımız bölgədə İran və Azərbaycan sabitləşdirici rol oynayır. Bizim birliyimiz nə qədər güclü olsa, bölgədə təhlükəsizlik də bir o qədər yüksək səviyyədə qorunacaq. Prezident Ruhani qeyd etdi ki, bu, son 2 il ərzində bizim beşinci görüşümüzdür. Mən fürsətdən istifadə edərək, cənab Prezident, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm.

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşmüşdür.*

*Görüşdə tarixi, dini, mədəni köklərlə bağlı olan ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasında birgə səylərin vacibliyi vurğulandı, bu barədə iki ölkə prezidentlərinin görüşlərində də müzakirə aparıldığı bildirildi. Həmçinin səfər çərçivəsində imzalanan sənədlərin ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da inkişafına, Azərbaycan–İran münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcəyi qeyd olundu.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*Tehran*

*23 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə fevralın 23-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani tərəfindən rəsmi qəbul təşkil edilmişdir. Azərbaycan Prezidenti qəbulda iştirak etmişdir.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri fevralın 23-də başa çatmışdır.*

*Tehranın «Mehrabad» Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İranın yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri yola saldılar.*

**DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DANİLO MEDİNAYA**

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 fevral 2016-cı il*

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK

*26 fevral 2016-cı il*

*24 il əvvəl erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətdilər. Bu kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, 487 nəfər şikəst oldu, 1275 dinc sakin girov götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini itirdi. Hər il dünya azərbaycanlıları və ədaləti uca tutanlar Xocalı faciəsi qurbanlarının xatirəsini yad edirlər.*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva anma mərasimində iştirak etdilər.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin üzvləri, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər güllər düzdülər.*

* * *

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecədə erməni silahlı dəstələri hələ SSRİ dövründən Xankəndi şəhərində yerləşən, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə yeksan etdilər.*

*Xocalı faciəsi 200 ilə qədər bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülüb, 3 nəfər diri-diri yandırılıb, başlarının dərisi soyulub, bədən əzaları kəsilib, gözləri çıxarılıb, hamilə qadınların qarnı süngü ilə yarılıb. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin məhz soyqırımı olduğunu təsdiq edir.*

*İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirib.*

*Erməni təcavüzkarlarının törətdikləri bu vəhşilik yaddaşlardan heç zaman silinməyəcək. Belə ki, bu, təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması üçün heç bir əsaslı iş görmədi. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra həmin qanlı faciəyə hüquqi-siyasi qiymət verildi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin*

*təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı «Xocalı soyqırımı günü» elan etdi.*

*Hər il bu müdhiş faciənin ildönümü respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondu, xüsusilə Fondun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 21 ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı Qətnaməsi ilə qəbul edilən və 1951-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsbit edilib. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunub.*

*Xalqımız qəti əmindir ki, ədalət mütləq yerini tutacaq, Xocalı faciəsi soyqırımı kimi tanınacaq, eləcə də hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilən, beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirən, hərbi qüdrəti ilə seçilən Azərbaycan düşmən tapdağı altında olan torpaqlarını azad edəcək, şəhidlərimizin qanı yerdə qalmayacaq, günahkarlar isə layiqli cəzalarını alacaqlar.*

**BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ CƏNAB CANNİ İNFANTİNOYA**

Hörmətli cənab İnfantino!

Beynəlxalq Futbol Assosiasiyaları Federasiyasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu məsul və şərəfli vəzifəyə seçilməyiniz futbolun inkişafı sahəsində xidmətlərinizə verilən yüksək qiymət, beynəlxalq idman ictimaiyyətinin Sizə olan böyük etimadıdır. İnanıram ki, Azərbaycan ilə FİFA arasındakı əməkdaşlıq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 fevral 2016-cı il*

## İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ DÖVLƏT KATİBİ KLAUDİO DE VİNÇENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də İtaliya Respublikası Nazirlər Şurasının Dövlət katibi Klaudio De Vinçentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının Bakıda keçiriləcək ikinci iclasının səmərəli olacağına və yaxşı nəticələr verəcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı İtaliya Nazirlər Şurasının Dövlət katibi Klaudio De Vinçentinin başçılıq etdiyi nümayəndə heyətinin tədbirdə iştirakının önəmini qeyd etdi.*

*Dövlət katibi Klaudio De Vinçenti «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının Bakıda keçirilən ikinci iclasında iştirakından məmnun olduğunu dedi. O, İtaliya Respublikasının Baş naziri Matteo Renzinin prezident İlham Əliyevlə keçənilki görüşünü məmnunluqla xatırladaraq, Baş nazirin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. Qonaq «Cənub Qaz Dəhlizi» layihəsinin həm İtaliya, həm də Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıdığını vurğuladı. Ölkəsinin bütövlükdə bu layihəyə, xüsusilə Trans–Adriatik boru kəmərinin çəkilişinə böyük dəstək verdiyini və İtaliya hökumətinin bu istiqamətdə lazımi addımları atacağını deyən Klaudio De Vinçenti layihənin enerji təchizatı və nəqlinin şaxələndirilməsi baxımından da vacib olduğunu qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında mədəni sahədə əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu bildirildi, bu istiqamətdə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın gördüyü işlərin əhəmiyyəti xüsusi qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə İtaliya arasında enerji sahəsində əməkdaşlıq, «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı həyata*

*keçirilən işlər və qarşıda duran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İtaliya Respublikasının Baş naziri Matteo Renzinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliyanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Vorkutadakı «Severnaya» şaxtasında partlayışlar nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərərçəkənlərin tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 fevral 2016-cı il*

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Zəngin ənənələrə malik olan Azərbaycan–Bolqarıstan əlaqələri bu gün dinamik və hərtərəfli inkişaf yolundadır. Genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, müxtəlif sahələrdə səmərəli əməkdaşlığımız xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmlənməsi ilə müşayiət olunur.

Ümidvaram ki, Azərbaycan–Bolqarıstan dostluğu və əməkdaşlığının möhkəmlənməsi və inkişafı yolunda səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 fevral 2016-cı il*

# AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ XANIM FEDERİKA MOQERİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 29-da Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerininin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı xanım Federika Moqerininin ölkəmizə səfərinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın vacib məsələlərini nəzərdən keçirmək üçün yaxşı fürsət yaratdığını bildirdi. Prezident İlham Əliyev xanım Federika Moqerininin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən ikinci toplantısının bağlanışı mərasimində iştirakına görə minnətdarlığını bildirdi. Hazırda Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin vacib mərhələdə olduğunu vurğulayan dövlətimizin başçısı əməkdaşlığımızın gələcək planlarının müəyyənləşdirilməsinin önəmini qeyd etdi. Əlaqələrimizi genişləndirmək, tərəfdaşlığımızın səviyyəsini yüksəltmək üçün qarşılıqlı marağın olduğunu deyən prezident İlham Əliyev bu baxımdan yaxşı anlaşmanın mövcud olduğunu da dedi. Ötən il Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun ölkəmizə səfərinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu yaxınlarda Münhendə Avropa Komissiyasının qonşuluq siyasəti və genişləndirmə məsələləri üzrə komissarı Yohannes Hahnla əməkdaşlığımızın gələcək planları ilə bağlı apardığı müzakirələrin önəmini də qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqı arasında uzunmüddətli və müxtəlif sahələri əhatə edəcək səmərəli tərəfdaşlıq əlaqələrinin qurulması üçün əməkdaşlıq formatının işlənib hazırlanacağına ümidvar olduğunu bildirdi. Xanım Federika Moqerininin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının toplantısındakı çıxışına toxunan prezident İlham Əliyev münaqişələrin həlli, siyasi*

*islahatlar, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, xüsusilə regionda maliyyə təhlükəsizliyi və digər məsələlərin mühüm əhəmiyyət kəsb etdiyini dedi.*

*«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının toplantısının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirən Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti xanım Federika Moqerini bunu Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. O, təmsil etdiyi qurum ilə Azərbaycan arasında əməkdaşlığın yeni çərçivədə davam etdiriləcəyini vurğulayaraq, bunun üçün möhkəm bazanın mövcud olduğunu qeyd etdi. Ölkəmizin mürəkkəb regionda yerləşdiyini deyən qonaq Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığı hər iki tərəfin maraqlarını təmin edəcək strateji səviyyəyə qaldırmağın vacibliyini vurğuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri geniş müzakirə edildi, əməkdaşlığımızla bağlı bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonra görüş təkbətək davam etdirildi.*

# QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5–7, 45, 48, 56, 68, 100, 128, 168, 190, 193,194, 195, 197, 261, 274, 275, 282, 283, 288, 302.

**2. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985)– görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 7, 282, 283.

**3. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun, vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 7.

**4. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 7.

**5. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası

Prezident Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 7,129,337.

**6. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 8, 78, 91, 101, 112, 133, 138, 166, 182, 332, 343.

**7. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 8, 343.

**8. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 9, 130–158.

**9. Didye Burkhalter** (d.1960) – İsveçrə siyasətçisi. 2014–2015-ci illərdə İsveçrənin prezidenti olmuşdur. – 9.

**10. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 9, 79, 198, 319, 320.

**11. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 11.

**12. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 11.

**13. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 12–23.

**14. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 14, 72, 80, 194, 238, 259.

**15. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 14, 16, 19, 72, 78, 79, 80, 109, 131, 147,153, 190,191, 192, 197, 226, 253, 255, 260, 273, 312, 319, 320.

**16. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 14, 105, 276, 320.

**17. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 15, 24–25, 73, 78, 104, 131, 149, 150, 166, 305, 308–309.

**18. İpək yolu**, böyük İpək yolu – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 15, 150,166, 240.

**19. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 15, 20, 100, 150.

**20. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 15, 21, 22, 208, 273.

**22. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 24, 104, 131, 305, 308.

**24. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 24, 131.

**23. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 33.

**21. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 34, 123.

**25. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin

həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 36, 37, 56, 60, 64, 65, 67, 69, 127, 129, 130, 254, 282, 288, 337, 339, 341–342.

**26. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 56, 57, 60, 64, 65, 68, 69, 270, 271, 282, 288, 337, 339.

**27. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 56, 57, 64, 68, 254, 339.

**28. Milad bayramı –** İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə roman xristian icmaları keçirmiş və 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 75.

**29. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların 2 müqəddəs şəhəri – Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 78, 138, 274.

**30. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. Avropa Şurasının ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 84, 198, 259.

**31. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 101, 150, 187, 344.

**32. Zəlimxan Yaqub,** Zəlimxan Usub oğlu (1950–2016) – Xalq şairi. «Könlümün səsi», «Yolun eldən başlanıb», «Od aldığım ocaqlar», «Ziyarətin qəbul olsun» və s. kitabların müəllifidir. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 103.

**33. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 109, 245, 322, 329.

**34. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 110–111, 146–147.

**35. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 110, 111.

**36. Murad Kajlayev** (d.1931) – görkəmli bəstəkar və pedaqoq, dirijor. SSRİ Xalq artisti. O, təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsində almışdır. Sonrakı illərdə Mahaçqalaya köçərək, Dağıstan Muxtar Respublikasında professional bəstəkarlıq məkbətinin əsasını qoymuşdur. Dirijorluq sənətini maestro Niyazidən öyrənmişdir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 112.

**37. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 125–126.

**38. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 125, 126.

**39. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 127–129, 190.

**40. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 129, 337.

**41. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 131–158, 162, 163, 173, 175, 213.

**42. *bp*,** «B r i t i s h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 132.

**43. Robert Dadli** (d.1955) – mühəndis. 2009-cu ildən *bp*-nin icraçı direktoru, 2010-cu ildən isə baş direktorudur. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 132.

**44.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 132.

**45. «Şahdəniz»** – Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 132, 133, 149.

**46. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 133.

**47. Vahid Ələkbərov**, Vahid Yusif oğlu (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 133.

**48. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəqlini nəzərdə tutur. – 134, 145, 149, 150, 165, 166, 194, 240, 257, 341, 343, 346.

**49. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hö-

kuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 135–136, 241, 317–321, 322–335.

**50. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 135, 136, 241, 317, 323–333.

**51. OPEC** (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. – 138, 139.

**52.** «**Microsoft corporation**» – müxtəlif hesablama texnikası – şəxsi kompüterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, «Windows» əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kompaniya 1975-ci ildə yaradılmışdır. Microsoftun texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmond (ABŞ) şəhərindədir. – 143.

**53. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 144.

**54. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə

təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 145.

**55. Klaus Şvab** (d.1938) – alman iqtisadçısı, Davosda keçirilən Dünya İqtisadi Forumunun yaradıcısı və icraçı sədri. – 154, 213.

**56. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5,3 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 155, 236, 237.

**57. Total** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 157.

**58. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 158, 182.

**59. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali RADAsının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 158.

**60. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 159.

**61. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 159.

**62. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. –187, 236, 237, 244–260.

**63. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 188.

**64. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il «Gülüstan» müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar

və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda, Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 192, 197, 198.

**65. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 198, 338.

**66. V a q i f,** M o l l a P ə n a h V a q i f (1717–1797) –görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şeirlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şeirindəki realizmə meyil Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) Baş vəziri olmuşdur. – 198.

**67. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 208, 252, 345–346.

**68. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azər-

baycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı, Heydər Əliyevin nəvəsi. Film prodüseri. – 217.

**69. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–20-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin Sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 217.

**70. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Kolombodur. – 224.

**71. Maytripala Sirisena** (d.1951) – Şri-Lankanın dövlət və siyasi xadimi. 2015-ci ildən Şri-Lanka Respublikasının Prezidentidir. – 224.

**72. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 225–232.

**73. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – 2006-cı ildən Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidentidir. – 230–232.

**74. Cəlal Əliyev,** Cəlal Əlirza oğlu (1928–2016) – bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Azərbaycan Milli EA-nın akademiki, Əməkdar elm xadimi, Rusiya Kənd

Təsərrüfatı EA-nın həqiqi üzvü, Ukrayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü, Beynəlxalq Elmi İnkişaf Şurasının – Beynəlxalq EA Azərbaycan bölməsinin fəxri prezidenti, Azərbaycan MEA-nın Botanika İnstitutunda məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Azərbaycan MEA Rəyasət Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 233.

**75. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 132, 236–240.

**76. Devid Kemeron** (d.1966) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri, 2010–2016-cı illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 236.

**77. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 236, 237.

**78. Küveyt,** K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 236, 237.

**79. Əl-Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik

islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 236, 237.

**80. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 18 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşq şəhəridir. – 236–240, 278, 331.

**81. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88,3 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 242.

**82. Tomislav Nikoliç** (d.1952) – Serbiya siyasətçisi. 2012–2017-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 242.

**83. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 243.

**84. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 243.

**85. Yohannas Hahn** (d.1957) – Avstriyanın siyasi xadimi. 2014-cü ildən Avropa İttifaqının yaxın qonşuluq məsələləri və qonşuluq siyasəti üzrə komissarıdır. – 252.

**86. Yens Stoltenberq** (d.1959) – Norveçin dövlət və siyasi xadimi. 2005–2013-cü illərdə Norveçin Baş naziri, 2014-cü ildən NATO-nun baş katibidir. – 273.

**87. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i, G ö y i m a m – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Baqirin oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir. «Göy imam» adı da bununla əlaqədardır. – 274–291.

**88. Məhəmməd peyğəmbər** (əleyhissəlam) (570/571–632) – islamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhissəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı Quranı xalqa çatdırmışdır. – 274, 281.

**89. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Həkimə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 276.

**90. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–1914-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompo-

zisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 276.

**91. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 281–284.

**92. İmam Hüseyn** (əl-Hüseyn ibn Əli) – Əli ibn Əbu-Talibin Məhəmməd peyğəmbər əleyhissalamın qızı Fatimədən olan kiçik oğlu. Müsəlmanların üçüncü imamı. 680-ci ildə xəlifə Myaviyənin vəfatından sonra xəlifə Yəzid zamanı islam dinində yanlışlıqlar yaranırdı. Məhz buna görə də imam Hüseyn 70 döyüşçüsü ilə birlikdə Kufə yaxınlığında olan Kərbəlaya gəlir. Tezliklə xəlifənin 4000-lik dəstəsi Hüseynin dəstəsinə basqın edir və qeyri-bərabər döyüşdə Hüseynin dəstəsi tamamilə qırılır. Hüseyn özü onlarla yara alıb həlak olur. – 281.

**93. Xızır** – türk, islam və Yaxın Şərq inanclarında adı çəkilən peyğəmbər. Çətin anlarda insanların köməyinə gələn, fövqəladə xüsusiyyətləri olan peyğəmbərdir. Qurani-Kərimdə birbaşa adı çəkilmir. Şumer mənşəli bir insan olduğu iddia edilir. Onun havada və su üstündə gəzdiyini güman edənlər də var. – 282.

**94. İmam Rza** – şiəlik məzhəbinə etiqad edənlərin səkkizinci imamı. – 282.

**95. Həzrəti Əli ibn Əbu-Talib (**598–661**)** – Məhəmməd əleyhissəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdir. – 282.

**96. Füzuli,** Məhəmməd Süleyman oğlu (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 282.

**97. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. İlkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. O həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 282.

**98. Mir Cəlal**, Mir Cəlal Əli oğlu Paşayev (1908–1978) – görkəmli Azərbaycan yazıçısı, ədəbiyyatşünas. Elmlər doktoru, professor. Yumoristik və satirik hekayələr ustasıdır. Ona daha çox şöhrət gətirən «Bir gəncin manifesti», «Dirilən adam», «Təzə şəhər» və s. romanlarıdır. Füzulinin, Cəlil Məmmədquluzadənin, Ə.Haqverdiyevin, habelə XX əsr Azərbaycan ədəbiyyatı tarixinin görkəmli tədqiqatçılarındandır. – 292–293.

**99. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 302.

**100. Misir,** Misir Ərəb Respublikası – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezi-

dent, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 306.

**101. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 306.

**102. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2014-cü ildən indiyə kimi Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 308–309.

**103. Nəriman Həsənzadə** – N ə r i m a n Ə l i m ə m m ə d o ğ l u (d.1931) – Xalq şairi, filologiya elmləri doktoru. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. İncə lirizm ruhunda yazılmış şeirlərin müəllifidir. N.Nərimanova həsr edilmiş «Nəriman» poeması, XII əsr Azərbaycan həyatından bəhs edən «Atabəylər» mənzum dramının da müəllifidir. «Ədəbiyyat və incəsənət» qəzetinin baş redaktoru olmuşdur. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 310.

**104. Bruney** – B r u n e y D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 434 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 311.

**105. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 311.

**106. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 647 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 312.

**107. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 327.

**108. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 327.

**109. Xamenei,** S e y i d Ə l i (d.1939) – İran İslam Respublikasının Ali Rəhbəri. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının Ali rəhbəridir. – 334.

**110. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 337–339.

**111. Rosen Plevneliev** (d.1964) –Bolqarıstan siyasətçisi və sahibkarı. 2012–2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 344.

## Şəxsi adlar göstəricisi

**Abbasov Tahir** – 289–290
**Abdullayev Rövnəq** – 328
**Abutalıbov Hacıbala** – 54
**Axtar Şamşad** – 235
**Axundi Abbas** – 328
**Akça Xəlil** – 188
**Akihito** – 11
**Alışanov Arif** – 17
**Appaturay Ceyms** – 273
**Babayev Qadir** – 35
**Balayev Tofiq** – 39
**Bahin Sultan** – 17
**Batxişiq Badamdorj** – 107
**Bəşirov Elxan** – 220
**Bokel Jan-Mari** – 313
**Bolkiah Həssanal** – 312
**Boufares Lahssan** – 105
**Brende Borge** – 155
**Burkhalter Didye** – 9
**Buteflika Əbdüləziz** – 105, 106
**Butros Qali** – 306
**Büxele Volfqanq** – 246
**Cavadi Rüknəddin** – 328
**Çakrabarti Suma** – 144
**Çavuşoğlu Mövlud** – 308–309
**Dadli Robert** – 132
**Davudoğlu Əhməd** – 24, 131
**De Vinçenti Klaudio** – 341

**De Susa Marselo** – 307
**Defterios Con** – 137–140
**Dmitriyev Kiril** – 138
**Edrü Geri** – 142
**Eynullayev Balahəsən** – 35
**Elbeqdorj Saxiaqiyn** – 107, 108
**Əbülfəz Abbas** – 282
**Əhmədov Zirəddin** – 268–269
**Əl-Falih Xalid** – 138
**Əl-Qirqavi Məhəmməd** – 232
**Ələkbərov Vahid** – 133
**Əliyev Aydın** – 327
**Əliyev Cəlal** – 233
**Əliyev Əziz** – 7
**Əliyev Heydər** – 5–7, 45, 48, 56, 68, 100, 128, 168, 190, 193,194, 195, 197, 261, 274, 275, 282, 283, 288, 302
**Əliyev Tamerlan** – 7
**Əliyev Tofiq** – 35
**Əliyeva Arzu** – 217
**Əliyeva Leyla** – 56, 57, 64, 254, 339
**Əliyeva Mehriban** – 36, 37, 56, 60, 64, 65, 67, 69, 127, 129, 130, 254, 282, 288, 337, 339, 341–342
**Əliyeva Zərifə xanım** – 7, 282, 283
**Ərdoğan Rəcəb Tayyib** – 24, 104, 131, 305, 308
**Əsədov Heydər** – 327
**Əsədov Oqtay** – 129, 337
**Əl-Nəhəyyan Məhəmməd bin Zaid** – 225, 226–227

**Əl–Nəhəyyan Zaid bin Sultan** – 228
**Əs-Sabah Cabir** – 236, 237, 316
**Əs-Sisi Əbdülfəttah** – 306
**Fekete Vladimir** – 286–287
**Füzuli Məhəmməd** – 282
**Gəncəvi Nizami** – 282
**Hacıyev Fərhad** – 217–218
**Hahn Yohannes** – 252
**Hamzah Fahri** – 313
**Harstedt Kent** – 161
**Hauser Syuzan** – 143
**Həsənov Faiq** – 35
**Həsənov Zakir** – 302
**Həsənov Müşfiq** – 211–212
**Həsənzadə Nəriman** – 310
**Höccəti Mahmud** – 327
**Hüseyn Məmnun** – 110, 111
**Hüseynov Zaur** – 51
**Xamenei Seyid Əli** – 334
**Xəlilov Zafiq** – 218–219
**Xızır** *(peyğəmbər)* – 282
**İbrahim** *(əleyhissalam)* – 281
**İlves Toomas** – 314
**İmam Əli** – 282
**İmam Hüseyn** – 281
**İmam Rza** – 282
**İnfantino Canni** – 340
**İrisena Maytripala** – 224
**İşein Aleksandr** – 284
**Kaçikvu Emanuel** – 138
**Kajlayev Murad** – 112
**Kanerva İlkka** – 161

**Kapçan Çarlz** – 109
**Kasperski Yevgeni** – 251
**Kastro Raul** – 53
**Kemeron Devid** – 236
**Kərbasian Məsud** – 327
**Kosqrov Piter** – 160
**Kotzias Nikos** – 234
**Kreyn Melinda** – 254–260
**Kvirikaşvili Giorgi** – 156
**XVI Karl Qustav** – 125, 126
**Qani Məhəmməd** – 12–23
**Qəhrəman İsmayıl** – 24–25
**Qötz Stefan** – 247
**Qrabar-Kitaroviç Kolinda** – 240
**Qribauskayte Dalya** – 243
**Qurbanov Cavid** – 328
**Lettre Marsel** – 245
**Lim Bocen** – 138
**Medina Danilo** – 336
**Mehdiyev Nurəddin** – 201
**Mehdiyev Ramiz** – 7, 129, 337
**Merkel Angela** – 236, 237
**Məcidova Məryəm** – 205
**Məhəmməd** *(peyğəmbər)* – 274, 281
**Məhəmməd Baqir** *(beşinci imam)* – 274, 281
**Məmmədov Eldar** – 35
**Məmmədov Nizami** – 35
**Məmmədov Oqtay** – 35
**Məmmədova Elmira** – 206–207, 327
**Məmmədyarov Elmar** – 327
**Moqerini Federika** – 345–346
**Montella Roberto** – 161

**Mukherci Pranab** – 159
**Muradov Əhməd** – 269
**Mustafayev Şahin** – 220, 232, 327
**Netanyahu Benyamin** – 141
**Nəhavəndian Məhəmməd** – 135–136
**Nuh** *(peyğəmbər)* – 282
**Nikoliç Tomislav** – 242
**Pan Gi Mun** – 236, 237
**Paşayev Mir Cəlal** – 292–293
**Paşazadə hacı Allahşükür** – 281–284
**Piqas Metyu** – 134
**Plevneliev Rosen** – 344
**Poroşenko Petro** – 158
**Putin Vladimir** – 8, 343
**Puyanne Patrik** – 157
**Rasizadə Artur** – 7, 129
**Renzi Matteo** – 341, 342
**Rabbani Salahuddin** – 17
**Rəhimov Azad** – 204, 263
**Rəhimə xanım** – 282
**Ruhani Həsən** – 135, 136, 241, 317, 323–333
**Rzayev Baba** – 299
**Sadıxlı Fərid** – 201–202
**Salahova Zərifə** – 36
**Sanger Deyvid** – 248–250
**Sarkisyan Serj** – 9
**Sarrayter Diter** – 187
**Seyn Theyn** – 55
**Səfərov İlkin** – 35
**Solberq Erna** – 236, 237
**Stoltenberq Yens** – 273

**Şevçoviç Maroş** – 145
**Şərif Məhəmməd** – 110, 111, 146–147
**Şərifov Abid** – 51
**Şirəliyev Oqtay** – 291
**Şnayder-Amman Yohan** – 153
**Ştaynmayer Frank-Valter** – 253
**Şvab Klaus** – 154, 213
**Tesman İnqrid** – 125–126
**Topçubaşov Əlimərdan bəy** – 217
**Tsereteli Georgi** – 161
**Tsvetarski Sergey** – 187
**Vaezi Mahmud** – 327
**Vaqif Molla Pənah** – 198
**Vəliyev Elmar** – 274
**Yergin Daniyel** – 137
**Yevdayev Milix** – 285–286
**Yukiç İqor** – 113–114
**Yusifov Mübariz** – 287–289
**Zakaullah Məhəmməd** – 110
**Zeynalov Tofiq** – 261
**Zeynalova Aysun** – 214–215
**Zəlimxan Yaqub** – 103
**Zərif Məhəmməd** – 327

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 46, 60, 97, 132, 221
**Adriatik dənizi** – 149
**Ağsu** – 64
**Albalılıq** – 45
**Albaniya** – 149, 150
**Almaniya** – 187, 236, 237, 244–260
**Amerika Birləşmiş Ştatları** – 109, 245, 332, 339
**Ankara** – 305
**Aralıq dənizi** – 194
**Araz çayı** – 255
**Asiya** – 95, 166, 235
**Astara** – 318
**Avropa** – 20, 73, 77, 83, 149, 163, 165, 187, 199, 208, 215, 216, 257, 278
**Avstraliya** – 160
**Bern** – 9
**Beyləqan** – 100
**Bəhreyn** – 101
**Bərdə** – 274
**Birləşmiş Ərəb Əmirlikləri** – 225–232
**Bolqarıstan** – 101, 150, 187, 344
**Böyük Britaniya** – 132, 236–240
**Bosniya və Herseqovina** – 150, 339
**Bruney-Darüssəlam** – 311
**Buzovna** – 45

**Cənubi Afrika Respublikası** – 101
**Cənubi Koreya** – 165
**Cənubi Qafqaz** – 273
**Çexiya** – 339
**Çikaqo** – 15, 21
**Çin** – 15, 138, 165, 166
**Dağlıq Qarabağ** – 14, 16, 19, 72, 78, 79, 80, 109, 131, 147,153, 190,191, 192, 197, 226, 253, 255, 260, 273, 312, 319, 320
**Dağıstan** – 112
**Daşkəsən** – 221
**Davos** – 88, 131–158
**Dominikan** – 336
**Dubay** – 229–232
**Estoniya** – 314
**Əbu-Dabi** – 225–228
**Əfqanıstan** – 12–23
**Əlcəzair** – 105–106
**Ənzəli** – 330
**Fransa** – 312
**Gəncə** – 215, 216, 274–304
**Goranboy** – 221
**Gürcüstan** – 15, 73, 102, 150, 156, 166
**Hindistan** – 159
**Honduras** – 339
**Xankəndi** – 198, 338
**Xəzər dənizi** – 166, 194, 256, 326, 330, 332
**Xızı** – 266
**Xocalı** – 337–339
**Xorvatiya** – 150, 240
**İndoneziya** – 313

**İordaniya** – 339
**İraq** – 76, 101, 274
**İran** – 135–136, 241, 317–321, 322–335
**İsrail** – 141
**İstanbul** – 18
**İsveç** – 125–126
**İsveçrə** – 9, 130–158
**Kanada** – 101
**Kəlbəcər** – 191
**Kolumbiya** – 339
**Kuba** – 53
**Kür çayı** – 255
**Küveyt** – 236, 237, 315, 316
**Qafqaz** – 57, 112, 281
**Qaradağ** – 221
**Qazax** – 100, 221
**Qazaxıstan** – 95, 101
**Qəbələ** – 98, 182
**Qobustan** – 221
**Qvatemala** – 339
**Laçın** – 190, 191
**Lerik** – 221
**Litva** – 243
**Liviya** – 76
**London** – 237–240, 278
**Mahaçqala** – 112
**Maku** – 330
**Masallı** – 98, 274
**Mərkəzi Asiya** – 20, 273
**Misir** – 306
**Moldova** – 101

**Moskva** – 6, 128, 190
**Münhen** – 244–260
**Myanma** – 55
**Naftalan** – 182
**Naxçıvan Muxtar Respublikası** – 128, 182, 190, 274
**Nardaran** – 282
**Nigeriya** – 138
**Norveç** – 155, 236, 237
**Nyu-York** – 208
**Orta Asiya** – 95, 165, 166
**Özbəkistan** – 101
**Pakistan** – 110–111, 146–147
**Panama** – 339
**Paris** – 217
**Peru** – 339
**Portuqaliya** – 307
**Rusiya** – 8, 78, 91, 101–102, 133, 138, 166, 182, 332, 343
**Sabirabad** – 100
**Sakit okean** – 235
**Serbiya** – 242
**Səudiyyə Ərəbistanı** – 78, 138, 274
**Siyəzən** – 266
**Sloveniya** – 113–114
**Sudan** – 339
**Suriya** – 236–240, 278, 331
**Şabran** – 266
**Şamaxı** – 274
**Şəmkir** – 265
**Şri-Lanka** – 224
**Şuşa** – 192, 197, 198
**Tehran** – 323–335

**Tovuz** – 261–272
**Türkan** – 64
**Türkiyə** – 15, 24–25, 73, 78, 104, 131, 149, 150, 166, 305, 308–309
**Türkmənistan** – 101
**Ukrayna** – 101, 158, 182
**Voronej** – 8
**Yaxın Şərq** – 76, 77, 278
**Yaponiya** – 11
**Yunanıstan** – 150, 234
**Zirə** – 56–69
**Zuğulba** – 45

# MÜNDƏRİCAT

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2015-ci il*..........................................................................5

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*13 dekabr 2015-ci il*..........................................................................8

BERNDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*19 dekabr 2015-ci il*..........................................................................9

ƏZİZ ƏLİYEV ADINA AZƏRBAYCAN DÖVLƏT HƏKİMLƏRİ TƏKMİLLƏŞDİRMƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA

*19 dekabr 2015-ci il*..........................................................................10

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*21 dekabr 2015-ci il*..........................................................................11

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 dekabr 2015-ci il*..........................................................................12

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*22 dekabr 2015-ci il*..........................................................................13

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 dekabr 2015-ci il* ............................................................................................ *14*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*22 dekabr 2015-ci il* ............................................................................................ *17*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
MƏHƏMMƏD ƏŞRƏF QANİ
İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*22 dekabr 2015-ci il* ............................................................................................ *18*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ
İSMAYIL QƏHRƏMANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 dekabr 2015-ci il* ............................................................................................ *24*

2015-ci İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNAN
MƏRASİMDƏ İŞTİRAK

*23 dekabr 2015-ci il* ............................................................................................ *26*

GÖZDƏN ƏLİLLƏR ÜÇÜN YENİ YAŞAYIŞ
BİNASININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2015-ci il* ............................................................................................ *37*

DÜNYA AZƏRBAYCANLILARINA

*24 dekabr 2015-ci il* ............................................................................................ *43*

XƏZƏR RAYONUNDA BİR NEÇƏ YARIMSTANSİYANIN
AÇILIŞI MƏRASİMİ

*25 dekabr 2015-ci il* ............................................................................................ *45*

BAKIDA «BAYTARLIQ ŞƏHƏRCİYİ»NİN
AÇILIŞI MƏRASİMİ

*28 dekabr 2015-ci il* ............................................................................................ *48*

METRONUN «ELMLƏR AKADEMİYASI» STANSİYASININ İKİNCİ ÇIXIŞININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*28 dekabr 2015-ci il*......................................................................................*51*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA

*29 dekabr 2015-ci il*......................................................................................*53*

XƏTAİ RAYONUNDA YOLLARIN YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*29 dekabr 2015-ci il*......................................................................................*54*

MYANMA İTTİFAQI RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB THEYN SEYNƏ

*30 dekabr 2015-ci il*......................................................................................*55*

ZİRƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN VƏ EKO-PARKIN AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2015-ci il*......................................................................................*56*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2015-ci il*......................................................................................*70*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2016-cı il*......................................................................................*75*

NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASDA İŞTİRAK

*10 yanvar 2016-cı il*......................................................................................*76*

YEKUN NİTQİ

*10 yanvar 2016-cı il*......................................................................................*84*

İRİ QABARİTLİ TRANSFORMATORLAR ZAVODUNUN AÇILIŞI VƏ YENİ MÜƏSSİSƏNİN TƏMƏLQOYMA MƏRASİMİ

*11 yanvar 2016-cı il*......................................................................................*100*

XALQ ŞAİRİ ZƏLİMXAN YAQUBUN VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*11 yanvar 2016-cı il*......................................................................................*103*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*12 yanvar 2016-cı il*......................................................................................*104*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ LAHSSAN BOUFARES İLƏ GÖRÜŞ

*12 yanvar 2016-cı il*......................................................................................*105*

MONQOLUSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BADAMDORJ BATXİŞİQ İLƏ GÖRÜŞ

*12 yanvar 2016-cı il*......................................................................................*107*

ABŞ-ın MİLLİ TƏHLÜKƏSİZLİK ŞURASININ AVROPA ÜZRƏ BAŞ DİREKTORU ÇARLZ KAPÇAN İLƏ GÖRÜŞ

*13 yanvar 2016-cı il*......................................................................................*109*

PAKİSTAN İSLAM RESPUBLİKASININ HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNİN KOMANDANI MƏHƏMMƏD ZAKAULLAH İLƏ GÖRÜŞ

*14 yanvar 2016-cı il*......................................................................................*110*

SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVƏ

*15 yanvar 2016-cı il*...........................................................................*112*

SLOVENİYA RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ İQOR YUKİÇ İLƏ
GÖRÜŞ

*18 yanvar 2016-cı il*...........................................................................*113*

İQTİSADİ VƏ SOSİAL MƏSƏLƏLƏRİN HƏLLİ İLƏ BAĞLI
MÜŞAVİRƏDƏ İŞTİRAK

*18 yanvar 2016-cı il*...........................................................................*115*

İSVEÇ KRALLIĞININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ İNQRİD TERSMAN
İLƏ GÖRÜŞ

*18 yanvar 2016-cı il*...........................................................................*125*

ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2016-cı il*...........................................................................*127*

İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*20 yanvar 2016-cı il*...........................................................................*130*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*20 yanvar 2016-cı il*...........................................................................*131*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*20 yanvar 2016-cı il*...........................................................................*132*

«LUKOYL» ŞİRKƏTİNİN PREZİDENTİ
VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*20 yanvar 2016-cı il*...........................................................................*133*

«LAZARD AVROPA» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ METYU PİQAS İLƏ GÖRÜŞ

*20 yanvar 2016-cı il............................................................................................134*

İRAN İSLAM RESPUBLİKASI PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ MƏHƏMMƏD NƏHAVƏNDİAN İLƏ GÖRÜŞ

*20 yanvar 2016-cı il..........................................................................135*

«YENİ ENERJİ TARAZLIĞI» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*21 yanvar 2016-cı il............................................................................................137*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il..........................................................................141*

«PROCTER AND GAMBLE EUROPE» ŞİRKƏTİNİN PREZİDENTİ GERİ EDRÜ KUMBE İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il............................................................................................142*

«MİCROSOFT CORPORATİON» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ SYUZAN HAUSER İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il............................................................................................143*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİ İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il............................................................................................144*

AVROPA KOMİSSİYASININ ENERJİ BİRLİYİ ÜZRƏ VİTSE-PREZİDENTİ MAROŞ ŞEVÇOVİÇ İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il............................................................................................145*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ MƏHƏMMƏD NAVAZ ŞƏRİF İLƏ GÖRÜŞ

*21 yanvar 2016-cı il*......................................................................*146*
PREZİDENT İLHAM ƏLİYEV: «AZƏRBAYCAN İQTİSADİY-
YATININ GƏLƏCƏYİ»

*21 yanvar 2016-cı il*......................................................................*148*

DÜNYA İQTİSADİ LİDERLƏRİNİN QEYRİ-RƏSMİ
TOPLANTISINDA İŞTİRAK

*22 yanvar 2016-cı il*......................................................................*152*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
YOHAN ŞNAYDER-AMMAN İLƏ GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*153*

DÜNYA İQTİSADİ FORUMUNUN İCRAÇI SƏDRİ KLAUS
ŞVAB İLƏ GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*154*

NORVEÇİN XARİCİ İŞLƏR NAZİRİ BORGE BRENDE İLƏ
GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*155*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ
KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*156*

TOTAL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
PATRİK PUYANNE İLƏ GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*157*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*22 yanvar 2016-cı il*......................................................................*158*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*22 yanvar 2016-cı il*......................................................................*159*
AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU
ZATİ-ALİLƏRİ CƏNAB PİTER KOSQROVA

*22 yanvar 2016-cı il*......................................................................*160*

ATƏT PARLAMENT ASSAMBLEYASININ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*25 yanvar 2016-cı il*......................................................................*161*

«REGİONLARIN 2014–2018-ci İLLƏRDƏ SOSİAL-İQTİSADİ
İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ İKİNCİ
İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA
İŞTİRAK

*26 yanvar 2016-cı il*......................................................................*162*

YEKUN NİTQİ

*26 yanvar 2016-cı il*......................................................................*169*

ALMANİYA VƏ BOLQARISTANIN STATİSTİKA
QURUMLARININ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*27 yanvar 2016-cı il*......................................................................*187*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ
XƏLİL İBRAHİM AKÇA İLƏ GÖRÜŞ

*28 yanvar 2016-cı il*......................................................................*188*

ÖLKƏ GƏNCLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*29 yanvar 2016-cı il* ......................................................................*189*

YENİ AĞDAĞ GİPS ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*30 yanvar 2016-cı il*......................................................................*220*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUB-
LİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MAYTRİPALA İRİSENAYA

*1 fevral 2016-cı il* ......................................................................... *224*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ RƏSMİ SƏFƏR

*1 fevral 2016-cı il* ........ *225*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*1 fevral 2016-cı il* ........ *226*

ŞEYX ZAİD MƏSCİDİ KOMPLEKSİNİ ZİYARƏT

*1 fevral 2016-cı il* ........ *228*

«BÜRC-XƏLİFƏ» İLƏ TANIŞLIQ

*1 fevral 2016-cı il* ........ *229*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMLA GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*2 fevral 2016-cı il* ........ *230*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 fevral 2016-cı il* ........ *232*

AKADEMİK CƏLAL ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*2 fevral 2016-cı il* ........ *233*

YUNANISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ NİKOS KOTZİASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 fevral 2016-cı il* ........ *234*

BMT BAŞ KATİBİNİN MÜAVİNİ ŞAMŞAD AXTAR İLƏ GÖRÜŞ

*2 fevral 2016-cı il* ........ *235*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA SƏFƏR

*3 fevral 2016-cı il* ........ *236*

«SURİYAYA VƏ REGİONA DƏSTƏK» KONFRANSINDA İŞTİRAK

*4 fevral 2016-cı il* ........ *237*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ KOLİNDA QRABAR-KİTAROVİÇ İLƏ GÖRÜŞ

*4 fevral 2016-cı il* ........ *240*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*8 fevral 2016-cı il* ........ *241*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMİSLAV NİKOLİÇƏ

*12 fevral 2016-cı il* ........ *242*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*12 fevral 2016-cı il* ........ *243*

ALMANİYA FEDERATİV RESPUBLİKASINA İŞGÜZAR SƏFƏR

*12 fevral 2016-cı il* ........ *244*

ABŞ MÜDAFİƏ KATİBİNİN KƏŞFİYYAT ÜZRƏ MÜAVİNİ MARSEL LETTRE İLƏ GÖRÜŞ

*12 fevral 2016-cı il* ........ *245*

ALMANİYA İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ VOLFQANQ BÜXELE İLƏ GÖRÜŞ

*12 fevral 2016-cı il* ........ *246*

«GOETZPARTNERS» ŞİRKƏTİNİN SAHİBİ VƏ İCRAÇI DİREKTORU STEFAN QÖTZ İLƏ GÖRÜŞ

*12 fevral 2016-cı il* ........................................................................................................ *247*

TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ DAİR «DƏYİRMİ MASA»DA İŞTİRAK

*12 fevral 2016-cı il* ........................................................................................................ *248*

«KASPERSKY LAB» ŞİRKƏTİNİN SAHİBİ VƏ İCRAÇI DİREKTORU YEVGENİ KASPERSKİ İLƏ GÖRÜŞ

*12 fevral 2016-cı il* ........................................................................................................ *251*

AVROPA İTTİFAQININ KOMİSSARI YOHANNES HAHN İLƏ GÖRÜŞ

*13 fevral 2016-cı il* ........................................................................................................ *252*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*13 fevral 2016-cı il* ........................................................................................................ *253*

MÜNHEN TƏHLÜKƏSİZLİK KONFRANSI ÇƏRÇİVƏSİNDƏ İQLİM VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MÖVZUSUNDA PANEL-MÜZAKİRƏDƏ İŞTİRAK

*13 fevral 2016-cı il* ........................................................................................................ *254*

TOVUZ RAYONUNA SƏFƏR

*16 fevral 2016-cı il* ........................................................................................................ *261*

TOVUZÇAY SU ANBARININ AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 fevral 2016-cı il* ........................................................................................................ *264*

NATO BAŞ KATİBİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ CEYMS APPATURAY İLƏ GÖRÜŞ

*16 fevral 2016-cı il* ........................................................................................................ *273*

GƏNCƏ ŞƏHƏRİNƏ SƏFƏR

*17 fevral 2016-cı il* ........................................................................................ *274*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*17 fevral 2016-cı il* ........................................................................................ *305*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*18 fevral 2016-cı il* ........................................................................................ *306*

PORTUQALİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELO REBELO DE SUSAYA

*18 fevral 2016-cı il* ........................................................................................ *307*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLU İLƏ GÖRÜŞ

*18 fevral 2016-cı il* ........................................................................................ *308*

XALQ ŞAİRİ NƏRİMAN HƏSƏNZADƏYƏ

*19 fevral 2016-cı il*........................................................................................ *310*

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*19 fevral 2016-cı il* ........................................................................................ *311*

FRANSA PARLAMENTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2016-cı il* ........................................................................................ *312*

İNDONEZİYA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*19 fevral 2016-cı il* ........................................................................................ *313*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*22 fevral 2016-cı il* ........ *314*

KÜVEYT DÖVLƏTİ NAZİRLƏR KABİNETİNİN SƏDRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-ƏHMƏD ƏS-SABAHA

*22 fevral 2016-cı il* ........ *315*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS- SABAH A

*22 fevral 2016-cı il* ........ *316*

İRAN İSLAM RESPUBLİKASININ RADİO-TELEVİZİYA ŞİRKƏTİNƏ MÜSAHİBƏ

*22 fevral 2016-cı il* ........ *317*

İRAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*23 fevral 2016-cı il* ........ *322*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*23 fevral 2016-cı il* ........ *323*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*23 fevral 2016-cı il* ........ *324*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*23 fevral 2016-cı il* ........ *325*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*23 fevral 2016-cı il* ........ *327*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*23 fevral 2016-cı il* ........................................................................................................ *329*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ SEYİD ƏLİ XAMENEİ İLƏ GÖRÜŞ

*23 fevral 2016-cı il* ........................................................................................................ *334*
ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*23 fevral 2016-cı il* ........................................................................................................ *335*

DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA

*24 fevral 2016-cı il* ........................................................................................................ *336*

XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK

*26 fevral 2016-cı il* ........................................................................................................ *337*

BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ CƏNAB CANNİ İNFANTİNOYA

*27 fevral 2016-cı il* ........................................................................................................ *340*

İTALİYA RESPUBLİKASI NAZİRLƏR ŞURASININ DÖVLƏT KATİBİ KLAUDİO DE VİNÇENTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2016-cı il* ........................................................................................................ *341*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*29 fevral 2016-cı il* ........................................................................................................ *343*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ROSEN PLEVNELİEVƏ

*29 fevral 2016-cı il* ........................................................................................................ *344*

AVROPA İTTİFAQININ ALİ NÜMAYƏNDƏSİ, AVROPA KOMİSSİYASININ VİTSE-PREZİDENTİ XANIM FEDERİKA

MOQERİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 fevral 2016-cı il* ........................................................................................................ *345*

QEYDLƏR ........................................................ *347*

*Şəxsi adlar göstəricisi* ........................................................ *374*

*Coğrafi adlar göstəricisi* ........................................................ *380*

**Texniki redaktor** ***Zoya Nəcəfova***

**Yığım üzrə operator** ***İlhamə Kərimova***

**Kompüter tərtibatı** ***Məhəbbət* Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.